ISSN: 2664-4975

“Kaspi” Geosiyasi Araşdırmalar Mərkəzi

# GEOSTRATEGİYA

2019
№4(52)

BAKI-2019

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr.Александр Пухкал (Ukrayna)**
**Prof.Dr.Arif Quliyev (Ukrayna)**
**Prof.Dr.Aygün Attar (Türkiyə)**
**Prov.Dr.Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr.Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr.Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr.Efim Pivovar (Rusiya)**
**Prof.Dr.Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr.Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr.Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr.Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr.Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr.Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr.İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr.Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr.Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr.Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr.Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr.Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr.Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr.Akkan Suver (Türkiyə)**
**Dos.Dr.Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr.Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr.Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr.İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr.Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr.Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının
Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan
Respublikasının dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
İctimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

“Kaspi” Geopolitical Research Centre

# GEOSTRATEGY

2019
№4(52)

BAKU-2019

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 323
41.15.25
UOT 32
41.15.81

Siyasət

# HEYDƏR ƏLİYEV - YENİ MİLLİ İNTİBAHIN VƏ MÜSTƏQİL DÖVLƏTÇİLİYİN ƏSASINI QOYMUŞ TARİXİ ŞƏXSİYYƏT

**ƏLİ HƏSƏNOV**
*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor*

*E-mail: ali_hasanov519@hotmail.com*

**Giriş**

50 il əvvəl Azərbaycanın siyasi həyatında baş vermiş mühüm bir hadisə respublikada köklü dəyişikliklərin başlanmasına təkan verdi və gələcək inkişaf perspektivlərinin müəyyənləşməsi yolunda yeni tarixi dönüşün əsasını qoydu. 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (AKP MK) plenumunda 46 yaşlı Heydər Əliyev AKP MK-nın birinci katibi, yəni faktiki olaraq respublikanın rəhbəri seçildi.

O vaxta qədər dövlət təhlükəsizlik orqanlarında işləmiş, 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri olan general-mayor Heydər Əliyevin bu vəzifəyə yüksəlişi respublikanın geniş ictimaiyyəti, xüsusilə ziyalı elitası tərəfindən böyük rəğbətlə qarşılandı. Ona görə ki, təhlükəsizlik orqanlarında işlədiyi müddətdə o, vətəninə dərindən bağlı olan çox sayda insanı saxta ittihamlarla repressiya olunmaq təhlükəsindən qorumuş, sürgün və ölümdən xilas etmiş, xalqın milli intibahı yolunda çalışan ziyalıların təqib edilməsinə, onların cəmiyyətdən təcrid olunmasına imkan verməmişdi.

Onu da qeyd edək ki, həmin ərəfədə respublikada ciddi dəyişikliyə ehtiyac olduğunu Azərbaycan cəmiyyətinin böyük hissəsi yaxşı başa düşürdü. Ölkədə baş verən proseslər fonunda sosial-iqtisadi inkişafın sürətləndirilməsi və əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün yeni təşəbbüslərin irəli sürülməsi, qətiyyətli addımların atılması zəruri idi. O dövr respublika əsas sosial-iqtisadi inkişaf göstəricilərinə görə orta ittifaq səviyyəsindən xeyli geridə qalırdı. Məsələn, Azərbaycanda 1965-ci ildə 1940-cı illərə nisbətən ümumi daxili məhsul 3,6, o cümlədən sənaye məhsullarının həcmi 4 dəfə artmışdı. Lakin ittifaq üzrə bu göstəricilər müvafiq olaraq 6 və 8 dəfəyə çatırdı. Respublikanın neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesinin iş ritmi tez-tez pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü. Azərbaycan milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfədən çox, əsas fondlara görə 1,8, kapital qoyuluşu üzrə 1,7, əmək məhsuldarlığına görə isə 1,5 dəfə geridə idi.

Həmin dövrdə respublikanın regionlarının sosial-iqtisadi inkişafına da kifayət qədər diqqət göstərilmirdi. Kənd təsərrüfatında aqrotexniki qaydalara düzgün əməl olunmaması, meliorasiya və mexanikləşdirmə tədbirlərinin görülməməsi səbəbindən həm ərzaq, həm də texniki bitkilərin məhsuldarlığı aşağı düşmüşdü. İri sənaye və emal müəssisələrinin əksəriyyəti Bakı, Sumqayıt şəhərlərində tikilirdi ki, bu da orta və kiçik şəhərlərin inkişafının qarşısını alır, urbanizasiya prosesinin proporsional şəkildə getməsinə əngəl olurdu.

Digər tərəfdən respublikada korrupsiya və gizli iqtisadiyyat geniş yayılmış, qanunçuluğa əməl olunmasına və mədəni quruculuğa diqqət zəifləmiş, mənəvi-psixoloji iqlim qeyri-sağlam məcraya yönəlmişdi. Təbii ki, bu çətin və mürəkkəb vəziyyətin aradan qaldırılması üçün analitik təfəkkürə malik, güclü və bacarıqlı təşkilatçı, cəsarətli bir liderə ehtiyac var idi. Belə bir lider məhz Heydər Əliyev oldu.

**Nəhəng quruculuq yollarında**

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra keçirilən ilk MK plenumunda (1969-cu il avqust) həmin dövr üçün sensasiyalı sayıla biləcək məruzəsində sovet hakimiyyəti tarixində ilk dəfə olaraq sosialist cəmiyyətində

vəzifədən sui-istifadə, korrupsiya kimi mənfi halların mövcudluğunu və onlara qarşı mübarizə aparılmasının gərəkliyini bəyan etdi. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil olundu və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar ictimaiyyətin diqqətinə çatdırıldı. Yeni birinci katib bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirdi. Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın bütün plenumları, fəallar yığıncaqları və başqa toplantılardakı məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. Məhz həmin illər Azərbaycanın iqtisadi, ictimai-siyasi və mədəni-mənəvi həyatında dönüş mərhələsi oldu. Dövlət idarəçilik sisteminin təkmilləşdirilməsi, ciddi nizam-intizamın yaradılması, kadr dəyişikliklərinin həyata keçirilməsi, işgüzar mühitin sağlamlaşdırılması sahəsində məqsədyönlü tədbirlər qarşıya qoyulan yüksək vəzifələrin yerinə yetirilməsinə lazımi şəraiti təmin edirdi.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü respublika həyatının bütün sahələrində, sözün həqiqi mənasında, inqilabi sıçrayış mərhələsi kimi tarixə düşmüşdür. Əgər sovet hakimiyyətinin bütün əvvəlki 50 ilində (1920-1970-ci illər) Azərbaycanın iqtisadiyyatına bütövlükdə 14 milyard rubl (ildə orta hesabla 280 milyon rubl) sərmayə qoyulmuşdusa, 15 ildə (1971-1985-ci illər) bütövlükdə 36 milyard rubl (hər il orta hesabla 2,4 milyard rubl), yəni ildə 10 dəfəyə yaxın çox vəsait sərf olunmuş, yüzlərlə yeni sənaye müəssisəsi tikilərək istifadəyə verilmişdir. 1969-cu ildə sənaye obyektlərinin sayı 735 olmuşsa, 1982-ci ildə bu rəqəm 1048-ə çatmışdı. O dövrdə həm Bakıda, həm də Azərbaycanın digər şəhərlərində və rayon mərkəzlərində çox sayda sənaye müəssisəsi işə salındı. Bakı Kondisionerləri Zavodu, "Ozon" Elm-İstehsalat Birliyi, Elektron Hesablayıcı Maşınlar Zavodu, Dərin Özüllər Zavodu, Sumqayıt Kompressor Zavodu, Üst Trikotaj Fabriki, Gəncə Əlvan Metallar Emalı Zavodu, Naxçıvan Şüşə Qablar Zavodu, Əli Bayramlı Məişət Cihazları Zavodu və 1970-80-ci illərdə Heydər Əliyevin əməyi sayəsində işə başlamış yüzlərlə digər sənaye obyekti hesabına Azərbaycanın ixrac potensialı kifayət qədər yüksəlmişdi. Həmin illərdə respublikada buraxılan 350 adda sənaye və kənd təsərrüfatı məhsulu dünyanın 65 ölkəsinə göndərilirdi.

Heydər Əliyevin təşəbbüsü ilə SSRİ hökuməti respublikada aqrar sahənin hərtərəfli və intensiv inkişafını nəzərdə tutan bir neçə xüsusi qərar qəbul etmişdir. Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 1970-ci illərdə Azərbaycanda kənd təsərrüfatı istehsalının artırılması və intensivləşdirilməsi, bu sahənin daha da ixtisaslaşdırılması, üzümçülük və şərabçılığın inkişaf etdirilməsi, irriqasiya və meliorasiya obyektlərinin tikilməsi barədə qərarları respublikaya ümumittifaq büdcəsindən böyük miqdarda əlavə vəsaitin ayrılmasına şərait yaradırdı. Sosial-iqtisadi inkişafa təkan verən və Azərbaycan xalqının mənafeləri baxımından böyük əhəmiyyətə malik olan həmin qərarların və digər tədbirlərin həyata keçirilməsi sayəsində aqrar sektorda məhsul istehsalı 2 dəfədən çox artmışdı.

Həmin illərdə Azərbaycan keçmiş SSRİ-nin ən böyük üzümçülük respublikasına çevrildi. Üzüm istehsalı 1969-cu ildəki 272 min tondan 1980-ci ildə 1 milyon 481 min tona çatdırıldı, respublika şərabçılıqdan yüksək mənfəət götürməyə başladı. Pambıqçılığın sürətlə inkişafı məhsul yığımını 1970-ci ildəki 335, 6 min tondan 1982-ci ildə bir milyon tona qədər artırmağa imkan verdi. Meyvə-tərəvəz istehsalı isə 1970-ci ildəki 410 min tondan 1982-ci ildə 850 min tona yüksəldi.

1970-ci illərdə Azərbaycanda meliorasiya infrastrukturunun inkişafı sahəsində ciddi tədbirlər görüldü. Nəticədə yeni əkin sahələri dövriyyəyə cəlb edildi, aqrar sahədə məhsuldarlıq yüksək səviyyəyə çatdı. Həmin illər Baş Mil, Ciqar-Cibar, Abşeron, Lənkəran kanalları, Araz su qurğusu, Arpaçay, Sərsəng, Yuxarı Xanbulançay, Sirab, Şəmkir, Kondələnçay və digər dəryaçalar tikilib istifadəyə verildi.

1969-1982-ci illər Azərbaycanda milli gəlir 2,5, əmək məhsuldarlığı 2, istehlak mallarının istehsalı isə 3 dəfə artdı. Bu illər ərzində istehsal olunmuş sənaye məhsulunun həcmi əvvəlki 50 ilin istehsal həcminə bərabər idi.

Beləliklə, ölkənin sosial-iqtisadi həyatında sürətli tərəqqi baş verdi, Azərbaycan ümumilikdə

SSRİ miqyasında birinci üçlüyə yüksələrək özünü dolandıran və mərkəzi büdcəyə donorluq edən qabaqcıl aqrar-sənaye respublikasına çevrildi. Bu potensial, xüsusilə də neft-qaz emalı, maşınqayırma və emal müəssisələri sonralar müstəqilliyin çətin illərində Azərbaycan iqtisadiyyatının yenidən qurulması üçün baza rolunu oynadı.

**Milli-mənəvi özünüdərkin yüksəlişi və milli ideyanın gerçəkləşməsi uğrunda**

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi ilk dövrdə azərbaycançılıq məfkurəsinin möhkəmlənməsi, milli ruhun, milli-mənəvi özünüdərkin, mədəniyyətin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması istiqamətində mühüm işlər görmüşdür. Keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara, marksizm-leninizm ideologiyasının tələblərinə rəğmən Heydər Əliyev standart stereotiplərdən kənara çıxmağı, mövcud sistemin qaydalarını formal şəkildə pozmadan yeniliklər etməyi bacarırdı. O illərdə Azərbaycan xalqı öz dilini, ədəbiyyatını, tarixini, zəngin milli mədəniyyətinin rəngarəngliyini və çoxcəhətliliyini sanki təzədən qavrayır və yenidən qiymətləndirirdi. Elə buna görə də Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasında yeni mərhələnin başlanğıcı kimi qəbul etmək lazımdır.

Heydər Əliyev sovet dövründə öz milli-mənəvi dirçəliş konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca təsirli vasitələrdən istifadə etmişdir. Məsələn, belə səmərəli üsullardan biri kimi, Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və yaradıcılığının təbliğ olunmasını göstərmək olar. Ulu Öndər onların yubileylərinin müntəzəm qeyd edilməsi, əsərlərinin nəşri, ev-muzeylərinin yaradılması kimi məsələlərə xüsusi önəm verirdi. Bu, imkan verirdi ki, Azərbaycanın tanınmış simalarının xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri üzə çıxarılsın, sistemləşdirilsin və nəticədə milli düşüncənin güclənməsinə, böyüməkdə olan nəslin dünyagörüşünün formalaşmasına xidmət etsin. Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanda və keçmiş SSRİ-nin paytaxtı Moskvada tanınmış ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçirilmiş, onların fəaliyyəti yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görülmüş, abidələri ucaldılmışdır. Bəziləri elə düşünə bilər ki, həmin dövrdə bu adi və asan məsələ idi və başqa müttəfiq respublikalarda da Moskvanın tapşırığı ilə həmin addımlar atılırdı. Əslində isə belə deyildi. Bunun üçün respublikaya rəhbərlik edən şəxsin öz xalqının milli-mənəvi dünyasına və tarixinə dərindən bələd olması və onu milli ideya ətrafında birləşdirmək kimi ali məqsədə xidmət etmək niyyəti, qətiyyətli fəaliyyəti mühüm şərtdir. Heydər Əliyevi respublikanın əvvəlki rəhbərlərindən fərqləndirən və onu Ümummilli Lider səviyyəsinə ucaldan əsas cəhət də məhz budur. Bu fikri Azərbaycanın görkəmli şəxsiyyətlərinə münasibətdə daha aydın izah edə bilərik. Məsələn, Cəfər Cabbarlı 1934-cü ildə vəfat etsə də, 1980-ci ilə qədər onun Bakıda nə abidəsi, nə də ev-muzeyi var idi. Üzeyir Hacıbəyli 1948-ci ildə, Bülbül 1962-ci ildə, Səməd Vurğun 1956-cı ildə vəfat etmişlər. Lakin xalqımızın tanınmış hər üç mədəniyyət xadiminin ev-muzeyi yetmişinci illərdə açılmışdır. Molla Pənah Vaqifin Şuşa şəhərindəki əzəmətli məqbərəsi də 1981-ci ildə tikilib başa çatdırılmışdır. Bakıda Cəlil Məmmədquluzadənin, Məmməd Səid Ordubadinin, Müslüm Maqomayevin ev-muzeylərinin açılması barədə qərarlar da 1981-82-ci illərdə qəbul edilmişdir.

Bəs nə üçün o vaxta qədər bu işlər görülməmişdi? Ulu Öndər sonralar müsahibələrinin birində bu məsələlərdən danışarkən özünəməxsus müdrikliklə demişdi: “Əlbəttə, Azərbaycan, Bakı üçün bu, adi bir şey idi. Sadəcə olaraq bunu düşünən yox idi”. Bəli, məhz düşünən yox idi. Başqa sözlə desək, söhbət təkcə həmin görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirməkdən getmirdi. Həm də məqsəd onların yaradıcılığı vasitəsilə azərbaycanlıların milli şüuruna, tarixi yaddaşına və mənəvi dünyasına təsir göstərərək dövlətçilik duyğularının sönməsinə imkan verilməməsindən ibarət idi. Məsələ bundadır ki, bu yolda bəzən çətin qərarlar da vermək lazım gəlirdi. Ola bilər ki, yuxarıda qeyd edilən şəxsiyyətlərlə bağlı hər hansı müsbət işin görülməsi Ulu Öndərin də qeyd etdiyi kimi “adi bir şey”, sadəcə barəsində düşünmək

kifayət edəcək bir məsələ idisə, Hüseyn Cavidin qəbrini tapıb nəşinin qalıqlarını Azərbaycana gətirmək o qədər də asan iş deyildi. Çünki həmin dövrdə repressiya qurbanlarına münasibət kökündən dəyişməmişdi. H.Cavidin əsərləri çap olunmağa, teatrlarda göstərilməyə başlasa da, "millətçi", "pantürkist" damğaları hələ də üstündən tam götürülməmişdi. Ulu öndər Heydər Əliyev H.Cavidin nəşinin Vətənə gətirilməsi və dəfni ilə bağlı da olduqca müdrik addım atdı. O, sonralar xatırlayırdı: "Şairin qızı Turan xanım çox istəyirdi ki, o, Bakıda, Fəxri xiyabanda dəfn olunsun. Mən təklif etdim ki, Cavid Naxçıvanda, anadan olduğu yerdə dəfn edilsin. Qoy tarix aydın etsin hansı təklif daha düz olub! Fəxri xiyabanda yan-yana yatan dahilər çoxdur, lakin Naxçıvan torpağında onun qəbri ziyarətgaha çevriləcək. Mən belə fikirləşdim ki, Cavidin qəbri üzərində Nizaminin, Vaqifin məqbərəsi kimi məqbərə tikilsin. Bundan qabaq isə biz Naxçıvanda onun ev-muzeyini açmışdıq. Zənnimcə, bu, tək xeyirxahlıq deyil, mənim öz xalqım qarşısında borcumdur. Əgər xalq o dövrdə mənə inanmışdısa, öz taleyini mənə tapşırmışdısa, mən onun haqqında düşünməli idim".

Ulu Öndər yaradıcı ziyalılar üçün sərbəst düşüncə və iş şəraitinin təmin olunmasına çalışırdı. O, yaxşı başa düşürdü ki, milli özünüdərk prosesi onların fəaliyyətindən çox asılıdır. Onun köməyi ilə 1969-cu ildə "Qobustan" almanaxı nəşr edilməyə başladı. Qədim Gəncə şəhərinin adının yaşaması üçün "Yeni Gəncə" adlı rayon yaradıldı. Heydər Əliyev ilk dəfə "İran Azərbaycanı" əvəzinə "Cənubi Azərbaycan" siyasi-coğrafi termininin dövriyyəyə buraxılmasına nail oldu. Cənubi Azərbaycanla birlik, həsrət hisslərinin ədəbi ifadəsinə geniş imkanlar yaratdı. Bunun bariz nümunəsi kimi 1979-cu ildə Azərbaycan Yazıçılar İttifaqının Cənubi Azərbaycan üzrə katibi postu təsis edilməsini xatırlamaq kifayətdir.

Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərliyə başladığı ilk günlərdən xalqın tarixinə, ana dilinə hörmət ifadə edən cəsarətli addımlar atmaqdan çəkinmirdi. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq Bakı Dövlət Universitetinin açılmasını Azərbaycan Xalq Cümhuriyyətinin xidməti kimi deyil, respublikamızda sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Lakin Heydər Əliyev buna imkan vermədi və universitetin 50 illiyini 1969-cu ildə qeyd etmək barədə qərar qəbul etdi. O, 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetində keçirilən yubiley mərasimində Azərbaycan dilində nitq söylədi. Bu həmin dövr üçün görünməmiş hadisə idi. O vaxta qədər respublikanın bütün rəhbərləri rəsmi toplantılarda yalnız rus dilində çıxış edirdilər.

Heydər Əliyev hesab edirdi ki, milli ruhun yüksəlişinə təkan verən əsas şərtlərdən biri məhz ana dilidir. O, ana dilinin cəmiyyətin daxili institusional quruluşuna və konsolidasiyasına təsirini lazımınca qiymətləndirir, Azərbaycan dilinin dövlət dili səviyyəsində təsbit olunması ilə yanaşı, cəmiyyət həyatının bütün sahələrində geniş istifadə edilməsinə çalışırdı. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan tarixinə və ana dilinə aid araşdırmalar yüksək dövlət mükafatlarına layiq görülür, tədqiqatçılar bu sahələrdə daha səylə işləməyə həvəsləndirilirdilər. Bu bir həqiqətdir ki, Ulu Öndərin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dilinin cəmiyyətdə dominant rolunun təmin edilməsi milli məfkurənin formalaşmasına, milli dövlətçilik ideyasının güclənməsinə və gələcəyin müstəqil Azərbaycanının yaradılmasına həlledici təsir göstərmişdir.

**Xalqın gələcəyini düşünən lider**

Ümummilli Liderin Azərbaycana rəhbərliyinin birinci dövründə diqqət ayırdığı ilk məsələlərdən biri də təhsil və yüksəkixtisaslı kadrların yetişdirilməsi olmuşdur. 70-ci illərədək respublikadan SSRİ-nin başqa şəhərlərinə ildə cəmisi 50 nəfər tələbə göndərilirdi, onların da əksər hissəsi qeyri-azərbaycanlılar idi. Həmin mütəxəssislərin çox az qismi sonra Azərbaycana qayıdırdı. Heydər Əliyev bu məsələnin Mərkəzi Komitənin nəzarətinə götürülməsi barədə tapşırıq verdi, SSRİ-nin başqa şəhərlərinin, xüsusən Moskvanın, Leninqradın ali məktəblərinə göndərilən gənclərin sayının ilbəil artırılmasını və əksəriyyətinin azərbaycanlı olmasını tapşırdı. Beləliklə, 1975-ci ildə SSRİ-nin müxtəlif şəhərlərinə 400 tələbə, 1978-ci ildən isə 50-dən çox şəhərin ali məktəbinə

ildə 800 nəfər tələbə göndərildi. Əslində bu, Azərbaycanın bir ali məktəbinin qəbuluna bərabər idi. Heydər Əliyev hər il başqa şəhərlərin ali məktəblərinə yollanan gənclərlə respublikanın partiya-sovet fəallarının görüşünü keçirir, onların qarşısında çıxış edirdi.

Həmin illər respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi də genişləndirilmiş, 5 yeni ali məktəb, onlarla texnikum açılmışdı.

Hərbi təhsilin inkişafına da xüsusi diqqət yetirilirdi. O illərdə hazırlanmış yüksəkixtisaslı kadrlar sonralar müstəqil Azərbaycan dövlətinin ordusunun qurulması və möhkəmləndirilməsinə öz töhfələrini verdilər. Xatırladaq ki, 1970-1971-ci illərdə respublikanın rayonlarına hərbi komissar göndərməyə azərbaycanlı zabit tapılmırdı. Orduda azərbaycanlı generalların, zabitlərin sayı həddindən artıq az idi. Ümummilli Lider sonralar onu həddindən artıq qayğılandıran bu məsələ barədə deyirdi: “Çar dövründə müsəlmanlar orduya çağırılmırdılar, hətta elə bir vaxtda rus ordusunda bizim Əliağa Şıxlinski, Mehmandarov kimi generallarımız var idi. Niyə indi başqa millətlərin marşalı, generalları var, bizim isə yox?” Heydər Əliyev bu problemi də ardıcıl və sistemli şəkildə həll etdi. SSRİ-nin ali hərbi məktəblərinə azərbaycanlı gənclərin çoxlu sayda göndərilməsi üçün hərbi təmayüllü xüsusi internat məktəbi yaradıldı. Məktəbə qəbul olunanların əksəriyyəti azərbaycanlılar idi. Onlar 3 il oxuyub orta təhsil alır, hərbi hazırlıq keçir, rus dilini mənimsəyir, sonra isə müvəffəqiyyətlə ali hərbi məktəblərə qəbul olunurdular. Məktəbə 1937-ci ildə repressiya olunaraq güllələnmiş general Cəmşid Naxçıvanskinin adı verildi. Heydər Əliyev hər il Mərkəzi Komitənin Büro üzvləri ilə bərabər həmin məktəbə gedir, vəziyyətlə tanış olur və kollektiv qarşısında çıxış edirdi. Ulu Öndər sonralar o unudulmaz anları fəxrlə yada salaraq deyirdi: “Çox sevinirdim ki, onun məzunları - azərbaycanlılar zabit olurlar, sovet ordusunda qulluq edirlər. Əgər Azərbaycan öz suverenliyi, tam azadlığı barədə fikirləşirsə, o, ilk növbədə öz milli ordusu, milli zabitləri barədə fikirləşməlidir. Mən bunların hamısını düşünürdüm”.

Heydər Əliyev Bakıdakı Azərbaycan SSR Ali Soveti adına Hərbi Məktəblə də bağlı vəziyyəti nəzarətə götürdü: “Aydınlaşdırdıq ki, hər il qəbul olunan 350 nəfər kursantın ancaq 10-15 nəfərini azərbaycanlılar təşkil edir. Xətai rayonu ərazisində Kirov adına Ali Hərbi Dəniz Donanması məktəbi var, özü də ölkədə olan Ali Dəniz Donanması məktəbləri arasında fərqlənir. Burada xarici tələbələr də oxuyurlar. Məktəbə ildə bir, ya iki azərbaycanlı qəbul olunurdu. Biz bu sahədə də lazımi tədbirlər gördük. Azərbaycanın ərazisində olan bu iki ali hərbi məktəbə qəbul olunan azərbaycanlıların sayını bir neçə dəfə artırdıq. Ümumiyyətlə, 1980-81-ci illərdə hər il ölkənin ali hərbi məktəblərinə ildə 800 nəfərdən çox gənc azərbaycanlı göndərməyə nail olduq. Tarixdə ilk dəfə Bakı Ali Hərbi Məktəbinə rəis azərbaycanlı - general Bərşadlı təyin olundu. Xəzər Hərbi Dəniz Donanmasının Komandanı isə azərbaycanlı admiral Qasımbəyov oldu. 1967-70-ci illərdə azərbaycanlılardan Hüseyn Rəsulbəyov adlı bircə general-leytenant rütbəli adamımız vardı. O, Bakı hərbi hava müdafiəsi dairəsində raket qoşunlarına komandanlıq edirdi. Sonra isə ordu sıralarında azərbaycanlı generalların sayı artdı. Tofiq Ağahüseynov Bakı Hərbi Hava Müdafiəsi Dairəsi rəisinin birinci müavini təyin edildi. O, azərbaycanlıların içərisində ən yüksək hərbi rütbə - general-polkovnik rütbəsini almağa layiq görüldü”.

Heydər Əliyev hərbi-vətənpərvərlik hisslərinin gücləndirilməsi, eyni zamanda azərbaycanlıların qəhrəmanlığı və hərbi şücaətlərinin təbliği istiqamətində böyük işlər görürdü. O, İkinci Dünya müharibəsində Azərbaycanın və xalqımızın oynadığı rolun düzgün qiymətləndirilməsinə çalışırdı. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Taqanroqda 416-cı Azərbaycan diviziyasının şərəfinə möhtəşəm xatirə ansamblı, Sevastopolda Sapun Qora ərazisində 77-ci Azərbaycan diviziyasının şərəfinə isə böyük abidə ucaldılmışdı. Heydər Əliyev Bakı şəhərinin, Azərbaycan neftçilərinin nasizm üzərində qələbədə həlledici rol oynadığını və bu faktın dünya miqyaslı tarixi əhəmiyyət daşıdığını SSRİ rəhbərliyi tərəfindən qəbul edilməsinə çalışmış, 1978-ci ildə Bakının “Lenin” Ordeni ilə təltif edilməsinə nail olmuşdu.

Qısa müddət ərzində qazanılan böyük uğurlar Sovet İttifaqı miqyasında da diqqəti cəlb etmiş və Azərbaycan rəhbərinin şəxsiyyətinə marağı artırmışdı. Təsadüfi deyil ki, Heydər Əliyev 1976-cı ildə daha yüksək siyasi statusa layiq görülərək

Sov.İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdi. Bu isə onu bir sıra digər müttəfiq respublikaların başçılarından fərqləndirirdi. Ulu Öndər sonralar bildirirdi ki, o, bu üstünlükdən öz xalqının mənafeyi üçün səmərəli istifadə etmişdir: "SSRİ Nazirlər Sovetindəki əlliyə yaxın nazirdən hansına telefon etsəydim, Azərbaycan üçün hər hansı mühüm işin görülməsi onlar üçün əmr sayılırdı. Bu şəraitdən Azərbaycan üçün istifadə etdim".

**Bütün varlığı ilə doğma diyara bağlı rəhbər**

1982-ci ilin sonlarında Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Büro üzvü seçildikdən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduqdan sonra da iş yükünün ağırlığına, 60-dan çox sahəyə cavabdehlik daşımasına baxmayaraq, Azərbaycanla daim yaxından maraqlanmış, respublikanın sosial-iqtisadi, mədəni və digər sahələrdə tərəqqisi naminə əlindən gələn köməyi əsirgəməmişdir. Heydər Əliyev Moskvada olduğu dövrdə neft-qaz sənayesinin və digər sahələrin inkişafına diqqət yetirir, mühüm obyektlərin maliyyələşdirilməsi üçün SSRİ Dövlət Plan Komitəsi qarşısında məsələ qaldırırdı. Nəticədə, 1985-ci ildə "Çıraq", 1987-ci ildə "Azəri" yatağı kəşf edildi. Təməli hələ 1978-ci ildə qoyulan Dərin Özüllər Zavodu onun köməyi sayəsində 1984-cü ildə istismara verildi və 1986-cı ildə isə layihə gücünə çatdırıldı. Bundan əlavə, Azərbaycanın şimal-qərb bölgəsini mərkəzi nəqliyyat şəbəkəsi ilə bağlayan 160 kilometr uzunluğunda və ən çətin sahədən keçən Yevlax-Balakən dəmir yolu Ulu Öndərin birbaşa qayğısı ilə çəkilib, 1985-ci ildə istifadəyə verildi. Həmin xəttin tikintisi zamanı burada yeni stansiyalar, yaşayış evləri, uşaq bağçaları, məktəblər inşa edildi.

Heydər Əliyev Bakı metrosunun inkişafı istiqamətində əvvəlki illərdə başlanılan işlərin davam etdirilməsini öz nəzarətində saxlayırdı. 1985-ci ilin dekabrında "Elmlər Akademiyası", "İnşaatçılar", "XI Qızıl Ordu" (indiki "20 Yanvar") və "Memar Əcəmi" stansiyaları istifadəyə verildi.

Su nəqliyyatı infrastrukturu da diqqətdən kənarda qalmadı. 1985-ci ildə Xəzərdə yeni bərə keçidi açıldı. Bu bərə Azərbaycanı Qazaxıstanla birləşdirdi. Dənizə "Sovet Dağıstanı" və "Sovet Tacikistanı" gəmiləri gətirildi. Ümumiyyətlə, həmin dövrdə Xəzər dəniz gəmiçiliyində donanmanın üçdəbiri təzələndi.

Heydər Əliyev bütün imkanlardan istifadə edərək Azərbaycan mədəniyyətinin xaricdə tanıdılmasına və beynəlxalq mədəni əlaqələrinin yaradılmasına dəstək verirdi. Həmin dövrdə bir sıra beynəlxalq konfrans, simpozium, dekada və yarmarkalar Bakıda keçirilirdi. Dünyanın məşhur aktyorları, rejissorlar və digər incəsənət mütəxəssisləri Bakıya ezamiyyətə gəlir, azərbaycanlı sənətkarlarla mədəni mübadilə edirdilər. Bakıda beynəlxalq kino həftələrinin keçirilməsi isə artıq ənənəvi xarakter almağa başlamışdı. 1983-cü ildə Azərbaycanın paytaxtında Danimarka, 1984-cü ildə Hindistan, 1986-cı ildə Misir, Rumıniya, Çexoslovakiya, Bolqarıstan, 1987-ci ildə isə Çin kino filmləri həftələri keçirilmişdi.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi onun Azərbaycan səhiyyəsinə olan nəzarətini, diqqətini daha da artırmışdı. Ulu Öndər sonralar bu dövrü belə xatırlayırdı: "Mən Azərbaycana rəhbərlik etdiyim zaman, sonra SSRİ-nin rəhbərliyində olduğum illərdə daim səhiyyə ilə, tibb elmi ilə yaxın olmuşam, ona qayğı göstərmişəm və hesab edirəm ki, çox işlər görmüşəm. Mənim o vaxt həm onkoloji, həm kardioloji, həm ürək cərrahiyyəsi, həm oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində çox səylərim olmuşdur".

Ulu Öndərin bu illər ərzində doğma Vətəni, yurdu naminə gördüyü işlərin hamısını bir məqalədə əhatə etmək, bütün məsələlərin dərin təhlilini vermək mümkün deyildir. Lakin elmi şəkildə sübut olunmuş həqiqət ondan ibarətdir ki, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ilk dövründə xalqın qədim ənənələrə malik dövlət idarəçiliyi mədəniyyəti yenidən dirçəldilmiş, milli-mədəni oyanışda böyük dönüş başlanmış və gələcəkdə müstəqil dövlətçiliyin bərpası üçün əsaslı iqtisadi-mədəni zəmin hazırlanmışdır. Ulu Öndərin sovet dövründəki fəaliyyətinin başlıca əhəmiyyəti ondan ibarətdir ki, ilk növbədə, milli özünüdərk prosesi sovet ideoloji sisteminin buxovlarına baxmayaraq ardıcıl davam etdirilmişdir. Digər tərəfdən, həmin illərdə baş vermiş dəyişikliklərin vüsəti, ictimai və iqtisadi sahədə aparılmış köklü isla-

hatlar və xalqın maddi rifahının keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi müstəqil Azərbaycanın yaranmasına aparan tarixi yolun salnaməsində ən parlaq səhifələrdir. Tam inamla demək lazımdır ki, indiki mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, xarici iqtisadi əlaqələrinin müntəzəm surətdə genişlənməsi və dünya iqtisadi sistemində öz yerini getdikcə möhkəmləndirməsi həm də 1970-80-ci illərin əvvəllərində təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş potensiala əsaslanır.

Azərbaycan xalqı və dövləti ulu öndər Heydər Əliyevin zəngin irsinə böyük hörmətlə yanaşır, onu qoruyur və ondan bəhrələnir. Bu gün Ümummilli Liderin siyasi xəttini yaradıcılıqla davam etdirən Prezident İlham Əliyev Azərbaycan Respublikasının müstəqil dövlətçilik tarixinə yeni şanlı səhifələr yazır.

**Açar sözlər:** *Ümummilli lider, azərbaycançılıq, milli ruh, intibah, milli dövlətçilik, dövlət quruculuğu.*

### İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR

1. *Azərbaycan Respublikası 1991-200. Bakı, 2001, 280 s.*
2. *Mehdiyev R.Ə. “Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.*
3. *Mehdiyev R.Ə. Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi //”Azərbaycan” qəzeti, 26 may 2011-ci il.*
4. *Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.*
5. *Xəlilov S.S. Heydər Əliyevin dövlət quruculuğu fəlsəfəsi // Heydər Əliyev və Azərbaycan. Bakı, 2008, s.571.*
6. *Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. Bakı, 2001, s.87.*
7. *Vəliyeva S.M. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı, 2002, 140 s.*
8. *http://www.heydar-aliyev.org*
9. *http://www.president.az*
10. *http://www.mehriban-aliyeva.org*
11. *http://www.meclis.gov.az*
12. *http://www.heydar-aliyev-foundation.org*
13. *http://www.aliyev-heritage.org*
14. *http://www.dtx.gov.az/news56.php*
15. *http://www.azerbaijan.az*
16. *http://www.azertag.az*
17. *http://www.science.gov.az/news/open/9340*
18. *http://senaye.gov.az/az/senayeshme/heyder_aliev_ve_azerbaijan_senayesi*
19. *http://files.preslib.az/projects/toplu/v2/f2_2.pdf*
20. *http://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/117346.htm*
21. *http://azerbaycanli.org/az/page58.html*
22. *http://www.serqqapisi.az/index.php/ictimai-siaysi/13204-1969-dzu-il-14-iyul-azaerbaydzan-n-sosial-izhtisadi-elmi-tekhniki-vae-maedaeni-inkishaf-n-n-bashlanzhh-dz-tarikhi*
23. *http://www.azerbaijan.az/portal/History/Middle/middle_06_a.html*
24. *http://www.azerbaijan.az/_Sosiety/_NationwideLeader/nationwideLeader_02_a.html*
25. *https://www.stat.gov.az/source/others/H.Aliyev/Pdf/14-21.pdf*
26. *https://www.stat.gov.az/news/index.php?id=4213*

**Ali Hasanov**
**Assistant to the President of the Republic of Azerbaijan for Public and Political Issues, Doctor of Science in History, Professor**

## Haydar Aliyev – historical figure who laid the foundations of new national renaissance and independent statehood

### SUMMARY

The first period (1969-1982) when national leader Heydar Aliyev was in political power in Azerbaijan is widely analyzed in the article.

It is noted that an important event in the political life of Azerbaijan 50 years ago caused radical changes in the Republic and laid the foundations for a new historical transformation to identify future development prospects.

It was the turning point in the economic, socio-political, cultural and spiritual life of Azerbaijan. Improving the public administration system, establishing strict discipline, implementing personnel changes, and targeted measures to improve

the business environment provided the necessary conditions for accomplishing high-profile tasks are stated in the article. At the same time, the concept of state and its economic, political, social and moral basis in the public training of Haydar Aliyev are explored in the article.

The article points out that the activities to develop science, education and culture restore the historical memory of the nation in the first period of Heydar Aliyev's leadership (1969-1982) had a strong impact on national spiritual awakening, enrichment of the ideology of Azerbaijanism, and created a firm ground for the restoration of the independent statehood in the future.

At the same time, the article notes that the appointment of Heydar Aliyev as the First Deputy Chairman of the USSR Council of Ministers increased his control, attention over Azerbaijan. Heydar Aliyev, using all opportunities, supported the promotion of culture of Azerbaijan abroad and established international cultural ties.

**Key words:** *National leader, Azerbaijanism, national spirit, renaissance, national statehood, state building*

**Али Гасанов,**
**Помощник Президента Азербайджанской Республики**
**по общественно-политическим вопросам,**
**доктор исторических наук, профессор**

**Гейдар Алиев – историческая личность, заложившая основу нового национального возрождения и независимой государственности**

**РЕЗЮМЕ**

В статье широко анализируется первый период пребывания общенационального лидера Гейдара Алиева у политической власти в Азербайджане (1969-1982). Отмечается, что важное событие, произошедшее в политической жизни Азербайджана 50 лет назад, придало импульс началу коренных изменений в республике и заложило основу нового исторического перелома на пути определения дальнейших перспектив развития.

Именно те годы стали поворотным этапом в экономической, общественно-политической и культурно-духовной жизни Азербайджана. В статье подчеркивается, что целенаправленные меры по усовершенствованию системы государственного управления, установлению строгой дисциплины, проведению кадровых изменений, улучшению деловой среды обеспечивали необходимые условия для реализации поставленных важных задач. Одновременно в статье исследуется понятие сильного государства, нашедшее отражение в учении Гейдара Алиева о государстве, и его экономические, политические, социальные и духовные устои.

В статье говорится, что работа, проделанная в первый период руководства Гейдара Алиева республикой (1969-1982 годы) в области развития науки, образования и культуры, возвращения народу его исторической памяти, оказала мощное влияние на пробуждение национального самосознания, наполнение содержанием идеологии азербайджанства и подготовила прочную основу для восстановления в будущем независимой государственности.

Кроме того, в статье отмечается, что назначение Гейдара Алиева первым заместителем Председателя Совета министров СССР еще больше усилило его контроль за Азербайджаном, внимание к нему. Гейдар Алиев, используя все возможности, оказал поддержку популяризации культуры Азербайджана за рубежом и установлению международных культурных связей.

**Ключевые слова:** *Общенациональный лидер, азербайджанство, национальный дух, возрождение, национальная государственность, государственное строительство*

**UOT 321; 323; 327; 341.7**
**41.15.25; 40.87.31.**

# AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFI: QAZANILAN UĞURLAR VƏ NAİLİYYƏTLƏR (2003-2019)

**ELÇİN ƏHMƏDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru*

*E-mail: elchin_ahmedov@yahoo.com*

**Giriş**

Azərbaycan Respublikası 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətçiliyini inkişaf etdirərək möhkəmləndirmək üçün tarixi fürsət əldə etmiş oldu. Belə bir şəraitdə milli dövlətçilik prinsiplərinə uyğun olaraq yeni siyasi kursun formalaşdırılması və həyata keçirilməsi ən vacib məsələ kimi qarşıda dururdu. Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları, eləcə də hərbi təcavüzünün genişlənməsi ölkəmizi ciddi siyasi və sosial-iqtisadi problemlərlə üz-üzə qoymaqla yanaşı, dövlətimizin xarici siyasət fəaliyyətində də mühüm vəzifələrin yerinə yetirilməsini ön plana çəkdi. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün qarşısını almaq, onun ağır nəticələrini aradan qaldırmaq, ölkəmizin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünyaya siyasi və iqtisadi inteqrasiya olmaq zərurəti düşünülmüş, ardıcıl və fəal siyasət tələb edirdi.

1993-cü ilin ikinci yarısında ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Azərbaycanın siyasi kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən siyasət məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni siyasi kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu siyasi xəttində ilk növbədə bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdu. Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxarmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət idi. Ona görə də yeni siyasi kursunun həyata keçirilməsi üçün hər şeydən əvvəl müharibə dayandırılmalı və dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olunması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikasının müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi, və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiyası prosesinin intensivliyi ilə sıx bağlı idi. Bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Ümummilli lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və

ibarətdir ki, bu peyk yer səthini yüksək dəqiqliklə müşahidə edir və dünyada cəmi 20 ölkə belə peyklərə malikdir ki, bu da çox böyük uğur olmaqla yanaşı, ölkəmizin sürətli inkişafının göstəricisidir. 2018-ci sentyabrın 26-da isə daha bir telekommunikasiya peyki - "Azerspace-2" orbitə çıxarılmışdır. Beləliklə, Azərbaycanın milli maraqları, təhlükəsizliklə bağlı maraqları tam şəkildə təmin olunur, eyni zamanda, kosmik sənayemiz də inkişaf edir (22).

Bu illər ərzində ölkəmizin təhlükəsizlik strategiyası uğurla həyata keçirilmiş, ilk növbədə, Azərbaycanın enerji təhlükəsizliyi tam təmin olunmuş, xarici enerji mənbələrindən asılılıq aradan qaldırılmışdır. Azərbaycan bu gün iqtisadi potensial baxımından regionun lider ölkəsidir. Cənubi Qafqaz iqtisadiyyatında onun payı 80 faizdən artıqdır. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış "Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq", "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş"in müddəti 2017-ci il sentyabrın 14-də 2050-ci ilə qədər uzadılmışdır. Hazırda "Əsrin müqaviləsi"nin icrası çox uğurla gedir və bu müqavilənin imzalanmasından sonra Azərbaycanın yeni neft strategiyası icra olunmağa başlanmışdır.

Bununla yanaşı, "Əsrin müqaviləsi"nin imzalanması ilə dünyada neft ölkəsi kimi tanınan Azərbaycanın təchizatçısı olduğu Bakı-Tbilisi-Ceyhan layihəsi ilə ölkəmiz qlobal enerji bazarında mühüm iştirakçıya çevrilmişdir. 2002-ci ildə artıq Azərbaycan "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoydu. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və hazırda Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Eyni zamanda, ölkəmiz son illərdə təbii qaz ehtiyatlarına görə də diqqəti cəlb edir. Bu gün Azərbaycan həm regionun, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində, dünyanın qlobal enerji bazarında ciddi rol oynayan ölkədir. Bir sıra Avropa ölkələrinin qaz bazarında Azərbaycanın payı 40 faizədək artmışdır. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30-dək ölkəsinə ixrac edilir (8).

2007-ci ildə isə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan "Şahdəniz" yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlanmışdır. Beləliklə, Cənub Qaz Dəhlizinin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlardan sonra nəhayət, 2012-ci ildə Azərbaycan ilə Türkiyə arasında TANAP – Transanadolu qaz kəməri üzrə müqavilə imzalandı. Hazırda beynəlxalq əməkdaşlıq məkanına çevrilmiş Xəzər hövzəsi malik olduğu zəngin karbohidrogen ehtiyatları hesabına bir sıra qlobal enerji layihələrinin reallaşdırıldığı mərkəz kimi diqqət çəkir. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağı xüsusi əhəmiyyət kəsb edir. 2013-cü il dekabr ayının 17-də Bakıda layihə üzrə yekun investisiya qərarının imzalanması ilə "Şahdəniz" yatağının tammiqyaslı işlənməsi həlledici mərhələyə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi "Şahdəniz- 2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 20 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. "Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdırsa, "Şahdəniz- 2" XXI əsrin ən iri enerji layihəsidir (21).

Beləliklə, Cənub Qaz Dəhlizinin reallaşmasına güclü təkan verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümünü qeyd edildi. Simvolik haldır ki, məhz həmin gün "Cənub" qaz dəhlizinin təməli qoyulmuşdur (20; 21). "Cənub" qaz dəhlizi Avropanın ən böyük infrastruktur layihəsidir və bu nəhəng transmilli layihənin icrasında ölkəmiz öz liderlik keyfiyyətlərini bir daha nümayiş etdirmişdir. Azərbaycan beynəlxalq əməkdaşlıq məsələlərində olduğu kimi, bu layihələrdə də liderliyi öz üzərinə götürmüşdür. Bu layihənin icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulmuşdur və qoyulur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. Bununla yanaşı, hazırda Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar. 2013-cü ildə TAP layihəsi - Trans-Adriatik kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də tarixi hadisə olmuşdur.

2018-ci il mayın 29-da Səngəçal terminalında

beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

1993-2003-cü illər ölkəmiz üçün həlledici illər olmuş, məhz həmin illərdə dövlətçiliyimizin möhkəm təməli qoyulmuşdur. O illərdə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətlə bağlı strateji xətti müəyyən edilmiş, Azərbaycan dünya birliyinə qovuşmuşdur. Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, eləcə də fəal surətdə iştirak etməklə etməsi və səmərəli əməkdaşlığı ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyət kəsb etmişdir. Həmin illərdə çox ciddi islahatlar aparılmış, bazar iqtisadiyyatı prinsipləri üstünlük təşkil etmiş, Azərbaycana böyük həcmdə investisiyaların cəlb olunması geniş vüsət almışdır. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, siyasi sistem möhkəmləndirilmiş və ölkəmizin uğurlu inkişafı üçün möhkəm zəmin yaradılmışdır. Bu illər ərzində görülmüş işlər hazırda ölkəmizin uğurlu inkişafını şərtləndirmiş, o dövrdə başlanmış layihələr bu gün çox uğurla davam etdirilir.

**Azərbaycanın dinamik inkişafının mühüm mərhələsi**

2003-cü ildən keçən dövr ərzində isə, Azərbaycan xalqı və dövləti sözün əsl mənasında sürətli inkişaf dövrünü yaşamış, problemlərin böyük hissəsi öz həllini tapmış, istənilən istiqamət üzrə konkret proqramlar icra edilmişdir. Ötən illərdə dünyada baş verən qlobal böhran fonunda Azərbaycan iqtisadiyyatının davamlı inkişafı, bütün sosial proqramların vaxtında yerinə yetirilməsinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş milli iqtisadi inkişaf modelinin möhkəm təməllər üzərində qurulmasının əyani göstəricisidir. Dünya iqtisadi sisteminə fəal inteqrasiya yolu seçən Azərbaycanın qazandığı nailiyyətləri şərtləndirən mühüm faktorlardan biri də enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin edilməsi, iqtisadiyyatın diversifikasiyası və bütün sahələrdə davamlı inkişaf strategiyasının uğurla həyata keçirilməsidir (3). Ölkəmizin qeyri-neft sektorunda müşahidə olunan dinamizm də iqtisadiyyatın şaxələndirilməsiı ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı, ümumi daxili məhsul üç dəfədən çox artmışdır. Ölkə iqtisadiyyatına son 15 il ərzində 250 milyard dollardan çox sərmayə qoyulmuşdur. Azərbaycanda xarici dövlət borcu çox aşağı səviyyədədir, ümumi daxili məhsulumuzun cəmi 20 faizini təşkil edir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan 4-5 dəfə çoxdur. Yəni, biz istənilən vaxtda bütün borcları rahatlıqla ödəyə bilərik. Azərbaycanda son 15 il ərzində yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,4 faizə düşüb, işsizlik 5 faiz səviyyəsindədir. Bu, onu göstərir ki, qara qızıl, neft və qaz insan kapitalına çevrilmişdir (11).

Xüsusilə Azərbaycan zəngin neft resurslarından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilmişdir. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulmuşdur. Dünyanın aparıcı iqtisadi və maliyyə qurumları hazırda Azərbaycanın uğurlarını qeyd edir, bütün hesabatlarda biz öncül mövqelərdə dururuq. Dünya İqtisadi Forumunun "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan iqtisadiyyatı artıq dünyada 35-ci, MDB məkanında isə 1-ci yerdədir (4). Forumun 2017-ci il üzrə "İnklüziv inkişaf indeksi" adlı illik hesabatında Azərbaycan inkişaf etməkdə olan 80 ölkə arasında 3-cü yerə yüksəlmişdir (1). Azərbaycanın valyuta ehtiyatları 2003-cü ildə 1,8 milyard dollar idisə hazırda 49 milyard dollara yaxındır. Gənc, müstəqil dövlət üçün bu, çox böyük nailiyyətdir və Azərbaycan iqtisadiyyatının çoxşaxəli şəkildə inkişaf etdiyini göstərir.

2008-ci ildə Azərbaycan peykinin orbitə çıxarılması haqqında qərar verilmiş və 2013-cü il fevralın 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykinin - "Azərspace-1"-in orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün, böyük nailiyyət olmaqla yanaşı, və Azərbaycanı kosmik ölkələr sırasına daxil etmişdir. 2014-cü ildə Azərbaycan ikinci müşahidə peykinə sahib olmuş, bu peyk ölkəmizə təhvil verilmişdir - "Azərsky". "Azərsky" peykinin xüsusiyyəti ondan

Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasiminin, eləcə də XXV Xəzər Neft-Qaz Sərgisinin keçirilməsi Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olmuşdur. Bununla yanaşı, həmin il iyunun 12-də Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi iki dost və qardaş dövlətin münasibətlərinin ən yüksək zirvədə olduğunun bariz göstəricisidir.

Bu gün enerji təhlükəsizliyi ilə bağlı məsələlər dünya gündəliyində çox ciddi dayanır və ölkələrin milli təhlükəsizliyi, o cümlədən enerji təhlükəsizliyindən böyük dərəcədə asılıdır. Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə reallaşan Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, TANAP, TAP və digər layihələr Azərbaycanın qlobal iqtisadiyyatda özünəməxsus iqtisadi modelə malik ölkə kimi səciyyələndirir.

**Xarici siyasət, mədəni-humanitar sahələrdə qazanılan uğurlar**

Ölkəmiz Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Azərbaycan 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan “Avropa Qonşuluq Siyasətinə” qoşulmuş, 2006-cı ildə Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumunu imzanlamış, 2008-ci ildə isə İttifaqın “Şərq tərəfdaşlığı” proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur (15-17).

Bununla yanaşı, 2011-ci il oktyabrın 24-də Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır (19). BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla ölkəmizin son illər dünya miqyasında artan siyasi nüfuzunun bariz sübutu olaraq qəbul edilməlidir. Belə ki, Azərbaycan, son illər ərzində stabil inkişaf edən, yüksək iqtisadi göstəricilərə nail olan və beynəlxalq siyasətdəki fəaliyyəti ilə dünya ictimaiyyətinin rəğbətini qazanan dövlət olaraq bütün bu müvəffəqiyyətlərin nəticəsində beynəlxalq səviyyədə ən mötəbər qurumun üzvlüyünə seçilmişdir.

Bu gün ölkəmiz dostluq, sülh, tərəfdaşlıq və mədəni müxtəliflik məsələlərinə töhfələrini verməyə calışır. Təəssüflər olsun ki, müasir dövrdə biz daha çox bu barədə danışmalı olur, bu gün dünyanın müxtəlif yerlərində etnik, dini, məzhəb zəminində ayrı-seçkiliyin şahidi olur və xalqların dinc şəraitdə bu cür təhlükələrlə qarşılaşdığını görürük. Azərbaycanda dinlərarası, mədəniyyətlərarası münasibətlərin nə qədər düzgün tənzim olunması bu gün dünya üçün artıq bəllidir. Bu baxımdan Azərbaycanın nümunələri öyrənilməklə bir sıra addımlar atılır. Məhz, 2008-ci ildə də “Bakı prosesi” ölkəmizin təşəbbüsü ilə başlamış və bu gün mədəniyyətlərarası və sivilizasiyalararası dialoq, multikulturalizmə aid məsələlər “Bakı prosesi”nə daxildir. Azərbaycan bu istiqamətdə səylərini davam etdirir və 100-dən artıq dövlətdən olan nümayəndələrin Bakıya səfər edərək bu mühüm məsələləri müzakirə etməsi bizdə məqsədlərimizə nail olmaqla bağlı ruh yüksəkliyi yaratmış və ölkəmiz dostluq, sülh, tərəfdaşlıq, eləcə də mədəni müxtəliflik məsələlərinə töhfələrini verməkdə davam edir.

Bununla yanaşı, Azərbaycan müsəlman aləmində çox böyük hörmət, nüfuz qazanmışdır. İslam həmrəyliyi ilə bağlı atılan addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilmişdir. Prezident İlham Əliyevin apardığı siyasət, yəni, həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və İslam birliyini daha da möhkəmləndirir. 2018-ci il Naxçıvanın İslam Mədəniyyətinin paytaxtı seçilməsi heç də təsadüfi olmamışdır.

Regionun siyasi, iqtisadi və humanitar mərkəzinə çevrilmiş Azərbaycan həm də beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmuş, güclü dövlət və etibarlı tərəfdaş imici qazanmışdır. Bakı şəhəri artıq qlobal məsələlərin müzakirə olunduğu, qitə və dünya miqyaslı tədbirlərə ev sahibliyi edən humanitar məkan kimi tanınır. Azərbaycan artıq sivilizasiyalararası dialoqun, multikulturalizmin, siyasi, iqtisadi, humanitar və digər sahələrdə qlobal məsələlərin müzakirə olunduğu mərkəzə çevrilmişdir. 2011, 2013,

2015, 2017, eləcə də 2019-cu ildə 5 dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları yüksək səviyyədə təşkil olunmuş və bu sahədə Azərbaycan tərəfindən reallaşdırılan təşəbbüslər regional müstəvidən çıxarılaraq qlobal səviyyəyə qaldırılmışdır (5; 6; 18).

Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu artıq ənənə halını almışdır. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasına, Dini Liderlərin Ümumdünya Sammitinə və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Bakı artıq dünyanın qlobal səviyyəli tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur. Bununla yanaşı, son on beş il ərzində "Cənubi Qafqazın və Mərkəzi Asiyanın gələcəyi ilə bağlı strateji dialoq" mövzusunda Dünya İqtisadi Forumuna, Madrid Klubunun toplantısına, Birinci Cənubi Qafqaz Forumuna, Avronest Parlament Assambleyasının Avropadan kənarda keçirilən ilk iclasına və digər möhtəşəm beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycan bir daha göstərdi ki, ölkəmiz Cənubi Qafqazda bütün sahələr üzrə müasir dövrün aktual məsələlərinin müzakirə olunduğu geosiyasi əhəmiyyətli məkandır.

Bununla yanaşı, ölkəmizin ev sahibliyi etdiyi, eləcə də, dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər - 2018-ci ildə VI Bakı Beynəlxalq Humanitar Forumu, VI Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, Cənub Qaz Dəhlizi Məşvərət Şurasının Nazirlər toplantısı, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi, 2019-cu ilin martında VII Qlobal Bakı Forumu və s. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir.

Bundan əlavə, 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarının paytaxtımızda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi də təsadüfi olmamışdır. Belə ki, "Bakı-2015" ilk Olimpiya Oyunları idman tarixində yeni maraqlı səhifə açmışdır. Bununla yanaşı, Azərbaycan artıq istənilən səviyyədə idman yarışlarını qəbul etmək və layiqli şəkildə keçirmək imkanı əldə emişdir. 2017-ci ilin may ayında Bakı şəhəri İslam Həmrəyliyi Oyunlarına da ev sahibliyi etmişdir. İki il ərzində hər iki mühüm idman tədbirinin Azərbaycanda keçirilməsi rəmzi məna daşıyan nadir tarixi hadisə olmaqla yanaşı, həm də Asiya ilə Avropa arasında körpü rolunu oynayan ölkəmizin sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun inkişafına verdiyi böyük töhfədir.

Ümumiyyətlə, Birinci Avropa Oyunları zamanı Azərbaycan 56 medal qazanaraq ikinci olmuşdur. Bundan sonra, 2016-cı il Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanılmışdır ki, Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, postsovet məkanında Rusiyadan sonra ikinci, müsəlman aləmində isə birinci yerdə olmuşdur. Nəhayət, IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları yarışları birinci pillədə başa vuraraq hamıdan çox - 162 medal (75 qızıl, 50 gümüş və 37 bürünc) qazandılar (26).

Nəticədə, 2015-ci ildə Bakı ilk Avropa Oyunlarına, bundan iki il sonra isə IV İslam Həmrəyliyi Oyunlarına uğurla və inamla ev sahibliyi etdi. İstər Avropa, istərsə də İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə təşkil olunması Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyətinin nəticəsidir. Hər iki mötəbər idman tədbirinin təşkilat komitələrinə sədrlik edən Mehriban xanımın qüvvələri çox qısa müddətdə səfərbər etmək məharətinin nəticəsində Azərbaycan tarixinə uğurlu səhifələr yazıldı.

Ümumiyyətlə, bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, həyata keçirilən qlobal miqyaslı tədbirlər bu gün Azərbaycanın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Nəticədə, Azərbaycan yalnız beynəlxalq regionda gedən proseslərdə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Azərbaycan artıq Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi çətin geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı İlham Əliyev qeyd etdiyi kimi "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini, ərazilərimizin işğalı faktını nəzərə

alaraq ordu quruculuğu prioritet vəzifələrdən biri kimi müəyyənləşdirilmiş və bu gün Azərbaycan ordusu maddi-texniki, silah-sursat təchizatı, döyüş qabiliyyəti göstəricilərinə görə Cənubi Qafqazın ən güclü ordusudur. Yəni, bu, onu göstərir ki, ordu quruculuğu Azərbaycan dövlətinin prioritet məsələsidir. Bununla yanaşı, 2005-ci ildə Azərbaycanda Müdafiə Sənayesi Nazirliyi təsis olunmuş, hərbi təyinatlı müəssisələr işə salınmış və həmin müəssisələrdə artıq 1200 adda hərbi təyinatlı məhsul istehsal edilir. Beynəlxalq reytinqlərə görə, Azərbaycanın Silahlı Qüvvələri hazırda dünyada ən güclü 50 ordu sırasında yer tutur. Hazırda 20-dan çox ölkənin müvafiq qurumlarına Azərbaycanın istehsalı olan hərbi məhsulların ixracı həyata keçirilir (11).

Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin xarici siyasətinin əsas prioritetlərindəni biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir. Ölkəmizin artan bu siyasi fəallığının nəticəsi kimi, 2004-cü il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salınmışdır. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edilmişdir (14, s.406; 788-791).

Münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, eləcə də Təhlükəsizlik Şurası sədrinin qəbul etdiyi 7 bəyanatda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının sənədlərində işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması bildirilir. Bu baxımdan BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə ilə yanaşı, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və ölkəmizin ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə, NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir.

Dövlət başçısı İlham Əliyev Ermənistanın sülh istəmədiyini, status-kvonu nə qədər çox mümkündürsə saxlamaq istədiyini, işğal olunmuş torpaqlardan çəkilmək istəmədiyini vurğulayaraq, təcavüzkar dövlətin yalnız vaxt uzatmaqla məşğul olduğunu və danışıqları sonsuz bir proses kimi gələcəkdə də görmək istədiyini bildirmişdir (7). Lakin, Azərbaycan Prezidenti İlham Əliyevin dəfələrlə və birmənalı olaraq "Azərbaycan ərazi bütövlüyü danışıqların mövzusu ola bilməz" fikrini irəli sürməsi ölkəmizin ərazi bütövlüyü təmin olunmaqla münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha da artırmışdır: "Biz isə öz siyasətimizi davam etdirəcəyik. Danışıqlarda bizim prinsipial mövqeyimiz tam əsaslıdır və biz bu siyasətdən bir millimetr də geri çəkilən deyilik". Eyni zamanda, dövlət başçısı bəyan etmişdir ki, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcək, dünya birliyi heç vaxt Dağlıq Qarabağın müstəqilliyini tanımayacaqdır (3).

2016-cı il aprel ayının əvvəlində cəbhə xəttində Ermənistanın növbəti hərbi təxribatı ilə üzləşən ordumuz əks-hücuma keçərək işğalçılara güclü zərbələr endirmiş və qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazini düşməndən azad etmiş, işğal altında qalan torpaqlara nəzarət etmək imkanını artırmışdır. 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, Yerevan–Gorus–Laçın yolu nəzarətə götürülmüşdür (11).

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun son 15 ildə Prezident İlham Əliyev tərəfindən dinamik şəkildə və novatorcasına inkişaf etdirilməsi nəticəsində Azərbaycanın çox böyük uğurlara imza atması ölkəmizin dünya birliyində mövqelərinin yüksəlməsini təmin

etmiş, bu gün dövlətimiz və xalqımız üçün çox vacib olan problem - işğal olunmuş torpaqlarımızın tezliklə azad ediləcəyinə və ərazi bütövlüyünün bərpa olunacağına olan ümidləri daha da artıraraq perspektivdə Azərbaycanın ən qüdrətli dövlətlər sırasında duracağını şərtləndirmişdir.

**Açar sözlər:** *Azərbaycan Respublikası, dövlət siyasəti, enerji təhlükəsizliyi, dinamik inkişaf, xarici siyasət.*

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏLƏR**

*1. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - "Azərbaycan" qəzeti, 10 oktyabr 2018-ci il.*

*2. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 29 may 2018-ci il.*

*3. Azərbaycan Prezidenti İlham Əliyevin 28 May – Respublika Günü münasibətilə rəsmi qəbulda nitqi. - "Azərbaycan", 27 may 2017-ci il.*

*4. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin birinci rübünün yekunlarına sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ntqi. - "Azərbaycan" qəzeti, 11 aprel 2017-ci il.*

*5. Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında çıxışı - "Azərbaycan" qəzeti, 6 may 2017-ci il.*

*6. Azərbaycan Prezidenti İlham Əliyevin V Qlobal Bakı Forumunun açılışında çıxışı - "Azərbaycan" qəzeti, 17 mart 2017-ci il.*

*7. Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cü ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası iclasında ntqi. - "Azərbaycan" qəzeti, 8 oktyabr 2016-cı il.*

*8. Azərbaycan Prezidenti İlham Əliyevin Böyük Britaniyanın nüfuzlu "The Business Year" jurnalına müsahibəsi. - "Azərbaycan", 4 aprel 2013-cü il.*

*9. Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri: keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri. Bakı: XXI-YNE, 2005, 464 s.*

*10. Mehdiyev R.Ə. "Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşdirmə xətti. Bakı: Şərq-Qərb, 2008, 216 s.*

*11. Həsənov Ə.M. On beş illik prezidentlik dövrünün möhtəşəm zəfər salnaməsi. - "Azərbaycan" qəzeti, 13 oktyabr 2018-ci il.*

*12. Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı: Zərdabi, 2016, 700 s.*

*13. Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı: "Zərdabi LTD", 2015, 1048 s.*

*14. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı: 2012, 912 s.*

*15. Comission of the European Communities. "European Neigbourhood Policy", Country Report Azerbaijan. Brussels, 2005, p.2-3.*

*16. European Neighbourd Policy EU / Azerbaijan Action Plan 14 november2006. - http://ec.europa.eu/environment/enlarg/pdf/enp_ action_plan_azerbaijan.pdf.*

*17. Eastern partnership: Communication from the European Commission to the European Parliament and the Council, № COM (2008) 823 from 3 December 2008.*

*18. "Azərbaycan"qəz., 2011-ci il, 8-9 aprel.*

*19. "Azərbaycan" qəz., 2011-ci il, 25 oktyabr.*

*20. "Azərbaycan" qəz., 2014, 21 sentyabr.*

*21. "Azərbaycan" qəz., 2014, 30 sentyabr.*

*22. "Azərbaycan" qəz., 2018, 27 sentyabr*

*23. http://www.heydar-aliyev.org*

*24. http://www.president.az*

*25. http://www.mehriban-aliyeva.org/ru/*

*26. http://azertag.az/xeber/Baki_2017_dunyaya_idman_dili_ile_oturulen_sulh_tolerantliq_ve_hemreylik_mesajlari-1064195*

**Эльчин АХМЕДОВ**
**Доктор политических наук, профессор, кафедры "Международные отношения и внешняя политика" Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**Динамическое развитие Азербайджана: успехи и достижения (2003-2019)**

**РЕЗЮМЕ**

В статье указывается, что 1993-2003 годы были решающими для нашей страны, именно в эти годы была заложена прочная основа

государственности. В те годы был определен стратегический курс Азербайджана, связанный как с внутренней, так и с внешней политикой, началась интеграция страны в мировое сообщество.

В статье широко исследуются приоритетные направления государственной политики Азербайджана в 2003-2018 годах и важные показатели динамичного развития во всех сферах. На фактах анализируются устойчивое развитие экономики Азербайджана, своевременное выполнение всех социальных программ на фоне происходившего в эти годы в мире глобального кризиса.

В статье обосновывается успешное осуществление стратегии безопасности нашей страны, в первую очередь, полное обеспечение энергетической безопасности Азербайджана, в частности то, что в экономике Южного Кавказа Азербайджан является лидирующей страной с точки зрения экономического потенциала. Кроме того, в статье исследуются реализация по инициативе Азербайджана проектов Баку-Тбилиси-Джейхан, Баку-Тбилиси-Эрзурум, Баку-Тбилиси-Карс, TANAP, TAP и других глобальных проектов, а также их геополитическое, геоэкономическое значение.

Наряду с этим, в статье на фактах широко анализируются успехи, достигнутые во внешнеполитической, культурно-гуманитарной и спортивной сферах. Также исследуются культурное разнообразие, мультикультуральные и толерантные ценности во внутренней и внешней политике Азербайджана. Обеспечение территориальной целостности Азербайджана изучается в статье как основное приоритетное направление во внешней политике нашего государства.

***Ключевые слова:*** *Азербайджанская Республика, государственная политика, энергетическая безопасность, динамичное развитие, внешняя политика.*

**Elchin AHMADOV**
**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
**Professor, Doctor of Political Sciences of the Department of International Relations and Foreign Policy**

## Dynamic development of Azerbaijan: reached goals and achievements (2003-2019)

### SUMMARY

The article points out that 1993-2003 were crucial for our country, a firm foundation of our statehood was laid down exactly in those years. The strategic course of domestic and foreign policy of Azerbaijan was defined in those years, Azerbaijan integrated into the world community.

Priority directions of the state policy of Azerbaijan in 2003-2018 and the key indicators of dynamic development in all spheres are analysed in the article.The sustainable development of the economy of Azerbaijan during the global crisis in the world, implementation of all social programs are analyzed according to the facts in these years.

The article substantiates the successful implementation of our country's security strategy, first of all, the full provision of energy security of Azerbaijan, especially it is justified that Azerbaijan is a leading country in the region in terms of economic potential in the South Caucasus economy. In addition, the article explores the implementation of the Baku-Tbilisi-Ceyhan, Baku-Tbilisi-Erzurum, Baku-Tbilisi-Kars, TANAP, TAP and other projects on the initiative of Azerbaijan.

At the same time, the article analyzes the achievements gained in foreign policy, cultural, humanitarian and sport fields according to the facts. Also, cultural diversity, multicultural and tolerant values in domestic and foreign policy of Azerbaijan are explored. The article examines the territorial integrity of Azerbaijan as a key priority in the foreign policy of our state. Ensuring the territorial integrity of Azerbaijan is studied in the article as the main priority direction in the foreign policy of our state.

***Key Words:*** *The Republic of Azerbaijan, state policy, energy security, dynamic development, foreign policy.*

UOT 32:316.77; 32:070;
32.049.5; 32:316.65

# DÖVLƏT ORQANLARINDA İCTİMAYYƏTLƏ ƏLAQƏLƏRİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ

**MÜRTƏZA HƏSƏNOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

**FAİL TAĞIZADƏ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

İctimaiyyətlə əlaqələr xalqın həyati maraqlarını əks etdirən dəyərlər sisteminin formalaşdırılmasına yardım edir. Elmin bu sahəsi dövlət quruculuğu istiqamətində prioritet məqsədlərin müəyyənləşdirilməsi və düzgün strateji, iqtisadi və mədəni siyasətin formalaşması üçün hərtərəfli şərait yaradır. "İctimaiyyətlə əlaqələr" anlayışında insan və cəmiyyət, sivilizasiya və təbiət arasındakı münasibətləri əks etdirilir və bu münasibətləri bir çox aspektlərdə sosial-iqtisadi, fəlsəfi, mədəni və ictimai müstəvidə nəzərdən keçirilir. Müasir cəmiyyətin inkişafında insanın hərtərəfli və kamil bir şəxsiyyət kimi formalaşmasında ictimai-humanitar elmlər şəbəkəsində xüsusi yer almış "İctimaiyyətlə əlaqələr" anlayışının çox böyük tarixi əhəmiyyəti vardır. Müasir dövrdə dünyada eləcə də ölkəmizdə dövlət təşkilatlarının hər bir sahəsində ictimaiyyətlə əlaqələrin xüsusi əhəmiyyəti vardır. Dövlətin onlara verdiyi səlahiyyətlərdən bəhrələnərək dövlət təşkilatlarında çalışan insanların vəzifə borcu və məsuliyyəti olmalıdır.

Bu gün cəmiyyətdə fərdlərin davranışlarının meydana gəlməsində ictimai-mədəni dəyərlərin, başqa sözlə ümumi dəyərlər sisteminin təsiri olduqca böyükdür. Bütün dövlət təşkilatlarında çalışan insanların etik davranışları da məhz müəyyən əxlaq normaları və kodekslər vasitəsilə nizamlanır. Tarix boyu insanlar müxtəlif birliklər içində yaşayıb və ictimai tərəqqinin müxtəlif mərhələlərində müxtəlif ictimai, iqtisadi və idarəetmə strukturlarına sahib olmuşlar. İnsanların idarə edənlərə və idarə olunanlara bölünməsi nəticəsində isə dövlət təşkilatları meydana gəlmiş və formalaşmağa başlamışdır. Problemin araşdırılması elmi baxımdan mühüm aktuallıq kəsb edir. Bu prosesdə əsas sahələrdən biri də dövlət təşkilatları ilə ictimaiyyət arasında demokratik və sivil münasibətlərin yaradılması məsələsidir. Bu sahədə Azərbaycan dövləti Qərb dövlətlərinin təcrübəsini öyrənmiş və yerli şəraitə uyğunlaşdıraraq tətbiqi həyata kecirilmişdir.

İctimaiyyətlə əlaqələr – XX əsrin fenomenidir ki, onun kökləri qədim tarixə gedib çıxır. Bu əlaqələr də insanlar arasında kommunikasiya qədər qədimdir. Hələ Babilistan, Qədim Yunanıstan və Qədim Roma kimi sivilizasiyaların çiçəklənməsi dövrlərində insanları inandırmağa çalışırdılar ki, onlar öz hökumətlərini və öz dinlərini qəbul etməlidirlər və onlara itaət etməlidirlər. Bu təcrübə indiyə kimi mövcuddur: şəxslərarası kommunikasiya, natiqlik sənəti, ədəbiyyat, xüsusi tədbirlərin təşkili, pablisiti (reklam) və s. Əlbəttə, bu fəaliyyət o zamanlar "ictimaiyyətlə əlaqələr" adını daşımamışdır, lakin bu gün həmin fəaliyyətlə məşğul olanlar qarşısında da həmin məqsədlər durur.

İctimaiyyətlə əlaqələr terminini ilk dəfə ABŞ prezidenti Tomas Cefersonun istifadə etdiyi deyilir [10]. 1807-ci ildə o, "Konqresə 7-ci Müraciət"inin qaralamasında ilk dəfə olaraq ictimaiyyətlə əlaqələr – PR terminini işlətmişdi. Bu termin altında o, ölkə miqyasında hökumətə inam ab-havasının yaradılmasını və bu işdə siyasi institutların səylərinin artırılmasını başa düşürdü.

XIX əsrin 30-cu illərində ABŞ-da PR-ın inkişafı üçün çox işlər görülmüşdü. Məsələn, dünyanın heç bir başqa ölkəsində ABŞ-dakı qədər qəzet nəşr edilmirdi. Bunun nəticəsi kimi yeni ixtisas sahibləri "press-agentlər" mətbuatla əlaqələr quran şəxslər meydana çıxdı. Getdikcə, onlar press-agentliklərdə

birləşirdilər və işgüzar dairələrə mətbuatla iş xidmətini təklif edirdilər [13].

Eyni zamanda qeyd etmək lazımdır ki, dünyanın çox böyük məsləhətçi təşkilatı olan "Mak Kuisi" Amerikada yerləşir. Onun tərkibində müxtəlif ölkə-lərdə yerləşən 32 büro fəaliyyət göstərir. Onlar 74 ixtisas üzrə 136 istiqamətdə məsləhətlər verirlər. Bu məsləhətverici istiqamətlər arasında ictimaiyyətlə əlaqələr, marketinq, istehsalın idarə olunması, elektron informasiya sistemi üzrə məsləhətlər əsas yer tutur. ABŞ-ın Harvard Universiteti artıq 1900-cü ildə ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislər hazırlamağa başlamışdır. PR üzrə ilk böyük büro 1912-ci ildə Amerikanın telefon-teleqraf birliyinin nəzdində yaradılmışdır [14].

Ümumiyyətlə, dövlət orqanlarında ictimaiyyətlə əlaqələr xidmətinin fəaliyyəti ilə bağlı olaraq ictimai rəyin öyrənilməsi və formalaşdırılması üzrə institutlar, firmalar XX əsrin əvvəllərində formalaşmağa və fəaliyyət göstərməyə başlamışlar.

İctimaiyyətlə əlaqələrin yaranmasını və inkişafına Fransa və İtaliya dövlətinin nümunəsində baxaq.

Fransada ictimaiyyətlə əlaqələr işinə 1946-ci ildən rast gəlinir [8]. Bu dövrdə Fransada milliləşdirmə prosesinin başladığı qaz, elektrik, kömür, avtomobil sənayesi kimi sahələrdə böyük milli müəssisələrin qurulduğu dövrlərdir. İkinci Dünya Müharibəsinin nəticələrini aradan qaldırmaq üçün rentabellik fikrinin yayıldığı dövrdür. Bir cox Fransız mütəxəssis Amerikanı tanımaq və ən yaxşı rentabellik formulalarını araşdırmaq üçün Amerikaya getmişdir. Bu mütəxəssislər ABŞ-da hərkəsin dövlət orqanları ilə ictimai əlaqələr işindən danışdığını görmüşlər [4].

İtaliyanın dövlət idarəetmə orqanlarında ictimaiyyətlə əlaqələrin əhəmiyyəti İtaliya Konstitusiyasında açıq şəkildə ifadə olunmuşdur. Konstitusiyanın 97-ci maddəsinin birinci bəndində "dövlət qurumları idarənin neytral və mükəmməl işləməsini təmin edəcək şəkildə təsis olunur" yazılmışdır.

Dövlət idarəetmə orqanlarının tərəfsiz və mükəmmələ yaxın işlərini təmin etmək üçün, bütün vətəndaşlar dövlətdən nə tələb edə biləcəklərini və istəklərini necə əldə edəcəklərini bilməlidirlər. Məmurların yalnız hər cür siyasi təsir, maraq və şəxsi simpatiya hisslərindən uzaq olmaları kifayət etmir, eyni zamanda özlərini hər bir vətəndaşın, hətta ən kasıb və ən cahil vətəndaşın xidmətində hesab etmələri lazımdır. Məmurlar özlərini yalnız qanunların və əmrləri icra edənlər olaraq deyil, məsuliyyətli insanlar olaraq millət xidmətində hesab etməlidirlər. Çünki İtaliya Konstitusiyasının 97-ci maddəsinin ikinci bəndində açıq olaraq "Qurumların təşkilatlanmasında məmurların səlahiyyət çərçivələri, vəzifə və məsuliyyətləri müəyyən olunur" yazılmışdır. Bundan əlavə İtaliya dövlət mülki məmurların statusu haqqında qanunun 13-cü maddəsinin 4-cü bəndində qeyd olunduğu kimi "məmurun vətəndaşla davranışı idarə ilə xalq arasında əməkdaşlığı təmin edəcək şəkildə olmalıdır" [3].

Dövlət orqanlarının müasir fəaliyyəti cəmiyyətin bütün sahələrinin funksiyalaşdırılmasını nəzərdə tutur və bu işin əsasını ictimaiyyətlə düzgün, səmərəli əlaqələrin yaradılması təşkil edir. Qeyd etmək lazımdır ki, ictimaiyyətlə əlaqələr üzrə fəaliyyət hakimiyyətin bütün qollarında: qanunverici, icraedici və məhkəmə orqanlarında mövcuddur. İctimaiyyətlə əlaqələr əsasən yerli idarəçilik orqanlarında inkişaf etmişdir. Bu fəaliyyətin əsas məğzi ondan ibarətdir ki, dövlət orqanları ölkə əhalisinin və ya onun böyük hissəsinin maraq və tələbatlarının öyrənməli, öz siyasətinin tərkib hissəsinə çevirməli və dövlətlə cəmiyyət arasında maraqların balansını təmin etməlidir.

Eyni zamanda ictimaiyyətlə əlaqələr üzrə fəaliyyətin əsas məqsədi dövlət aparatının işində aşkarlıq, şəffaflıq və əlçatanlığın təmin edilməsi və dövlətlə cəmiyyət arasında əks əlaqənin, birliyin təmin edilməsinə yönəlməlidir. Dövlətin ictimayyətlə əlaqələr üzrə fəaliyyətinin əsas məqsədləri minimum olaraq 3 əsas ümumi elementdən ibarətdir: Dövlət oraqanın(təsisat) fəaliyyəti haqqında cəmiyyətin məlumatlandırılması; dövlət proqramlarında vətəndaşların iştirakçılığının yüksəldilməsi; müəyyən edilmiş strategiya və qəbul edilmiş proqrama ictimai dəstəyin təmin edilməsi.

Dövlət orqanlarının ictimayyətlə əlaqələr üzrə fəaliyyətinin məqsəd və istiqamətlərinin vahid hala gəlməsi onların missiyalarının hormonikliyini, effektivliyini müəyyən edir.

Dövlət struktunun statusundan asılı olaraq ictimaiyyətlə əlaqələr üzrə faəliyyətin funksiyaları genişləndirilə (məsələn, federal orqan) və

ya konkret səviyyədə məhdudlaşdırıla bilər (məsələn, bələdiyyə səviyyəsində). İctimaiyyətlə əlaqələr üzrə xidmətin idarəçilik səviyyəsi və xüsusiyyətləri arasında birbaşa asılılıq mövcuddur: regional və yerli orqanların hakimiyyəti, məsələn, vətəndaşlarla qarşılıqlı şəkildə daimi və təşkilati səviyyədə kommunikativ funksiya reallaşdırılır.Hakimiyyət orqanlarının ictimaiyyətlə əlaqələr üzrə fəaliyyətinin məqsədindən irəli gələrək ümumsosial, korporativ( qrup) və xüsusi maraqlarını təmin edilir [9].

Qeyd etmək lazımdır ki, əhalinin hakimiyyətə inamını yaratmaq dövlət strukturlarında PR-nin strategiyasını təşkil edən başlıca məqsəddir.

XXI əsrdə və xüsusilə də demokratiyanın mövcud olduğu ölkələrdə ictimai rəyin, ictimaiyyətlə əlaqələrin əhəmiyyəti danılmazdır. Bu ölkələrdə xalqın dəstək vermədiyi işlərin həyata keçirilməsi prosesi, ən az çətinliklərlə qarşılaşır. İctimaiyyətlə əlaqələr işi, hər hansı şəxs və ya qurumun münasibəti olan qrup ilə əlaqə qurması və ya mövcud olan əlaqələrini inkişaf etdirmək üçün göstərdikləri səylərin cəmidir [5].

Beynəlxalq İctimaiyyətlə Əlaqələr Birliyinin 1954-cü ildə keçirilən konqresində ictimaiyyətlə əlaqələr anlayışına belə bir tərif verilmişdir: “İctimaiyyətlə əlaqələr işi bir şirkətin, özəl və ya dövlət orqanının əlaqə qurduğu və ya qurmaq istədiyi şəxs yaxud da qrupların anlayış, simpatiya və dəstəyini qazanmaq və bunu davam etdirmək üçün həyata keçirtdiyi daimi və təşkilatlanmış bir idarəetmə funksiyasıdır [7].

İctimaiyyətlə  əlaqələr rəhbərliyin bir funksiyasıdır. İctimaiyyətlə əlaqələrdə məqsəd qarşı kütləni inandırmaq və bir hərəkətə istiqamətləndirməkdir.

İctimaiyyətlə əlaqələr qarşılıqlı ünsiyyət yəni qarşılıqlı əlaqəyə əsaslanan bir ünsiyyət prosesinə daxildir. İctimaiyyətə müəyyən məlumat verilərkən eyni zamanda ondan müəyyən bir məlumatlar alınmaqdadır. Məlumat və xəbərlər ictimaiyyətə təqdim olunmazdan öncə strukturun rəhbərliyinə çatdırılmalıdır. İctimaiyyətlə əlaqələr işini quran dövlət orqanı üçün ümid edilən fayda, qarşı kütlənin güvən və marağını qazanmaqdır. Dövlət orqanı xalqın maraq və etibarını qazandıqca gözlədiyi faydanı da ələ edəcək. İctimaiyyətlə əlaqələrdə ictimaiyyətin güvən və əlaqəsinin qiymətləndirilməsi lazımdır. Ancaq bu sahədə səhv addımlar və davranışlar təyin olunub, aradan qaldırıldıqdan sonra nöqsanlar tamamlana bilər.

İctimaiyyətlə əlaqələr, təşkilatın mənfəət məqsədi yönündə ictimai məsuliyyətinin də olduğunu sübut edəcək şəkildə davranmasına yardımçı olur. İctimaiyyətlə əlaqələr fəaliyyəti həm özəl, həm də ictimai sahədə tətbiq olunmaqdadır. İctimaiyyətlə əlaqələr fəaliyyəti bir dəfəyə təşkil edilən fəaliyyətdən çox, davamlı olaraq və bir plan çərçivəsində həyata keçirilən tədbirlər planıdır. İctimaiyyətlə əlaqələrin hədəf kütləsi həm təşkilat xarici ətraf mühit, həm də təşkilat daxili mühitdir.

İctimaiyyətlə əlaqələr sferasında idarəetmənin ən başlıca cəhətlərindən biri də odur ki, müvafiq sferaya pul əsasən kommersiya yolu ilə yox, əksinə maraqlı olan ən müxtəlif sahələrdən, vəsaitlərin cəlb olunması yolu ilə daxil olsun. Bu səbəbdən bazar iqtisadiyyatı şəraitində ictimaiyyətlə əlaqələrin real bizneslə geniş miqyasda əməkdaşlığı yarana bilər [2]. Qeyri-büdcə maliyyə mənbələrinin cəlb olunması, ictimaiyyətlə əlaqələr sahəsinin maliyyə, sənaye, ticarət kapitalı, ictimai təşkilatlarla daha aktiv əməkdaşlığı mədəni tarixi irsin qorunmasının, yaradıcılıq petensialının, mədəni həyatın inkişafının ən mühüm vasitəsi olur.

Müasir dövrdə həm dövlət, həm də özəl qurumların əsas məqsədlərindən biri ictimaiyyətlə yaxşı əlaqələr qurmaq və onlara yaxınlaşmaq arzusudur.

Dövlətlərin, şirkətlərin proqram və siyasətinin müəyyən olunması və bunların həyata keçirilməsi prosesində ictimai rəyin nəzərə alınması zərurəti, ictimaiyyətlə əlaqələr işini idarəetmənin vacib funksiyalarından birinə çevirmişdir. İctimaiyyətlə əlaqələr iki istiqamətli prosesdir. Bu prosesin tərəflərindən biri hər hansı bir şəxs və ya qurum, digəri isə bu şəxs və ya qurumun əlaqə qurmaq istədiyi ictimaiyyətdir. İctimaiyyət bir ölkənin bütün əhalisi ola biləcəyi kimi, sadəcə müştərilər, şəriklər və daha xüsusi bir qrup da ola bilər [6].

İctimaiyyətlə əlaqələr işini əhatə etməyən istər dövlət idarəetmə orqanlarının, istərsə də özəl qurumların strukturları tam hesab oluna bilməz. İctimaiyyətlə əlaqələr işi həm dövlət idarəetmə orqanlarının, həm də özəl qurumların ictimaiyyətlə əlaqə qurmaq vasitəsi ilə sağlam inkişafı və uzun müddətli məqsədlərinə çatması və dolayısı ilə də dövlətin iqtisadi inkişafı üçün artıq olmazsa olmaz şərtlərdəndir [11].

İctimaiyyətlə əlaqələrin hüquqi bazasına gəldikdə isə onun hüquqi bazasını - konstitusiya, referendumla qəbul edilmiş aktlar, qanunlar, fərmanlar, sərəncamlar, Nazirlər Kabinetinin qərarları, Mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları, bir sıra beynəlxalq müqavilələr, bəyannamələr, sazişlər, aktlar və s. normativ-hüquqi sənədlər təşkil edir.

Dövlət orqanlarında ictimaiyyətlə əlaqələr haqqında qanunların, konsepsiyaların qəbul edilməsinin nümunəsi kimi İngiltərəni göstərə bilərik. İngiltərədə PR konsepsiyasının yaranması və tətbiqi XX əsrin əvvəllərinə təsadüf edir. Həmin dövrdə Böyük Britaniyanın baş naziri İloyd Cordanın rəhbərliyi altında qanunu dəstəkləmək məqsədilə geniş kampaniya həyata keçirilmişdir [12].

İstənilən təşkilat və təşkilat rəhbəri səmərəli fəaliyyət göstərmək üçün lazım olan qanunlar tərtib etməklə yanaşı, həm də cəmiyyətdə imicinin formalaşdırılması və qorunub saxlanılması haqqında düşünməlidir.

Yuxarıda qeyd edildiyi kimi dövlət orqanlarında ictimaiyyətlə əlaqələr problemi müasir dövrün ən vacib məsələlərindən biri hesab olunur. "Public relations"ın təşkili və idarə olunması bu günün demokratik inkişaf, plüralizm, sosial dövlət prinsiplərini qəbul edən hər bir dövlətdə və eyni zamanda ölkə daxilində fəaliyyət göstərən qurumlar və şirkətlərdə aktual məsələ kimi qarşımıza çıxır. Onu da qeyd etmək lazımdır ki, PR sahəsinin inkişaf səviyyəsi cəmiyyətdə demokratiyanın səviyyəsi ilə birbaşa əlaqədardır. İctimaiyyətlə əlaqələr ictimai rəyə mühüm əhəmiyyət verən, onunla hesablaşan cəmiyyətin məhsuludur.

Demokratik və sərbəst bazar iqtisadiyyatını mənimsəmiş olan Azərbaycanda da onun idarəetmə qurumları, həmçinin, onun ərazisində fəaliyyət göstərən yerli və xarici şirkətlər üçün də PR-ın təşkili və idarə olunması çox vacib bir məsələdir.

Dövlət orqanlarında ictimaiyyətlə əlaqələr xidmətinin səmərəli fəaliyyəti üçün PR üzrə mütəxəssislərin olması da çox vacibdir. PR üzrə mütəxəssis ictimaiyyətlə əlaqələri necə qurmaq barədə məsləhət verən ekspertdir. O öz müştərisinin (rəhbərinin, bu dövlət orqanı da ola bilər) və ya hər hansı layihənin ictimaiyyət üçün maraq kəsb edən cəhətlərini müəyyənləşdirməyə çalışır. PR-men öz müştərisinin davranışı ilə ictimaiyyətin ümid və arzuları arasında uyğunluq və ziddiyyətləri aşkara çıxararaq, müvafiq tədbirlər planı hazırlayır. O, müştərisinə məsləhət görür ki, ictimaiyyətin tələb və arzularına güzəştə getmək üçün davranış modelini dəyişsin. Əgər müştəri onun məsləhətlərinə əməl edib davranış modelini dəyişməyə razı olarsa, PR-men hazırladığı plan əsasında müxtəlif üsullarla ictimaiyyətdə müştərisinin müsbət imicini yaradır. Plüralist cəmiyyətlər rəqabət cəmiyyəti olduğundan PR mütəxəssisi ictimaiyyəti inandırmağa çalışır ki, məhz onun müştərisi və ya onun layihəsi cəmiyyətin maraqlarına daha dolğun cavab verir. PR mütəxəssisi şəxsiyyət, təşkilat və ya ideya ilə ictimaiyyət arasında harmonik münasibətləri qurur, onları idarə edir və nəzarətdə saxlayır. Bir şeyi də nəzərə almaq lazımdır ki, pablik rileyşnz jurnalistika ilə bağlı peşədir. İlk peşəkar PR-menlərin çoxu da jurnalistikadan çıxmış adamlar olublar. Bu gün ABŞ-da PR ixtisasını öyrədən tədris kurslarının 75%-i jurnalistika fakültələrinin nəzdində fəaliyyət göstərir [1].

Yuxarıda göstərilənlərlə yanaşı bilmək lazımdır ki, Qərb ölkələrində dövlət səviyyəsində həyata keçirilən PR siyasəti bir aksioma əsaslanır: "Hökumət xalqın rifahı və əmin-amanlığı naminə işləməlidir, lakin xalq da arxayın olmalıdır ki, hökumət onun rifahı və əmin-amanlığı naminə səmərəli işləyir". Məhz bu inam iqtidara imkan verir ki, ölkədə sabitlik yaratsın və öz siyasətini sakit şəraitdə həyata keçirsin.

İctimaiyyətlə əlaqələr insanlara müəyyən informasiyadan istifadə etməyi təklif edir. Bu informasiyanın əsasında bu və ya başqa fikir və ideyaları könüllü şəkildə qəbul edib-etməməyi insanların öz öhdəsinə buraxır. Eyni zamanda ictimaiyyətlə əlaqələr mütləq şəkildə qarşılıqlı əlaqə mexanizmlərindən istifadə edir və təsir etdiyi auditoriyalardan "gələn siqnalları" nəzərə alır.

Ümumiyyətlə, günümüzdə hər hansı bir uğurlu müəssisəni (istər dövlət təşkilatı, istər qeyri-dövlət təşkilatı) ictimaiyyətlə əlaqələr şöbəsi olmadan təsəvvür etmək çətindir. İctimaiyyətlə əlaqələr sahəsində çalışan mütəxəssislər müəssisə və ictimaiyyət arasında qarşılıqlı faydalı əlaqələri asanlaşdırmağa xidmət edirlər. Onların düzgün fəaliyyəti nəticəsində müəssisələrin imici formalaşır.

Cəmiyyətdə ictimaiyyətlə əlaqələr sahəsinin

inkişaf səviyyəsi bu cəmiyyətdə demokratiyanın səviyyəsi ilə birbaşa bağlıdır və ictimaiyyətlə əlaqələr ictimai rəyə mühüm əhəmiyyət verən, onunla hesablaşan cəmiyyətin məhsuludur.

**Açar sözlər:** *ictimaiyyətlə əlaqənin tarixi, ictimaiyyətlə əlaqənin mahiyyəti, ictimaiyyətlə əlaqələrin hüquqi bazası, PR üzrə mütəxəssis.*

### ƏDƏBİYYAT SİYAHISI

*1. Əlibəyov V. N İctimaiyyətlə Əlaqələr. Bələdiyyələr üçün, Bakı, 2004, 144s.*

*2. Hüseynov İ , Əmirxanov S. İctimaiyyətlə əlaqələr, Ali məktəblər üçün dərslik, Bakı, 2017, 478 s.*

*3. Frank J. Public Relations, Fourth Edition, London: Pitman Publishing, 1992, pp. 55-58*

*4. Décaudin J.M, Igalens J. et Waller S. (2006). La Communication Interne, Stratégies et Techniques. Paris : Dunod.*

*5. Jean M.Van. Les Relations Publiques, Bruxelles: Labor, Les Relations Publiques, 1988, p. 3.*

*6. Jerry A. Hendrix, Public Relations Cases, Belmont: Wadsworth, 1998, p. 4*

*7. Lucien M. Relations Journal Public Relations Journal, April 1985, p. 24.*

*8. Lougovoy C.et Linon M, Les Relations Publiques, 1969, s.13*

*9. Марков А.А. Связи с общественностью в органах власти. Учебник.— М.: ИНФРА-М, 2014. — 190 с*

*10. Sem Blek. Pablik Rileyşnz. Bu nədir? - M.: Xəbərlər, 1990. - 239 c. https://az.wikipedia.org*

*11. Əliyev N. "Nəyi? Necə? Nə vaxt? – İctimaiyyətlə əlaqələrin idarə edilməsi" Bakı 2015 44 s.*

*12. http://unec.edu.az/application/uploads/2015/11/M-vzu-82.doc*

*13. http://kayzen.az/blog/PR/6319/pr-%C4%B1n-tarixi-haqqnda.html*

*14. http://kayzen.az/blog/PR/6286prm%C3%BCt%C9%99x%C9%99ssisi.html*

### SUMMARY

**Organization and management of public relations in public authorities**

In general, it is difficult to imagine today any successful enterprise (whether governmental or non-governmental) without the public relations department. Experts in the field of public relations serve to facilitate mutually beneficial relationships between business and the public. As a result of their smooth operation, the image of the enterprises is formed.

The level of public relations in the society is directly linked to the level of democracy in this society, and public relations is the product of society with which it attaches great importance to public opinion.

**Keywords:** *history of public relations, the essence of public relations, legal basis of public relations, PR specialist.*

### РЕЗЮМЕ

**Организация и управление связями с общественностью в государственных органах**

В целом трудно представить сегодня любое успешное предприятие (будь то правительственное или неправительственное) без отдела по связям с общественностью. Эксперты в области связей с общественностью служат для содействия взаимовыгодным отношениям между бизнесом и общественностью. В результате их плавной работы формируется имидж предприятий.

Уровень общественных отношений в обществе напрямую связан с уровнем демократии в этом обществе, а общественные отношения - это продукт общества, с которым он придает большое значение общественному мнению.

**Ключевые слова:** *история связей с общественностью, сущность общественных отношений, правовая основа общественных отношений, PR специалист.*

UOT 342-34

# İNFORMASİYA SİYASƏTİ İCTİMAİ RƏYİN FORMALAŞDIRILMASI KONTEKSTİNDƏ

**XALİD NİYAZOV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: xalid-555@mail.ru*

**Giriş**

Qloballaşmanın indiki mərhələsində məğlubiyyət və qələbələr kommunikativ texnologiyaların geniş istifadəsi ilə görünməz informasiya cəbhəsində reallaşır. Yaranmış durumda KİV-in ictimai rəyin formalaşmasında rolu bir qədər də artır. Çünki məhz KİV vahid informasiya məkanı yaradan, fərqli fikirləri vahid məxrəcdə bir araya gətirən, yekdil mövqe formalaşdıran institut və təsisatlar kompleksi kimi çıxış edir. Yenə də KİV sayəsində insanın və cəmiyyətin sosiomədəni dəyərləri formalaşır. Bütün bunlar istənilən cəmiyyətin informasiya və xəbərdən asılılıq dərəcəsinin dəqiq və ətraflı öyrənilməsini diqtə edir. Bu, ən azından qanunlar və real həyat arasında harmoniyanın yaradılması baxımından da vacibdir. İnsan və cəmiyyət həyatına medianın təsiri düzgün qiymətləndirilmədikdə bu, dəyərlər sisteminin, elm və incəsənətin, mənəviyyatın çöküşünə gətirib çıxarır [5,105]. Yeni müstəqillik dönəmində Azərbaycan cəmiyyətinin transformasiyası da özünü təkcə iqtisadi, siyasi, sosial sferada yox, mənəvi müstəvidə də göstərir ki, sonuncuya təsir edən ən böyük amillərdən biri məhz KİV-dir.

**Mediasfera və ictimai rəy**

Müxtəlif ictimai xarakterli problemləri qabartmaqla KİV istər cəmiyyətin, istərsə də ayrılıqda götürülmüş fərdlərin fikir və davranşılarına təsir edir. Özü də müasir dövrdə KİV-in texniki imkanlarının yüksəlməsi şəraitində bu təsir daha dinamik xarakter almağa başlamışdır. Hazırda KİV-in texniki alətlər "arsenal"ına yalnız çap mediası, radio və televiziya deyil, intenet və onun vasitəsilə sosial şəbəkələr də daxil olmuşdur. Azərbaycanda peyk yayımı, kabel radio və televiziyasının inkişafı KİV cəbhəsinin "cəbbəxana"sını daha da zənginləşdirmişdir. Təcrübə göstərir ki, audiovizual medianın, radio və televiziyanın, internetin, cəmiyyətə, xüsusilə də onun gənclərdən ibarət təbəqəsinə təsiri daha kütləvi və güclüdür. Əhatə dairəsi sürətlə genişlənən internet informasiyanın axtarışı və ötürülməsi baxımından digər vasiətələri qabaqladığından onun istifadəçi auditoriyası daha sürətlə genişlənir. Belə bir üstünlük yaradıcılıq və təlim üçün geniş imkanlar yaradır. Eyni zamanda, məhz onun əsasında virtual reallıq yaranır. Müasir dövrdə təhlükəli xəbər siyasətinin yürüdülməsi, yanlış ictimai rəyin formalaşdırılması, informasiya təhlükəsizliyinin pozulması halları özünü məhz internet məkanında daha çox büruzə verməyə başlayır. Həmçinin, internet üzərindən sosial şəbəkələr vasitəsilə təhlükəli təbliğatların qurulması da günümüzün reallığıdır və elə Azərbaycan təcrübəsində bunun çoxsaylı nümunələri vardır. Amma bu problemə qarşı düyna miqyasında hələ də səmərəli mübarizə təcrübəsi işlənib hazırlanmamışdır. İnternetə çıxışın məhdudlaşdırılması isə söz və məlumat azadlığına qəsd kimi dəyərləndirildyindən həmin variant məqbul sayılmır. Hazırda bu məsələ üzərində dünya miqyasında ən müxtəlif rakurslardan aktiv müzakirələr davam edir. Qeyd edilənlər öz növbəsində KİV təbliğatının mənfi tərəflərinin də mövcudluğunu ortaya qoymuş olur. Dezinformasiyaların yayılması və bunun geniş kütlə tərəfindən qəbuluna cəhdlərin göstərilməsi təbliğatın zərərli tərəflərindən hesab olunur [6, 34].

Digər tərəfdən, yeni texnologiyalar sayəsində müasir dövrdə KİV təbliğatı insanların təkcə davranış deyil, şüur və psixikasına əvvəlki dövrlərlə müqayisədə indi daha çox təsir göstərir. Çünki yeni texnologiyalar sayəsində ötürülən informasiyaların həcm və çeşidi yenə də böyük olaraq qalır və həmin informasiyaların mənbəyinin ölkə daxilində yaxud xaricdə yerləşməsi də artıq hər hansı bir əhəmiyyət kəsb etmir. Bu isə zərərli təbliğata qarşı mübarizənin səmərəlilik əmsalını azaldan amillər sırasında yer alır.

İctimai rəyi digər sosial fenomenlərdən

fərqləndirən əsas səciyyəvi məqam özünü aydın şəkildə büruzə verən təbii ifadə mexanizmlərinə malik olmasıdır. Xüsusən də media azadlığı şəraitində ictimai rəyin hansı istiqamətdə formalaşması özünü daha qabarıq şəkildə göstərir. Amma burada onu da nəzərə almaq lazımdır ki, əksər hallarda insanların bu və ya digər hadisə barədə fikirləri şərti xarakter daşıyır, biri-birinə yaxın olur və bu fikri hansı kontekstdə ifadə etməsindən əhəmiyyətli dərəcədə asılı olur. Bu səbəbdən ictimai rəyin hansısa sosial təbəqəni təmsil edən konkret və real adamların birmənalı fikri, yoxsa onların dediklərinin ümumiləşdirilməsinin nəticəsi olduğunu müəyyənləşdirmək çətindir. Eyni şəxsin, şəxslər qrupunun eyni suala verdikləri cavablar sosial tədqiqatların gedişində dəyişə bilir. Bütün bunlar ictimai rəyin formalaşdırılması prosesinin mürəkkəb xarakterindən xəbər verir və bu rəyi formalaşdıran mediadan böyük profesionallıq tələb edir.

Bununla belə, media bütün dövlərdə ictimai rəyin formalaşmasında xüsusi rol sahibi kimi çıxış edib və etməkdədir. İstənilən siyasi rejim, hətta ən repressiv rejim belə hakimiyyətin qəbul etdiyi qərarların ictimai rəy tərəfindən dəstəklənməsinə cəhdlər edir və bunu bilavasitə media üzərindən reallaşdırmağa çalışır. Bu da o deməkdir ki, heç bir hakimiyyət ictimai rəyə və onun formalaşmasında aparıcı rola malik mediaya biganə deyil. Belə bir məqamı da nəzərdən qaçırmaq olmaz ki, kütləvi kommunikasiya müasir cəmiyyətdə ən böyük hakimiyyət gücünə malik kateqoriya qismində qəbul olunur. Çünki mediaya yol tapa bilməyən fikrin, mövqenin ictimailəşməsi indiki şəraitdə mümkünsüz sayılır.

İnformasiya cəmiyyətlərinə keçid edən ölkələrdə sosial medianın rolu kifayət qədər yüksək, funksiyaları isə çoxşaxəlidir. Sirr deyil ki, sosial media, məsələn, “Facebook”, “Linkedin”, “Twitter” və digər bu kimi vətəndaş jurnalistikası adlanan vasitələr virtual və real məkan kimi olduqca təsirli bir vasitəyə çevrilmişlər. Onlardan bəzi hallarda ilkin məlumat mənbəyi kimi istifadə olunması təkcə yanlış məlumatların yayılması ilə məhdudlaşmır, eyni zamanda yanlış rəylərin formalaşmasına da səbəb olur. Buna görə də xəbər siyasətinin həyata keçirilməsi ilk növbədə səhihlik amili üzərində köklənməli, informasiyanın mənbəyi dəqiq olmalı, etibarlılığı yoxlanılmalıdır.

Paralel olaraq həmin informasiyanın ölkənin, cəmiyyətin mənafeləri baxımından məqbul yaxud qeyri-məqbul olması da müəyyənləşdirilməlidir. Təkzibedilməz faktdır ki, Azərbaycanda söz və məlumat azadlığı mövcuddur və bu praktiki olaraq qanunvericlik aktları, ölkənin qoşulduğu müxtəlif beynəlxalq konvensiyalarla öz təsdiqini tapmışdır. Lakin ən inkişaf etmiş demokratik Qərb dövlətlərinin təcrübəsində olduğu kimi, Azərbaycan da öz informasiya məkanını cəmiyyətə açıq-aşkar təhdid vəd edən informasiyalardan qorumaq hüququna malikdir. Eyni zamanda, bu məsələdə KİV-in də üzərinə böyük məsuliyyət düşür. Amma təəssüflər olsun ki, bəzi media quruluşları, xüsusilə də sosial medianı təmsil edən jurnalistika əksər hallarda sosial məsuliyyət hissini “unudur”. Onlar əldə etdikləri, bəzən isə məqsədyönlü şəkildə ötürülmüş məlumatların səhihliyini yoxlamadan, mexaniki şəkildə ictimailəşdirməklə ciddi fəsadlara yol açırlar. Bu mənada sosial jurnalistikanın fəaliyyətinin hansısa formada hüquqi tənzimlənməsini reallaşdırmağa böyük zərurət var və 2015-17-ci illərdə bununla bağlı bir sıra sahəvi qanunlara zəruri əlavvə və dəyişikliklər edilmişdir.

Bundan əlavə, bəzi transmilli media vasitələrinin də müxtəlif dövrlərdə Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsi hallarına təsadüf edilir və bu amillər informasiya məkanının daha ciddi qorunmasını zəruri edir. Akad. R. Mehdiyev bu xüsusda qeyd edir ki, “formasından və məzmunundan asılı olmayaraq, Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə istənilən qəsdə və ya qəsd cəhdlərinə, o cümlədən cəmiyyətin informasiya təhlükəsizliyini və milli maraqlarını təhdid edən hallara qarşı hüquqi çərçivədə zəruri addımlar atılmalıdır” [9]. Yəni, informasiya məkanında milli və dövlətçilik maraqlarının qorunması ehtiyacı ön plana keçməli, mahiyyətindən asılı olmayaraq, informasiyaya kifayət qədər həssas münasibət sərgilənməlidir.

Xəbər siyasətinin obyekti elmi nöqteyi-nəzərdən cəmiyyət həyatının informasiya sferasıdır. Əslində, xəbər siyasətinin obyektinin kifayət qədər geniş olduğunu, cəmiyyətdə kütləvi informasiya prosesini tam əhatə etdiyini söyləmək mümkündür. Xəbər siyasətinin məqsədi vətəndaşların və ölkənin informasiya təhlükəsizliyinin təmin edilməsi və bunun üçün zəruri nəzəri-praktiki metodların işlənib hazırlanmasıdır. Müasir dövrdə informasiya təhlükəsizliyi kontekstində həmin tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Şəbəkə texnologiyalarının getdikcə insan həyatına daha çox nüfuz etməsi, lokal şəbəkələrin birləşərək qloballaşması, mini-

mal təhlükəsizlik tələblərinə cavab verməyən proqramların sürətlə yayılması informasiya təhlükəsizliyinin etibarlı təminatını daha da aktuallaşdırır. İnformasiya təhlükəsizliyi dedikdə, informasiyanın və informasiya mühitinin təsadüfi yaxud düşünülmüş təbii və ya süni xarakterə malik təsirlərdən müdafiə vəziyyəti başa düşülür [3, 9]. Bu cür təsirlər vaxtında neytrallaşmadıqda onların təsiri altında formalaşan ictimai rəy də yanlış məqamlar üzərində köklənərək ölkə həyatı üçün ağır fəsadlar yarada bilir. Bu mənada informasiya təhlükəsizlyinin təmin edilməsi böyük əhəmiyyət kəsb edir və informasiya texnologiyalarının indiki inkişaf səviyyəsində xüsusi aktuallıq kəsb edir.

**Media və informasiya təhlükəsizliyi sipəri**

Dövlətin, cəmiyyətin, fərdlərin informasiya təhlükəsizliyinin təmin olunması biri-birindən qarşılıqlı asılılıqda həyata keçirilən prosesdir. İnformasiya müstəvisində milli maraqların xarici və daxili təhdidlərdən qorunması başqa ölkələr kimi Azərbaycanın da informasiya təhlükəsizliyini xarakterizə edir. Son araşdırmalara əsasən, belə bir təhlükəsizliyə nail olunması məqsədilə xüsusi təyinatlı informasiya-kommunikasiya sistemlərinin hazırlanması və istifadəyə yönləndirilməsi ön planda olmalıdır [7, 42-44].

Sirr deyil ki, Azərbaycan yenidən dövlət müstəqillyini əldə etdikdən sonra, ölkənin daxili və xarici siyasətinə təsir göstərə bilmək imkanlarını nəzərdən keçirən bəlli dairələr tərəfindən çoxsaylı informasiya və digər təbliğat vasitələri yaradılmışdır və həmin proses günü bu gün də davam etdirilməkdədir. Əsas etibarilə ölkə daxilində sabitliyin pozulmasına hesablanmış belə bir fəaliyyətin başlıca məqsədi Azərbaycanı əbədi xaos və qarşıdurmanın girdabına sürükləməkdir. Apriori, ölkəmizin informasiya təhlükəsizlyinin təmin edilməsi məlumat və xəbər vasitələrinə yad təsirlərin neytrallaşdırılmasından, aqressiv təbliğat kampaniyalarının qarşısının alınmasından asılıdır.

Azərbaycanın etibarlı informasiya təhlükəsizliyi çətirinin yaradılması, rəsmi dairələrin və mütəxəssislərin rəyinə görə, bütün ölkə səviyyəsində, vahid konsepsiya və fəaliyyət proqramı əsasında həyata keçrilməli, dövlətin daxili və xarici informasiya siyasəti, təbliğat və ideoloji işi sistemli formada və bir mərkəzdən idarə edilməlidir [1, 5]. Ərazilərimizin bir hissəssinin hələ də Ermənistan tərəfindən işğal olunması, təcavüzkar ölkənin erməni diasporunun yaxından iştirakı ilə Azərbaycana qarşı davamlı şəkildə informasiya müharibəsinin həyata keçirilməsi şəraitində bu məsələ aktuallığını həmişə qoruyur. Azərbaycanın informasiya təhlükəsizlyi siyasətinin əsas vəzifələrindən biri də həm özünün, həm də tərəfdaş region dövlətlərinin, transmilli informasiya vasitələrinin imkanlarından maksimum bəhrələnərək, beynəlxalq ictimaiyyətə çıxış kanalları və təsir mexanizmləri yaratmaqdan ibarətdir. Hər bir müstəqil dövlət kimi, Azərbaycanın da milli informasiya siyasətinin formalaşdırılması, ölkənin informasiya məkanının kənar qüvvələrin müdaxiləsindən və təsirindən maksimum qorunması, milli informasiya maraqlarının maksimum təmin edilməsi, dünyanın qlobal və virtual informasiya məkanına müxtəlif yollar tapılması, dünya ictimai rəyinə təsir imkanları yaradılması günün vacib vəzifələri sırasına daxildir [2, 144-145].

İnformasiya təhlükəsizliyinə yanaşmada üç prinsipial mövqeni fərqləndirmək mümkündür. Bunlardan birincisi informasiyanın, eləcə də onun toplanması, emalı, qorunması, ötürülməsi üzrə kompleks müdafiə tədbirlərini özündə ehtiva edir. İkinci şərt müxtəlif növ informasiya təsirlərindən müdafiənin necə təmin edilməsini və ya informasiya müharibəsində qalib gələ bilmək üçün ümumi tədbirlərin məcmusunu nəzərdə tutur. Sonuncu halda isə informasiya təhlükəsizliyi praktiki olaraq şəxsiyyətin, cəmiyyət və dövlətin həyat fəaliyyətinin informasiyaya bağlı bütün sferalarına sirayət etmiş olur. Göstərilən şərtlər daxilində V.İ. Yaroçkin informasiya təhlükəsizliyinə informasiyaya sanksiyalaşdırılmamış çıxışların qarşısının alınması, ötürülməsi və ya hər hansı qeyri-leqal formada istifadəsinin qarşısını alan tədbirlərin vahid mexanizmi kimi yanaşır [8, 22].

Müasir dövrdə müəllifin bəhs etdiyi vahid müdafiə mexanizminin yaradılmasını şərtləndirən çoxsaylı səbəblərdən biri də budur ki, günümüzdə müəyyən ölkələrin başqa dövlətlərə məxsus informasiya sistemləri üzərində nəzarəti ələ keçirmək cəhdlərinin artması müşahidə olunur, ictimai rəyin yanlış istiqamətə yönləndirilməsi, məqsədyönlü şəkildə idarə olunması cəhdlərinə rast gəlinir. Etibarlı müdafiə mexanizmlərinin yoxluğu şəraitində həmin cəhdlərin müvəffəqiyyətlə nəticələnməsinə dair yaxın tarixi əhatə edən misalların sayı kifayət qədərdir və ərəb coğrafiyasına nəzər salmaqla bunun əyani nümunələri ilə qarşılaşmaq mümkündür. Dövlətin cəmiyyət

üzərində nəzarəti itirməsi və idarəçilik institutunun zəifləməsinə yönəlik dezinformasiyaların yayılması sonda xaosa gətirib çıxarır. Çünki etibarlı informasiya təhlükəsizliyi təmin edilmədikdə informasiya məkanı konkret məqsədləri olan yad ünsürlərin əlinə keçir.

Azərbaycanın informasiya təhlükəsizliynə təhdid yaradan amillərə gəlincə, prof. Ə. Həsənov onları aşağıdakı şəkildə qruplaşdırır:

1. Xarici dövlətlərin (qüvvələrin) siyasi, iqtisadi, hərbi, kəşfiyyat və ideoloji strukturlarının öz maraqları çərçivəsində ölkənin informasiya sisteminə müdaxiləsi və onun milli maraqlarına qarşı fəaliyyəti.

2. Bəzi dövlətlərin və geosiyasi aktorların Azərbaycanı dünya informasiya məkanından sıxışdırmağa çalışması və ona qarşı təbliğat aparması.

3. Xarici ölkələrin və geostrateji mərkəzlərin kosmik, hava, dəniz, yerüstü texniki və digər kəşfiyyat vasitələrinin fəaliyyəti.

4. İnformasiya və telekommunikasiya vasitələrinin normal fəaliyyətinin pozulmasına, onlara qanunsuz daxilolmalara yönəlmiş xarici və daxili fəaliyyət və s. [2, 147-148].

Qeyd olunan təhdidlərin mahiyyətinə diqqət yetirdikdə aydın olur ki, informasiya təhlükəsizliyinin təmin edilməsi birdəfəlik akt deyil. Bu, fasiləsiz prosesdir, ən rasional metodların tətbiqi ilə müdafiə sisteminin daim inkişaf və təkmilləşməsini nəzərdə tutur və nəticədə zəif nöqtələr tədricən aradan qaldırılır. Digər tərəfdən, informasiya təhlükəsizliyi informasiyanın emalının bütün mərhələlərində arsenalda olan bütün müdafiə vasitələrinin kompleks istifadəsi şəraitində mümkün sayılır. Təcrübədə informasiya təhlükəsizliyinin aşağıdakı istiqamətlərini fərqləndirmək olar:

1. Hüquqi müdafiə sisteminin qurulması. Bu zaman xüsusi qanunlar, qaydalar, digər normativ aktlar, prosedur və tədbirlər vasitəsilə informasiya təhlükəsizliyi hüquqi aspektdə təmin olunur. Azərbaycanda bu istiqamətdə ötən dövr ərzində bir çox vacib addımlar atılmış, xüsusən də informasiya texnologiyalarının inkişafı ilə bağlı qanunvericilik bazası daha təkmil hala gətrilmişdir. “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”, “Məlumat azadlığı haqqında”, “Elektron sənəd və elektron imza haqqında”, “Dövlət sirri haqqında”, “Milli təhlükəsizlik haqqında”, “Telekommunikasiya haqqında” və digər qanunları buna misal göstərmək olar [11].

2. Təşkilati müdafiə vasitələrinin yaradılması. Belə müdafiə sisteminin yaradılması informasiya üçün təhdidin aradan qaldırılmasında təhlükə mənbəyinə qarşı reqlamentasiya fəaliyyətini, normativ-hüquqi aspektdə onun addımlarının zəiflədilməsini, aradan qaldırılmasını özündə ehtiva edir.

3. Mühəndis-texniki müdafiə sistemi isə kommersiya fəaliyyətinə yönəlmiş zərərləri önləmək məqsədilə müxtəlif texniki vasitələrdən istifadəni nəzərdə tutur. Təhlükə yaradan texniki vasitələrin, proqramların aşkarlanması da bura aid edilir.

4. İqtisadi metodlar əsasında qurulan müdafiə sistemi informasiya təhlükəsizliyinin təmin olunması üçün maliyyə sanksiyalarını, digər iqtisadi əsaslı tədbirlərin həyata keçirilməsini özündə cəmləşdirir.

Azərbaycan təcrübəsində diqqət yetirdikdə bütün bunların çox böyük əhəmiyyət daşıdığını müşahidə etmək mümkündür. Məsələ bundadır ki, müasir Azərbaycanın davamlı və dayanıqlı tinkişafında informasiyanın, rabitə və kommunikasiya texnologiyalarının yeri və rolu əhəmiyyətli dərəcədə artmışdır. Bu, həm də sosial-iqtisadi inkişafın innovativ texnologiyalar üzərində qurulmasından, ölkədə informasiya cəmiyyətinin yaradılmasından qaynaqlanır. Hesablamalar göstərir ki, 2025-ci ildən sonra ölkənin informasiya-kommunikasiya üzrə gəlirləri neftdən əldə olunan gəlirlərə çatacaq və sonrakı mərhələdə onu keçəcək. Cəmiyyətə, eləcə də Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımıza informasiyaların çatdırılması üçün informasiya-kommunikasiya texnologiyalarından istifadə davamlı surətdə genişləndirilir. Həmin texnologiyalar üzərindən yayımlanan informasiyaya müdaxilənin qarşısının alınması, dezinformasiyaların cəmiyyət həyatına daxil olmasının önlənməsi zəruri şərtdir və sabitliyin, təhlükəsizliyin əsas təminatları sırasında yer alır.

Hazırda ölkəmizdə informasiya təhlükəsizliyinin təmin olunmasında Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi mühüm rol oynayır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 26 sentyabr tarixli 708 nömrəli Fərmanına əsasən yaradılmış agentlik dövlət orqanları üçün xüsusi dövlət rabitəsini, Prezident rabitəsini, xüsusi təyinatlı informasiya-telekommunikasiya sistemlərini və şəbəkələrini, idarələrarası elektron sənəd dövriyyəsini, dövlət orqanlarının internet şəbəkəsi ilə əlaqəsini, onların

internet informasiya resurslarının məlumat və resurs mərkəzində yerləşdirilməsinin təşkilini, istismarını, təhlükəsizliyini və inkişafını təmin edən, dövlət orqanlarının informasiya sistemlərinin təhlükəsizlik parametrləri üzrə monitorinqini həyata keçirən, dövlət mühafizəsi obyektlərinin və mühafizə olunan obyektlərin təhlükəsizliyini təmin etmək məqsədi ilə xüsusi texniki tədbirləri hazırlayıb həyata keçirən qurumdur [10].

İnformasiya təhlükəsizliyi sahəsində dövlət siyasətinin hazırlanmasında və həyata keçirilməsində bilavasitə iştirak edən agentliyin fəaliyyəti əsas etibarı ilə dövlət qurumlarını əhatə edir.

"Heç şübhəsiz, belə bir məqsəd dövlət tərəfindən qəbul edilmiş müxtəlif proqram və konsepsiyalarda, məsələn, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında, Azərbaycan Respublikasında İnformasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramında nəzərdə tutulmuşdur və bu həm strateji, həm də ümumnəzəri nöqteyi-nəzərdən məqbul sayılır. Ancaq bununla belə, müasir dünyada beynəlxalq güclərin yeni konfiqurasiyası, beynəlxalq münasibətlərin yeni dünya sahmanına uyğun dizaynı, maraq və mənafelərin kooperasiya və differensiasiyası, mövcud siyasi reallıqlar şəraitində, habelə informasiya sferasında milli maraqların prioriteti və qorunmasının zərurətindən çıxış edərək şəxsiyyət - cəmiyyət - dövlət üçbucağında hər bir aktorun informasiya təhlükəsizliyinin qorunmasının informasiya siyasətinin sıradan deyil, başlıca, aparıcı məqsədinə çevrildiyinin vacibliyini təsbit etməyi də məqsədəuyğun sayırıq" [4].

Başqa sözlə, informasiya məkanının formalaşdırılması məqsədyönlü şəkildə reallaşdırılmalıdır ki, onu nəzarət edərək yönləndirmək mümkün olsun, neqativ təsir cəhdləri vaxtında və effektiv şəkildə neytrallaşdırılsın. Bu, ilk növbədə dövlət mənafeyinin, milli maraqların təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Azərbaycanın modern inkişafı, beynəlxalq miqyasda yüksək nüfuza malik dövlətə çevrilməsi, regionun lider dövləti statusunu daşıması, qlobal siyasətdə rolunu artması fonunda qeyd edilənlər ölkəmiz üçün xüsusi aktuallıq kəsb edir. Belə ki, qeyd olunanlar Ermənistanı, ona bağlı erməni lobbisini, düşmən maraqlarını təmsil edən müxtəlif dairələri ciddi surətdə narahat edir. Elə bu səbəbdən ictimai-siyasi sabitliyi pozmaq və ölkəmizə qarşı təxribatçı fəaliyyət cəhdlərinin hələ də səngimədiyi müşahidə olunur. Bu cür qüvvələr ilk olaraq Azərbaycanın milli maraqlarını hədəf alır, bunun üçün cəmiyyəti çaşdırmağa hesablanmış informasiya hücumlarından geniş istifadəyə cəhdlər göstərirlər.

## Nəticə

Beləliklə, milli maraqlar mövcud şərtləri nəzərə alaraq, cəmiyyətin elitası tərəfindən tərtib edilmiş dövlətin obyektiv ehtiyaclarıdır və o, vətəndaş cəmiyyətinin üzvlərini birləşdirən aparıcı qüvvədir. Mövcud şərtlər daxilində ictimai rəyə real təsir imkanlarına malik media oqanları məhz bu durumda cəmiyyətin obyektiv və operativ informasiya ehtiyacını təmin edərkən onu milli maraqlarla uzlaşdırmağı da bacarmalıdırlar. Bu o deməkdir ki, milli maraqların reallaşdırılmasında həyata keçirilən xəbər siyasəti və onun əsas daşıyıcısı olan medianın müstəsna rolu vardır. Cəmiyyətin ehtiyac duyduğu xəbər və məlumatlarla təmin edilməsi vətəndaşların yaşadıqları mühitin reallıqlarını müəyyən etməyə, dünyada gedən proseslərin ümumi mənzərəsini dəqiqləşdirməyə, davranış və problemli vəziyyətlərin həllində istiqamət seçimi etməyə geniş imkanlar verir.

Hazırda media-cəmiyyət-dövlət üçbucağında münasibətlər xalqın, dövlətin taleyi baxımından olduqca əhəmiyyətli vasitəyə çevrilmişdir və bu münasibətlər sistemində xəbər siyasəti artıq idarəetmənin həyata keçirilməsində mühüm funksional vahid qismində özünü göstərir. Medianın iştirakı olmadan hansısa məsələ ətrafında ictimai rəy yaradılması mümkünsüzdür. Amma bu ictimai rəyin informasiya təhlükəsizliyi şəraitində yaradılması da vacibdir, çünki bunun əksi xaos deməkdir. Milli təhlükəsizliyin təmin edilməsinin əsas tərkib elementlərindən biri qismində məhz hərətərəfli informasiya təminatının keçdiyini söyləmək mümkündür. Bu mənada dövriyyədə olan informasiyanın məzmunu, keyfiyyəti milli maraqlar, təhlükəsizlik baxımından proqnozlaşdırılmalı, müvafiq xəbər siyasəti həyata keçirilməlidir. Bu, ilk növbədə dövlət mənafeyinin, milli maraqların təmin edilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

**Açar sözlər:** *Azərbaycan dövləti, informasiya siyasəti, milli maraqlar, xəbər siyasəti, media, cəmiyyət.*

**İstifadə edilmiş ədəbiyyat:**

1. *“Azərbaycan“ qəzeti, 5 sentyabr 2011-ci il*
2. *Həsənov Ə.M. Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik Siyasəti. Letterperes Nəşriyyat evi. Bakı, 2011, 438 s.*
3. *İnformasiya təhlükəsizliyi, Dərslik, Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2016, 384 s.*
4. *Niyazov X. Dövlət informasiya siyasəti: klassik yanaşmalar, müasir konseptlər. “Strateji Təhlil”, № 3-4 (21-22), 2017, s. 209-222*
5. *Кара-Мурза С.Г. Манипуляция сознанием. М., 2005, 832 с.*
6. *Назаров Б.Н. Массовая коммуникация и общество. М., 2004, 323с.*
7. *Соколова И.В. Актуальные проблемы социальной информатики. (Конспект лекций) М., 2002, 321 с.*
8. *Ярочкин В.И. Безопасность информационных систем. М.: Ось-89, 1996, 296 с.*
9. *https://azertag.az/xeber/Ramiz_Mehdiyev_Vetenperverlik_milli_ dovletchiliye_sedaqet_milli_maraqlar_ugrunda_prinsipialliq_KIV_lerin_fealiyyetinin_baslica_ elementlerini_teskil_etmelidir-791939. 12.10.2017*
10. *https://dmx.gov.az/page/6.html 19.10.2017*
11. *http://e-qanun.az/print.php?internal*

**SUMMARY**

**Ensuring the national interests of Azerbaijan in the context of information security**

**Kh. Niyazov**

At any historical stage, one of the main obligations facing each state is to ensure national interests as much as possible. One of the primary conditions in achieving this goal is the correct formation of public opinion from the point of view of national interests. In this regard, the media have played and continue to play an important role in the internal politics of the country in terms of propagandist and promotional opportunities.

In accordance with the realities of the modern period, each country should have the ability to effectively use media activities to ensure its sustainable national security. As you know, the media have a mechanism of serious impact on people and public opinion. As a result of the external elements and activities of the enemy forces, this influence can cause serious damage to the national interests of each country. That is why, in order to create a safe information space in our country, which is in a state of martial law, special attention was paid to the information policy and to ensuring national interests in this sector. The establishment of state-media relations based on liberal-democratic values has also played an exceptional role in ensuring national interests.

**Key words:** *The Azerbaijani state, information politics, national interests, news policy, media, society*

**РЕЗЮМЕ**

**Обеспечение национальных интересов Азербайджана в контексте информационной безопасности**

**Х. Ниязов**

На любом историческом этапе одним из основных обязательств, стоящих перед каждым государством является максимальное обеспечение национальных интересов. Одним из первостепенных условий в достижении подобной цели является правильное формирование общественного мнения с точки зрения общегосударственных интересов. В этом отношении СМИ играли и продолжают играть важную роль во внутренней политике страны с точки зрения пропагандистских и поощрительных возможностей.

В соответствии с реалиями современного периода, каждая страна должна обладать способностью эффективно использовать деятельность медиа для обеспечения своей устойчивой национальной безопасности. Как известно, СМИ обладают механизмом серьезного воздействия на людей и общественное мнение. В результате внешних элементов и деятельности вражеских сил данное влияние может нанести серьезный ущерб национальным интересам каждой страны. Именно поэтому для создания безопасного информационного пространства в нашей республике, находящейся в военном положении, особое внимание было уделено информационной политике и обеспечению общенациональных интересов в данной сере. Исключительную роль в обеспечении национальных интересов также сыграло установление отношений государства и медиа на либерально-демократических ценностях.

**Ключевые слова:** *Азербайджанское государство, информационная политика, национальные интересы, новостная политика, медиа, общество.*

UOT:328;342,5;351/354

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ İNNOVATİV İNKİŞAF MEXANİZMLƏRİNİN TƏTBİQİ: DÜNYA TƏCRÜBƏSİNİN POLİTOLOJİ TƏHLİLİ

**FƏRİDƏ ƏLİRZAYEVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Politologiya və siyasi idarəetmə" kafedrasında kabinet müdiri, doktorant*

*E-mail: farida.alirzayeva@mail.ru*

Müasir dövrdə qərb siyasi elmində dövlət idarəçiliyinin təkmilləşdirilməsi məsələsinin tədqiq edilməsi aktuallıq kəsb edir. Dövlət idarəçiliyinin təkmilləşdirilməsi problemləri həm nəzəri, həm də təcrübi siyasət üçün əhəmiyyətlidir. XX əsrin 70-ci illərində Qərbin aparıcı ölkələrinin rəhbərləri dərk etdilər ki, dövlət idarəçiliyində köhnə sistem böhran zolağına daxil olub(13).

Lakin dövlət idarəçiliyinin təkmiləşdiriləməsi problemləri XX əsrin 80-ci illərinin sonunda xüsusi aktuallıq əldə etdi. Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində Böyük Britaniya,Almaniya, Niderland, Amerika Birləşmiş Ştatları və Fransada dövlət idarəçiliyi sahəsində islahatlar həyata keçirilmişdi. Bu islahatlar postsənaye cəmiyyətinin strukturlarının formalaşmasına, qlobal proseslərin və qlobal iqtisadi rəqabətin inkişafına, fövqəlmilli institutların meydana çıxmasına və vətəndaş cəmiyyətinin ümumdünya sahəsində inkişafına istiqamətlənmişdi.

Dövlət iadrəçiliyinin ənənəvi modelinin transformasiyası Böyük Britaniyada başladı və qısa müddətdə digər regionlarda da müşahidə olunmağa başladı. 1990-cı ildə yeni dövlət idarəetməsi bütün dünyada xüsusən, Şimali Amerika, Avropa, Avstraliya və Asiya-Sakit okean regionunda inzibati sistemlərin müasirləşdirməsinin üstün istiqamətlərindən biri oldu. Onun yayılmasına imkan yaratmış amillərdən biri, yeni dövlət idarəçiliyində islahatların müdafiəçiləri qismində çıxış etmiş Ümumdünya Bankının, Beynəlxalq Valyuta Fondunun və OESD-in ( İqtisadi və Əməkdaşlıq İnkişaf Təşkilatı) mövqeyi idi.

Məşhur amerika tədqiqatçısı Con Leyn "dövlət idarəetməsi" termininin mənşəyini öyrənərək belə nəticəyə gəlmişdir ki, müasir anlamda bu anlayış siyasi leksiona 1960-70-ci illərdə daxil olmuş, instisionallaşma(təsis etmə) və normativ aktların dövlət idarəçiliyində tətbiqi isə 1980-ci illərə təsadüf edir (5,s.45). İlk əvvəl siyasi xadimlər və dövlət qulluqçuları inzibati islahatlar həyata keçirdilər. Bu islahatlar dövlət idarəçiliyində səmərəliliyin artılmasına istiqamətlənmişdi. Daha sonra dövlət idarəçiliyinin təkmilləşdirilməsinə yönələn inzaibati islahatların nəticələri mütəxəssislər tərəfindən təhlil edildi.

Ümumdünya Bankının ekspertləri tərəfindən dünyanın müxtəlif regionlarının 14 ölkəsinin dövlət idarəçiliyi sahəsindəki islahatlar təcrübəsi təhlil edilmişdir.Ekspertlər bu islahatların əsas nəticələri kimi aşağıdakıları qeyd edirlər:

❖ dövlət xərclərinin azaldılması;

❖ hakimiyyətin siyasətin inkişafı və reallaşması qabiliyyətinin yüksəldilməsi;

❖ dövlətin işəgötürmə funksiyasının yaxşılaşdırılması;

❖ xidmətlərin göstərilməsi keyfiyyətinin yüksəldilməsi, əhalinin və fərdi sektorun hakimiyyətə olan etimadının möhkəmləndirilməsi(15,s35-41).

Hal-hazırda innovativ inkişaf şəratində dövlət idarəçiliyinin daha yüksək effektivliyinə və rəqabət qabiliyyətinə nail olmaq üçün dərin dəyişikliklər aparılır. Dövlət idarəçiliyinin bəzi nəzəriyyəçiləri bu dəyişiklikləri "antibürokratik idarəçilik inqilab"ı kimi dəyərləndirirlər.

Müasir dövlətlərin siyasətində dövlət idarəçiliyinin təkmilləşməsi ilə bağlı məsələlər əhəmiyyətli yer tutur. Dövlət idarəçiliyində səmərəliliyin artırılması yolları dünyanın müxtəlif regionlarında fərqlidir. Böyük Britaniya, Amerika Birləşmiş Ştatları,Avstraliya, Kanada, Almaniya, Çin, Cənubi Kareya eləcə də Avropa İttifaqının

mərkəzi qrumlarında xarici təcrübənin təhlili dövlət idarəçiliyində 2 əsas konsepsiyanı müəyyən etməyə imkan verir:

1. New Public Managment
2. Good Governance

Bu konsepsiyalar dövlət hakimiyyəti orqanlarının və yerli hakimiyyət orqanlarının fəaliyyətində səmərəliliyin əldə olunmasına yönəlib.

Ölkənin innovativ inkişaf şəraitində dövlət idarəçiliyinin təkmilləşdirilməsi aşağıdakıları nəzərdə tutur:

❖ əhalinin yüksək həyat keyfiyyətinin və rahatlığının təmin olunması;

❖ təsdiq olunmuş inzibati standarlar əsasında, elektron formatda dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi;

❖ dövlət idarəçiliyi sahəsində müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi;

❖ ictimai müzakirə portallarının fəaliyyəti, qanunlara və qanun layihələrinə düzəlişlərin edilməsi;

❖ müxtəlif sənədlərin hazırlanması, razılaşdırılması və verilməsi prosedurlarını sadələşdirmək üçün icra orqanlarının işində "bir pəncərə" prinsipinin tətbiqi və təkmilləşdirilməsi;

❖ dövlət və bələdiyyə hakimiyyət orqanlarının fəaliyyətində açıqlığa və şəffaflığa nəzarətin artırılması;

❖ dövlət və bələdiyyə xidmətlərində keyfiyyətin yüksəldilməsi;

❖ dövlət və bələdiyyə hakimiyyət orqanlarının fəaliyyətində səmərəliliyin artırılması;

❖ büdcə vəsaitlərinin xərclənməsi üzərində ictimai nəzarət sisteminin artırılması;

❖ saytda dövlət orqanının rəsmi pres-relezinin yerləşdirilməsi və dövlət orqanlarının fəaliyyətinin göstəricilərinin monitorinqinin həyata keçirilməsi.

"New Public managment" konsepsiyası Britaniya siyasi elminə 1990-cı illərin əvvəlində daxil olmuşdu(6,s.67). Britaniya mütəxissisləri bu konsepsiyanın 2 mühüm komponentini qeyd edirlər:

1) icra və dövlət qulluğunun təşkili, fəaliyyəti ilə bağlı bir sıra siyasi təlimlər;

2) inzibati islahatların gedişatında həyata keçirilmiş praktiki tədbirlərin kompleksi.

Beləliklə, "New Public Menecment"-in əsas məqsədi dövlət sektoru daxilində bazar proseslərini modelləşdirmək və biznesin idarə olunması texnologiyalarını ödəməkdir. Dövlət idarəçiliyi öz strukturlarında konkret islaahatlar həyata keçirir:

❖ özəlləşdirmə, mərkəzsizləşmə;

❖ bir sıra dövlət səlahiyyətlərinin bazar strukturlarına həvalə edilməsi;

❖ ixtisarlar hesabına dövlət aparatında xərclərin azaldılması;

❖ dövlət maliyyə və büdcə idarəetməsi mexanizmlərinin təkmilləşdirilməsini rəqabətli tender vasitəsilə həyata keçirir.

Dövlət idarəçiliyinin təkmilləşdirilməsinin yeni istiqaməti olan "Good Governance" 1990-cı illərin sonu və 2000-ci illərin əvvələrində formalaşmışdı. Bu istiqamət sosial problemləri həll edirdi. "Good Governance" anlayışı ilk dəfə 1992-ci ildə Ümumdünya Bankının iqtisadi inkişaf süahəsindəki illik konfransında müzakirə olunmuşdu(3). 1997-ci ildə insan resurslarının davamlı inkişafı üçün BMT-nin İnkişaf Proqramı olan "Governance" dərc edildi(11). Proqrama uyğun olaraq "Good Governance" dedikdə "iştirak,şəffaflıq,məsuliyyət,səmərəlilik,b ərabərlik, və qanunun aliliyi" başa düşülür. BMT-nin İnkişaf proqramı dövlət idarəçiliyinin aşağıdakı prinsiplərini bəyan edir:

- vətəndaşların dövlət qərarlarının qəbulunda iştirakı;
- qərarların qəbulunda razılıq;
- əks əlaqə;
- dövlət siyasətinin həyata keçirilməsində səmərəlilik;
- idarəetmə prosesində bütün iştirakçıların məsuliyyəti;
- dövlət idarəçiliyinin şəffaflığı;
- bərabərlik və qanunun aliliyi.

Qlobal miqyasda "Good Governance" modeli idarəetmə sisteminin optimal variantı hesab olunur. BMT hesab edir ki, "Good Governance" yoxsulluğun aradan qaldırılmasında və dövlətin inkişafında ən vacib amildir. Ancaq "Good Governance" özündən əvvəlki modelləri əvəz etmir, insan hüquqlarını əlavə etməklə onları tamamlayır(2). Bu model dövlət idarəçiliyində rəqəmsal əməliyyatların keçidinə və informasiya texnologiyalarına böyük üstünlük verir. O özündə daha sadə, çevik və insana yönəldilmiş strukturu ifadə edir.

Dövlət idarəçiliyinin yeni modeli mədəni-milli xüsusiyyətlərinə görə fərqlənməyə başladı. Siyasi rəhbərlik ölkənin mədəni,tarixi,iqtisadi və siyasi xüsusiyyətlərinə daha çox diqqət yetirir. 2004-cü ildə Böyük Britaniyada Müstəqil Komissiya dövlət idarəçiliyi Ofisinin dəstəyi ilə dövlətə xidmətlər üçün "Good Governance" Standartı"(12), 2011-ci ildə Avstraliyada "Starteji inkişaf və "Good Governance" ilə bağlı milli sənəd hazırlanmışdır(10).

Almaniyada İqtisadi Əməkdaşlıq və inkişaf Fe-

deral Nazirliyi "Good Governance" modelinin əsas ideyalarını təkcə öz ölkəsində deyil, tərəfdaş olduğu ölkələrdə - Qana, Botsvana, Braziliya,Tanzaniya, İndoneziya,Vyetnamda yaymaqla məşğuldur. Hər bir modeldə olduğu kimi "Good Governance" modelinində çatışmazlıqları vardır. Lakin ən əsası, bu model dövlət qərarlarının qəbul edilməsində cəmiyyətin geniş iştirakını təmin edir.

XX əsrin II yarısında dövlət idarəçiliyinin bütün modellərinə xas olan səmərəliliyin əsas səbəbi sənaye,sosial və innovativ siyasətlə sıx qarşılıqlı əlaqədə olmasıdır. Dövlət idarəçiliyində dövlət institutları ilə yanaşı, müxtəlif aktorlarda daim iştirak edirlər. Onlar həm açıq məkanlarda, həm də gizli sahələrdə fəaliyyət göstərirlər. Müqayisəli tədqiqatlar nəticəsində dövlətlər arasında dövlət idarəçiliyi modelləri üzrə bir sıra fərqləri müəyyənləşdirmək mümkündür. D.Ketl, U.Koulman, A.Koul, C.Brodbent, C.Feyk, C.Qrinevey, B.Solter, S.Xart, F.Qeyne, A.Qrantx kimi alimlər XXI əsrdə dövlət idarəçiliyinin funksional xüsusiyyətlərini təhlil etmişlər(7).

Bu gün dövlət idarəçiliyi sərt bir iyerarxik modellərdən daha çevik formalara doğru inkişaf edir və bu müddət ərzində hakimiyyətin konturagentlərinin sayı durmadan artır və onların qərar qəbulu mərkəzləri ilə müxtəlif əlaqələri genişlənir. Aydındır ki, bu səpgidən olan dəyişikliklər dövlət idarəetmə sistemində funksional və texnoloji dəyişiklikləri əks etdirir. Ənənəvi dövlət idarəetmə sistemində ciddi dəyişikliklərin baş verməsi sosial-iqtisadi xarakterli səbəblər üzündən daha çox müasir dünyada gedən dərin sosial dəyişikliklərlə izah oluna bilər.

İctimai inkişafın təmin edilməsində dövlətin qlobal miqyasda tədqiqi dövlət idarəçiliyinin keyfiyyətinin vacibliyini nümayiş etdirir.Ümumdünya Bankının "Dünya İnkişafı -2017" adlı hesabatda səmərəli innovativ dövlət ideyası dəstəklənir(14). Beləliklə, davamlı inkişafı təmin edə bilən innovativ dövlət idarəçiliyi qloballaşma trendi kimi qəbul olunur. Özünü yeni və təkmilləşdirilmiş siyasət, yaxud siyasi texnologiyalar formasında büruzə verən siyasi fəaliyyətin yekun nəticəsi tələbatların ödənilməsindən və dayanıqlı inkişafı təmin etməkdən ibarətdir(9).

İnnovativ dövlət idarəçiliyinin əsas məqsədləri aşağıdakılardır:

❖ innovativ fəaliyyət üçün iqtisadi, hüquqi və təşkilati şəraitin yaradılması;

❖ baza və təkmilləşdirilmiş innovasiyaların fəaliyyəti əsasında istehsalın səmərəliliyinin və yerli istehsal məhsullarının rəqabətə davamlılığını yüksəltmək;

❖ innovativ fəaliyyətin aktivləşməsinə, innovasiya sahəsində bazar münasibətlərinin və sahibkarlığın inkişafına dəstək;

❖ innovativ fəaliyyətin dövlət tərəfindən dəstəyinin genişləndirilməsi, innovativ fəaliyyətin inkişafı üçün ayrılmış dövlət resurslarından istifadə də effektivliyin artırılması;

❖ innovativ fəaliyyətin reallaşdırılmasında subyektlərin qarşılıqlı əlaqələrinin genişləndirilməsinə yardım;

❖ beynəlxalq bazarda daxili innovasiya məhsullarının dəstəklənməsi və ixrac potensialının inkişafı üzrə tədbirlərin həyata keçirilməsi;

❖ İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OESD) təklif edilmiş göstəricilərin müəyyən sistemi hər bir ölkədə dövlət idarəçiliyinin innovasiya modelinin reytinqini açıqlayır(8).Bu göstəricilərin əsas və əhəmiyyətli olması onunla izah olunur ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının əsas məqsədi iqtisadi inkişaf və dünya ictimaiyyətinin sosial rifahına yönəlmiş siyasəti inkişaf etdirməkdir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı hökumətlərin (Azərbaycan daxil olmaqla) birlikdə işləyə biləcəyi, təcrübə mübadiləsi və ümumi problemlərin həll edə biləcək bir forumdur(1).

Dövlət idarəçiliyinin innovasiya modeli, siyasi sistemin ümumi strategiyası çərçivəsində risklərin inkişafı və optimallaşdırılması üçün faydaları maksimuma çatdırmağa kömək edən prosesləri dəstəkləyir(4). Dövlət idarəçiliyinin innovasiya modeli 3 vəzifəni həyata keçirməyi nəzərdə tutur:

birincisi, strateji məqsədlərin reallaşması;

ikincisi, seçilmiş istiqamətlərə nəzarət edən müəyyən strukturların yaradılması;

üçüncüsü, problemin həllində bürokratik mexanizmin iştirak etməsinə imkan verən normativ aktların qəbulu.

Dövlət idarəçiliyinin innovasiya modelində mühüm rol oynayan siyasi-inzibati şəbəkələr qərarları fərdi deyil, sistemləşmiş səviyyədə qəbul edir. Dövlət qərarlarının qəbul edilməsində siyasi-inzibati şəbəkələrin formalaşması, davamlı inkişaf üçün resursları olan ayrı şəbəkələr yaratmağa imkan verir.

Azərbaycan Respublikasında dövlət idarəçiliyinin innovasiya modeli artıq kifayət qədər aydın şəkildə müəyyənləşdirilmişdir. İstehsalın texnoloji səviyyəsi və rəqabət qabiliyyətinin yaxşılaşdırılması, daxili və xarici bazarlara innovativ məhsulların istehsalının

təmin edilməsi, idxal olunan məhsulların daxili bazarda dəyişdirilməsi və sənaye istehsalının bu əsasda davamlı iqtisadi inkişaf mərhələsinə köçürülməsi üçün hüquqi, sosial-iqtisadi və təşkilati şərtlər yaradır. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev qeyd edirdi ki, innovasiya konreyerinin yaradılmasında məqsəd ondan ibarətdir ki, Azərbaycan iqtisadiyyatı bilik iqtisadiyyatına çevrilə bilər.

Azərbaycanda dövlət idarəçiliyinin innovasiya modelinin əsas istiqamətlərinə daxildir:

❖ innovativ fəaliyyətin normativ-hüquqi təminatının və onun stimullaşdırılması mexanizmlərinin hazırlanması və təkmilləşdirilməsi;

❖ ölkə iqtisadiyyatının innovativ inkişafına istiqamətlənmiş dövlət strategiyasının hazırlanması;

❖ innovativ inkişaf yoluna istiqamətlənmiş dövlət orqanlarının,iqtisadi və elmi qrumlar ilə əlaqəli fəaliyyətin təmin edilməsi;

❖ innovativ inkişafa həmçinin müxtəlif mülkiyyət formalarında innovativ strukturların inkişafı, kiçik innovativ sahibkarlığın dəstəklənməsi, dövlət,regional,sənaye sahələrində uzunmüddətli prioritet istiqamətləri innovasiya sferasında müəyyənləşdirmək,elm və texnologiya sahəsində əsas tədqiqatların inkişafını stimullaşdırmaq, müasir innovasiya infrastrukturunun fəaliyyətini və inkişafını dəstəkləmək və s. təsir edir.

Qeyd edək ki, Azərbaycanda dövlətin innovativ idarəçiliyinin ən vacib vəzifəsi məhsulun məhsuldarlığının və rəqabət qabiliyyətinin artırılmasına təsir göstərən elmi-texniki sahənin inkişafı üçün prioritetləri müəyyən etməkdir. Bunun üçün infrastrukturun cəmləşdiyi, innovasiya prosesinin aktivləşməsini təmin edən Azərbaycanın regionlarında texnologiya parkları, biznes inkubatorları, innovasiya və texniki mərkəzlər şəbəkəsini qurmaq üçün layihələr hazırlanır.

İnnovasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsinin əsas istiqamətini inkişaf və normativ-hüquqi bazanın təkmilləşdirilməsi təşkil edir. Son illərdə Azərbaycan Respublikasının prezidentinin fərmanları ilə elmi-texniki və innovativ fəaliyyətin maliyyə təminatının təşkili məsələlərini tənzimləyən bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdi. Bu normativ-hüquqi aktlar aşağıdakılardır:

- “Elm haqqında”;
- Müəlliflik hüquqları haqqında”;
- “Standartlaşma haqqında”;
- “Patent haqqında”;
- “Ticarət nişanları və coğrafi göstəricilər haqqında”;
- “Xüsusi iqtisadi zonaların yaradılması haqqında”;
- “Sənaye şəhərcikləri haqqında” və s.

Həmçinin ölkə daxilində bütün idarəetmə prosesinin avtomatlaşdırılmasına, dövlət idarəçiliyində səmərəliliyin artırılmasına və xərclərin azaldılmasına xidmət edən “Elektron Azərbaycan” dövlət proramının tətbiqi də uğurla davam edir.

Dünya ölkələrinin bu sahədə təcrübəsi kontekstində qeyd etmək lazımdır ki, xüsusən Amerika Birləşmiş Ştatlarında dövlətin innovativ idarəetmə modeli Azərbaycan modelindən fərqlənmir. Amerika Birləşmiş Ştatlarının innovativ inkişaf sahəsində dövlət siyasəti aşağıdakı məsələlərin həllinə yönəlmişdir:

- innovasiya sahəsində özəl sektorun fəaliyyətinin aktivləşməsinə;
- dünya bazarında rəqabətqabiliyyətinin artırılmasına imkan verən əlverişli şəraitin yaradılması kimi məsələlərin həllinə yönəlib;
- innovativ araşdırmaların və elmi tədqiqatların nəticələrinin kommersiyalaşmasını stimullaşdırmaq;
- rəqabətədavamlılığı dəstəkləmək üçün zəruri infrastrukturun yaradılması;
- ixtisaslı işçi qüvvəsinin formalaşdırılması.

Amerika Birləşmiş Ştatlarının bu sferada əldə etdiyi uğurları nəzərə alaraq deyə bilərik ki, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən seçilmiş yol bu sahədə qabaqcıl beynəlxaq təcrübəyə uyğun gəlir və yaxın gələcəkdə daha yaxşı nəticələr vəd edir.

**Ədəbiyyat siyahısı**

*1. Better_Life_Initiative http://www.oecdru.org/zip/*

*2. Good Governance in Practice. Approaches and Examples from Development Practice http://www.bmz.de/en/publications/ topics/good_governance*

*3. Governance and development. The World Bank documents.worldbank.org ›*

*4. Innovation policy : a guide for developing countrieshttp://documents.worldbank.org/curated/en/251181468340760891/Main-report*

*5. Jan-Erik Lane State Management: An Enquiry into Models of Public Administration & Management. Routledge; 1 edition (June 20, 2009) 192.p*

*6. John Greenwood , Robert Pyper. New Public Administration in Britain. Routledge– 13 Sep 2001. p. 296*

*7. Kettl D. The Transformation of Governance: Public Administration for Twenty-First Century America // The John Hopkins University Press, 2012.*

*8. OECD (207) OECD science, technology and industry outlook: overview of national innovation policy mix. OECD Science, Technology and R&D Statistics (database). doi:10.1787/data-00671-en. Accessed 16 Feb 2016*

*9. Research and Development Policy, Innovation Policy, and Industrial Policy: An Interface*

*10. Sustainable Development and Good Governance: The "Big Ideas" Influencing Australian NRM [URL: http://www.geog.utas.edu. au/geography/nrmgovernance/Documents/Report%203.pdf*

*11. The Good Governance Standard for Public Services [http://www.coe.int/t/dghl/standardsetting/media/doc/Good_Gov*

*12. The Good Governance Standard for Public Services http://www.coe.int/t/dghl/standardsetting/media/doc/*

*13. Wright Tony The problem of politics as a game. www/ise.ac.uk/politicsandpolicy/*

*14. Доклад о мировом развитии 2017: управление и право (Vol. 2) http://documents.vsemirnyjbank.org/World-Development-Report-2017-governance-and-the-law*

*15. Мэннинг Н. , Парисон Н. Реформа государственного управления: Международный опыт: - М. : весь мир, 2003. с. 495*

*16. Осборн Д., Пластрик П. Управление без бюрократов: Пять стратегий обновления государства. М., 2001. С. 19*

**Açar sözlər:** *dövlət idarəçiliyi, New Public Managment, Good Governance, innovativ inkişaf, innovasiya modeli.*

**XÜLASƏ**

**Dövlət idarəçiliyində innovativ inkişaf mexanizmlərinin tətbiqi: dünya təcrübəsinin politoloji təhlili**

Məqalədə dövlət idarəçiliyi və innovativ inkişa şəraitində dövlət idarəçiliyinin təkmilləşdirilməsinə yönələn inzaibati islahatların nəticələri mütəxəssislər tərəfindən təhlil edilir. Xarici təcrübənin təhlili nəticəsində dövlət idarəçiliyində 2 əsas konsepsiya: New Public Managment, Good Governance müəyyənləşdirilmiş və bu konsepsiyaların məqsədlərinədə diqqət yetirilmişdir.

Məqalədə dövlət idarəçiliyininin innovativ inkişaf modeli, bu modelin məqsədləri, həmçinin dünya ölkələrinin bu sahədə təcrübəsi kontekstində Azərbaycan Respublikasında dövlət idarəçiliyinin innovasiya modelinin istiqamət və vəzifələridə ətraflı şəkildə təhlil və şərh olunur.

**РЕЗЮМЕ**

**Применение механизмов инновационного развития в государственном управлении: политологический анализ мирового опыта**

В статье анализируются результаты реформ, направленных на совершенствование государственного управления в контексте инновационного развития. В результате анализа зарубежного опыта были определены две основные концепции государственного управления: новое государственное управление, надлежащее управление. Внимание было уделено в основном целям этих концепций.

В статье дается углубленный анализ и интерпретация модели государственного управления, инновационной модели государственного управления в контексте инновационных моделей государственного управления, целей этой модели и опыта стран мира в этой области.

**Ключевые слова:** *государственное управление, новое государственное управление, эффективное управление, инновационное развитие, инновационная модель.*

**SUMMARY**

**Application of innovative development mechanisms in public administration: a political science analysis of world experience**

The article analyzes the results of reforms aimed at improving public administration in the context of innovative development. As a result of the analysis of foreign experience, two basic concepts of public administration were identified: new public administration, good governance. Attention was mainly focused on the objectives of these concepts.

The article provides an in-depth analysis and interpretation of the model of public administration, the innovative model of public administration in the context of innovative models of public administration, the goals of this model and the experience of countries around the world in this area.

**Key words:** *public administration, new public administration, effective management, innovative development, innovative model.*

UOT 327; 339. 9
41.25.67



# AZƏRBAYCAN-TÜRKİYƏ HƏRBİ ƏMƏKDAŞLIĞININ İNKİŞAF DİNAMİKASI

**GÜLARƏ BAĞIROVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı*

Tarixi köklərini hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründən götürən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı bu gün yüksələn xəttlə inkişaf edir. Ötən ilin iyun ayında Azərbaycan Silahlı Qüvvələrinin və sentyabrın 15-də Bakı şəhərinin erməni-bolşevik işğalından azad edilməsinin 100 illiyinə həsr edilmiş hərbi paradlarda Türkiyə Respublikasının Prezidenti R.T.Ərdoğanın iştirak etməsi, iki ölkənin Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin Bakı səmasında uçuş nümayiş etdirməsi, türk və Azərbaycan əsgərlərinin birgə yürüşü bir daha iki ölkə arasında mövcud olan hərbi əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Sentyabrın 15-də Azadlıq meydanında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında hərbi əməkdaşlıq əlaqələrinin inkişafından danışaraq demişdir: “Bizim birliyimiz hər bir sahədə özünü göstərir, o cümlədən hərbi sahədə bizim iş birliyimiz, əməkdaşlığımız dərinləşir. İl ərzində bir neçə dəfə müştərək hərbi təlimlər keçirilir. Bu gün Türkiyə və Azərbaycan ordularının əsgərləri Azadlıq meydanında yan-yana dayanıblar və onlar bizim önümüzdən qardaş kimi keçəcəklər” [16].

Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi, digər tərəfdən Rusiyanın regionda surətlə Ermənistanı silahlandırması və iki ölkə arasında hərbi əməkdaşlıq əlaqələrinin ildən-ilə genişlənməsi, Ermənistanda yerləşən Rusiya hərbi bazalarının hərbi-texniki gücünün artırılması (1999-cu ildə Rusiya Ermənistandakı hərbi bazasında MiG-29-un sayını 22-yə çatdırmış və burada S-300 raket sistemlərini yerləşdirmişdir [18]) müstəqilliyin ilk illərində Azərbaycanın hərbi təhlükəsizliyinə təhdid yaradan amillər idi. Mövcud vəziyyətdə Azərbaycan üçün hərbi-siyasi müttəfiqlərin əldə edilməsi mühüm əhəmiyyət kəsb edirdi. Mütəxəssislərin də qeyd etdiyi kimi, 1994-2010-cu illərdə Azərbaycanda hərbi təhlükəsizlik siyasətinin formalaşdırılması, milli ordu quruculuğunun həyata keçirilməsi, regionda və dünyada Ermənistanın hərbi təcavüzünü pisləyən və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən siyasi və hərbi müttəfiqlərin axtarılması və s. təxirəsalınmaz tədbirlərin görülməsi milli fəaliyyətin ən vacib məsələləri sırasına çıxarılmışdır [32, s.4-5].

Mövcud vəziyyətdə Azərbaycan üçün Türkiyə kimi hərbi-siyasi müttəfiqin olması çox əhəmiyyətli idi. 2001-ci ilin mart ayında Türkiyə Böyük Millət Məclisində çıxış edən ölkə başçısı Heydər Əliyev bununla bağlı demişdir: “Türkiyə bizim üçün həm dostdur, həm qardaşdır, həm dayaq nöqtəsidir, həm də arxadır. Bilirsiniz ki, bizim Qafqaz bölgəsində vəziyyət çox yaxşı deyildir. Çünki biz, Azərbaycan, qonşu Ermənistanla savaşdayıq. Digər qonşularımızla münasibətlərimizdə çox problemlər var. Ona görə dünyada bizim bir nömrəli müttəfiqimiz, bir nömrəli dostumuz Türkiyədir. Bizim Türkiyənin köməyinə ehtiyacımız var. Yəni iqtisadi nöqteyi-nəzərdən bizim problemimiz yoxdur... Ancaq siyasi nöqteyi-nəzərdən, strateji nöqteyi-nəzərdən və Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması baxımından Türkiyənin yardımına çox ehtiyacımız var” [19].

Məlum olduğu kimi, Türkiyə hələ SSRİ-nin mövcud olduğu şəraitdə - 1991-ci il noyabrın 9-da Azərbaycanın dövlət müstəqilliyini tanıdı və 1992-ci il yanvarın 14-də iki ölkə arasında diplomatik əlaqələr quruldu. Türkiyə hökuməti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə ölkəmizə ilk gündən daim dəstək verərək problemin Azərbaycanın ərazi bütövlüyü və sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etmişdir. 1993-cü ildə Kəlbəcərin işğalından sonra Ermənistanla sərhədi bağlayan

Türkiyə bugünədək bu ölkə ilə diplomatik əlaqələr qurmamışdır.

Beləliklə də, Azərbaycan Türkiyə ilə hərbi sahədə əməkdaşlığa çox böyük önəm verirdi. Prezident Heydər Əliyevin 2001-ci il martın 12-dən 17-dək Türkiyəyə rəsmi səfərinin əsas məqsədlərindən biri də məhz iki ölkə arasında hərbi əməkdaşlıq haqqında müqavilənin imzalanması barədə müzakirələrin aparılması ilə bağlı idi. Ölkə başçısı martın 15-də Türkiyənin NTV televiziya kanalının əməkdaşlarına verdiyi müsahibəsində də iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığa dair müqavilənin imzalanmasının vacibliyini qeyd etmişdir [18]. Səfər zamanı Heydər Əliyevin Türkiyə Silahlı Qüvvələrinin baş qərargah rəisi Hüseyn Kıvrıkoğlu ilə təkbətək görüşündə də bu məsələ ilə bağlı müzakirələrin apırıldığı şübhə doğurmur.

2003-cü ilin oktyabr ayında “Gülüstan” sarayında çıxışı zamanı Azərbaycan Prezidenti İlham Əliyevin “Türkiyə haradadır, Azərbaycan da oradadır, Azərbaycan haradadır, Türkiyə də oradadır” [7] sözlərini söyləməsi Türkiyənin Azərbaycanın əsas müttəfiqi olduğunu bir daha nümayiş etdirdi və iki ölkə arasında münasibətlərin gələcək illərdə daha da genişlənəcəyinə əminlik yaratdı.

Əsası 1992-ci ilin avqust ayında Ankarada “Azərbaycan Respublikası Hökuməti ilə Turkiyə Respublikası Hökuməti arasında qarşılıqlı hərbi təlim-təhsil haqqında Muqavilə”nin imzalanması ilə qoyulan Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı 2010-cu ilin avqustunda “Strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə”nin [8] və həmin ilin sentyabrında “Azərbaycan və Türkiyənin Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə”nin imzalanması ilə yeni impuls almış oldu və qarşıdakı illərdə daha yeni sahələri əhatə edərək genişləndi. Azərbaycan-Türkiyə hərbi əməkdaşlıq məsələlərini araşdıran tədqiqatçı Ahmet Yücenin də qeyd etdiyi kimi, Azərbaycan-Türkiyə hərbi əməkdaşlığında 2010-cu il qarşılıqlı iş birliyi baxımından bir “zirvə ili” olmuşdur. Həmin ilin noyabr ayında Türkiyənin Müdafiə naziri Vecdi Gönülün Azərbaycana səfəri baş tutmuşdur. Səfər çərçivəsində nazir Azərbaycan Prezidenti ilə yanaşı Baş nazir, Müdafiə naziri, Müdafiə Sənayesi naziri və Dövlət Sərhəd Xidməti komandanı ilə görüşmüşdür. Keçirilən görüşlər zamanı V.Gönül Azərbaycanla bütün sahələrdə çalışmağa hazır olduqlarını bildirmişdir [2, s. 84].

Beləliklə, mövcud sənədlərin imzalanmasından sonra iki ölkə arasında hərbi əməkdaşlıq əlaqələri dinamik inkişaf edərək genişlənməyə başladı. Hazırda ölkələrarası hərbi əməkdaşlıq əlaqələrinin hüquqi bazasını çoxsaylı saziş və müqavilələr təşkil edir. İki ölkə arasında mövcud olan əməkdaşlıq əlaqələri demək olar ki, hərbi əməkdaşlığın bütün sahələrini əhatə edir. Bura hərbi-siyasi, hərbi-texniki, hərbi təhsil və təlim, hərbi maliyyə, hərbi tibb və s. sahələr daxildir.

Qeyd etmək lazımdır ki, 2007-ci ildən başlayaraq iki ölkə arasında Yüksək Səviyyəli Hərbi Dialoq (YSHD) iclasları keçirilir. YSHD iclaslarında hər iki ölkənin nümayəndə heyətləri Siyasi-Hərbi, Maddi-Texniki Təminat və Müdafiə Sənayesində Əməkdaşlıq üzrə yardımçı işci qruplarında əməkdaşlığın cari vəziyyətini müzakirə edir, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üzrə fəaliyyət istiqamətlərini müəyyən edir və iclasların nəticələrinə əsasən yekun Protokolunu imzalayırlar.

Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının əsas istiqamətlərindən birini hərbi təhsil sahəsində əlaqələr təşkil edir. Bu əlaqələrin əsası, qeyd edildiyi kimi, 1992-ci ilin avqust ayında “Qarşılıqlı hərbi təlim-təhsil haqqında müqavilə” və 1996-cı ilin iyun ayında “Hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında saziş”in [9] imzalanması ilə qoyulmuşdur və bu əlaqələr hazırda da uğurla inkişaf etməkdədir. Türkiyə Azərbaycana təhsil sahəsində yardım göstərən ölkələr sırasında birinci yerdədir. Qeyd etmək lazımdır ki, son illərə qədər 7000-dən çox azərbaycanlı zabit Türkiyə hərbi məktəblərində təhsil almışdır [24, s. 290] və almaqdadırlar. Eyni zamanda Türkiyə Azərbaycana hərbi təhsil müəssisələrinin yaradılmasında da çox böyük yardım göstərmişdir. Bu gün iki ölkənin hərbi təhsil müəssisələri arasında sıx əməkdaşlıq əlaqələri mövcuddur. Buna misal olaraq cari ilin aprel ayında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi rəisinin Türkiyəyə səfəri çərçivəsində Türkiyə Quru Qoşunları Hərbi Məktəbinin rəisi ilə görüşünü göstərmək olar. Görüşdə hər iki ölkənin hərbi təhsil müəssisələrinin müəllim-professor heyətinin qarşılıqlı səfərlərinin təşkili məsələləri müzakirə edilmişdir [6].

Azərbaycan-Türkiyə hərbi münasibətlərinin digər əsas istiqamətini hərbi-texniki əməkdaşlıq

təşkil edir. İki ölkə arasında mövcud sahədə əməkdaşlıq haqqında müqavilə ilk dəfə 2000-ci ilin sentyabr ayında imzalanmışdır [10]. 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin "Hərbi və hərbi-texniki əməkdaşlıq məsələləri" bölməsinə əsasən tərəflər müdafiə ehtiyacları və təhlükəsizliyi üçün müdafiə təyinatlı məhsulların və maddi-texniki vasitələrin təchizatı, müdafiə təyinatlı məhsulların yaradılması və istehsalı, müdafiə təyinatlı xidmətlərin təqdim edilməsi sahəsində əməkdaşlıq etmək barədə razılığa gəlmişdilər.

Ölkələrarası hərbi-texniki əməkdaşlığa hərbi silah və sursatların istehsalı üzrə birgə layihələrin həyata keçirilməsi, birgə müəssisələrinin yaradılması, hərbi məhsulların idxalı və ixracı, müdafiə sərgilərində iştirak və s. daxildir. Mövcud sahədə əməkdaşlıq hər iki ölkənin marağındadır. 2015-ci ilin mart ayında AzərTAc-a müsahibə verən Türkiyənin hazırkı xarici işlər naziri Mövlud Çavuşoğlu ölkəsinin Azərbaycanla hərbi və müdafiə sənayesi sahəsindəki əməkdaşlığı dərinləşdirmək niyyətində olduğunu vurğulayaraq demişdir: "Xüsusilə, hərbi və müdafiə sənayesi sahəsindəki əməkdaşlığımızı strateji cəhətdən, ümumi mənfəət və hədəflər çərçivəsində təkmilləşdirmək istəyirik" [21]. Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının 2017-ci ilin oktyabr ayında keçirilən 6-cı iclasında cıxış edən Azərbaycan Prezidenti İlham Əliyev də, öz növbəsində Azərbaycan üçün Türkiyə ilə hərbi-texniki sahədə əməkdaşlıq əlaqələrinin davam etdirilməsinin maraq kəsb etdiyini vurğulayaraq demişdir: "...hərbi-texniki sahədə birgə fəaliyyətimiz davam edir. Türkiyənin gündən-günə inkişaf edən hərbi sənaye kompleksi bizim üçün böyük maraq kəsb edir. Biz Türkiyədən hərbi təyinatlı məhsulları alırıq və bundan sonra da alacağıq" [11]. Məhz həmin iclasın yekununda Azərbaycan ilə Türkiyə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında Sazişin [12] imzalanması mövcud sahədə tərəflərarası əməkdaşlıq əlaqələrinin yeni mərhələyə qədəm qoymasına şərait yaratmış oldu.

Beləliklə, Türkiyə şirkətləri Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin (MSN) əməkdaşlıq etdiyi xarici ölkə şirkətləri arasında mühüm yer tutmaqdadırlar. MSN "Öztek", "ASELSAN", "Koza Teknik", "MKEK", "TİSAŞ", "Otokar", "HAVELSAN" şirkətləri ilə bir sıra hərbi məhsulların müştərək istehsalına nail olmuşdur. Məsələn, "Öztek" şirkəti ilə hərbi texnikaların termal və gecə görüş sistemlərinə görünməsini əngəlləyən multi-spektral örtüklərin, "Koza Teknik" şirkəti ilə təlim avadanlıqlarının, ASELSAN ilə müştərək modernizasiya işlərinin, termal görüş sistemlərinin və durbinlərin istehsalı daxildir [25].

1993-cü ildə rabitə sistemlərinə dair ilk müqavilənin imzalanması ilə başlanan ASELSAN Azərbaycan əməkdaşlığı 1998-ci ildə ilk müştərək "ASELSAN-Bakı" şirkətinin yaranması ilə davam etdi [4]. Azərbaycan ordusunun müasir texnika və avadanlıqlar ilə təmin edilməsi sahəsində bu şirkətin əhəmiyyətli rolu var. 1975-ci ildən Türkiyədə fəaliyyətə başlayan "ASELSAN" xaricdəki ilk şirkətini 1998-ci ildə məhz Azərbaycanda qurmuşdur. Bu şirkətin istehsal etdiyi hərbi rabitə vasitələri uzun illərdir Azərbaycan ordusunda geniş istifadə olunmaqdadır. Bura həmçinin "Şahin gözü" adlanan optik elektron sistemi, gecəgörmə cihazları və s. aiddir [5, s.77].

Bakıda keçirilən "ADEX-2018" Beynəlxalq müdafiə sərgisində iştirak edən "ASELSAN" şirkəti ilə Müdafiə Sənayesi Nazirliyi arasında rabitə vasitələrinin birgə istehsalına dair əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması [22] gələcək illərdə də mövcud əməkdaşlıq əlaqələrinin dinamik inkişaf etməsinə əminlik yaradır.

Bundan başqa, Türkiyədə tapança istehsalı üzrə aparıcı şirkətlərdən olan "TİSAŞ" ilə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi arasında əldə olunmuş razılaşmaya əsasən "Zigana K" və "Zigana F" modellərinin ölkəmizdə istehsalına icazə verilib. "Zəfər", "Zəfər-K" və "İnam" adı ilə Bakıda istehsal olunan bu tapançalar Azərbaycan Müdafiə Nazirliyinin heyət silahı olaraq seçilib [1]. "ADEX-2018" sərgisində iştirak edən "TİSAŞ" şirkətinin İdarə heyətinin nümayəndəsi Murat Aləmdaroğlu testlərin keçirilməsi üçün yeni model tapançaların Azərbaycana göndərildiyini qeyd etmişdir. Şirkət nümayəndəsi testlər keçirildikdən sonra müvafiq qərar verilərsə Azərbaycanla polimer gövdəli tapançaların da istehsalının həyata keçiriləcəyini söyləmişdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycan MDB ölkələri arasında Türkiyədən ən çox tapança alan ölkədir [26].

Azərbaycan Ordusunda geniş istifadə olunan

"Bora-12" snayper tüfənginin istehsalçısı olan MKEK şirkəti Türkiyənin top və müxtəlif artilleriya sursatlarının istehsalı üzrə aparıcı şirkətidir. Azərbaycan həmin şirkət ilə MP-5 tipli tapança-pulemyotunun birgə istehsalını həyata keçirir [30].

Bundan əlavə, Azərbaycan uzun illərdir Türkiyənin Otokar şirkəti ilə uğurlu əməkdaşlıq edir. Azərbaycan Ordusunun istifadəsində olan "Cobra" tipli zirehli döyüş maşını, ZPT tipli zirehli personal daşıyıcısı və "Land Rover Defender" tipli nəqliyyat vasitələri Türkiyənin Otokar şirkətinin məhsullarıdır. Azərbaycan Otokar ilə "Cobra" tipli zirehli maşınların birgə istehsalını həyata keçirmək niyyətindədir [29].

Türkiyənin HAVELSAN şirkəti Azərbaycanın hərbi təyinatlı simolyatorlara olan tələbatını qarşılayan başlıca şirkətlərdəndir. İlk dəfə Türkiyə milli müdafiə nazirliyinin maliyyə dəstəyi ilə AFOS artilleriya müşahidəçi simulyatorları dəsti Azərbaycan Silahlı Qüvvələrinin Təlim mərkəzində quraşdırılmışdır [31]. "ADEX-2018" Azərbaycan Müdafiə Sərgisində iştirak edən HAVELSAN şirkətinin Texnologiya və Elmi Araşdırmalar şöbəsinin direktoru Gökhan Özbilgin Azərbaycanla imzalanma mərhələsində olan nəzarət və idarəetmə texnologiyalarının istehsalı ilə də bağlı müqavilənin üzərində işlədiklərini söyləmişdir [17].

Yaxşı haldır ki, Türkiyə Müdafiə Sənayesi Katibliyinin təşkilatçılığı ilə Azərbaycanda mütəmadi olaraq Türkiyə müdafiə sənayesində iştirak edən şirkətlərin imkanlarına dair təqdimatlar təşkil edilir. Eyni zamanda, həmin şirkətlərin nümayəndələri Azərbaycanın müdafiə sənayesi müəssisələrində olarkən orada istehsal prosesi və məhsullarla tanış olurlar. Bu kimi görüşlərin keçirilməsi ölkələrarası hərbi-texniki əməkdaşlığın inkişaf etdirilməsində və genişlənməsində əhəmiyyətli rol oynayır və gələcək illərdə mövcud sahədə əməkdaşlıq perspektivlərinin müzakirəsi baxımından hər iki ölkə üçün bir platforma olacağına əminlik yaradır.

2013-cü ildən başlayaraq Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında birgə hərbi təlimlərin keçirilməsi hər iki ölkənin ordularının döyüş qabiliyyətinin artırılması, silahlı qüvvələr arasında təcrübə mübadiləsinin həyata keçirilməsi, müxtəlif qoşun növləri arasında qarşılıqlı fəaliyyətə nail olmaq baxımından böyük əhəmiyyət kəsb edir. İki ölkənin orduları arasında keçirilən və bütün qoşun növlərini əhatə edən təlimlərin sayı ildən-ilə artmaqdadır. Qeyd etmək lazımdır ki, 2013-cü ildə əgər planda 7 təlim var idisə, 2019-cu ildə bu təlimlərin sayı 13-ə çatmışdır [20]. 2019-cu il mayın 1-dən 3-dək "Mustafa Kamal Atatürk-2019" [33] , iyunun 7-dən 11-dək isə "Sarsılmaz qardaşlıq-2019" [34] Azərbaycan-Türkiyə döyüş atışlı birgə taktiki təlimlərinin keçirilməsi bir daha iki ölkə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu nümayiş etdirdi.

Qeyd etmək lazımdır ki, hazırda hərbi təlimlər üçtərəfli formatda da həyata keçirilir. Belə ki, ixrac neft və qaz boru kəmərlərinin təhlükəsizliyi, enerji və nəqliyyat infrastrukturlarının mühafizəsinin təşkili və gücləndirilməsi məqsədilə Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçuları arasında hər il birgə "ETERNITY" kompyuter dəstəkli komanda-qərargah və hər üç ölkənin Xüsusi Təyinatlı Qüvvələrinin "Qafqaz Qartalı" təlimi keçirilir.

Qeyd etmək lazımdır ki, hər iki ölkənin Hərbi Dəniz Qüvvələri, Daxili İşlər Nazirlikləri arasında, sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində də uğurlu əməkdaşlıq əlaqələri mövcuddur.

İki ölkə arasında hərbi tibb sahəsində də əməkdaşlıq əlaqələri çox yüksək səviyyədədir. Türkiyə Respublikası Azərbaycana hərbi tibb mütəxəssislərinin hazırlanması sahəsində dəstək verən ölkələr arasında ön sırada dayanır. Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasında təhsil almış və təkmilləşmə kursu keçmiş mütəxəssislər Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif tibb müəssisələrində xidmət göstərirlər. Eyni zamanda, türkiyəli mütəxəssislər tərəfindən mütəmadi olaraq Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin tələbə və rezidentlərinə mühazirələr oxunur, Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan xəstələrin konsultasiyası, azərbaycanlı həkimlərlə birgə cərrahi və ortopedik əməliyyatlar həyata keçirilir [13].

Hər iki ölkənin hərbi tibb mütəxəssislərinin qarşılıqlı səfərləri, hərbi təbabətin müasir problemlərinə həsr olunmuş elmi-praktik konfranslarda birgə iştirakı mövcud sahədə əməkdaşlıq əlaqələrinin inkişafında və genişləndirilməsində əhəmiyyətli rol oynayır. Bu baxımdan Gülhanə Hərbi Tibb Akademiyasının rəisi, korpus generalı Ömər Paçın 2015-ci ilin aprel ayında, Türkiyə Respublikası Silahlı Qüvvələrinin Tibb Xidməti

rəisi kontr-admiral Hayati Bilgiçin 2017-ci ilin iyun ayında [23] Bakıya səfəri zamanı Azərbaycanın Müdafiə naziri ilə görüşü mühüm əhəmiyyət kəsb edir. Hər iki görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi tibb sahəsində əməkdaşlıq yüksək qiymətləndirərək bu əlaqələrin idən-ilə genişləndiyi qeyd olunmuşdur.

Qeyd etmək lazımdır ki, iki ölkənin hərbi tibb mütəxəssisləri hərbi tibb təlimlərində də müştərək iştirak edirlər. Belə ki, 2017-ci ilin oktyabr ayında Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin üç həkiminin Türkiyənin Sağlamlıq Universiteti tərəfindən təşkil edilmiş təlimlər çərçivəsində Əskişəhər Yunus Əmrə Dövlət Xəstəxanasında hava və kosmos həkimliyi üzrə yüksək səviyyəli fizioloji təhsil kursunda və "Hipoksiya və hiperventilyasiya", "Barotravmalar", "Səs-küy və titrəyiş", "Hərəkət xəstəliyi", "Aviasiyada insan amilləri (HFACS)", "Aviasiya psixologiyası" mövzularında akademik təlimlərdə iştirakını buna misal göstərmək olar [14].

2018-ci ilin dekabr ayında Ankara şəhərində keçirilmiş Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclasının sonunda "Azərbaycan Respublikası hökuməti ilə Türkiyə Respublikası hökuməti arasında hərbi-tibb sahəsində təhsil və əməkdaşlıq haqqında" protokolun imzalanması qarşıdakı illərdə iki ölkənin mövcud sahədə əməkdaşlıq əlaqələrinin daha da genişlənməsinə zəmin yaradır [15].

Bir həqiqətdir ki, elə hərbi sahələr varki, bunlarda Azərbaycan yüksək təcrübəyə malikdir. Məsələn, Türkiyə minatəmizləmə sahəsində Azərbaycan təcrübəsinə maraq göstərir. Belə ki, Türkiyə Müdafiə Nazirliyinin minatəmizləmə mərkəzi rəhbərinin Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (ANAMA-nın) təcrübəsini öyrənmək məqsədilə Azərbaycana səfər etməsini və əməliyyatların aparıldığı ərazilərdə olmasını göstərmək olar [3].

Azərbaycan ilə Türkiyə arasında hərbi sahədə əlaqələrin möhkəmlənməsində önəmli rol oynayan məqamlardan biri də hər iki ölkənin hərbi qulluqçularının və onların ailə üzvlərinin qarşılıqlı səfərləridir. Belə ki, Azərbaycan və Türkiyə hökumətləri arasında hərbi-mülki heyətin sosial və mədəni səfərlərinin təşkilinin təmin olunması ilə bağlı Azərbaycanın Müdafiə nazirinin əmrinə əsasən 2017-ci ilin iyul ayında [27] və 2018-ci ilin avqust ayında [28] türkiyəli zabitlər və onların ailə üzvləri Bakı, Gəncə, Şəki, Şəmkir və Göygöldə olaraq ölkəmizin zəngin mədəni irsi, qədim tarixi abidələri ilə tanış olmuş, onlar üçün təşkil edilmiş konsert proqramında iştirak etmişdilər. Belə səfərlərin təşkili hər iki xalqın digər tərəfin tarixi və mədəniyyəti ilə tanışlığına imkan yaratmaqla yanaşı ölkələrarası münasibətlərin genişlənməsinə də xidmət edir.

Göründüyü kimi, Türkiyə bu gün Azərbaycanın hərbi sahədə ən mühüm tərəfdaşıdır. İki ölkə arasında hərbi əməkdaşlıq əlaqələrinin ildən-ilə genişlənməsi, birgə keçirilən hərbi təlimlərin sayının artması bunu söyləməyə əsas verir. Hərbi əməkdaşlığın bütün sahələrini əhatə edən bu əlaqələr iki ölkənin orduları arasında sıx münasibətlərin qurulmasına xidmət edir və ən başlıcası, bu əlaqələrin yüksələn xəttlə inkişaf etməsi regionun təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

Azərbaycan dilində:

*1. ADEX-2018: TİSAŞ yeni polimer tapançalarını Azərbaycanla birgə istehsal edə bilər. 28.09.2018 - http://az.azeridefence.com/adex-2018-tisas-yeni-polimer-tapancalarini-azerbaycanla-birge-istehsal-ede-biler/*

*2. Ahmet Yüce. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı (2003-2015). //"Hərbi bilik" jurnalı, 2016. N 1*

*3. ANAMA minatəmizləmə potensialını gücləndirir – müsahibə 11.09.2015 - http://az.azeridefence.com/anama-minatemizleme-potensialini-guclendirir-musahibe/*

*4. "ASELSAN-Bakı" yeni sektorlara yönəlməyi planlaşdırır. 22.04.2017 - http://az.azeridefence.com/aselsan-baki-yeni-sektorlara-yonelmeyi-planlasdirir/*

*5. "ASELSAN"ın Türkiyə milli müdafiə sənayesinin yaranmasında həlledici rolu. //Azimut. "Hərbi bilik" jurnalının elmi-nəzəri bülleteni.2016, N 1, s.77-79*

*6. Azərbaycan Ali Hərbi Məktəbinin rəisi Türkiyədə bir sıra görüşlərdə iştirak edib. 18.04.2019 . https://mod.gov.az/az/news/azerbaycan-ali-herbi-mektebinin-reisi-turkiyede-bir-sira-goruslerde-istirak-edib-26516.html).*

*7. Azərbaycan Respublikasının Prezidenti İlham*

*Əliyevin yekun nitqi. 31.10.2003. s. 7 - http://files.preslib.az/site/ialiyev/2003.pdf*

*8. Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə. http://www.e-qanun.az/framework/21158*

*9. Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi təlim, texniki və elmi sahədə əməkdaşlıq haqqında saziş. 10.06.1996 (məxvi) - http://mfa.gov.az/files/file/Turkiye.pdf*

*10. Azərbaycan və Türkiyə arasında hərbi əməkdaşlıq inkişaf etdirilməlidir – nazir Vecdi Gönül (müsahibə). 10.03.2011 - https://az.trend.az/azerbaijan/politics/1842626.html*

*11. Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. 31.10.2017 - https://president.az/articles/25649*

*12. "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. - http://www.e-qanun.az/alpidata/framework/data/38/f_38157.htm*

*13. Azərbaycan və Türkiyə hərbi təbabət sahəsində əməkdaşlıq məsələlərini müzakirə ediblər. 30.09.2014 - http://az.trend.az/news/politics/2317465.html*

*14. Azərbaycanlı hərbi həkimlər Türkiyədə təlim keçiblər. 13.10.2017. - http://kaspi.az/az/azerbaycanli-herbi-hekimler-turkiyede-telim-kecibler/pages/config/xml/pages/q/pdf/config.xml*

*15. Azərbaycan-Türkiyə 11-ci Yüksək Səviyyəli Hərbi Dialoq İclası başa çatıb. 20.12.2018 - https://mod.gov.az/az/news/azerbaycan-turkiye-11-ci-yuksek-seviyyeli-herbi-dialoq-iclasi-basa-catib-25244.html*

*16. Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda İlham Əliyevin nitqi. 15.09.2018 - https://president.az/articles/30012*

*17. HAVELSAN: Azərbaycanla yeni texnologiyaların istehsalı üzrə müqavilə üzərində işləyirik. 28.09.2018 .*

*- https://ordu.az/az/news/141002/havelsan-azerbaycanla-yeni-texnologiyalarinin-istehsali-uzre-muqavile-uzerinde-isleyirik*

*18. Heydər Əliyevin TÜRKİYƏNİN NTV TELEVİZİYA KANALININ ƏMƏKDAŞLARI İRFAN SAPMAZ VƏ DİDƏM TUNCAYA VERDİYİ MÜSAHİBƏSİ (15 mart 2001) s. 222 - http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf*

*19. Heydər Əliyevin Türkiyə Böyük Millət Məclisində çıxışı. 13.03.2001 - http://files.preslib.az/projects/toplu/v2/f3_11.pdf*

*20. Həsənov Z.: Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində əsaslı islahatlar aparılır. 18.06.2019 - https://mod.gov.az/az/news/zakir-hesenov-prezident-ilham-eliyevin-rehberliyi-ile-azerbaycan-silahli-quvveler-inde-esasli-islahatlar-aparilir-27324.html*

*21. Mövlud Çavuşoğlu: Türkiyə Azərbaycanla hərbi sahədə əməkdaşlığı ümumi hədəflər çərçivəsində təkmilləşdirmək istəyir. 05.03.2015 https://azertag.az/xeber/Movlud_CHavusoglu_Turkiye_Azerbaycanla_herbi_sahede_emekdasligi_umumu_hedefler_cherchivesinde__tekmillesdirmek_isteyir-837126*

*22. MSN ilə ASELSAN arasında memorandum imzalanıb. 25.09.2018. - http://az.azeridefence.com/msn-ile-aselsan-arasinda-memorandum-imzalanib/*

*23. Müdafiə naziri Türkiyə Silahlı Qüvvələrinin Tibb Xidməti rəisi ilə görüşüb. 13.06.2017 - https://mod.gov.az/az/news/mudafie-naziri-turkiye-silahli-quvvelerinin-tibb-xidmeti-reisi-ile-gorusub-18895.html*

*24. Müstəqil Azərbaycanın 25 ili səfirlərin gözü ilə /məqalələr toplusu/. Bakı: "BEST-TMS" MMC, 2016, 645 s.*

*25. Süleymanov R. Azərbaycan HSK: layihələr, imkanlar və perspektivlər. 27.01.2012 - http://az.azeridefence.com/azrbaycan-hsk-layihlr-imkanlar-v-perspektivlr*

*26. Türkiyə Azərbaycana 4351 tapanca satıb. 23.06.2014 – http://news.lent.az/news/170541*

*27. Türkiyənin bir qrup zabit heyətinin ölkəmizə səfəri başa çatıb. 14.07.2017 - https://mod.gov.az/az/news/turkiyenin-bir-qrup-zabit-heyetinin-olkemize-seferi-basa-catib-19252.html*

*28. Türkiyəli hərbi qulluqçular ailə üzvləri ilə birlikdə Azərbaycanda səfərdədir. 03.08.2018 – https://mod.gov.az/az/news/turkiyeli-herbi-qulluqcular-aile-uzvleri-ile-birlikde-azerbaycanda-seferdedir-23716.html*

*Türk dilində:*

*29. Azerbaycan ve Türkiye arasında askeri alım ve savunma sanayi projeleri... - http://www.trsavunmasanayi.com/2018/07/azerbaycan-turkiye-silah-ticareti.html*

*30. Azerbaycan-Türkiye Silah Ticareti. - http://www.trsavunmasanayi.com/2018/07/azerbaycan-turkiye-silah-ticareti.html*

*Rus dilində:*

*31. ВС Азербайджана намерены закупить в Турции новый симулятор артиллерийского огня. 17.06.2014. http://news.mail.ru/inworld/azerbaijan/politics/18581177/?frommail=1*

*32. Ниязов Н.С. Основные векторы политики военной безопасности Азербайджанской Республики в 1994-2010 годы. Санкт-Петербург, 2010, 208 с.*

*Internet resursları:*

*33. https://mod.gov.az/az/news/olkemizde-azerbaycan-turkiye-birge-herbi-telimi-kecirilecek-video-26562.html 22.04.2019*

*34. https://mod.gov.az/az/news/naxcivanda-sar-silmaz-qardasliq-2019-azerbaycan-turkiye-birge-doyus-atisli-taktiki-telimi-baslayib-video-27148.html 07.06.2019*

**Açar sözlər:** *Azərbaycan Respublikası, Türkiyə Respublikası, ikitərəfli hərbi əməkdaşlıq, birgə hərbi təlimlər, hərbi təhsil, hərbi-texniki əməkdaşlıq*

**Гюляра Багирова**
**Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики**

**Динамика развития азербайджано-турецкого военного сотрудничества**

**РЕЗЮМЕ**

Берущая свои исторические корни со времен Азербайджанской Демократической Республики азербайджано-турецкое военное сотрудничество, сегодня успешно развивается по восходящей линии. Двусторонние военные взаимоотношения охватывают, можно сказать, все области военного сотрудничества. Сюда входит военно-политическое, военно-техническое сотрудничество, а также сотрудничество в области военного образования, военной медицины и т.д.

Начиная с 2013 года, между вооруженными силами Азербайджана и Турции проводятся совместные военные учения, основная цель которых достижение координации взаимодействия между военными подразделениями армий двух стран, а также развитие навыков ведения совместных операций.

Азербайджано-турецкое военное сотрудничество сегодня успешно развивается также в многостороннем формате.

В статье исследованы вопросы двустороннего военного сотрудничества, в частности динамика развития этих отношений.

**Ключевые слова:** *Азербайджанская Республика, Турецкая Республика, двустороннее и многостороннее военное сотрудничество, совместные военные учение, военное образование, военно-техническое сотрудничество.*

**Gulara Bagirova**
**PhD student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**The development dynamics of military cooperation between Azerbaijan and Turkey**

**SUMMARY**

Taking its historical roots from the times of the Azerbaijan Democratic Republic, the military cooperation between Azerbaijan and Turkey is successfully developing on the ascending line. Bilateral military relations cover all areas of military cooperation. This includes military-political, military-technical cooperation, as well as cooperation in military-educational, military-medical fields.

Starting from 2013, joint military exercises are held between armed forces of Azerbaijan and Turkey, the main goal of which is to achieve coordination of interaction between the military units of two countries' armies, as well as the development of joint operations skills.

Today military cooperation between Azerbaijan and Turkey is also successfully developing in a multilateral format.

The article examines bilateral military cooperation issues, in particular the development dynamics of these relations.

**Key words:** *Azerbaijan Republic, Republic of Turkey, bilateral military cooperation, joint military exercises, military education, military-technical cooperation.*

**UOT 327**
**41.25.19**

**НИГЯР БАЙРАМОВА**
*Доцент Академии государственного управления при Президенте Азербайджанской Республики*

# АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ АНАЛИЗА ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ В УСЛОВИЯХ ПОСТБИПОЛЯРНОСТИ

Динамичная и сложнопрогнозируемая трансформация мировых политических процессов, начавшихся на рубеже XX и XXI веков, актуализирует проблему формирования геополитических интересов государств в условиях сложной конфигурации постбиполярного развития. Взаимозависимость мировых акторов, усиливающаяся в условиях глобализации, интенсификация интеграционных экономических процессов, приводящих к ускоренному росту международных разновекторных сил, демонстрируют нарастающие «темпы эрозии однополярного мира и результаты этого процесса не заставят себя долго ждать».(4.с.5) Массивный объем фактов, свидетельствующих о новых трендах международной политики, в большинстве несут достаточно конфликтогенный потенциал, что актуализирует в научной среде дискуссии о диалектике геополитического и мирового порядка, во многом определяющих процесс формирования геополитических интересов государств как субъектов мировой политики.

Мировой порядок можно рассматривать не только как желательное состояние системы международных отношений, но и как комплекс идей, теорий и доктрин его формирования, а также реальную политику и практику его построения, функционирования и развития. Следует отметить, что по поводу фундамента самой конструкции мировой порядок аналитики, принадлежащие к разным исследовательским школам, тем не менее близки к примерно идентичному ее определению как к относительному консенсусу, достигнутого группой государств по правилам политической игры на международном поле. Примечательно, что под правилами, как показывает наш анализ, в большей мере подразумеваются не столько существующие нормы и принципы международного права, сколько межгосударственные договора и политические соглашения. Ряд исследователей, апеллируя к тем фактам, что международное право регулирует достаточно узкий спектр межгосударственных отношений и не все его принципы обладают импера¬тивной силой, а иногда даже юридической силой вообще, ставят под большое сомнение эффективность международного права как объективного регулятора мирового порядка. Наиболее ярким представителем этого круга научного сообщества является известный американский политолог Питер Харрис, считающий, что «мировой порядок предлагает широкое разнообразие нормативных предписаний, которые государственные деятели могут использовать и используют в оправдание самых разных действий. Мировой порядок - это путаный, часто оспариваемый и весьма противоречивый набор заявленных правил».(17). Для Азербайджана, чье самостоятельное вступление в постбиполярный мир кратно осложнялось агрессивным армянским сепаратизмом в Нагорном Карабахе и оккупационными действиями соседней Армении, введшей терроризм в ранг государственный политики, хорошо знакомы неписанные, но действующие норм двойных стандартов. Президент Азербайджана Ильхам Алиев четко определяет, что наличие двойных стандартов свидетельствует, что «принципы международного права уже не играют особо большой роли. Поэтому каждая страна должна стараться максимально рассчитывать на собственные ресурсы. На самом деле мы уже

много лет проводили эту политику. Основная цель заключалась в том, чтобы ни от кого не зависеть в экономическом отношении. Добившись экономической независимости, мы, конечно, увереннее предпринимаем политические шаги и в большей степени защищаем интересы нашей страны».(2).

Для геополитического порядка важнейшими признаками выступают традиционные категории «жизненных интересов и зон влияния". Профессор Пристонского университета, авторитетный специалист в сфере международных отношений Джон Айкенберри считает, что после каждой большой войны, такой как Наполеоновские войны периода 1815г., Первой мировой войны, мировой порядок претерпевает кардинальные изменения, выдвигая новых значимых акторов и формируя новые полюса геополитического противоборства. (14.p.72). Международные события огромного значения, имевшие место после завершения Второй мировой войны, радикально изменили существующий миропорядок, не только в контексте признания новых независимых государств, но и формировании нового, не имеющего в истории аналога, политического и социально-экономического ландшафта. Даже формальный характер заявленных ООН в конце Второй мировой войны принципов и норм способствовал кардинальным изменениям мирового порядка. Значительную роль в этом процессе международных трансформаций определял геополитический порядок, так как потенциальная угроза Третьей мировой войны устанавливала под прикрытием реально жестокого идеологического противоборства красные линии в принятии военно-стратегических решений руководством стран как Западной Европы, так и социалистического блока.

Надо признать, что фактическое конструирование мирового порядка обеспечивалось возросшими после Второй мировой войны экономическими ресурсами США и выражалось в создании институциональных и многосторонних структур, международных финансовых институтов и необычайно плотной сети трансатлантических и тихоокеанских отношений и альянсов. Эти факторы в совокупности, как считает Дж. Айкенберри, определили победу США в холодной войне. «Сегодня,- пишет Айкенберри,- никто не подвергает сомнению тот факт, что богатство и власть смещаются с Севера и Запада на Восток и Юг, и старый порядок, в котором доминировали США и Европа, сменяется новым, где все большую роль играют набирающие силу государства, не принадлежащие к Западу. Хотя США, вне всякого сомнения, прошли верхнюю точку своей мощи и гегемонии, на которой они находились в эпоху однополярного мира, их сила остается непревзойденной. Их богатство и технологические преимущества находятся далеко за пределами досягаемости Китая и России, не говоря уже об Иране» (15.p.112).

Классическая геополитическая «территориальная» парадигма постулирует мировое пространство как сегментированное поле протяженных в пространстве объектов, представленных государствами и сферами влияния. (11.p.455). Мы можем констатировать, что на современном этапе происходит новое переформатирование геополитического порядка в крайне неопределенных условиях, которые американские аналитики считают формирующейся мультиполярной системой (13.p.9), российские исследователи определяют как «полицентричное мироустройство» (6.c.135). В этом контексте руководитель Администрации Президента Азербайджанской Республики, академик Национальной Академии Наук Азербайджана Рамиз Мехтиев определяет это состояние мирового порядка как постбиполярный мир в условиях неустойчивых глобальных процессов высказывает аргументированное предположение о том, что «выстраивание нового баланса сил происходит в условиях усиления конкуренции, соперничества ценностных ориентиров, возникновения новых опасных очагов противостояния, углубления разделительных линий. Одним словом, ключевой характеристикой современного постбиполярного миропорядка является новое соперничество между мировыми центрами силы»(9).

Современная система мировой политики имеет многоаспектный характер, совмещая в себе фундаментальные основы Вестфальской системы международных отношений: принцип государственного суверенитета, баланс сил,

национальные интересы, а так же новые тренды глобального развития: концентрация информационных ресурсов, гибридные и сетевые войны, перераспределение игроков на глобальном рынке энергетики, новая индустриализация, интенсивная миграция, учащение мировых кризисов, неформальный контроль одних акторов над другими и т.д. Геополитика, непривязанная к чисто территориальным, классическим параметрам, трактуется как сложносоставный феномен мировой политики так как практика международных отношений в исторической ретроспективе до сих пор не знала подобного глобального и взаимосвязанного мироустройства. (10.с.5).

Мировая политика в ее ставшим классическом определении "глобального взаимодействия", введенным в научный оборот в США еще в 70-е годы XX века в фундаментальном исследовании Дж. Ная-мл. и Р.Кеохейна, трансформирует состояние «изолированных цивилизаций» в глобальную внутренне взаимосвязанную систему с интенсивными моделями обмена и отчетливыми моделями власти, иерархии и неравенства». (16.р.244). Разнообразные политики реализуются в международном пространстве не только государствами, но такими негосударственными акторами. как внутригосударственные регионы, неправительственные организации и движения, ТНК и крупнейшие сетевые структуры, которые в комплексе несут маркирующий признак геополитических интересов. Этот признак, на наш взгляд, вполне закономерен, так как многие из обозначенных акторов имеют инструменты, позволяющие установить контроль не только над ресурсами, но и политическими элитами, определяющими государственный курс. В этой связи можно утверждать, что анализ геополитических интересов органично включает исследование интересов и ценностей как правящей элиты, так и контрэлиты, причем, как в параметрах государства, так и в глобальных масштабах. В вышедшей недавно книге «Победители получают все: шарада элит меняет мир» американского исследователя Ананда Гиридхарадаша раскрывается, как идеология неоатлантизма воздействует на геополитические интересы и национальную безопасность различных акторов мировой политики. (12).

Актуальный вопрос современной геополитики де-факто можно обозначить в параметрах аксиологического дискурса, определяющим ценности и интересы каких государств и/ или негосударственных образований будут формировать институциональную и нормативную структуру миропорядка как ближайшего будущего, так и на более длительный период. В международной практике и теории международных отношений известны различные подходы к анализу геополитических интересов. В рамках академических западных исследований, хотя надо признать их исследовательскую неоднородность, преобладает сочетание нормативного и эмпирического подходов с опорой на крупные теоретические концепты, такие как неореализм, неолиберализм, конструктивизм. При этом каждый подход предлагает свой набор показателей и критериев, характеризующих артикуляцию геополитических интересов. Главным различием этих теоретических концептов выступает противоположность понимания геополитики: для реалистов ее суть заключается в межгосударственных конфликтах за право доминирования с целью реализации своих геополитических интересов в международной среде, а для либералов — в стремлении к сотрудничеству и устранению внутренних и внешних препятствий к глобальному развитию.

В российской геополитической школе процессы артикуляции и агрегации геополитических интересов определяются в основном в следующих направлениях: первое- «неоимперское», аккумулирующие два элемента сверхдержавы: мощь ядерного оружия России и значительные запасы комплекса ресурсов первого класса (углеводороды. пахотные земли, запасы питьевой воды ит.д.)(7.с.5), второе- алармистское, постулирующее губительное воздействие на национальную безопасность РФ ряда геополитических факторов: транснациональных кампаний на национальное государство, интенсификацию миграцинных процессов на размывание национальной идентичности, информационных и сетевых технологий на рост антиправительственных настроений и пропаганду терроризма(8), третье направление, на наш взгляд, реалистическое, которое исходит

из постулата необходимости преодоления неоимперских амбиций. В частности, как пишет А. Арбатов, Россия должна твердо отстаивать свои интересы, но необходимо перераспределять объем военных расходов на социальные нужды, внешнеполитические мероприятия, науку, инновационные технологии.(4).

С учетом реалий последних десяти–пятнадцати лет и, с большой долей вероятности, ближайших десятилетий при оценке показателей и критериев межгосударственной и внутригосударственной военно-политической обстановки, как и геостратегической обстановки в мирное время особую роль будут играть субъективные культурно-исторические и военно-политические особенности участников международного взаимодействия, которые формируют широкую глобальную среду и одновременно существенно влияют на соотношение сил при решении конкретных международных проблем.

Сложность научных исследований современных геополитических процессов вызывают изменения в мировом порядке, всё более динамично склоняющегося в сторону многополярности. В этой связи актуальным, но все еще преимущественно поисковым направлением, является анализ геополитических ориентиров восточных держав, таких как КНР и Индии. Вероятно, анализ геополитических интересов этих стран пока не достаточно интегрирован в комплекс устоявшихся геополитических моделей «жесткой» и «мягкой» силы в международном взаимодействии. Тем не менее, именно учет долговременных факторов, тесно связанных с культурной и внутриполитической эволюцией восточных обществ, позволяет предметно оценить многие крупные проблемы, в частности значимость китайского ядерного фактора в контексте региональной конфликтной проблематики и формирования системы отношений с мировыми державами и странами регионального окружения, в том числе, и Азербайджаном.

Азербайджанская Республика, являясь частью глобального мира и располагаясь в очень важном для мировых геополитических, геоэкономических и геостратегических процессов регионе, естественно, занимает значимое место в геополитических интересах ведущих игроков мировой политики. Выстраивание нового баланса сил происходит в условиях усиления конкуренции, соперничества ценностных ориентиров, возникновения новых опасных очагов противостояния, углубления разделительных линий. Президент Азербайджана Ильхам Алиев на заседании Кабинета Министров, посвященном итогам социально-экономического развития в 2017 году и предстоящим задачам, отметил: «Сегодня в различных уголках мира возрастают риски, угрозы, широкий размах приобретают кровавые конфликты, противостояния. В Азербайджане же обеспечиваются стабильность, безопасность, нормальная жизнь. Считаю, что с учетом существующей в сегодняшнем мире сложной геополитической обстановки результаты, достигнутые у нас в этой сфере, заслуживают высокой оценки»(1).

Таким образом, методология анализа формирования геополитических интересов строится на принципах социальной диалектики и предполагает внесение динамического элемента цикличности, предполагающей: во-первых, триггера, осуществляющего в силу различных факторов «прорывное смещение» (государство или коалиция государств); во-вторых, последовавшее за этим стремительное нарушение баланса сил на мировой арене; в- третьих, закономерное стремление системы к «восстановлению равновесия», естественно, на ином качественном уровне. Такой подход позволяет с высокой степенью объективности оценить изменения системных способностей ведущих акторов мировой политики к геополитическим трансформациям. Адекватный данной методологии анализ формирования геополитических интересов акторов мировой политики открывает значительные возможности проведения инициативной государственной политики с учетом положительных и негативных стимулов внутристрановой или международной среды, принятия превентивных мер и рациональных политических решений.

**ЛИТЕРАТУРА**

*1. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası*

*keçirilib.10 yanvar 2018. https://president.az/articles/26709*

*2. İlham Əliyevin Real televiziyasına müsahibəsi https://azertag.az/xeber/Prezident_Ilham_Aliyevin_Real_televiziyasina_musahibesi*

*3. Актуальные проблемы глобальных исследований: формирование полицентричной модели современного мироустройства. –М-МГУ.2016*

*4. .Арбатов А. А. Без неоимперской риторики и грозных деклараций*

*5. Бартош, А. А Основы международной безопасности. Организации обеспечения международной безопасности.-М:Юрайт, 2018*

*6. Глобальные процессы и новые форматы многостороннего сотрудничества. Сб. / под редакцией И.В. Ильина. – М.: МГУ. 2016. – 282 с.*

*7. Гольцов. А.Г. Трансформация геополитического порядка на постсоветском пространстве. Полития. № 1 (80) 2016.*

*8. Косов В.Панин В. Индикаторы геополитической составляющей политических процессов. http://mx.pglu.ru/science/*

*9. Мехтиев Рамиз. Постбиполярный мир в условиях неустойчивых глобальных процессов./ www.br.az/politics/20190201093551859.html*

*10. Хелд Д., Гольдблатт Д., Макгрю Э. и др. Глобальные трансформации. Политика, экономика, культура. -М.: Праксис, 2004.*

*11. Agnew J. Sovereignty regimes: territoriality and state authority in contemporary world politics // Annals of the Association of American geographers. 2005. Vol. 95, No. 2 https://www.academia.edu/2223481*

*12. Anand Giridharadas. Winners Take All: The Elite Charade of Changing the World. , Knopf; First Edition, August 28, 2018*

*13. C. Dale Walton. Geopolitics and the Great Powers in the 21st Century. Routledge; July 20, 2007.*

*14. G. John Ikenberry. After Victory: Institutions, Strategic Restraint, and the Rebuilding of Order After Major Wars. Princeton University Press, December 15, 2000.*

*15. G. John Ikenberry. Liberal Leviathan: The Origins, Crisis, and Transformation of the American World Order. Princeton University Press, Mar 21, 2011.*

*16. Keohane O. R., Nye S. J. Transnational Relations and World Politics. Cambridge, Massachusetts: Harvard University Press, 1972.*

*17. Peter Harris. Losing the International Order: Westphalia, Liberalism and Current World Crises. The National Interest. November 10, 2015. https://nationalinterest.org/feature/losing-the-international.*

**Ключевые слова:** *геополитика, геополитический анализ, мировой порядок, Азербайджан, геополитический интерес, мультиполярность, постбиполярность, национальная безопасность.*

## SUMMARY

**Nigar Bajramova, Associate Professor of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

The article «Actual problems of analyzing geopolitical interests in post-bipolar conditions» explores modern categories of world order and geopolitical order and reveals their interdependence. The author compares the specifics of different geopolitical schools. The directions of the analysis of reformatting the geopolitical order in extremely uncertain conditions are presented. The author substantiates the important place of Azerbaijan in the geopolitical interests of the leading players of world politics.

**Keywords:** *geopolitics, geopolitical analysis, world order, Azerbaijan, geopolitical interest, multipolarity, post-bipolarity, national security.*

## XÜLASƏ

**Nigar Bayramova, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti**

“Postbiqütblük şəraitində geosiyasi maraqların təhlilinin aktual problemləri” adlanan məqalədə dünya düzəni və geosiyasi düzənin müasir kateqoriyaları tədqiq edilir və onların qarşılıqlı asılılığı açıqlanır. Müəllif müxtəlif geosiyasi məktəblərin spesifikasını müqayisə edir. Olduqca əlverişsiz şəraitlərdə geosiyasi düzənin təkrar formatlanmasının təhlil edilməsinin istiqamətləri təqdim edilmişdir. Müəllif dünya siyasətinin aparıcı oyunçularının geosiyasi maraqlarında Azərbaycanın mühüm yerini əsaslandırır.

**Açar sözlər:** *geosiyasət, geosiyasi təhlil, dünya düzəni, Azərbaycan, geosiyasi maraq, multiqütblülük, postbiqütblülük, milli təhlükəsizlik.*

UOT 327; 339.9
41.25.67

# ENERJİ TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ AZƏRBAYCAN - TÜRKİYƏ ƏMƏKDAŞLIĞINI ŞƏRTLƏNDİRƏN ZƏRURİ AMİLLƏR

**ÖMÜR KERİM İŞIK**
*Bakı Slavyan Universiteti, doktorant*

*E-mail: omurkerim@hotmail.com*

Azərbaycan Respublikasının enerji təhlükəsizliyi sahəsində beynəlxalq əlaqələrində Türkiyə əvəzedilməz yer tutur.

Haqqında bəhs edilən sahədə Azərbaycan-Türkiyə əməkdaşlığını zəruri edən amillər ilə əlaqədar olaraq bunu bildirmək istərdik ki, enerji təhlükəsizliyi hər iki tərəfin milli, regional və beynəlxalq təhlükəsizliyinin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, "... Hər kəs artıq başa düşür ki, enerji təhlükəsizliyi olmadan ölkənin milli təhlükəsizliyi haqqında danışmaq mümkün deyil. O ölkələr ki, enerji resursları ilə zəngin deyillər, əlbəttə, onlar digər resurslardan asılıdır. Bizim vəzifəmiz həmişə ondan ibarət olub ki, əməkdaşlığı dərinləşdirmək üçün enerji amilindən istifadə edək... İstehsalçı ölkənin – Azərbaycanın maraqları, tranzit ölkələrin maraqları və istehlakçı ölkələrin maraqları. Biz ancaq bu maraqların uzlaşması şəraitində istədiyimizə nail ola bilərik" [1].

Enerji təhlükəsizliyi sahəsində Azərbaycan - Türkiyə əməkdaşlığını şərtləndirən zəruri amillərdən bəlkə də ən birincisi tərəflərin maraqlarının tamamilə üst-üstə düşməsidir.

SSRİ-nin süqutundan sonra geosiyasi qarşıdurma və rəqabət Şərqi Aralıq dənizindən Xəzər hövzəsinə keçməyə başladı. Geostrateji aktor isə Rusiya, İran, Türkiyə, ABŞ və Qərbi Avropa ölkələri oldu. Bu ölkələrə məxsus olan tarnsmilli şirkətlərin Xəzər hövzəsinin zəngin enerji resurslarına ciddi maraq göstərməsi və nüfuz etməsi nəticəsində regionda yeni geosiyasi və geoiqtisadi vəziyyət yarandı.

Prezident Heydər Əliyevin qətiyyəti sayəsində 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" və 1996-cı il iyunun 6-da "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilənin imzalanması Azərbaycanın müstəqil enerji diplomatiyasının, neft-qaz siyasətinin formalaşmasında həlledici əhəmiyyətə malik oldu. Heydər Əliyevin özü neft strategiyası işini belə qiymətləndirmişdir: "Mən neft strategiyasını yaratdım və bunu həyata keçirirəm. Axı bilirəm ki, neft sənayesi nədir. Mən Azərbaycan neft sənayesi ilə 40 il məşğul olmuşam... Bilirdim ki, bizim bundan başqa yolumuz yoxdur" [2, s.305].

Azərbaycan Respublikasının neft strategiyasında neft – qaz müqavilələrinin imzalanması ilə birlikdə enerji təhlükəsizliyinin konseptual məsələləri də öz əksini tapdı və regional təhlükəsizlik üçün bir baza təşkil etdi.

Məhz bu zamandan başlayaraq Azərbaycan Respublikasının neft-qaz və təhlükəsizlik siyasətinin paralel şəkildə həyata keçirilməsi nəticəsindəAzərbaycan iqtisadiyyatının bütün sektorlarında inkişafa şərait yaradıldı və regionda sabitlik təmin edildi. Müstəqil enerji diplomatiyası nəinki respublikanın və bölgənin, həm də Avropanın enerji təhlükəsizliyi sahəsində olduqca mühüm rol oynadı. Beləliklə, "Əsrin müqaviləsi" çərçivəsində həyata keçirilən transmilli layihələr Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə Azərbaycanın beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi dəyər ölçülərini xeyli artırdı, regional və beynəlxalq perspektivini yüksəltdi, xarici aləmlə

tərəfdaşlıq münasibətlərinə və milli inkişafına ciddi təsir göstərdi. Respublkianın təhlükəsizliyinin, dinamik inkişafının və gələcək tərəqqisinin möhkəm təməli qoyuldu. Aparılan ardıcıl neft siyasətinin müvəffəqiyyətlə həyata keçirilməsi sayəsində qərb dünyasının Azərbaycana olan etimadı artdı. Aparıcı dünya dövlətləri ilə Azərbaycan arasında olan qarşılıqlı etimad və tərəfdaşlıq əlaqələri dərinləşdi. 1994-cü il noyabrın 19-da Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti quruldu. Onun tərkibinə Azərbaycan, Böyük Britaniya, ABŞ, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanını təmsil edən iri neft şirkətləri daxil oldular [3, s.169]. Xarici neft şirkətləri konsorsiumunda "Türk petrolları" şirkətinin təmsil olunması Türkiyə ilə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi. İki ölkə arasında olan dostluq və qardaşlıq əlaqələrini nəzərə alaraq, Azərbaycan hökuməti həmin müqavilədə öz payından 5 faizini əlavə olaraq türk şirkətinin sərəncamına keçməsinə razılıq verdi. Nəticədə TPOA 6,75 % paya sahib oldu [4; 5, s. 18 ].

Rusiya və İran Azərbaycanın dənizin təbii karbohidrogen resurslarını müstəqil şəkildə dünya bazarına çıxarmasına mane olmaq üçün Xəzərin statusunu problemə çevirməyə başladılar. Azərbaycanın müstəqil neft diplomatiyasından narazı qalan İİR 2001-ci il iyulun 21-də "Alov", "Şərq" və "Araz" yataqlarının Xəzər dənizinin guya İrana məxsus 20%-lik ərazidə yerləşdiyini əsas gətirərək etirazını bildirdi [6, v.136] və iyulun 25-də Xəzər dənizində münaqişə törətdi. Belə ki, İran hərbi təyyarə və gəmiləri Azərbaycanın xarici şirkətlər ilə müştərək işlənən "Alov" və "Şərq" yataqlarına basqı yapdılar, "Geofizik-3" gəmisini atəşə tutdular və iki ölkə arasında su sərhədini göstərən işarəni dağıtdılar [6, v.188]. Bu gərginlik pik həddə çatanda Türkiyə hökuməti Azərbaycanın enerji təhlükəsizliyini təmin etmək işində ona böyük dəstək verdi.

Beləliklə, gənc Respublikanın müstəqil enerji siyasətinin ilk illərində Şimaldan və Cənubdan gələn təhdidlərin dəf edilməsində Türkiyə mühüm rol oynadı. Məhz Türkiyənin və digər Qərb dövlətlərinin dəstəyinə güvənən Azərbaycanın enerji diplomatiyası ölkənin qarşıdurma deyil, əməkdaşlıq meydanına, Avropanın enerji təhlükəsizliyinin mühüm bir hissəsinə çevrilməsinə nail oldu. Nəticədə Azərbaycan dünya bazarını enerji ehtiyatları ilə təchiz etməklə yanaşı, özünü Mərkəzi Asiyada hasil edilən neft və qazın Qərbi Avropa bazarlarına nəqlinə nəzarət imkanı olan ölkə kimi təsdiq etdi [7, s.69].

Son on il ərzində Türkiyə təbii qazın və elektrik enerjisinin istehlak olunmasına görə Çindən sonra 2-ci yerdədir. Türkiyənin 2012-ci ildə malik olduğu iqtisadi artım enerji büdcəsinin 65 milyard ABŞ dollarına qədər artırmaq imkanını yaradırdı. Bu situasiya Türkiyəni zəngin enerji resursları olan öz qonşuları ilə müxtəlif əlaqə variantları axtarmağa, digər istehlakçılarla rəqabət aparmağa və aktiv enerji siyasəti aparmağa məcbur edir.

Energetika və beynəlxalq münasibətlər nazirlikləri Türkiyənin enerji siyasətinin müəyyən olunmasında açar instansiyalarıdır. Bu iki nazirlik və başqa müəssisələr tərəfindən (energetika məsələləri üzərində işləyən) təqdim olunan hesabatlar daşınma mənbələrinin müxtəlifliyini vurğulayır. Öz enerji tələbatının 75%-ni xarici mənbələrdən əldə edən ölkə üçün diversifikasiya çox vacibdir. Enerji təminatının müxtəlif mənbələrinə tələbat Türkiyə üçün enerji təhlükəsizliyi və daşınma təminatına mənfi təsir göstərir. İqtisadi strukturun dəyişməsi və inkişafı Türkiyə üçün günün ən vacib məsələləridir.

Səriştəli instansiyalar tərəfindən nəşr olunmuş strateji hesabatlarda əsasən ona istinad edilir ki, ölkənin enerji təhlükəsizliyi üçün o, yerli resurslardan istifadə etmək hesabına və minimal xərclərlə enerjiyə tələbatı ödəməlidir. Bundan əlavə bu hesabatlarda enerji istehsalçısı ölkələrin transport və texnologiya yollarının müxtəlif olması önəmi vurğulanır.

Türkiyə Azərbaycan təbii qazının ən iri istehlakçısıdır. 2011-ci ildə enerji idxalı Türkiyənin ümumi idxalının 23%-ni təşkil edirdi. Başqa sözlə, Türkiyənin xərclərinin beşdə bir hissəsi energetika sahəsinə düşürdü, onun böyük hissəsini Rusiya təqdim edirdi.

İran Türkiyə üçün həcminə görə ikinci qaz ixrac edən ölkədir və ölkənin tələbatının təxminən 20%-ini ödəyir. Çatdırılma üçün əsas 1996-cı ildə

25 il müddətinə imzalanan sazişdir. Bu razılaşmaya əsasən İran ildə Türkiyəyə 10 milyard kubmetr qaz çatdırmalıdır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, İran Türkiyə üçün ən bahalı qaz istehsalçısıdır. Türkiyə 1 kubmetr İran qazına 423 ABŞ dolları ödəyir. Yeganə mövcud olan Təbriz - Ərzrum - Ankara boru xətti tam gücü ilə heç bir zamaq istismar edilməmişdir. İran qazının Türkiyəyə əlavə heç bir tranzit ödənişi olmadan çatdırılmasına baxmayaraq, bu, Türkiyəyə 2008 və 2009-cu illərdə 1,3 milyard ABŞ dollarına başa gəlmişdi [5].

Enerji resurslarına olan tələbatın ilbəil artması Türkiyəni də alternativ enerji hasilatçıları axtarmağa sövq edir. Belə enerji mənbələri içərisində Azərbaycana xüsusi önəm verir.

Qazın Avropaya çatdırılmasında Türkiyə Rusiya, Norveç və Əlcəzairdən sonra 4-cü enerji arteryası olmaq niyyətindədir. 2011-ci il 21 may tarixində qəbul olunmuş Türkiyənin Enerji Strategiyasına əsasaən ölkə enerji resurslarının əsas hasilatçıları və istehlakçıları arasında enerji körpüsü rolunu oynamalıdır [5, s.19].

Neftin qiymətinin düşməsi Türkiyə kimi enerji tələbatının böyük bir hissəsini idxal yolu ilə qarşılayan ölkələr üçün ciddi üstünlüklər yaradır. Türkiyə dünya miqyasında enerjiyə yüksək tələbatı olan ölkələrdən biridir. Bu tələbatın böyük hissəsinin idxal enerji ilə ödənilməsi ölkə iqtisadiyyatı üzərində ağır maliyyə yükü yaradır, yüksək cari kəsirə səbəb olur. İstər malik olduğu coğrafi mövqeyi ilə, istərsə də hər il daha da böyüyən iqtisadiyyatı ilə Türkiyənin regionun enerji təhlükəsizliyi baxımından ən ideal ölkəsi olduğu şübhəsizdir. Ölkə bu günə qədər həyata keçirdiyi enerji layihələri və tərəfdaşlıqları ilə də enerji sahəsindəki strateji mövqeyini dəqiq şəkildə ortaya qoymuşdur.

Türkiyənin Xəzər neft və qaz resurslarının paylanmasının fəal iştirakçısı olmaq arzusu onun iqtisadi və coğrafi mövqeyi ilə şərtlənir. Məsələn, Azərbaycan və Qazaxıstandan neft kəmərləri və Türkmənistandan qaz kəməri dünya bazarlarına Türkiyə ərazisindən keçə bilərlər. Beləliklə, Türkiyə hakim tranzit ölkəsinə çevrilə bilər. Bu, nəinki onun nüfuzunu artırardı, həm də Rusiya və İran ilə müqayisədə Cənubi Qafqaza daha güclü təsir etmək üçün ona siyasi və iqtisadi imkanlar verərdi. Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisi Türkiyəyə mühəndislik və tikinti sektorunda işin xeyli gücləndirilməsinə imkan yaradardı. Eyni zamanda, dövlət büdcəsinə boru kəmərindən istifadə üçün tranzit rüsumu daxil olacaq. Buna görə də, Türkiyə Xarici İşlər Nazirliyi və Türkiyə hərbi qüvvələri hər yerdə qızğın surətdə Bakı-Tbilisi-Ceyhan boru kəmərini dəstəklədiyini bildirmişdilər.

Xəzər nefti və qazı Türkiyənin öz enerji ehtiyaclarının artımı ilə bağlı xüsusi əhəmiyyət kəsb edir. Türkiyə bazarı hər il Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə gedən neftin 15-20 milyon tonunu mənimsəyə bilir.

Energetika aspektinə gəldikdə isə, bəzi amillərə görə Türkiyə alternativ neft və qaz mənbələrini ehtiyatda saxlamaq niyyətindədir. Bu, qonşu ölkələrin neft və qazın qiymətini artırması və ya müxtəlif səbəblərdən enerji resurslarının çatdırılmasının mümkün olmamasından irəli gəlir. Ona görə də Türkiyə öz enerji təhlükəsizliyi maraqlarına üstünlük verərək, hər hansı bir tədarükçüdən son dərəcə asılı olmaqdan çəkinir.

Beləliklə, tərəflərin coğrafi mövqeyi, etnik yaxınlığı və maraqlarının üst-üstə düşməsi, iqtisadi, geosiyasi, geoiqtisadi, milli, regional və beynəlxalq təhlükəsiz amillər və s. enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı şərtləndirən zəruri amillərdir.

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, strateji əməkdaşlıq, enerji təhlükəsizliyi, geosiyasi aspekt, Xəzər hövzəsi.*

**Ədəbiyyat:**

*1. Azərbaycan Prezidenti İlham Əliyev XXIII Beynəlxalq "Xəzər neft və Qaz - 2016" sərgi və konfransının açılışında iştirak edib. /01.06.2016/ - https://president.az/articles/20081*

*2. Mahmudov Y. Heydər Əliyev. II cild. Bakı: Turxan NPB, 2013, s. 305.*

*3. Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, Zərdabi LTD, MMC, 2016,*

*296 s., c.87-88.*

*4. Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarında neftin ortaq işlənməsi və pay bölgüsü haqqında Saziş. -http://www.bp.com/content/dam/bp-country/az_az/PDFs/ legalagreements/ PSAs/ACG-psa-aze.pdf ; Azeri-Chirag-Deepwater Gunashli. http://www.bp.com/en_az/ caspian/ operations projects/ACG.html*

*5. Adıgözəlova G. Ş. Müasir dövrdə Cənubi Qafqazda Azərbaycan-Türkiyə strateji əməkdaşlığı: Siy.elm.ü.f.dok... dis. Avtoref. Bakı, 2014, 28 s.*

*6. ARXİNA. 23.06.2001-07.08.2001. Qovluq №11*

*7. İnozemtsev V. Kiçik məkanda böyük siyasətlər: Azərbaycanın geosiyasi arenada gələcək planları nədir? – “Azerbaijan Focus”, Bakı, 2009, №1(1), s.69.*

**Ишык Омур Керим Мехметшах оглу**

**ФАКТОРЫ, ОБУСЛОВЛИВАЮЩИЕ СОТРУДНИЧЕСТВО МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТУРЦИЕЙ В ОБЛАСТИ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ**

Статья посвящена довольно актуальной теме: факторам, которые обусловливают стратегическое сотрудничество между Азербайджаном и Турцией в области энергетической безопасности. Отмечается, что в нефтегазовой отрасли между двумя странами Турция играет незаменимую роль в международных отношениях в области энергетической безопасности Азербайджанской Республики. В связи с факторами, обусловливающими азербайджано-турецкое сотрудничество в соответствующей сфере, автор статьи заявляет, что энергетическая безопасность является основой национальной, региональной и международной безопасности обеих сторон. Возможно, одним из факторов, которые обусловливает азербайджано-турецкое сотрудничество в сфере энергетической безопасности – это совпадение интересов сторон.

**Ключевые слова:** *Азербайджан, Турция, стратегическое сотрудничество, энергетическая безопасность, геополитический аспект, Каспийский бассейн.*

**Ishik Omur Kerim Mehmetshah**

**FACTORS CONDUCTING COOPERATION BETWEEN AZERBAIJAN AND TURKEY IN THE FIELD OF ENERGY SECURITY**

The article is devoted to a rather topical subject: the factors that determine the strategic cooperation between Azerbaijan and Turkey in the field of energy security. It is noted that in the oil and gas industry between the two countries, Turkey plays an indispensable role in international relations in the field of energy security of the Republic of Azerbaijan. In connection with the factors contributing to the Azerbaijani-Turkish cooperation in the relevant field, the author of the article states that energy security is the basis of the national, regional and international security of both parties. Perhaps one of the factors that determines the Azerbaijani-Turkish cooperation in the field of energy security is the coincidence of interests of the parties.

**Keywords:** *Azerbaijan, Turkey, strategic cooperation, energy security, geopolitical aspect, the Caspian basin.*

UOT 327; 930.22
327.5

# AVROPADA RADİKAL PARTİYALARIN YÜKSƏLİŞİ VƏ MİQRANT BÖHRANI

**TƏRLAN ORUCOVA**
*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, doktorant*

*E-mail: terlann.orujova@gmail.com*

Multikulturalizmə qarşı çıxan və Avropa mərkəzli mədəniyyət ideologiyasını əsas tutan sağ partiya və qruplar arqumentlərini miqrantların mədəni fərqliliklərinə, cəmiyyətə uyğunlaşmaqda çətinlik çəkdiklərinə və iqtisadi "yük" olduqlarına əsaslandırırlar. Soyuq müharibənin bitməsi və təhlükəsizlik anlayışının dəyişməsi ilə miqrantlar "təhlükəsizlik problemi" hesab edilməyə başlanmışlar. Avropada "yad" qorxusu miqrant və qaçqınları ictimai bir problem halına gətirmişdir. Avropa istər "qaçqın", istər " siyasi sığınacaq" axtaran olsun, hamısına "miqrant" gözü ilə baxır. Bu qərəzli düşüncəyə görə Avropa ölkələrində miqrantlar ölkənin "pis" gedişinin yeganə səbəbkarları kimi qiymətləndirilir və marginallaşdırılır. Köçkünlərə, qaçqınlara, iqtisadi səbəblərə görə gələn miqrantlara və Avropada doğulan ikinci və hətta üçüncü nəslə yönəlik ayrı-seçkilik siyasətlərinin səbəbi iddia edildiyi kimi iqtisadi mənşəli deyil, daha çox mədəni xarakter daşıyır. Demək olar ki, bütün sağ partiyalar ölkədəki ya da qitədəki problemlərin əsas səbəbkarları kimi miqrantları görürlər.

Uzun illərdir, xüsusilə siyasətçilər, seçki kampaniyalarında İslamofobiyadan istifadə etmişlər. Bunlara Fransada Milli Cəbhə, Avstriyada Azadlıq Partiyası, İsveçdə İsveç Demokratlar və s. daxildir. Üstəlik, son 15 il ərzində bir çox mərkəzi partiyalar da bu ifadələrin bir hissəsini qəbul etmiş və ya İslamofobik kursu əks etdirən qanunlar tətbiq etmişlər. Məscidlərin və ya minarələrin qadağan edilməsi, hicabın qadağan edilməsi, nəzarət proqramları, Avstriyada 2015-ci il İslam əleyhinə diskriminasiya qanunları - bütün bunlar Qərb cəmiyyətlərini təhdid edən təhlükəli müsəlman təsvirini əks etdirir. Belə dəyişkən siyasi və təhlükəsizlik mühitində, sağçı siyasətçilər və təşkilatlar miqrant böhranından istifadə edərək avropalıların müsəlman miqrantları, ümumiyyətlə müsəlmanları öz təhlükəsizliyinə ciddi təhdid kimi qəbul etməyə yönəldir. Almaniyada, İsveçdə, Danimarkada və s. ölkələrdə sağ radikal populist partiyaların yüksəlişi buna əyani misaldır. Miqrasiya böhranı və onun yaratdığı xaos, populist radikallara və anti-immiqrasiya platformalarına dəstək verir. Bu cür platformalarda kampaniya aparan Avropa partiyalarının seçki uğurlarının səbəbi son miqrasiya böhranıdır. Almaniyanın Alternativ Almaniya Partiyası və 2017-ci ildə Avstriya Azadlıq Partiyasının seçkilərdə müvəffəqiyyəti qaçqın böhranının həm sağ tərəf, həm də sol tərəf seçicilərinin fikirlərini sərtləşdirməsi ilə birbaşa əlaqəli idi [5]. Avstriyada sağdakı ən böyük partiyalar səs topladılar, sol partiyalar ya səslərini (Yaşıllar) itirdilər, ya da öz yerlərini çox çətinliklə saxlaya bildilər (Sosial Demokratlar). On il ərzində ilk dəfə hökumətə daxil olan Avstriya Azadlıq Partiyası Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi və Müdafiə Nazirliyi daxil olmaqla bir sıra əsas nazirlikləri tutdu [6]. 2019-cu ildə keçiriləcək Avropa ümumi seçkilərində sağların daha çox yerə nəzarət edəcəyi görsənir. Radikal sağların güclənməsinin səbəblərindən biri də iqtisadi məsələlərdir. Avropada işsizliyin artması və gələcəyə olan qayğı cəmiyyətdə etibarsızlığa gətirib çıxardı. Qaçqınların əmək bazarında fəaliyyətləriylə paralel inkişaf edən bu qayğılar ayrı-seçkilik və təcrid etmənin səbəblərindən biridir. Son on ildə edilən araşdırmalar təcridetmə və ayrı-seçkilik münasibəti bəsləyənlərdə gələcək qayğısı və işsizlik qorxusunun yüksək olduğunu göstərir. Beləliklə, sağ radikal qüvvələr Avropada baş verən iqtisadi böhranlar, dövlətlərin iqtisadi çətinliklər və işsizlərlə (xüsusilə immiqrantlarla) bağlı siyasətlərini tənqid edərək əhali içərisində tərəfdarlarının sayını artırmağı bacarmışlar. Bu istiqamətdəki tənqid təbliğatını anti-islamçılığa əsaslandırdılar.

Son seçki dövrlərində, xüsusilə miqrasiya məsələsində populist sağ radikalların siyasətlərinə dəstək dalğası Avropada siyasi mənzərəni yenidən

formalaşdırdı. Bu siyasətlər ölkədən ölkəyə fərqli olsa da, bəzi məsələlərdə ortaq mövqedən çıxış edirlər: millətçilik anlayışı, milli kimliyin xarici mədəniyyətlər tərəfindən təhdid edildiyinə inam, immiqrasiyanın qəti olaraq dayandırılması arzusu və elitalara inamsızlıq.

Populist radikal siyasətçilərin uğurlarına cavab olaraq, sağ-mərkəzli partiyalar itirdikləri səsləri yenidən qazanmaq üçün radikal-sağların gündəmində olan məsələlərə diqqət etməyə başaldılar. İlk strategiyanın nəticəsi olaraq, partiyaların siyasət prioritetləri keçmiş seçkilərlə müqayisədə əhəmiyyətli dərəcədə daralaraq miqrasiya, islamofobiya, təhlükəsizlik və Euroskeptisizm kimi məsələləri əhatə etdi. Radikal populistlər, intensivlik dərəcəsinə və ya ritorika baxımından fərqli olsa da, immiqrasiya, islamofobiya, təhlükəsizlik və Euroskeptisizm kimi məsələlər artıq sırf onların gündəliyinə aid deyildi. Hollandiyada, populist radikallara qarşı əhəmiyyətli qalibiyyət əldə edildi. 2017-ci ildə Mark Ruttenin Azadlıq və Demokratiya üçün Xalq Partiyası Geert Vildersin Azadlıq Partiyasını məğlub etdi. Baxmayaraq ki, Ruttenin ritorikası Holland mərakeşlilərə qarşı nifrətə təhrik etməkdə günahkar olan Vildersdən daha yumşaq idi [4], yenə də Azadlıq Partiyasının məhdudlaşdırıcı yanaşmasına bənzəyirdi. Hər iki partiyanın liderləri Holland dəyərlərini və xristian Qərbini müdafiə etməyi, Radikal İslam təhlükəsi və dünyəvi sola qarşı müdafiə olunmağı tələb edirlər [1].

Fransa, Avstriya və Almaniyada son dövrlərdə baş tutan seçkilərdə Avropanın radikal-sağ partiyalarının artan gücü diqqəti cəlb etsə də, bu fenomen Skandinaviya ölkələrində də yeni deyil. Dörd Skandinaviya ölkəsindən (Danimarka, Finlandiya, Norveç və İsveç) biri olan İsveçdə ən azı 1970-ci ildən etibarən aktiv radikal-sağ partiyalar var. Digər üç ölkədə (Danimarka, Finlandiya və Norveç) radikal-sağ partiyalara malikdir və Skandinaviya ölkələrinin hamısında bu partiyalar seçicilərin 20 faiz və ya daha çoxununu dəstəyinə malikdir [9, s.1].

Radikal-sağ partiyalar miqrasiya və qaçqın siyasətlərinə köklü dəyişikliklər edilməsini tələb edir və multikulturalizmi rədd edir. Son on il ərzində və xüsusilə 2015-ci ildən etibarən, Skandinavia ölkələrində sığınacaq və miqrasiya siyasəti məhdudlaşdırılmışdır. Bölgədəki hökumətlər ailə birləşməsini azaltmaq, qaçqınlara və digər statuslara məhdudiyyət siyasətlərini tətbiq etmək və qeyri-vətəndaşların dövlət yardımı almasını məhdudlaşdırmağı təklif edirdi. Bundan əlavə, miqrasiya və sığınacaq haqqında ictimai müzakirələr daha sərtləşdi.

Ancaq bu münasibət və siyasi meylləri sırf hər hansı siyasi partiyaya birbaşa aid etmək çətindir. Bəzi hallarda siyasi dəyişikliklərə məcburi olaraq gedilir və bu hakimiyyətdə olan partiyadan asılı olmayaraq baş verə bilər. İsveç hökumətinin 2015-ci ildə Danimarka ilə sərhədini bağlamaq qərarı buna bir nümunədir. Eyni şəkildə, miqrasiya ilə bağlı ictimai müzakirələrdə mənfi dəyişikliklərin bəzi siyasi partiyaların kursuna təsir etdiyini qeyd edə bilərik. Partiyalar meydana çıxan anti-immiqrant davranışlarını özlərinə dəstək kimi əks etdirə bilərlər. Buna baxmayaraq, radikal-sağ partiyaların yüksəlməsi və dəstəklənməsi Skandinaviya ölkələrində onların niyə belə nüfuza malik olduqları barədə suallar yaradır. Əsas səbəb kimi artan miqrasiya göstərilsə də, sığınacaq ərizələrinin sayı və radikal sağ partiyaların seçki tarixi qarşılıqlı araşdırılanda Skandinaviya ölkələrində bu iki faktor arasında heç bir sistematik əlaqə olmadığı meydana çıxır. Miqrasiya ilə bağlı ictimai münasibətlərə dair məlumatlar araşdırıldıqda da radikal sağların seçki dəstəyinin artması ilə miqrasiyanın heç bir bir əlaqəsi olmadığı aydın olur [9, s.1]. Beləliklə, radikal-sağ partiyaların müvəffəqiyyəti və ya uğursuzluğunu tək bir tendensiya ilə əlaqələndirmək əvəzinə, hər bir milli kontekstə uyğun faktorları birləşdirmək bizə daha aydın mənzərə yaradar.

Skandinaviya ölkələrinin əksəriyyətində radikal sağ partiyalar son illərdə seçicilərin 20 faiz və ya daha çoxunun dəstəyini əldə ediblər. Radikal sağlar və ya populist sağlar kimi qəbul edilən partiyalar Finlandiya və Norveçdə hökumətdə təmsil olunur və Danimarkada onlar rəsmi koalisiya tərəfdaşları kimi deyil, dəstək partiyası kimi hökumətə böyük təsir göstərirlər. Radikal sağlar İsveçdə təcrid olunsa da, bu vəziyyət yaxın illərdə dəyişə bilər. Skandinaviya ölkələri uzun müddət tolerant kimi tanınsalar da, radikal partiyalar ictimai müzakirəni, miqrasiya və onunla əlaqəli məsələlər ətrafında gedən mübahisələri dəyişdirməyə çalışırlar. Danimarka Xalq Partiyası Skandinaviya radikal sağları üçün ən yaxşı nümunədir. Partiya Danimarkaya miqrasiyanı əhəmiyyətli dərəcədə azaldılması fikrinin ən böyük hərəkətverici qüvvəsidir və ölkədə siyasi və mədəni mühitə təsir göstərərək, anti-İslam ritorikasını təşviq edir.

Miqrasiya Skandinaviya ölkələrinin bütün radikal sağ partiyalarının gündəmində olmasa da, indi

onların platformalarının əsas elementidir. İsveç Demokratlar Partiyası yaranandan açıq-aşkar anti-immiqrasiya mövqeyində olmuşdur. Bu gün, Skandinaviya ölkələrinin radikal-sağ partiyaları immiqrasiya məsələlərinə fərqli dərəcədə önəm versələr də, onlar miqrasiya mövzusuna açıq şəkildə qarşı çıxırlar. Onlar digər Avropa radikal-sağ partiyalarına nisbətən daha az ekstremist olsa da, öz ölkələrində əsas partiyalarla müqayisədə miqrasiyanın ən qüdrətli rəqibləridir. Danimarka Xalq Partiyası mübahisəsəsiz miqrasiya mövqeyində ən radikaldır, onun bəyanatında deyilir ki, "Danimarka immiqrasiya ölkəsi deyil və heç vaxt olmadı. Buna görə də biz ölkəmizin multietnik transformasiyasını qəbul etməyəcəyik "[2]. İsveçdə İsveç Demokratlar Partiyası multikulturalizmə açıq şəkildə qarşı çıxsa da, "1970-ci ildən sonra gələn bütün immiqrantların məcburi köçürülməsi" kimi əvvəlki radikal tələbləri azalıb [10, s.196]. Norveçdə Tərəqqi Partiyasının anti-immiqrasiya ritorikasının intensivliyi müxtəlif idi; partiya 2017-ci ildə bəyanatında Norveç miqrasiyasının "sərt və ədalətli" olmasını vurğulayırdı [8, s.13].

Radikal sağ partiyalar Skandinaviya ölkələrində siyasətdə yeni bir qüvvə olmadığına baxmayaraq, onların seçki dəstəyi son zamanlarda artmağa başladı. Radikal-sağ partiyaların dəstəklənməsinin səbəbləri mürəkkəbdir.Miqrasiya ilə əlaqədar narahatlıqların insanların radikal partiyalara səs verməsinin əsas səbəbi kimi göstərilsə də, miqrasiyada sistem səviyyəsində dəyişikliklər və köç haqqında ictimaiyyətin fikirləri eyni izahı vermir. Avropa Sosial Araşdırmalarının nəticələrinə əsasən, Skandinaviya ölkələri digər Avropa ölkələri ilə müqayisədə miqrasiyaya daha yaxşı münasibət bəsləyirlər. İsveç və Finlandiya ilk iki sırada qərarlaşıblar [3]. Bu, miqrasiyanın vacib olmadığını vurğulamır, amma miqrasiya məsələsinin radikal-sağ partiyaların səslərinə çevrilməsi prosesi dolayı və mürəkkəbdir. Cinayətlə bağlı narahatlıqlar və rifah sistemlərinin davamlılığı kimi amillər də bu prosesə öz təsirini göstərir. Daha geniş mənada bu kimi amillər əhəmiyyətli olsa da, onlar qısa və ya orta müddətli radikal sağlara dəstəkdə dəyişiklikləri açıqlaya bilmirlər.

Danimarka Xalq Partiyası və Tərəqqi Partiyası Qərbi Avropada radikal sağ partiyalar arasında İsveçrə Xalq Partiyası və Avstriya Azadlıq Partiyasından sonra ən müvəffəqiyyətlilərdəndir. Radikal sağ partiyalar miqrasiya ilə bağlı ictimai müzakirələrə təsir göstərməyə çalışırlar və onlar medianın miqrant və multikulturalizmə dair qərəzli perspektiv nümayiş etməkdə günahlandırırlar. Beləliklə, Skandinaviya ölkələrində radikal sağ partiyalar artıq siyasi səhnədə qətiyyətlə yer tutub və yaxın gələcəkdə də bu şəkildə qalacaqlar. Miqrasiya axınlarının dayandırılması ehtimalı yoxdur və Skandinaviya ölkələrində getdikcə multikulturallığın artması qaçınılmazdır. Beləliklə, miqrasiya, sığınacaq və inteqrasiya ilə bağlı məsələlər siyasi gündəlikdə qalacaqdır. Radikal sağ partiyalar isə həmin gündəmin formalaşmasında mühüm rol oynamağa davam edəcəklər.

Beləliklə, islamafobiya meyllərinin artması Skandinaviya ölkələri ilə yanaşı digər Avropa ölkələrində də müşahidə olunur. Belə ölkələrdən ilk növbədə Fransa, Avstriya, Hollandiya, Danimarka, Macarıstanı qeyd etmək olar. Bu ölkələrin siyasi səhnəsində irəliləyən ultra sağçı partiyaların təbliğat kompaniyalarında islamofob şüarlar özünü daha açıq şəkildə büruzə verir. Bu partiyaların islamofob şüarları onların son dövrdə reytinqinin artmasına səbəb olan əsas amillərindən biridir. Hakimiyyətə gəlmək üçün islamofobiyadan istifadə edən bu qüvvələr onu problem hesab etmir, əksinə Qərb sivilizasiyasının məhvinin qarşısını ala biləcək səmərəli bir vasitə kimi qəbul edirlər [7, s.126].

**Nəticə**

Bir çox populyar radikal-sağ partiyalar üçün immiqrasiya və inteqrasiya məsələləri vizit kartıdır. Bu partiyaları birləşdirən millətçilik, "elita"lara inamsızlıq və "adi insanları" təmsil etmək iddiası əsas ideologiyadır. Bu millətçilik brendi, milli mədəniyyəti qorumaq üçün yeni miqrantları təcrid edən və İslam əleyhinə mövqe tutan siyasi platformaya çevrilib. Avropa İttifaqının 2015-2016-ci illərdə qaçqın böhranının pik həddində populist radikal-sağ partiyalar miqrasiya haqqında ictimai qayğıları, xüsusilə də Suriya kimi ölkələrdən müsəlmanların gəlməsindən yararlanaraq səslərin üçdə birini qazana bildilər. Çünki, Avropada davam edən miqrasiya miqrant mənşəli əhalinin payının artmasına səbəb olur. Bu proses yaxın gələcəkdə, əsasən, işçi qüvvəsinə olan ehtiyac və ailə birləşməsi kimi səbəblərdən orta səviyyədə davam edəcək. İqtisadi və demoqrafik səbəblərə görə radikal-sağ populizmə dəstəyin səviyyəsindən asılı olmayaraq miqrasiya Avropada davam edəcəkdir. Əmək miqrasiyası məhdudlaşdırılsa belə, miqrasiyanın

başqa növü – ailə birləşməsi davam edir. Ona görə də populist radikalların narahatlıq doğuran immiqrasiya və inteqrasiya problemlərindən gələcəkdə də siyasətlərinə dəstək almaq üçün istifadə edəcəkləri aydın məsələdir.

**Açar sözlər:** *Radikal partiyalar, miqrasiya, miqrant böhranı, miqrantlar, təhlükəsizlik problemləri, İslam, müsəlmanlar*

## ƏDƏBİYYAT SİYAHISI


*1. Cas Mudde, "'Good' Populism Beat 'Bad' in Dutch Election," The Guardian,March 19, 2017, www.theguardian.com/world/2017/mar/19/dutch-election-rutte-wilders-good-populism-bad-.*

*2. DF, "The Party Program of the Danish People's Party," updated October 2002, https://danskfolkeparti.dk/politik/in-another languages-politics/1757-2/.*

*3. European Social Survey, "Round 8: European Social Survey—Data file edition 2.0," Norwegian Centre for Research Data, May 30, 2018, www.europeansocialsurvey.org/data/download.html?r=8.*

*4. Gordon Darroch, "Geert Wilders Found Guilty of Inciting Discrimination," The Guardian, December 9, 2016, www.theguardian.com/world/2016/dec/09/geert-wilders-found-guilty-in-hate-speech-trial-but-no-sentence-imposed.*

*5. Jörg Michael Dostal, "The German Federal Election of 2017: How the Wedge Issue of Refugees and Migration Took the Shine off Chancellor Merkel and Transformed the Party System," The Political Quarterly, 88, no. 4 (2017), https://onlinelibrary.wiley.com/doi/full/10.1111/1467-923X.12445.*

*6. Melissa Eddy, "Austria's New Government: A Mix of Far Right, Pro-Europe and Youth," The New York Times, December 18, 2017*

*7. Nəcəfov E. " Qərbi Avropa ölkələrində islamafobiya: tarixi, səbəbləri və nəticələri" // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə //, Azərbaycan, № (65), 2019*

*8. Prinsipp- og handlingsprogram 2017–2021. Oslo: FrP. www.frp.no/hva-vi-mener/prinsipp-og-handlingsprogram*

*9. Widfeldt Anders, "The Growth of the Radical Right in Nordic Countries:Observations from the Past 20 Years"// Migration Policy İnstitute, June 2018*

*10. Widfeldt, Anders. 2010. Sweden. In Elections in Europe: A Data Handbook, eds. Dieter Nohlen and Philip Stöver. Baden-Baden, Germany: Nomos.*



**Orujova Tarlan Ahmed**
**Academy of Public Administration Under the President of the Republic of Azerbaijan**


## THE GROWTH OF RADICAL PARTIES IN EUROPE AND THE MIGRANT CRISIS


**Summary**

The article examines the reasons of the rising of radical parties in Europe, how they use immigration, Islamophobia, security and Euroscepticism to increase their supporters. The author notes that migration plays an important role in the growth of radical parties in France, Austria and Germany, as well as in the Nordic countries - Denmark, Finland, Norway and Sweden, while other factors also influence this process. The author concludes that populist radical right parties will continue to use immigration and integration problems to support their policies in the future.



**Key words:** *Radical parties, migration, migrant crisis, migrants, problems of uncertainty, Islam, Muslims*



**Оруджева Тарлан Ахмед**
**Академия Государственного Управления При Президенте Азербайджанской Республики**


## РОСТ РАДИКАЛЬНЫХ ПАРТИЙ И КРИЗИС МИГРАНТОВ В ЕВРОПЕ


**РЕЗЮМЕ**

В статье рассматриваются причины возникновения радикальных партий в Европе, как они используют иммиграцию, исламофобию, безопасность и евроскептицизм для усиления своих сторонников. Автор отмечает, что хотя миграция и играет важную роль в росте радикальных партий во Франции, Австрии и Германии, а также в Скандинавских странах - Дании, Финляндии, Норвегии и Швеции, другие факторы также влияют на этот процесс. Автор в конце приходит к такому выводу, что для поддержки их политики в будущем также будут использоваться проблемы иммиграции и интеграции популистских радикалов.



**Ключевые слова:** *Радикальные партии, миграция, кризис мигрантов, мигранты, проблемы неопределенности, ислам, мусульмане.*

UOT:94(479.24)
36.15

# XX ƏSRİN SONU-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ FRANSA RESPUBLİKASI ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ

**SƏLİMƏ QULİYEVA**
*Bakı Dövlət Universiteti, böyük laborant*

*E-mail: Azerbaycantarixi@yandex.ru*

Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında münasibətlərində mədəni əlaqələr özünəməxsus yer tutur. Mədəniyyət sahəsində münasibətləri şərtləndirən mühüm amillərdən biri Azərbaycan və Fransa arasında tarixən mədəni əlaqələrin mövcudluğu faktı olmuşdur. Tarixi keçmişə nəzər salsaq, siyasi, iqtisadi və mədəni əlaqələrin təşəkkülü tarixi orta əsrlərə təsadüf edir. Ağqoyunlu və Səfəvi dövlətləri tərəfindən Avropa ölkələri ilə siyasi - iqtisadi əlaqələr qurulduqdan sonra Azərbaycan və Fransa arasında ədəbi münasibətlərin, elmi əlaqələrin bəsit şəkildə təzahür etdiyi nəzərə çarpır. Bu dövrdə mədəni-ədəbi əlaqələr pərakəndə və qeyri-müntəzəm xarakter daşımışdır [13, s.77]. Fransa ilə mədəni əlaqələrin daha dinamik və demokratik prinsiplər əsasında gerçəkləşdirilməsi əlbəttə ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra mümkün oldu. İki ölkə arasında mədəni əlaqələrin yeni, müasir beynəlxalq prinsip və normalar əsasında yenidən qurulması zərurəti ortaya çıxdı. Bunu qeyd etmək lazımdır ki, ölkəmizin dövlət müstəqilliyinin bərpa edilməsi bəyan edildikdən sonra Azərbaycan Respublikasını dünya dövlətləri arasında ilk tanıyan ölkələrdən biri də məhz Fransa oldu. Fransa Azərbaycanın dövlət müstəqilliyini 1992-ci ilin yanvarında tanımış, diplomatik əlaqələr isə həmin ilin fevralında yaradılmışdır. 1992-ci ilin martında Fransanın Azərbaycanda, 1994-cü ilin oktyabrında Azərbaycanın Fransada səfirliklərinin açılması ölkələrimiz arasında mədəni əlaqələrin yeni mərhələdə müasir tələblər əsasında inkişaf etdirilməsinə təkan verdi [14, s.338]. Yeri gəlmişkən, Azərbaycanda Türkiyə səfirindən sonra rəsmi fəaliyyətə başlayan ikinci diplomat Fransa səfiri olmuşdur. Çox maraqlı bir faktdır ki, 1992-ci ilin noyabrında Fransanın Bakıdakı səfiri Jan Perren Azərbaycan hökumətinə bir çox sahələrdə, eləcə də mədəni-maarif, elm sahələrində əməkdaşlıq təklifi ilə müraciət etdi. Lakin adekvat cavab almadı. Azərbayca-Fransa münasibətlərinin ilkin mərhələdə nisbətən zəif inkişaf etməsinin səbəbləri o zaman Azərbaycanda Dağlıq Qarabağ münaqişəsinə görə hərbi - siyasi vəziyyətin gərgin olması, Fransanın isə Ermənistanla sıx əməkdaşlıq əlaqəsi saxlayan ölkə kimi qiymətləndirilməsi idi [13, s.80; 22].

1993-cü il avqustun 13-də Fransanın səfiri J. Perreni qəbul edərkən Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətlərini həyata keçirən Ali Sovetin sədri Heydər Əliyev "İki ölkə arasında dostluq və əməkdaşlıq" münasibətlərinin daim möhkəmlənəcəyini söyləmişdi [13, s.81; 1]. Həmin ilin oktyabrında Bakıda Fransa səfirliyi binasının açılış mərasimində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı və xaricə ilk rəsmi səfərini bu ölkəyə etməsi ölkələrimiz arasında mədəni əlaqələrin əhatə dairəsinin genişlənəcəyindən xəbər verirdi. 1993-cü ilin dekabrında prezident Heydər Əliyev Fransaya səfəri zamanı Azərbaycanın Fransa da daxil olmaqla dünya dövlətləri ilə siyasi, iqtisadi və mədəni sahələrdə dostluq və beynəlxalq əməkdaşlıq prinsiplərini bəyan etdi. Səfər zamanı mədəniyyət sahəsində də ikitərəfli əməkdaşlığı tənzimləyən hüquqi-normativ sənədlər imzalandı. Həmin vaxtdan etibarən iki dövlətin qarşılıqlı münasibətləri tarixinə "dost" sözü əlavə olundu. İmzalanmış müqavilə mədəniyyət, elm və təhsil sahəsində iki ölkə arasındakı mövcud əməkdaşlığın və tərəfdaşlığın prinsiplərini, xüsusiyyətlərini müəyyən edirdi. Sənəddə habelə, hər iki xalqın istək və arzularının, qarşılıqlı mənafeyi və təhlükəsizlik məsələlərinin üst - üstə düşməsi qeyd olunur və onlar arasındakı münasibətlərin bundan

sonra yeni miqyas alacağı açıqlanırdı [11, s.39].

Ölkələrimiz arasında müqavilələrin imzalanmasından sonra Azərbaycan - Fransa mədəni əlaqələrinin inkişaf dinamikasında keyfiyyət dəyişikliyi özünü dərhal göstərmiş oldu. Belə ki, 1994-cü ildən başlayaraq Fransa hökuməti Bakıda hər il Fransa fılmlərinin həftəliklərini təşkil etməyə başladı ki, bu da ənənəvi səciyyə kəsb etdi. Həftəliklərin keçirildiyi vaxtda bir çox digər mədəni tədbirlər də təşkil olunurdu ki, bu da Azərbaycan -

Fansa mütəxəssislərinin işgüzar münasibətlərinə geniş imkanlar açırdı. Məsələn, bu həftələrdən birində Paris və Strasburq Universitetləri rektorlarının iştirakı ilə Azərbaycan Dillər Universitetində Fransa və Azərbaycan dillərinin qarşılıqlı öyrənilməsi məsələləri geniş şəkildə müzakirə edildi [6, s.479].

Rəsmi səfərlər və beynəlxalq səviyyəli tədbirlər çərçivəsində Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Fransa dövlət və hökumət nümayəndələri ilə görüşlərdə mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi diqqət mərkəzində olmuş və aktuallıq kəsb etmişdir. 1996-cı ilin oktyabrında Fransanın xarici işlər naziri Erve de Şarettin Bakıya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti Heydər Əliyev çıxışında bu səfərin böyük əhəmiyyəti olduğunu söyləmiş və Parisin İrəvanla dostluq əlaqələrinə görə Azərbaycanın Fransa ilə sıx əməkdaşlıq edə bilməyəcəyi fikri ilə razılaşmadığını demişdi. Heydər Əliyev keçən dövr ərzində bərqərar olmuş münasibətlərin səviyyəsini yüksək qiymətləndirdiyini vurğulamışdı. Erve de Şarett isə iki dövlət arasında münasibətlərin qısa müddətdə normal məcraya salınmasında Heydər Əliyevin xidmətlərini xüsusi ilə vurğuladı [2].

1997-ci il yanvar ayının 13-15 tarixlərində prezident Heydər Əliyevin yenidən Fransaya tarixi səfəri, Xarici işlər nazirlərinin ölkələrimizin daha da yaxınlaşmasını təmin edən mədəni mübadilə və əlaqələr haqqında birgə bəyanat imzalamaları, bir çox şirkətlərlə (“Elf Akilen”, “Total” neft şirkətləri) müqavilələrin bağlanması mədəni əməkdaşlıq sahəsində yeni cığırların açılmasını təmin etdi. Belə ki, xarici işlər nazirlərinin imzaladıqları birgə bəyanatın başlıca istiqamətlərini elmi mübadilə, təhsil sahəsində əməkdaşlıq, ədəbiyyat, musiqi, kino və s. üzrə birgə layihələrin həyata keçirilməsi təşkil edirdi. Azərbaycanla neft istehsalı və istehlakı sahəsində əməkdaşlıq edən fransız şirkətləri, eyni zamanda mədəni-kütləvi tədbirlərə dair layihələr də təqdim edərək onların birgə reallaşmasını həyata keçirməkdədirlər [12, s.240-242].

XX əsrin 90-cı illərində Fransada fəaliyyət göstərən Azərbaycan icmalarının (“Azərbaycan Mədəniyyətini və Sivilizasiyasını Öyrənən Mərkəz”, “Azərbaycan Kültür Cəmiyyəti”, “Fransa-Azərbaycan Kültür Cəmiyyəti” və s.) da mədəni əlaqələrin genişlənməsi istiqamətindəki fəaliyyətini qeyd etmək lazım gəlir. Fransada mütəşəkkil şəkildə təşkilatlanan və güclü lobbiyə malik olan ermənilərin bu ölkədə azərbaycanlılara qarşı böhtançı və düşmənçilik fəaliyyətləri, Azərbaycanı gözdən salmağa çalışmaları, milli - mədəni irsimizi öz adlarına çıxmaq cəhdləri və başqa məkrli hərəkətləri ölkələrimiz arasında mədəni əlaqələrə mənfı təsir göstərmişdir. Ona görə də Fransada Azərbaycan mədəniyyətinin təbliği sahəsində milli diasporun öz fəaliyyətini gücləndirməsi mühüm əhəmiyyət kəsb edir.

2000-ci illərdən etibarən mədəniyyət sahəsində əməkdaşlıq imkanları daha da artmış, 2002-ci ilin martında AMEA-nın Mərkəzi Kitabxanasında Azərbaycan-Fransa elmi-mədəni zalı açılmışdır. Qeyd etmək lazımdır ki, Fransaşünaslıq sahəsində tədqiqatlar aparan alimlər üçün qiymətli vəsaitlərlə təmin olunmuş bu zalın açılışında Fransanın ölkəmizdəki səfiri Ş.Puore də iştirak etmişdi [4, s.193]. Bu illər ərzində Fransanın Paleantologiya İnstitutu, Avropa Arxeoloji Tədqiqatlar Mərkəzi ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu arasında yaradılmış əlaqələr yüksələn xətlə inkişaf etmişdir.

Müstəqillik illərində Fransada Azərbaycan mədəniyyətinin təbliği ölkəmizin tanınmasında əhəmiyyətli yer tutmuşdur. Qeyd etmək lazımdır ki, hələ müstəqilliyin elan edilməsinə qədərki dövrdə Parisdə 1989-cu ildə R.Abutalıbov, Q.Süleymanov və digər azərbaycanlılar tərəfindən “Azərbaycan evi” adlı mədəniyyət cəmiyyətinin əsası qoyulmuşdu. Bu təşkilat Fransada qeydiyyatdan keçən ilk Azərbaycan təşkilatı idi. Təşkilatın yaradıcıları həmin dövrdə Azərbaycanla bağlı bir neçə tədbirin həyata keçirilməsinə müvəffəq oldular. Parisdəki “Azərbaycan Evi”nin o zamankı əsas heyəti Səid İsmayılov, Patrik Desmont, Səməd İsmayılovdan ibarət idi. Parisdəki

"Azərbaycan Evi"nin ən görkəmli üzvləri sırasında isə Andre Qadaud, Jean-Pierre Quinhut, Fransa-Qafqaz Cəmiyyətinin prezidenti Ambroise Dupont, fəxri senator Jean Boyer, Aralıq dəniz Avropası prosesinin səlahiyyətli nümayəndəsi, keçmiş səfir Francois Qouyette və keçmiş səfir Roland Blatmanın adları qeyd edilir. Lakin Parisdəki "Azərbaycan Evi"nin fəaliyyəti o qədər də uzun sürmədi. Belə ki, Parisdəki "Azərbaycan Evi" nin o zamankı sədri Timurçin Hacıbəylinin vəfatı və daha sonra sədr müavini Ramiz Abutalıbovun vətənə qayıtması nəticəsində təşkilat fəaliyyətini dayandırmağa məcbur oldu. Lakin sonrakı dövrlərdə Fransada Azərbaycan diasporunun fəaliyyəti tam strukturlaşmadığından və güclü erməni diasporunun ölkəmizə qarşı apardığı böhtan kampaniyalarına ləyaqətli cavab vermək üçün Parisdə "Azərbaycan Evi" nin fəaliyyətini bərpa etməyin vacibliyi ortaya çıxdı. Nəticədə yerli diaspor nümayəndələrindən ibarət yeni İdarə Heyətinin rəhbərliyi ilə Parisdəki "Azərbaycan Evi"nə yeni bir nəfəs verildi [15].

Tədqiq etdiyimiz dövrdə Fransada Azərbaycan mədəniyyətinin təbliğində "Azərbaycan Mədəniyyətini və Sivilizasiyasını Öyrənən Mərkəz"in, "Azərbaycan Kültür Cəmiyyəti"nin, "Fransa -Azərbaycan Kültür Cəmiyyəti"nin xüsusi xidmətləri olmuşur. "Azərbaycan Mədəniyyətini və Sivilizasiyasını Öyrənən Mərkəz" Fransada yaşıyan Azərbaycan ziyalısı İren Məlikovanın təşəbbüsü ilə yaradılmışdır. Qeyd edək ki, İ.Məlikova Strasburq Humanitar Elmlər Universitetində 1984-cü ildə Azərbaycan Mədəniyyətini Araşdırma Mərkəzi yaratmış və onun prezidenti seçilmişdir. Mərkəzin adı 1988-ci il may ayında dəyişdirilərək Azərbaycan Mədəniyyətini və Sivilizasiyasını Öyrənən Mərkəz olmuşdur. Dəyişiklikdən sonra Azərbaycan mədəniyyətini, incəsənətini, tarixini və ədəbiyyatını öyrənən bu mərkəzə yenidən məşhur Azərbaycanşünas alim, professor İren Melikoff prezident, professor Lui Bazen və Timurçin Hacıbəyli vitse-prezident seçilirlər. Bundan əlavə Mərkəz öz qarşısına Azərbaycan haqqında ümumi məlumatlar yaymağı, Azərbaycan yazıçılarının və şairlərinin əsərlərinin nəşrini təşkil etməyi qoyur. Mərkəz alimlərin görüşlərini keçirməyi, müxtəlif tədbirlər təşkil etməyi, xüsusi kitabxana, videoteka, fonoteka yaratmağı da nəzərdə tutulmuşdu [7].

Müstəqillik illərində Fransa və Azərbaycan arasında ədəbi əlaqələrin qurulması, Azərbaycan yazıçı və şairlərinin Fransada öyrənilməsi və təbliği, fransız ədəbiyyatının mütərəqqi istiqamətlərinin ölkəmizdə təbliği sahəsində də müəyyən addımlar atılmışdır. Tarixə nəzər saldığımız zaman görürük ki, Fransada Azərbaycanla bağlı ədəbiyyatın yaranması bir necə ədibin adı ilə bağlı olmuşdur. Ceyhun Hacıbəylinin vaxtilə "Azərbaycan" adlı jurnalın redaktoru olması fransız cəmiyyətində Azərbaycanla bağlı fundamental ədəbi fikirlərin formalaşmasına zəmin yaratmışdı [21]. Ömrünün sonuna kimi Paris şəhərində yaşayıb yaradan, "Azərbaycan evi"ndə fəal iştirak edən,"Qafqaz günləri" (1946) kitabının, onlarla monoqrafiya və tərcümələrin müəllifi olan Ü.Baninin yaradıcılığı da Azərbaycan-Fransa ədəbi əlaqələrində mühüm yer tutur [20].

Yuxarıda da qeyd etdiyimiz kimi, Fransada fəaliyyət göstərmiş azərbaycanlı yazıçılardan biri də İren Məlikoff olmuşdur. O, Azərbaycanşünas türkoloq alim kimi bir çox universitetlərin fəxri doktoru, Strasburq Universitetinin professoru, "Turkika" adlı türkoloji jurnalın redaktoru idi. 2009-cu ildə Parisdə vəfat edən İren Məlikoff "Danışmənd dastanı", "Əbumüslüm Xorasani və Umur Paşa dastanı" adlı əsərlərin müəllifidir [20].

Fransada ədəbi irsi ən çox diqqət mərkəzində saxlanılan Azərbaycan şairlərindən biri və bəlkə də birincisi Nizami Gəncəvi olmuşdur. 1995-ci ildə dahi şairin fransız dilinə tərcümə olunmuş qəzəlləri "Mözüra" jurnalında nəşr edilmişdi. Jurnalın 34-cü nömrəsi bütövlükdə məhz Nizami Gəncəvinin yaradıcılığına həsr edilmişdi. Əsərlərin tərcüməsi Azərbaycan alimi Ə.Musayev tərəfindən həyata keçirilmişdi [4, s.182].

Bundan az sonra Nizami yaradıcılığına marağın artması nəticəsində şairin "Yeddi gözəl" poeması "Yeddi şahzadə xanımın evi" adı ilə Parisdə nəşr edilmişdi. Üç min tirajla çap edilmiş 850 səhifəlik kitabın tərcüməçi və tərtibçisi YUNESKO-nun əməkdaşı Maykl Barri olmuşdu.

Bəhs edilən illərdə Azərbaycan - Fransa mədəni əlaqələri beynəlxalq və regional təşkilatlar çərçivəsində də genişlənmişdir. Respublikalarımız arasında çoxtərəfli mədəni əlaqələrdə ən mühüm hadisə Fransada YUNESKO - nun xətti ilə Məhəmməd Füzulinin 500 illik, "Kitabi Dədə Qorqud" dastanının 1300 illik yubileylərinin yüksək beynəlxalq səviyyədə təşkili oldu. Dünya

şöhrətli Azərbaycan müğənnisi Alim Qasımovun həmin beynəlxalq təşkilatın xətti ilə 1994-cü ildə "İlin ən yaxşı muğam ustası" kimi fəxri ada layiq görülməsi milli musiqimizin bu ölkədə tanıdılmasında mühüm rol oynadı. İldən-ilə artan bu faktlar Azərbaycan Respublikası və Fransa arasında ikitərəfli münasibətlərlə yanaşı, çoxtərəfli mədəni əlaqələrin yaranması və inkişafı baxımından da əhəmiyyət kəsb edirdi [3].

XX əsrin 90-cı illərindən etibarən iki ölkə arasında kino əlaqələri yeni keyfiyyət və məzmun daşımağa başladı. 1994-cü ilin payızında Bakıda Azərbaycan kinematoqrafçılar ittifaqının və Fransa səfirliyinin köməyi nəticəsində "Lyumyer" sinema-klub xeyriyyə cəmiyyəti" yaradıldı. Bu cəmiyyətin köməyi ilə bir çox fransız filmləri bakılılara təqdim edildi. Ümumiyyətlə, "Lyumyer" sinema-klubunun Azərbaycan – Fransa kino əlaqələrinin genişlənməsində böyük rolu olmuşdur [21].

Ümumiyyətlə, 1994-cü ildən başlayaraq, Fransa hökuməti Bakıda hər il Fransa filmlərinin həftəliklərini təşkil etməyə başladı ki, bu da ənənəvi səciyyə kəsb etdi. Həftəliklərin keçirildiyi vaxtda bir çox digər tədbirlər də təşkil olunurdu ki, bu da Azərbaycan-Fransa mütəxəssislərinin işgüzar mübadilələrinə geniş imkanlar açırdı. Məsələn, bu həftələrin birində Paris və Strasburq Universitetləri rektorlarının iştirakı ilə Azərbaycan Dillər Universitetində Fransa və Azərbaycan dillərinin qarşılıqlı öyrənilməsi məsələləri geniş şəkildə müzakirə edildi.

1995-ci ilin noyabrında Nant şəhərində keçirilən üç qitənin Beynəlxalq kinofestivalında 12 Azərbaycan filminin nümayiş etdirilməsində Fransa səfirliyinin böyük köməyi oldu [21]. "Yarasa" bədii filmi 1996-cı ildə Fransada keçirilən "Birinci plan" Beynəlxalq Kinofestivalında "Avropanın tammetrajlı ən yaxşı bədii filmi" adına layiq görüldü [19].

Bu dövrdə Azərbaycan kinomatoqrafiyasında da Fransa mövzusunda bəzi filmlər ərsəyə gətirilmişdir. Belə filmlərdən ən məşhuru rejissor V. Mustafayevin 1995-ci ildə çəkdiyi "Fransız" filmi olmuşdur. Filmdə Avropadan qayıdandan sonra öz milli adət-ənənlərimizə yuxarıdan aşağıya baxan azərbaycanlıdan bəhs edilir. Film Qeyd edək ki, Əmir Pəhləvanın "Əhlikef" povestinin motivləri əsasında 1995-ci ildə çəkilmiş bu film 7 aprel 2016-cı ildə Fransada "Xaos və harmoniya" şüarı altında keçirilən "Avropa ətrafında Avropa" Film Festivalında Parisin İncəsənət Mərkəzində nümayiş etdirilmiş və izləyicilərin diqqətini cəlb etmişdir.

Bəhs olunan dövrdə radio və televiziya sahəsində də əməkdaşlıq müvəffəqiyyətlə inkişaf edirdi: hər həftə tədris proqramları (fransız dilinin tədrisi), Radio Frans İnternasional (RFV) tərəfindən təqdim edilən musiqi verilişləri Azərbaycan radio və televiziyasında verilirdi [21].

Parisdə dekorativ incəsənət muzeyində Təbriz parçaları kolleksiyası, XVI əsr xalçası nümayiş etdirilirdi. Parisdə Şərq xalçalarının fransız mərkəzində gözəl xalça qalereyası fəaliyyət göstərir ki, burada da mütəmadi olaraq Azərbaycan xalçaları nümayiş etdirilirdi.

1992-ci ilin əvvəllərində bütün qışı fransız şəhərləri Bordo, Buarries, Şato de İzarede rəssam V.Nərimanbəyov, oğlu Əmirbəy və qızı Nigarın rəsm sərgisi nümayiş etdirildi. 1997-ci ilin sonlarında Fransada görkəmli Azərbaycan fotoqraflarından S.Ələsgərova, R.Hüseynov, Ş.Sərkərova, Ə.Seyran və digərlərinin yaradıcılığını özündə əks etdirən albom işıq üzü gördü. Eyni zamanda Nant kinofestivalı çərçivəsində iyirmi dörd azərbaycanlı fotoqrafının yüzdən çox eksponatını həmin fransız şəhərinin sakinləri böyük maraqla seyr etdilər [17].

1993-cü ildən məcburi qaçqın, köçkün və didərginlərə Fransanın humanitar yardımı ilbəil artmışdır. Humanitar yardımların həcmi ilkin 14,5 min ABŞ dollarından 2 milyon ABŞ dollarınadək artmışdır. Qirmızı xaç və Qırmızı aypara xətti ilə Fransadan gələn humanitar yardımlar nədən ibarət olurdu? Qida məhsulları mühüm yer tuturdu. Eyni zamanda 462 çadır, 36 min torğan, mətbəx avadanlıqları. Qaçqın uşaqlara xüsusi diqqət ayrılmışdı: 0,5 ton uşaq ayaqqabısı, 9,5 ton paltar və s. Naxçıvanda aviaqəza baş verdikdən sonra Fransanın səfiri ləngimədən ziyan çəkənlərə antibiotik, antisentik, qlükoza, sarğı vasitələri, bint və digər tibb ləvazimatları ilə yardım etdi. 1995-ci və 1996-cı illərdə Azərbaycanda malyariya xəstəliyi yayılanda "Elf" Fondu xloroxin, mikroskop və digər tibbi ləvazimat və dərmanlarla yardım etdi. Bəhs edilən illərdə respublikanın Sumqayıt, Şamaxı, Abşeron və digər rayonlarındakı xəstəxana, qospital və dispanserlərdə yüz minlərlə insan fransiz farmakoloq, epidemioloq və digər səhiyyə işçilərinin sayəsində sağalırdılar. Fakt-

lar təsdiq edir ki, Azərbaycan xalqının bu ağır günlərində Fransa hököməti və xalqı uzaqda olmasına baxmayaraq, ona yaxından köməklik göstərmişdir.

Qeyd edək ki, Fransada Azərbaycan musiqisinə də maraq böyük olmuşdur. 1992-ci ildə Dünya Musiqi Mədəniyyəti evinin bir qrup tanınmış şərqşünas alim və musiqiçiləri Azərbaycana gəlmiş, Azərbaycan muğamları və təsnifləri ilə maraqlanmışlar. O zaman "Azərbaycan muğamlarının antologiyasını" hazırlamaq təşəbbüsü ilə çıxış edən mütəxəssislər Azərbaycan "Orta Mahur", "Şüştər", "Mənsuriyyə", "Şiesteyi-fars" və digər nadir muğamları lentə yazmış və Fransaya aparmışlar [16].

Sonralar Parisin mərkəzi küçələrindən birində olan mağazanın Asiya qitəsi bölməsində Azərbaycan müğənniləri və muğam ifaçıları A. Qasımov, M.Əyyubova və A.Abdullayevin ifasında olan muğamlar satışa çıxarılmışdır [8].

Azərbaycan-Fransa siyasi əlaqələrinin tarixində olduğu kimi mədəni əlaqələrinin tarixində də Heydər Əliyevin 1997-ci ildə Fransaya səfəri yadda qalan olmuşdur. Bu səfər zamanı Heydər Əliyev 1997-ci il martın 27-də Parisin "Şanz ELize" teatrında dünya şöhrətli musiqiçi Mstislav Rostropoviçin 70 illiyinə həsr edilmiş təntənəli yubileyində iştirak etmişdir [4, 137].

1997-ci ilin oktyabrında Azərbaycana gələn Beynəlxalq Muzeylər Şurasının üzvü, Paris Musiqi Muzeyinin nümayəndəsi Patris Verye Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi ilə təmsil etdiyi muzey arasında əlaqələrin yaradılması təşəbbüsü ilə çıxış etmişdir.

1998-ci ilin yazında Azərbaycanın mədəniyyət xadimlərindən bir qrupu (Xalq artistləri Q.Quliyeva, C.Əkbərov və müğənni S.İmanova) Parisdə keçirilən qədim türk musiqi festvalında iştirak etmiş, festivalın keçirildiyi "Zİnqaros" salonunda Azərbaycan muğamlarını ifa etmişlər. Festivalda ifa olunan "Şur", "Çahargah", "Mahur-hindi" kimi Azərbaycan muğamları fransız musiqiçilərində böyük heyranlıq oyatmışdır.

1998-ci il sentyabrın 22-də Azərbaycanın dünya şöhrətli bəstəkarı Qara Qarayevin 80 illik yubileyi Fransanın paytaxtı Paris şəhərində qeyd edilmişdir. Azərbaycan Milli Kamera Orkestri yubiley tədbirində Q.Qarayevin "Yeddi gözəl", "İldırımlı yollarla" baletlərini, "Leyli və Məcnun" simfonik əsərini ifa etmişdir. YUNESKO-nun baş direktoru F.Mayor yubiley tədbirində iştirak edən Azərbaycan nümayəndə heyətini qəbul etmişdir.

2000-ci ilin dekabr ayında Respublika Rəssamlar İttifaqının Vəcihə Səmədova adına sərgi salonunda Parisin Mayt Qalereyasının litoqrafiya və afişa sərgisi açılmışdır. Azərbaycan Rəssamlar ittifaqının və Fransanın ölkədəki səfirliyinin birgə təşkil etdikləri sərgidə avanqardist rəssamların 30-a yaxın əsəri nümayiş olunmuşdur [10].

2000-ci ilin dekabr ayının sonlarında Parisin "Şərq ədəbiyyatı" nəşr evində fransız dilində çapdan çıxmış "Yeddi şahzadə xanımın sarayı" kitabının müzakirəsi keçirilmişdir. Müəllif Maykl Barri N.Gəncəvinin məhz Azərbaycan şairi olduğunu dəfələrlə vurğulamış, şairin həyat və yaradıcılığı, fəlsəfi baxışları habelə özünün tərcümə etdiyi "Yeddi gözəl" poemasının əsas xüsusiyyətləri barədə məlumat vermişdir [9].

Beləliklə, bəhs edilən illərdə Azərbaycan və Fransa arasında ikitərəfli və çoxtərəfli səviyyələrdə qəbul edilmiş sənədlər və əməkdaşlıq istiqamətində atılan addımlar ölkələrimiz arasında mədəni əlaqələrin intensiv surətdə inkişafına şərait yaratmışdır. Azərbaycan Prezidenti Heydər Əliyev 14 iyul 2002 - ci ildə Bakıda Bastiliyanın alınması günü münasibətilə etdiyi növbəti çıxışında Fransa ilə münasibətlərin, o cümlədən mədəni əlaqələrin inkişafında da əldə olunan uğurlara böyük əhəmiyyət verərək bildirmişdi: "Fransa ilə bizim çox sıx dostluq və faydalı əməkdaşlıq əlaqələrimiz var. Bu əlaqələr demək olar ki, bütün sahələri - siyasi, iqtisadi, həm də elmi-mədəni, humanitar və digər sahələri əhatə edir. Biz dostluğumuzu və əlaqələrimizi yüksək qiymətləndiririk. Bu əlaqələri qorumaq, saxlamaq, inkişaf etdirmək üçün səylər göstəririk" [5].

**Açar sözlər:** *Azərbaycan, Fransa, mədəniyyət, maarif, əməkdaşlıq*

**Ədəbiyyat**

*1. "Azərbaycan" qəzeti, 1993,14 avqust*

*2. "Azərbaycan" qəzeti, 1996, 12 oktyabr*

*3. "Azərbaycan" qəzeti, 08.06.1999-cu il*

*4. Abdullayev Ə. Müstəqil Azərbaycan və Fransa. Bakı:İqtisad Universiteti nəşriyyatı, 2007, 210 s., s. 193*

*5. Azərbaycan - Fransa münasibətləri - Wel-*

*come to Heydar Aliyevs...// library.aliyev-heritage.org*

6. *Beynəlxalq mədəni əlaqələr. Dərslik (M.C.Manafovanın və N.T.Əfəndiyevanın redaktəsi ilə). Bakı: Sabah, 2008, 660 s.*
7. *Diaspora hərəkatında qadınların rolu // Olaylar. - 12.03.2014, s. 10.*
8. *Əliyev Ə. Parisdə Azərbaycanlı ifaçıların kassetləri satılır. "Azərbaycan" qəz., 2 noyabr 2000-ci il, № 251 (2663).*
9. *Əliyev Ə. Parisdə N.Gəncəviyə həsr olunmuş əsərin müzakirəsi. "Azərbaycan" qəz., 31 dekabr 2000-ci il, № 301 (2713).*
10. *Fransa rəssamlarının sərgisi açılmışdır. "Azərbaycan" qəz., 19 dekabr 2000-ci il, № 291 (2703).*
11. *Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. İctimai-siyasi ədəbiyyat / tərt.: N. İbrahimov, İ. Şükürov. Bakı: Azərbaycan, 1994,175 s.*
12. *Heydər Əliyev: Müstəqilliyimiz əbədidir" (çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, müraciətlər, fərmanlar). Bakı: Azərnəşr, 1998, 8-ci cild, 488 s.*
13. *Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı: Elm, 2000, 368 s.*
14. *Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı: Azərbaycan, 2005,752 s.*
15. *Parisdəki "Azərbaycan Evi" 04.03.2013 // http://olaylar.az/news/diaspora/32959*
16. *Şükufə T. Parisə - qədim Şərq musiqi festivalına // Azərbaycan qəzeti, 05.04.1998.*
17. *Выставка, покорившая Нант. Газета «Бакинский рабочий», 11 января 1997 г.*
18. *Гасымлы М. Азербайджан в международных культурных связах (1946-1990 гг.). Тбилиси: Артануджи, 2005, 300 с.*
19. *Газета "Зеркало",1 марта 1996 г.*
20. *Каспийский прибой у берегов Сены. Газета «Бакинский рабочий», 11 января 1997 г.*
21. *Навстречу друг друга. Рассказывает Ги Шевалье, советник по культуре посольства Франции в Азербайджане. Газета «Бакинский рабочий», 11 января 1997 г.*
22. *Relations franco-azerbaidjanaises. http://www.colisee.org/rubrique. bphp?id_ rubrique=75*

## РЕЗЮМЕ

**С.Гулиева**
**Бакинский Государственный Университет**

**Отношения в сфере культуры между Республиками Азербайджана и Франции в конце XX – в нач. XXI вв.**

Статья посвящена анализу отношений между Республиками Азербайджана и Франции в области культуры. В конце XX века Республика Азербайджан и Франция установили и развивали свои отношения в указанной области. Азербайджано-французское сотрудничество в области культуры стала достаточно регулярным, и приобрело высокий уровень в конце XX – в нач. XXI вв.

**Ключевые слова:** *Азербайджан, Франция, культура, просвещение, сотрудничество*

## SUMMARY

**S.Gulieva**
**Baku State Universitety**

**Cultural relations between the Republics of Azerbaijan and France in the late XX – early XXI centuries**

The article is devoted to analysis of relations between Azerbaijan Republic and the Republic of France in the field of culture. At the end of the XX century the Republic of Azerbaijan and the Republic of France developed and established their relations in this area. The French-Azerbaijan cooperation grew sufficiently regular and at a high level in the field of culture in the late XX – early XXI centuries.

**Key words:** *Azerbaijan, France, culture, education, colobration*

UOT 327; 339.9

# AZƏRBAYCAN VƏ YUNANISTAN ARASINDA TURİZM SAHƏSİNDƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞIN BƏZİ ASPEKTLƏRİ

**İLYAS HÜSEYNOV**
*Bakı Slavyan Universitetinin beynəlxalq münasibətlər kafedrasının doktorantı, Sosial Tədqiqatlar Mərkəzi*

## Giriş

Azərbaycan Respublikasının iqtisadiyyatının əsas istiqamətini neft-qaz sektoru təşkil edir. Neft-qaz sektoru ilə yanaşı, turizm sahəsinin inkişaf etdirilməsi dövlətin prioritet istiqamətlərindən biri hesab olunur. Turizmin tükənməz imkanları sayəsində dövlətin siyasi, iqtisadi və sosio-mədəni inkişafının qanunauyğunluqlarını müəyyən etmək mümkündür. İnkişaf təməlini qədim zamanlardan götürən turizm, XX əsrin II yarısında kütləvi hadisəyə çevrildi. Hazırda turizm zəmanəmizin əhəmiyyətli təzahürlərindən biri olmaqla yanaşı, dövlətin təbliğ olunmasının ən yaxşı vasitəsi və iqtisadiyyata əlavə gəlirlərin daxil olması şərtləndirən mühüm alətdir. Ümumdünya Turizm Təşkilatının məlumatına görə, 2017-ci ildə turizm məqsədi ilə xarici səfərlərin ümumi sayı 1,323 milyon gəliş təşkil etmişdir [16, s. 12]. Beynəlxalq təcrübədə ölkənin istehsal potensialının, əhalinin gəlirlilik səviyyəsinin və məşğulluğunun artımında və digər sektorların inkişafında turizm sektorunun əhəmiyyətli təsiri müşahidə olunmaqdadır. Belə ki, statisistik göstəricilərə əsasən, 2015-ci ildə turizm sektorunun dünya ÜDM-ində ümumi payı 9,8 faiz, məşğulluğunda isə 9,5 faiz olmuşdur. Turizm sektoru iqtisadiyyatın sürətlə inkişaf edən sektoru olmaqla davamlı dəyişkən demoqrafik göstəricilərlə və müxtəlifləşən coğrafiyaya malikdir. Turizm sektoru iqtisadiyyatın həssas sektoru kimi qlobal iqtisadi böhranların təsirinə birbaşa məruz qalmasına baxmayaraq, 2009-cu ildən etibarən dördillik müddət ərzində böhranın təsirindən çıxaraq yenidən sürətli inkişafa başlamışdır [6, s. 7]. Statistik təhlillərə əsaslanan turizmin iqtisadiyyatda çəkisinin əhəmiyyətli olduğunu deməyə əsas verir. Belə ki, bu sektor eyni zamanda sosial-iqtisadi inkişafın əsas təkanverici qüvvəsi kimi dünyanın bir çox ölkələrinin milli iqtisadi prioriteti hesab edilir. BMT-nin Dünya Turizm Təşkilatının proqnozlarına əsasən, beynəlxalq turizm sənayesinin davamlı inkişafı nəticəsində xarici turistlərin sayı ildə orta hesabla 43 milyon nəfər artmaqla, 2030-cu ilədək 1,8 milyard nəfərə çatacaqdır. Yeni yaranmış turizm mərkəzlərində xarici turistlərin sayı ənənəvi turizm mərkəzləri ilə müqayisədə 2 dəfə çox olacaqdır. [6, s. 8]. Bu məqalədə Azərbaycan və Yunanıstan arasında turizm sahəsində qarşılıqlı əməkdaşlığın bəzi aspektlərinə nəzər salmağa çalışacağıq.

## Yunanıstanın turizm imkanları

Dünya sivilizasiyasının ən qədim məskənlərindən biri olan Yunanıstan antik dövrdən bəri zəngin tarixi-mədəni irsi, incəsənəti, eləcə də istirahət imkanları, çimərlikləri ilə əcnəbilərin diqqətini cəlb edib. Bu baxımdan ölkədə turizmin kökləri qədim zamanlara gedib çıxır. Yunanıstanın qədim tarixi, buradakı tarixi abidələr və muzeylər bütün dünyanın turistləri üçün cəlbediciliyi artırır. Yunanıstanın büdcəsinin böyük hissəsi turizm sahəsində əldə edilən vəsait hesabına formalaşır.

Yunanıstan özünün mülayim iqlimi, Aralıq dənizinin bir-birindən gözəl sahili əraziləri, klassik arxeoloji və tarixi yerləri ilə bütün dünyada məşhurdur. İrili-xırdalı gözəl və sakit adalar, əsl yunan qonaqpərvərliyi ölkəyə turist axınını artıran amillərdəndir [14, səh. 17].

Müasir dövrdə Yunanıstanda turizmin inkişafı 1960-1970-ci illərdə başlayıb və ölkə dünyada aparıcı mövqelərə çıxıb. Sonrakı dövrdə hotel və digər turizm infrastrukturu obyektlərinin inşası genişləndikcə, ölkəyə gələn turistlərin sayı da artmağa başladı. 2004-cü ildə paytaxt Afinada keçirilən Yay Oimpiya Oyunları bu artım tempinə

xüsusilə təkan verdi. Bununla belə son illər ölkədə yaşanan maliyyə-iqtisadi böhranı turizm sektoruna da mənfi təsir göstərib. Məsələn, 2007-ci ildə 11 milyon əhalisi olan ölkəyə 19 milyon turist gəldiyi halda, böhranın başladığı 2008-ci ildə bu rəqəm 17,5 milyona endi. Ümumiyyətlə, Yunanıstan dünya turizm istiqamətləri arasında 10-12 yerləri bölüşdürür və bu sahə ölkənin ümumi daxili məhsulunun 15 faizini təşkil edir [12, səh. 11].

Yunanıstanın ən çox səfər edilən regionları ölkənin şimalındakı Mərkəzi Makedoniya, eyni zamanda cəlbedici məkanlar olan Xalkidiki, Olimp dağı, Pella, Böyük İsgəndərin doğulduğu və eyni zamanda ölkənin ikinci ən böyük şəhəri olan Salonikidir. Afinadakı Akropol muzeyi kimi tarixi-mədəni məkanlar da turist axınını sürətləndirən amillər sırasındadır. Yunanıstanda çox nadir hesab olunan konfrans turizmi və aqroturim kimi sahələr də inkişaf etmişdir.

Pirey Universitetinin iqtisadiyyat üzrə professoru Teodor Pelaqidis qeyd edir ki, turizm Yunanıstanın rəqabət üstünlüyüdür və bütün iqtisadiyyatın inkişafının lokomotivi ola bilər. “Lakin uzunmüddətli qurtuluşa yalnız xidmət keyfiyyətlərini yüksəltmək hesabına əcnəbiləri buraya daimi yaşamağa cəlb etməklə nail ola bilərik. Bunun üçün burada misilsiz həyat keyfiyyəti və bütün təbii gözəlliklər var” [9].

**Yunanıstanın turizm sahəsində böyük təcrübəsindən yararlanmaq zərurəti**

Bu antik dövlətin böyük turizm təcrübəsi mövcuddur. Azərbaycanın turizm sahəsi üzrə yaxından əməkdaşlıq etdiyi ölkələrdən biri də Yunanıstan Respublikasıdır. Azərbaycan Yunanıstanın turizm sahəsində qazandığı tərcübədən faydalanmağa təşəbbüs göstərir.

2005-ci il aprelin 7-də Bakıda “Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanmışdır. 2005-ci il 3 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu Sazişi 844 nömrəli Sərəncamı ilə təsdiq etmişdir. Sazişdə Azərbaycan Respublikası və Yunanıstan Respublikası arasında turizm münasibətlərini yaxşılaşdırmaq və iki ölkənin müvafiq turizm hakimiyyəti orqanları arasında əməkdaşlığı təşviq etmək niyyəti, turizm sahəsində əməkdaşlığın qarşılıqlı faydalı olacağı, xalqlar arasında turizm münasibətlərinin inkişafının qarşılıqlı bilgi və anlaşma üçün əhəmiyyəti göstərilmişdir. Saziş 1975-ci il 1 avqust tarixində Helsinkidə imzalanmış Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Yekun Aktına daxil olan Avropada turizmin təşviqinə dair prinsip və tövsiyələrinə, 1963-cü il 21 avqust – 5 sentyabr tarixlərində Romada keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Səyahət və Turizm Konfransının tövsiyələrinə uyğun tərtib olunmuşdur [1].

2008-ci il noyabrın 23-dən dekabrın 1-dək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Yunanıstanın ölkəmizdəki səfirliyinin birgə təşkilatçılığı ilə turizm şirkətlərinin və KİV-lərin nümayəndələrindən ibarət heyətin iştirakı ilə Yunanıstanda infotur təşkil olunmuşdur. Bir həftə davam edən səfər müddətində Afina, Xanya, Saloniki, Xalkidiki, Retimno və Lutraki şəhərlərində olan infotur iştirakçıları təxminən 20-yə yaxın turist şirkəti və bir o qədər də hotellə qarşılıqlı əməkdaşlıqla bağlı müqavilələr imzalayıblar. Səfər çərçivəsində iştirakçılar məşhur “Hotel Casino Regency Hyatt”, “Metropolitan”, “Porto Carras”, “İmperial”, “Vouliagmeni Suites”, “King George”, “Club Hotel Casino Loutraki”, “Santa Marina”, “Hyatt Regency” və digər mehmanxanaların işi ilə yaxından tanış olublar. [4, səh. 9].

2008-ci il 29 noyabr tarixində Yunanıstanın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri İoannis Metaksas müsahibəsi zamanı jurnalistin “Azərbaycanla Yunanıstan arasında turizm əlaqələrinin inkişafı haqqında nə deyə bilərsiz?” sualına cavabında demişdir: “Ölkələrimiz arasında turizm sahəsində qarşılıqlı əməkdaşlıq mövcuddur və bununla bağlı razılaşma da var. Artıq Azərbaycan turistləri Yunanıstanı cəlbedici turist məkanı kimi kəşf etməyə başlayıblar” [13, səh. 5].

2009-cu il 2-6 fevral tarixlərində Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyi və Yunanıstanın Turizm Nazirliyi arasında birgə əməkdaşlıq çərçivəsində Yunanıstanın ölkəmizdəki səfirliyinin dəstəyi ilə “Qonaqpərvərlik və Turizm Sənayeləri üzrə yeni meyillər” mövzusunda seminar keçirilmişdir. Seminar Yunanıstanın Turizm Nazirliyinin 10 nəfər mütəxəssisi tərəfindən aparılmışdır. Seminarda mehmanxana və restoran menecerləri, turizm şirkətlərinin rəhbər işçiləri, həmçinin Azərbaycan Turizm İnstitutunun müəllim

və tələbələrindən ibarət 120 nəfərlik nümayəndə iştirak etmişdir. Bu seminarın keçirilməsində əsas məqsəd yemək-içmək və mehmanxana sahələrində çalışan işçilərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, həmçinin, turizm şirkətlərində işin düzgün qurulmasından ibarət olmuşdur. Ölkəyə turizm sahəsində müəyyən mənada yeniliklər gətirmiş seminarlarda, ölkəmizi Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və nazirliyin turizm şöbəsinin müdiri Aydın İsmiyev, Yunanıstanı isə Turizm Nazirliyinin turizm üzrə təhsil və treninq təşkilatının beynəlxalq ictimai əlaqələr ofisinin müdiri Spiros Qasparinatos, həmçinin Yunanıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri İoannis Metaksas və səfirliyin iqtisadi, ticarət üzrə birinci katibi Olqa Mezeridou Fauova təmsil etmişdir [11, səh. 9].

2010-cu il 9-16 iyun tarixlərində ölkəmizin kütləvi informasiya vasitələrinin bir qrup nümayəndəsi Bakı ilə Xanya arasında birbaşa aviasiya reysinin açılışı ərəfəsində Yunanıstanda səfərdə olmuşdur. Media qrupu Yunanıstan-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri xanım Antania Altoniu və Yunanıstanın turizm üzrə baş katibi Georgi Pousalos ilə keçirilən görüşlər zamanı qədim Ellada torpağının güclü turizm potensialı olduğu, Azərbaycanla Yunanıstan arasında genişmiqyaslı iqtisadi və mədəni əlaqələr çərçivəsində turizmə də geniş yer ayrılması zərurəti diqqətə çatdırılmışdır [8, səh. 3].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2011-ci il 15 fevral tarixində imzaladığı sərəncamla 2011-ci il Azərbaycan Respublikasında "Turizm ili" elan edilmişdir [5]. Bununla bağlı jurnalistin "turizm ili çərçivəsində ölkələrimiz arasında turizmi inkişaf etdirmək üçün nə etmək olar?" sualına cavabında Yunanıstanın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri İoannis Metaksas demişdir: "Yunanıstan azərbaycanlı turistlər üçün açıq ölkədir. Bizim ölkəmizdə turizm üçün hər cür imkan var: yüksək səviyyəli xidmət, ən gözəl otellər və s. Azərbaycan xalqına Yunanıstandan bəhs etməyə ehtiyac yoxdur. Onlar bizim ölkəni yaxşı tanıyırlar. Ötən illərdə Azərbaycandan çox sayda turist ölkəmizə səfər edib. Mən inanıram ki, bu daha da artmalı və inkişaf etməlidir. Yunanıstanın Azərbaycandakı səfirliyi Azərbaycan turistlərinin viza məsələsini çox qısa vaxtda həll etməyə çalışır" [10, səh. 5].

2012-ci il yanvarın 30-da "AtaTravel" MMC ilə Yunanıstanda fəaliyyət göstərən "Le Grand" turizm şirkəti ilə rəsmi tərəfdaşlıq müqaviləsi imzalanmışdır. Yunan şirkəti ilə əldə olunan razılaşmaya əsasən, Azərbaycan turistlərinin Yunanıstana səyahətləri, turları təşkil olunur. Qeyd edək ki, "Le Grand" şirkəti 1985-ci ildə yaradılıb. Şirkət turistlərə Yunanıstanın bütün şəhərlərinə, Krit, Koş, Santorini, Rodos və s. adalarına turlar təklif edir [2, səh. 6].

2014-cü il 9 oktyabr tarixində iki ölkə arasında turizm əlaqələrinin perspektivləri və Yunanıstanın turizm potensialı haqqında fikirlərini bölüşən Yunanıstanın Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Dimitrios Tsounqas bildirmişdir: "Yunanıstanda turizmin bütün sahələri inkişaf edib. Bizim gözəl çimərliklərimiz var. Eyni zamanda arxeoloji məkanlara, dağlara, zəngin mətbəxə malikik. Yeri gəlmişkən, biz mətbəx və idman turizmini inkişaf etdirməyə çalışırıq. Məsələn qolf və tennis kortları bu sıraya aiddir. Bununla bağlı Yunanıstanda milli turlar keçirilir. Biz həmçinin dini turizmi də inkişaf etdirmək niyyətindəyik. Ölkəmizdə yüzlərlə kilsə var. Spa, dağlara dırmanma, tibbi turizm üçün də perspektivlər mövcuddur. Çox gözəl müalicə ocaqlarımız, yüksək səviyyəli həkimlərimiz var, müalicə və turizm səfərlərini bir paketdə təqdim edirik" [15, səh. 4].

**Yunan turistlərin ölkəmizə cəlb olunması ilə bağlı təşəbbüslər**

Təbii ki, ölkəmizin əsas məqsədi Yunanıstanın turizm sahəsində təcrübəsindən istifadə etməklə yanaşı, yunan turistlərin ölkəmizə səfərlərini təşkil etməkdir. Bunun üçün Yunanıstanda keçirilən beynəlxalq turizm sərgilərində mütəmadi olaraq iştirak edilməsi arzuolunandır.

2010-cu il noyabrın 18-dən 21-dək Yunanıstanın Saloniki şəhərində HELEXPO-nun təşkilatçılığı ilə "Philoxenia" 26-cı Beynəlxalq Turizm Sərgisi keçirilmişdir. Sərgidə bir çox dünya dövlətlərinin turizm təşkilatlarının və biznes sektorunun nümayəndələri, turizm agentlikləri və hotellərin təşviqatı, eyni zamanda Qara dəniz hövzəsinə daxil olan ölkələrin turizm şirkətləri üçün UNDP-nin "Qara dəniz ticarət və investisiya təşviqatı" proqramı çərçivəsində biznes-forum keçirilmişdir. 4 gün davam edən sərgidə ölkəmizin turizm

potensialı Gənclər və İdman Nazirliyinin və Azərbaycanın Yunanıstandakı səfirliyinin dəstəyi ilə yüksək səviyyədə təqdim olunub. Ziyarətçiləri Azərbaycanın milli geyimində olan tələbələr qarşılayıb, Azərbaycan milli xalça nümunələri, milli xörəklərimiz, regionlarımız, turizm potensialımız və mədəniyyətimiz, iqtisadiyyatımız haqqında stendi ziyarət edən insanlara ətraflı məlumat verilib, Azərbaycanla bağlı kitab və broşürlər, eyni zamanda Heydər Əliyev Fondunun "Qarabağ həqiqətləri" kitabları, Bakı şəhəri, Qobustan qaya rəsmləri ilə əlaqəli bukletlər, Azərbaycanın təşviqat filmləri sərgi iştirakçılarına hədiyyə edilib, qonaqlar Azərbaycan milli şirniyyatları olan paxlava və şəkərbura dadıblar. Qeyd edək ki, ermənilər bütün sərgilərdə olduğu kimi, burada da təxribata əl atıblar. Belə ki, sərgidə Ermənistanın xəritəsində Dağlıq Qarabağ Ermənistanın tərkib hissəsi kimi göstərilib. Lakin azərbaycanlı tələbələrin etirazından sonra Ermənistanın həqiqəti əks etdirməyən xəritəsi stenddən tamamilə sökülüb [3, səh. 9].

**Yunanıstandan Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayı**

| 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| 1320 | 1712 | 2112 | 1276 | 1464 | 1519 |

*Mənbə: [7, səh. 25] "Azərbaycanda turizm" / Statistik məcmuə / Bakı, 2019*

2016-cı il 10 oktyabr tarixində Yunanıstanın ölkəmizdəki səfiri Dimitrios Tsounqas müsahibəsi zamanı Yunanıstandan Azərbaycana gələn turistlərin sayının azlığı haqqında bildirib: "Azərbaycanın turizm imkanları daha yaxşı təbliğ olunarsa və birbaşa təyyarə reysləri açılarsa, buraya Yunanıstandan daha çox turist gələ bilər". Səfir həmçinin yunanların Azərbaycana daha çox gəlməməsinin səbəblərini də açıqlayıb: "Yayda yunanlar öz ölkələrində qalırlar. Səfərlərə daha çox qış mövsümündə gedirlər. Bu isə daha çox Avropa ölkələridir. Avropa ölkələri arasında ən çox İtaliya və Fransanı gəzirlər. Ölkəniz turizm sahəsində yaxşı təbliğ olunmayıb, buna görə də yunanlar buraya daha az gəlir. Bu, birinci səbəbdir. İkinci səbəb isə Azərbaycandan Yunanıstana birbaşa reyslərin olmamasıdır" [17].

**Nəticə**

Sonda qeyd etmək istərdik ki, Azərbaycanda turizm sahəsini inkişaf etdirmək üçün ilk növbədə Yunanıstan kimi bu sahədə yüksək gəlir götürən ölkələrlə geniş əlaqələr qurmaq lazımdır. Homer və Esxilin, Sofokl və Evripidin, Aristotel və Platonun vətəni qədim Yunanıstan özünün çoxəsrlik mədəniyyəti, memarlığı, incəsənəti, fəlsəfəsi, təhsili üzərində yeni ideya və texnologiyaların tətbiqi ilə öz turizmini inkişaf etdirir. Mərmər, zeytun və şərabla uzağa getməyin mümkünsüzlüyünü yaxşı dərk edən yunanlar təbii şəraitin yaratdığı şansdan yüz faizlik istifadəyə üstünlük verirlər. Turizm sənayesinin prioritet olduğu Yunanıstana hər il orta hesabla 11 milyon turist gəlir. Bu isə Yunanıstanın büdcəsinə təqribən 4 milyard dollar əlavə gəlir gətirir. Azərbaycanın da turizm sahəsindən bu cür yüksək gəlir götürməsi mümkündür. Çünki buna ölkəmizin həm təbii şəraiti, həm coğrafi mövqeyi, həm də zəngin tarixi imkan verir.

**Açar sözlər:** *Yunanıstan, turizm, mədəniyyət, qonaqpərvərlik, infoturlar, qarşılıqlı əməkdaşlıq, turizm sənayesi.*

**Ədəbiyyat**

*1. 2005-ci il aprelin 7-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Yunanıstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin sərəncamı // http://e-qanun.az/framework/9969*

*2. Abdullayeva F. "AtaTravel" Yunanıstanın "Le Grand" turizm şirkətinin tərəfdaşı oldu // "Mədəniyyət" 1 fevral 2012-ci il. № 7 (903)*

*3. Abdullayeva F. Azərbaycan turizmi Yunanıstanda təqdim edilib // "Mədəniyyət" 26 noyabr 2010-cu il. № 83 (790)*

*4. Abdullayeva F. İnfoturlar davamlı olmalıdır // "Mədəniyyət". 13 dekabr 2008-ci il. № 97 (613)*

*5. Azərbaycan Respublikasında 2011-ci ilin "Turizm ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // http://www.e-qanun.az/framework/21629*

*6. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi, 98 s. // https://azertag.az/store/files/Strateji_yol_xeritesi/Turizm_s%C9%99nayesinin_*

*inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf*

*7. "Azərbaycanda turizm" / Statistik məcmuə / Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2019, 99 s. https://www.stat.gov.az/source/tourism/*

*8. Cabbarlı A. Qədim Ellada həm də müasirliyin simvoludur // "Azərbaycan". 20 iyun 2010-cu il. № 131 (5532)*

*9. Greece sees its future as the Florida of Europe. 29.06.2019 // https://www.theguardian.com/world/2019/jun/29/greece-tourism-florida-of-europe*

*10. Qaraxançallı A. Yunanıstan Azərbaycanla birbaşa əməkdaşlıqda maraqlıdır // "Zaman" 18-20 iyun 2011-ci il.*

*11. Qurbanlı T. Qonaqpərvərlik və Turizm Sənayeləri üzrə yeni meyillər // "Səs". 3 fevral 2009-cu il. № 20 (3305)*

*12. Mehparə. Yunanıstan // "Mədəniyyət" 25 iyun 2014-cü il.*

*13. Mehparə. Yunanıstan üçün Azərbaycan çox mühüm regional tərəfdaşa çevrilib // "Mədəniyyət". 29 noyabr 2008-ci il. № 94 (610)*

*14. Mirələmov H. Sokratın vətənində // "525-ci qəzet" 21 dekabr 2013-cü il. № 235 (4011)*

*15. Pərvanə. "Azərbaycana səfir təyinatı təklifinə dərhal "bəli" dedim" // "525-ci qəzet" 9 oktyabr 2014-cü il № 182 (4199)*

*16. World Tourism Organization (2018), UNWTO Annual Report 2017, UNWTO, Madrid, DOI: https://www.e-unwto.org/doi/book/10.18111/9789284419807*

*17. Yunanıstan səfiri: Azərbaycanın turizmi yaxşı təbliğ edilməyib // https://oxu.az/turism/153414*

**SUMMARY**

**Ilyas Huseynov**

**Some aspects of mutual cooperation in tourism between Azerbaijan and Greece**

Tourism is a key tool to promote peace between countries, the rapprochement of different peoples, globalization, the development of art and culture, the spiritual development of nations, their physical health and relaxation. Tourism expansion means creating new jobs, improving the country's balance of payments and ensuring the physical and spiritual aspects of human development. This article discusses some aspects of tourism cooperation between Azerbaijan and Greece. Azerbaijan wants to capitalize on Greece's extensive experience in tourism. On April 7, 2005, an Agreement on cooperation in the field of tourism between the Government of the Republic of Azerbaijan and the Government of the Hellenic Republic was signed in Baku. After this agreement, a number of tourism projects were implemented between the two countries.

**Keywords:** *Greece, tourism, culture, hospitality, infotours, mutual cooperation, tourism industry.*

**РЕЗЮМЕ**

**Ильяс Гусейнов**

**Некоторые аспекты взаимного сотрудничества в сфере туризма между Азербайджаном и Грецией**

Туризм является ключевым инструментом содействия миру между странами, сближению разных народов, глобализации, развитию искусства и культуры, духовному развитию наций, их физическому здоровью и отдыху. Расширение туризма означает создание новых рабочих мест, улучшение платежного баланса страны и обеспечение физических и духовных аспектов человеческого развития. В этой статье рассматриваются некоторые аспекты сотрудничества в сфере туризма между Азербайджаном и Грецией. Азербайджан хочет извлечь выгоду из большого опыта Греции в туризме. 7 апреля 2005 года в Баку было подписано Соглашение о сотрудничестве в области туризма между Правительством Азербайджанской Республики и Правительством Греческой Республики. После этого соглашения между двумя странами был реализован ряд туристических проектов.

**Ключевые слова:** *Греция, туризм, культура, гостеприимство, инфотуры, взаимное сотрудничество, индустрия туризма.*

UOT: 330.8:330.88:332.12

# İqtisadiyyat

## SUMQAYITIN SƏNAYE MƏRKƏZİ KİMİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ

**ŞƏFA ƏLİYEV**
*İqtisad elmləri doktoru, Sumqayıt Dövlət Universitetinin "Dünya iqtisadiyyatı və marketinq" kafedrasının professoru*

*E-mail: shafaaliyev@gmail.com*

Bu il Sumqayıt şəhərinin 70 yaşı tamam olur. Ölkə Prezidenti İlham Əliyevin 2019-cu il 14 fevral tarixli Sərəncamı ilə Sumqayıt şəhərinin 70 illik yubileyinin geniş miqyasda və təntənəli şəraitdə qeyd edilməsi qərara alınmışdır [1]. Bu baxımdan, Sumqayıt şəhərinin inkişafı ilə bağlı iqtisadi-tarixi aspektlərin araşdırılması və obyektiv olaraq qiymətləndirilməsi vacib şərtlərdəndir. Sumqayıtın güclü sənaye mərkəzi və inkişaf etmiş şəhər kimi formalaşmasında Ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətləri olmuşdur [2].

1969-cu ildə Azərbaycan Respublikasının rəhbərliyinə başlamış ulu öndər Heydər Əliyevin respublika iqtisadiyyatının inkişaf dinamikasının sürətləndirilməsində və sosial-iqtisadi inkişafın intensivləşdirilməsində böyük həcmli tarixi işlərin görülməsini təmin etmişdir və bütün bunlar Sumqayıt şəhərində də öz ifadəsini tapmışdır. Belə ki, Heydər Əliyevin təşəbbüsləri sayəsində 1970-80-ci illərdə Sumqayıtda sənaye mərkəzinin yenidən qurulması, yeni istehsalat sahələrinin, müəssisələrin yaradılması, daha məhsuldar və səmərəli texnoloji qurğuların istismara verilməsi, bunlarla bərabər mövcud istehsalatların yenidən qurulması tədbirləri geniş həcmdə həyata keçirilmişdir [3].

Sumqayıt şəhərinin sənaye potensialında kimya müəssisələrinin rolunu və ümumiyyətlə, bu sənaye sahəsinin respublika üçün əhəmiyyətini nəzərə alan Heydər Əliyev vaxtilə qeyd edirdi ki, kimya sənayesi respublika üçün mühüm əhəmiyyəti olan proqressiv bir sahədir, bu səbəbdən də yeni kimya müəssisələrinin inşa edilib mənimsənilməsində geridə qalmaq, hər hansı bir ləngilik yolverilməzdir. Bu cür yanaşma həmin dövrdə demək olar ki, Sumqayıtın sosial-iqtisadi inkişafının sürətləndirilməsində, onun sənaye potensialının artırılmasında, yeni müəssisələrin yaradılmasında, şəhər təsərrüfatının inkişaf etidirilməsində əsas götürülmüşdü. Ulu öndər Sumqayıtı daim diqqət mərkəzində saxlayırdı və həmin dövrdən başlayaraq, müstəqilliyin bərpasından sonrakı dövrlər də nəzərə alınmaqla, 16 dəfə Sumqayıta səfər etmişdir və onun hər dəfə Sumqayıtda olmasından sonra şəhərin sosial-iqtisadi inkişafına yeni təkan verilmiş, şəhərin dayanıqlı və tarazlı inkişafı üçün zəruri tədbirlər görülmüşdür.

İlk dəfə Ulu Öndər Azərbaycan Respublikasının rəhbəri kimi Sumqayıta 1971-ci ilin aprel ayının 7-də səfər etmiş və Rumıniyanını nümayəndə heyəti ilə "Üzvi Sintez" zavodunda olmuş, sovet-rumin dostluğu mitinqində iştirak etmişdi [4]. Həmin dövrdə "Üzvi Sintez" zavodu keçmiş SSRİ-nin və Avropanın ən iri kimya kombinatlarından hesab olunurdu. Heydər Əliyev bu sahənin inkişafı və sonrakı dövrlərdə daha geniş potensialının formalaşdırılması istiqamətində zəruri tapşırıq və tövsiyələrini verməklə, sonrakı illərdə Sumqayıtın, onun sənaye müəssisələrinin daha sürətli inkişafı üçün ruh yüksəlikliyi yaratdı, əsaslı zəmin formalaşdırdı. Belə ki, Heydər Əliyev "Üzvi Sintez" zavodunun sexlərini gəzərək, buraxılan məhsulların keyfiyyəti, insanların iş, məişət şəraiti ilə maraqlanmışdı. Məhz onun məsləhəti ilə Sumqayıtda 1971-ci ildə "Kompressorlar" zavodu istifadəyə verilmişdir. Yaponiyanın "Nippon Elektrik İndustri" şirkətinin lisenziyası, avadanlığı əsasında qurulmuş müəsissədə soyuducular və dondurucular üçün motor-kompressor istehsal olunurdu. Heydər Əliyevin bu gəlişi ilə Sumqayıtda sosial-iqtisadi inkişaf daha da sürətləndi, 1972-ci ildə Ticarət Mərkəzi, Göz xəstəxanası, 12 mərtəbəli yaşayış binası tikilib istifadəyə verildi və 12-ci mikrorayonun bünövrəsi qoyuldu.

30 noyabr 1973-cü ildə Heydər Əliyev ikinci dəfə Sumqayıtda olmuşdur. Bu səfər zamanı əsas məqsəd - nəhəng metallurgiya zavodu olan - "Azərbaycan Boru-Prokat Zavodu"nda vəziyyətlə yerində tanış

olmaq idi və metallurqlarla görüşərək, öz irad və təkliflərini bildirmişdir. Metallurgiya müəssisələri ilə yanaşı, Sumqayıtda toxuculuq müəssisələtinin tikintisinin başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar vermişdir. Azərbaycan Boru-Prokat zavodunun Partiya Komitəsinin Konfransında çıxışı zamanı Heydər Əliyev demişdir: "Hər dəfə zavoda gələndə, yəqin edirsən ki, burda təqribən 20 millətin nümayəndələrindən ibarət səmimi kollektiv çalışır. Kollektivin işi heç də həmişə rəvan getməmişdir. Məsələn, 1969-cu ildə zavod acınacaqlı vəziyyətdə idi. Buna görə də biz müəssisədə işlərin vəziyyəti ilə dərindən maraqlanmağa, geriliyin səbəblərinin aşkara çıxarmağa və bu geriliyin aradan qaldırmağın yollarını müəyyən etməyə məcbur oluruq... Zavodun rəhbərliyi möhkəmləndirildi və vəziyyət çox çəkmədən yaxşılaşdı... İşdə ciddi dönüş yaratmaq, təsərrüfatın idarə olunmasının intensiv metodlarına daha çox fikir verməK lazımdır. İqtisadi yüksəlişi təmin etmək üçün əmək məhsuldarlığını artırmaq, elmi-texniki tərəqqini sürətləndirmək, mövcud istehsal qurğularından istifadə etmək, təsərrüfata sərf edilmiş hər manatın, işlədilən metalın və digər materialların hər tonunun daha çox səmərə verməsini təmin etmək lazımdır [5]. Heydər Əliyevin bu proqram xarakterli çıxışı həmin dövrdə Sumqayıtda iri müəssisələrin bütün kollektivlərini və rəhbərliklərini səfərbər etdi, əmək və istehsalat intizamını gücləndirdi və ümumilikdə, şəhərin sosial-iqtisadi inkişafının intensivləşdirilməsinə əlavə stimullar verdi.

Qeyd edək ki, Sumqayıtın tarixində elə dövrlər vardır ki, onlara xüsusi yanaşmalar tələb olunur. 1970-ci illərin əvvəllərində Sumqayıtın sosial-iqtisadi inkişafının tarixində tamamilə yeni bir mərhələ başladı və bu proseslərin nəticələri 1985-ci ilədək özünü fəal şəkildə göstərdi. Həmin dövrdə Sumqayıt nəinki Azərbaycanın, ümumilikdə keçmiş SSRİ-nin ən güclü və dinamik inkişaf edən sənaye şəhərlərindən birinə çevrilmişdir. Şəhərdə sosial-iqtisadi inkişafın bütün aspektləri üzrə kompleks və sistemli tədbirlər görülmüş, şəhər təsərrüfatının müasir şəhərsalma standartlarına uyğunlaşdırılması təmin edilmiş, şəhər əhalisinin rahat yaşaması və işləməsi potensialı yaradılmışdır. Yeni məktəblər, xəstəxanalar, uşaq baxçaları, sosial obyektlər istismara verilmiş, şəhərin küçə və prospektləri abadlaşdırılmış, mənzil fondu əhəmiyyətli səviyyədə artırılmış, yeni yaşayış mikrorayonları salınmış, şəhərdə kommunal xidmət sahələrinin inkişaf etdirilməsinə, nəqliyyat sisteminin gücləndirilməsinə xüsusi önəm verilmişdir. Sənaye infrastrukturunun gücləndirilməsi və bu sahədə səmərəliliyin artırılması üçün bir-birinin ardınca yeni istehsal sahələri yaradılmış, Sumqayıtın sənaye strukturu diversifikasiyalaşdırılmışdır [6]. Ağır sənaye sahələri ilə yanaşı, digər daha perspektivli, elm və texnologiyalar tutumlu iqtisadiyyat sahələrinin inkişafına start verilmişdir [7]. Xüsusilə, şəhərdə toxuculuq sənayesi müəssisələri yaradılması hesabına həmin dövrdə artıq dinamik şəkildə artım nümayiş etdirən şəhər əhalisinin işlə təminatı problemlərinin, o cümlədən, qadınların işlə təminatı sahəsindəki çətinliklərin əhəmiyyətli hissəsi aradan qaldırıldı. Məsələn, Sumqayıtda XX əsrin 70-ci illərində "Üst trikotaj" fabriki və "Xovlu iplik" fabrikləri işə salınmışdır. Bu sahədə işləyənlərin 80 faizindən çoxu gənc qadınlardan ibarət idi. Eyni zamanda, Xovlu iplik fabriki respublikanın 20-dən çox müəssisəsi üçün xammal istehsal edirdi [8, s.71].

Bundan əlavə, kimya və neft kimya kompleksinin sürətli inkişaf mərhələlərindən biri kimi 1970-1980-ci illər daha çox yadda qalmışdır. Belə ki, respublikada kimya sənayesinin geniş və hərtərəfli inkişafına diqqət və qayğı göstərən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə kimya sənayesinin əsasını təşkil edən Sumqayıtın sənaye iqtisadi kompleksinin potensialını artırmaq üçün tarixi işlər görülmüşdür. Heydər Əliyev Sumqayıtda növbəti dəfə 1974-ci il yanvar ayının 31-də olmuş və Sumqayıt Şəhər Partiya Təşkilatının XVIII Konfransında iştirak etmişdir. Bu Konfransda şəhərin sosial-iqtisadi inkişafındakı nöqsanlar açıq şəkildə verilmiş, xüsusilə, yeni yaşayış rayonlarının su və yanacaqla təchiz olunması məsələsinə məsuliyyətsiz yanaşanlar tənqid olunmuşlar. Gənclərlə aparılan işlərin gücləndirilməsinin vacibliyi bildirilmişdir. Konfransda böyük nitq söyləyən Heydər Əliyev demişdir: "İqtisadiyyatın inkişafında, ictimai-siyasi həyatda, şəhər tikintisində Sumqayıt əməkçilərinin nailiyyətləri şəksizdir... Boru-Prokat zavodunda, sintetik kauçuk zavodunda və xüsusən, ötən il yarıtmaz işləmiş Sumqayıt Kimya Sənayesi Müəssisələri Birliyində böyük ehtiyat mənbələri vardır. Kompressorlar zavodunun sənaye qurğularından yol verilməz dərəcədə ləng istifadə edilir, halbuki bu zavod üçün avadanlıq satınalınmasına dövlət xeyli valyuta sərf etmişdir. Ötən il əsas fondların işə salınmasına dair planını yerinə yetirməmiş Sumqayıt inşaatçılarının da öz işlərini yaxşılaşdırmaq üçün hər cür şərait vardır" [9]. Təhlillər göstərir ki, məhz Heydər Əliyevin bu sağlam və obyektiv tənqidi nitqindən sonra Sumqayıtda sosial-iqtisadi inkişaf xeyli

intensivləşmişdir və təsadüfi deyildir ki, 1970-80-ci illər Sumqayıtın sosial-iqtisadi inkişafında intibah dövrü kimi qiymətləndirilir. Həmin illər ərzində neft kimya kompleksi əsaslı surətdə yenilənmiş və karbohidrogen ehtiyatlarından səmərəli inkişafı üçün xeyli iş görülmüşdür [10]. Bu kompleksdə geniş miqyasda yenidənqurma işlərinin aparılması Sumqayıt kimya kompleksinin Azərbaycanda Respublikasının iqtisadiyyatında aparıcı yerlərdən birini tutmasına imkan verdi. Belə ki, 1980-ci illərin əvvəllərində Sumqayıtın kimya kompleksində respublikanın ümumi sənaye potensialının 20 faizi cəmlənmişdi və sənayedə çalışanların hər 8 nəfərindən biri bu kompleksdə işləyirdi. Qeyd etmək lazımdır ki, bu kimi amillər Sumqayıtın özünün inkişafı ilə yanaşı, bu şəhərin digər respublikalarda və dövlətlərdə də tanınmasını və onun iri sənaye mərkəzi olması imicini əsaslı şəkildə artırırdı. 1980-ci illərdə, ümumilikdə, sintetik yuyucu vasitələr, superfosfat gübrələri, divinil, butadien-nitril lateksi kimi məhsul buraxan böyük müəssisə və komplekslər işə salındı, yüksək təzyiqli polietilen, epoksid və poliefir qətranları və s. istehsal edən müəssisələrdə isə yenidənqurma işləri həyata keçirildi, onların istehsal gücü artırıldı. Superfosfat zavodunda 1975-ci ildə gücü 450 min ton/il olan sulfat turşusu, 1980-ci ildə gücü 136 min ton/il olan dənəvər superfosfat sexləri istifadəyə verilmişdir.

Bundan əlavə, 1970-ci illərin əvvəllərində Sumqayıtda əhalinin məişət tələbatını ödəmək üçün yeni kimya müəssisələrinin tikintisinə başlanıldı və artıq 1978-ci ildə Sumqayıtda istehsal olunan yuyucu tozların ümumi həcmi 120 minə çatmışdır və bu proseslərin reallaşdırılmasında Heydər Əliyevin təşəbbüsləri, tövsiyələri əhəmiyyətli rol oynamışdır. Heydər Əliyevin “iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” sözləri onun respublikanın gələcək inkişafı üçün fikir və layihələrinin genişliyindən, əhatəliliyindən söz açır. XX əsrin 70-80-ci illərində respublikamıza rəhbərlik edərkən, o, kimya sənayesinin inkişafına xüsusi əhəmiyyət verirdi. Məhz Heydər Əliyevin səyləri nəticəsində yaradılmış iri kimya müəssisələri təkcə Azərbaycan iqtısadiyyatının deyil, bütövlükdə, Zaqafqaziyanın inkişafında həlledici rol oynamışdır. Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyi ondadır ki, o, lazım olan strateji qərarları vaxtında qəbul edir və onları ən qısa müddətdə həyata keçirirdi. Ölkə rəhbərinin bilavasitə təşəbbüsü ilə respublikamızda geniş istehsal olunan bəzi kimyəvi məhsulların əhəmiyyətini xüsusi qeyd etmək lazım gəlir. Məlumdur ki, respublikamızın su hövzələrində su xlor vasitəsilə təmizlənir, neft sənayesində və istilik-elektrik stansiyalarında isə natrium qələvisindən istifadə edilir. Son illərədək yuyucu vasitələrin istehsalında əsas xammal kimi sulfanoldan istifadə olunurdu. Respublikanın müəssisələrində istehsal olunan bu məhsullar Azərbaycanın ehtiyaclarını təmin etməklə yanaşı, müxtəlif xarici ölkələrə də ixrac edilirdi. Heydər Əliyevin Sumqayıta növbəti səfərlərindən biri 1974-cü il 28 fevralda baş vermişdir, o, SSRİ Nazirlər Soveti sədrinin I müavini N.Tixonovla birlikdə Sumqayıta gəlmiş və Azərbaycanın qara metallurgiya sənayesinin flaqmanı olan “Boru-Prokat” zavodunda və “Kimya sənayesi” İB-də olmuşdur [11]. Bu səfər zamanı Azərbaycanın kimya sənayesinin ən dəyərli qurğularından biri olan - “EP-300” qurğusunun Sumqayıtda tikilməsi haqqında təklif verilmişdir və sonralar çətinliklə də olsa, bu unikal qurğunun Sumqayıtda tikintisi başa çatdırılmışdır. Heydər Əliyevin Sumqayıta digər bir səfəri isə 1974-cü il noyabr ayın 27-də baş vermişdir. Həmin səfər zamanı Heydər Əliyev Sumqayıt şəhərinin 25 illik yubileyi ilə əlaqədar təşkil olunmuş təntənəli iclasda nitq söyləmişdir: “Xəzər dənizinin kimsəsiz sahilində salınmış Sumqayıt indi Respublikamızın ikinci sənaye şəhəridir: burada güclü müasir müəssisələr, gözəl evlər, enli və yamyaşıl küçələr və prospektlər, çoxlu elm ocağı, tədris müəssisəsi və mədəni-maarif ocağı vardır... Sumqayıtda ən mütərəqqi, ən perspektivli ağır sənaye sahələrinin müəssisələri yaradılmışdır və bunlar elmi-texniki tərəqqini daha da genişləndirmək üçün yaxşı bünövrədir. Sumqayıtın yaranması Azərbaycan iqtisadiyyatında yeni sənaye sahələrinin - qara və əlvan metallurgiyanın, kimya sənayesinin və başqa sənaye sahələrinin yaranıb inkişaf etməsi demək idi... Biz Sumqayıta, onun gözəlliyinə, əzəmətinə, planlı tikilməsinə və yaşıllığına ürəkdən heyranıq. Lakin siz Sumqayıtı daha yaxşı, daha gözəl bir şəhərə çevirməlisiniz, şəhərin ətrafında meşə-park zonası yarada bilərsiniz və yaratmalısınız” [12]. Sonrakı dövrlərdə Sumqayıtın intensiv inkişafında, şəhər təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsində, geniş sahədə şəhər dənizkənarı parkının salınmasında, müəssisələrin fəaliyyətinin daha da gücləndirilməsində Heydər Əliyevin bu tapşırıq və tövsiyələrinin önəmli rolu olmuşdur. Həmin dövrdə Azərbaycan və keçmiş SSRİ-də kənd təsərrüfatının inkişaf etdirilməsi üçün böyük həcmdə kənd təsərrüfatı gübrələri tələb olunurdu. Buna görə də, Heydər Əliyevin

rəhbərliyi və tapşırığı ilə bu istiqamətdə ardıcıl və güclü işlər aparılmışdır. Onun sayəsində 1975-ci ildə texnoloji avadanlıqları xaricdən gətirilən və illik istehsal gücü 450 min ton olan sulfat turşusu istehsalatı yaradılmışdır və "Superfosfat" zavodunda 1980-83-cü illərdə Zaqafqaziyada ilk dəfə olaraq, dənəvər superfosfat gübrələri istehsal edən texnoloji kompleks istismara verilmişdir. Növbəti dəfə Heydər Əliyev Sumqayıtda 1978-ci il yanvar ayının 25-də olmuşdur. O, Sumqayıta Sov. İKP MK katibi M.V.Zimyaninlə birlikdə gəlmiş və Azərbaycan "Boru-Prokat" zavodunun metallurqları ilə görüşmüşlər. Heydər Əliyev M.Zimyaninlə birlikdə zavodun əsas sexlərini gəzmiş, avtomat boru prokatı stanının işini izləmiş, metallurqların məişət otaqlarında olmuş, tikilməkdə davam edən fabrik-mətbəxə baxmış, fəhlələrlə söhbət etmişlər. Daha sonra Neft və Neftkimya Sənayesində Kompleks Avtomatlaşdırma İnstitutunda alimlərin yaratdıqları cihazlara baxmışlar [13]. Heydər Əliyev 1979-cu il oktyabr ayın 5-də SSRİ Ali Soveti Rəyasət Heyəti sədrinin birinci müavini V.V.Kuznetsov ilə birlikdə Sumqayıta gəlmişlər. Onlar Sumqayıtda "Boru-Prokat" zavodunda, şəhərin sənaye müəssisələrində istehsal olunan məmulat nümunələrinin toplandığı sərgidə olmuş, şəhəri gəzmiş və kolxoz bazarında olmuşlar. Bundan əlavə, "Boru-Prokat" zavodunun marten sexində poladəridənlərlə söhbət aparmışdır. Burada Heydər Əliyev öz çıxışında qeyd etmişdir ki: "Son illərdə müəssisədə böyük dəyişikliklər olmuş, səmimi kollektiv yaranmış, sağlam mənəvi-siyasi şərait bərqərar olmuşdur." [14].

1980-ci illərin əvvələrində artıq Sumqayıt güclü sənaye mərkəzi ilə yanaşı, hərtərəfli inkişaf edən bir şəhərə çevrilməkdə idi. Şəhər təsərrüfatı dinamik inkişaf edir, küçələr və prospektlər daha da abadlaşdırılır və genişləndirilir, ən əsası yeni yaşayış massivlərinin və mikrorayonlarının tikintisi sürətləndirilmişdi. Nəqliyyat, təhsil və səhiyyə sistemlərinin maddi-texniki bazası xeyli gücləndirilmişdi. Heydər Əliyev Sumqayıta növbəti səfərlərindən birində - 1981-ci il aprel ayının 8-də Sumqayıtın bir sıra sənaye obyektlərində və sosial-mədəni obyektlərdə fəhlələrlə, mütəxəssislərlə, şəhər sakinləri ilə görüşmüşdür. Heydər Əliyev xovlu iplik halına düşən məhsulun hazırlanması texnologiyası ilə maraqlanmışdır. Sonra, Sumqayıt alüminium zavoduna gələrək, zavodun layihə səviyyəsinə çatdırılmasını nəinki sürətləndirmək, həm də onun gücünü xeyli artırmaq vəzifəsini irəli sürdü. İstehsal sahələri ilə yanaşı, Heydər Əliyev "Aygün" adlı yeni məişət evində, uşaq şahmat məktəbində oldu, yaşayış məhəllərini gəzərək sakinlərlə görüşdü, həmçinin Xəzərin sahilində yaradılan kütləvi istirahət zonası ilə tanış oldu, öz tapşırıq və tövsiyələrini verdi [15]. 1981-ci il aprel ayının 9-da isə Heydər Əliyevin Sumqayıta səfəri çərçivəsində Səməd Vurğun adına mədəniyyət sarayında keçirilən şəhər partiya fəalları yığıncağında nitq söylədi. Heydər Əliyev qeyd etdi ki: "Sumqayıt sənaye şəhəridir, Respublika sənaye istehsalının ümumi həcmində onun xüsusi çəkisi sanballıdır - 11 faizdən artıqdır, sənaye potensialı bir milyard manatı ötüb keçmişdir, təbiidir ki, sənaye istehsalı planlarının Respublika tərəfindən tamamilə və artıqlaması ilə yerinə yetirilməsi Sumqayıt sənaye kompleksinin bundan sonra necə işləməsindən xeyli dərəcədə asılı olacaqdır... Buna görə də, şəhər sənayesinin təkmilləşdirilməsinə dair daha geniş proqram elmi-texniki tərəqqinin nailiyyətlərinə tam müvafiq şəkildə həyata keçirilməli və istehsalın ümumi həcmində son məhsulun xüsusi çəkisinin ardıcıl surətdə artırılması təmin edilməlidir" [15]. Bütün bu kimi səylərin və kompleks tədbirlərin nəticəsində həmin dövrdə Sumqayıt sosial-iqtisadi inkişaf baxımından yüksək nəticələrə nail olmuşdur. Bu gün öz intibahının yeni mərhələsini yaşayan Sumqayıtın da sovet hakimiyyəti dövründə inkişafı və nəinki keçmiş SSRİ-də, bütün dünyada tanınması Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyevin böyük qayğısı sayəsində şəhər tarixinin ən əlamətdar səhifələri yazılıb. Sumqayıtlılar ulu öndərin xüsusi diqqət və qayğısını hər zaman hiss ediblər. Şəhərin sosial-iqtisadi inkişafında, sənayenin formalaşmasında, elmin, təhsilin, mədəniyyətin tərəqqisində bu dahi insanın əvəzsiz xidmətləri danılmaz bir faktdır [16].

## NƏTİCƏ

Beləliklə, tədqiqat nəticəsində qeyd etmək mümkündür ki, 1970-1985-ci illər Sumqayıt şəhərinin sənaye mərkəzi kimi formalaşmasında strateji əhəmiyyət kəsb etmişdir. Həmin dövrdə bir sıra mühüm sənaye infrastrukturu təsərrüfat dövriyyəsinə daxil edilmiş və ölkə iqtisadiyyatının sənaye sektorunun iqtisadi səmərəliliyinin artırılmasında məhsuldar addımlar atılmışdır. Bütün bunların nəticələrini aşağıdakı kimi ümumiləşdirmək mümkündür:

-Sumqayıt Heydər Əliyevin tarixi xidmətləri nəticəsində respublikanın və keçmiş SSRİ-nin güclü sənaye mərkəzlərindən birinə çevrilmişdir;

-Sumqayıtda o dövrün yüksək texnologiyaları əsasında sənaye mərkəzi yaradılmış və məhsul

istehsalının həcmi əhəmiyyətli səviyyədə artırılmışdır;

-Sumqayıtda sənaye sahələrinin inkişafının sürətləndirilməsi, eyni zamanda şəhər təsərrüfatının gücləndirilməsinə imkan vermişdir və müasir Sumqayıt şəhərinin formalaşdırılmasında iqtisadi-tarixi və strateji əhəmiyyət kəsb etmişdir və s.

**Açar sözlər:** *Ümummilli lider Heydər Əliyev, Sumqayıt, 1970-1985-ci illər, Sumqayıt sənaye mərkəzi, Sumqayıtın sosial-iqtisadi inkişafı, Sumqayıt - 70.*

## ƏDƏBİYYAT:

*1. Sumqayıt şəhərinin 70 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 14 fevral 2019-cu il.*

*2. Alıyev H.A. Sumqayıt şəhərinin tarixi. Bakı, "Elm və təhsil" nəşriyyatı, 2011, 544 s.*

*3. Самедзаде З.А. Этапы большого пути - экономика Азербайджана за полвека, ее новые реалии и перспективы. Баку. «НУРЛАР». 2004, 936 с.*

*4. "Kommunist" qəzeti. - 1971. - 8 aprel. - s.1-2*

*5. "Kommunist" qəzeti. - 1973. - 2 dekabr.*

*6. Səmədzadə Z.Ə. Heydər Əliyevin Azərbaycanın sosial-iqtisadi inkişafında töhfəsi. Elm (Xüsusi buraxılış), 2002.-10 may, S. 29-30.*

*7. Əliyev Ş.T. Sumqayıt sənaye mərkəzinin inkişaf mərhələləri // "168 saat" qəzeti, № 06(464), 21-27 fevral, 2009-cu il, S.6.*

*8. Əliyev Ş.T. Sumqayıt sənaye mərkəzi: mövcud potensialdan istifadə, modernləşdirmə və müasirləşdirmə prioritetləri. Bakı:"elm və təhsil" 2012, 196 s.*

*9. "Kommunist" qəzeti. - 1974. - 2 fevral. - s.2.*

*10. Əliyev Ş.T. İri kompleks və qurğuların iqtisadiyyatımızda rolu // "İqtisadiyyat və həyat" jurnalı, №10-12, Bakı, 2003, S.64-69.*

*11. "Sosialist Sumqayıtı" qəzeti. - 1974. - 2 mart. - s.1.*

*12. "Kommunist" qəzeti. - 1974. - 28 noyabr. - s.1-2.*

*13. "Kommunist" qəzeti. - 1978. - 26 yanvar. - s.1.*

*14. "Sosialist Sumqayıtı" qəzeti. - 1979. - 9 oktyabr. - s.1.*

*15. "Kommunist" qəzeti. - 1981. - 11 aprel.*

*16. Zakir Fərəcov: "Sumqayıt Heydər Əliyevin arzuladığı şəhərə çevrilib". https://sumqayitxeber.com/sumqayit-heyder-eliyevin-arzuladigi-sehere-cevrilib/.*

## РЕЗЮМЕ

### Исторические заслуги Гейдара Алиева в развитии Сумгайыта в качестве индустриального центра

В статье исследована исторические заслуги Гейдара Алиева в развитии Сумгайыта в качестве индустриального центра. Анализированы процессы становления Сумгайыта в качестве индустриального центра в 1970-1985-х годах. Раскрыты и обоснованы исторические заслуги и решимость Гейдара Алиева в модернизации и усилении промышленного потенциала города Сумгайыта. Отмечены стратегические аспекты социально-экономического развития города Сумгайыта и роль Гейдара Алиева в этих процессах. Обобщены исторические заслуги Гейдара Алиева в создании прочного фундамента и мощного потенциала развития Сумгайыта в качестве индустриального центра, который стал основой для современного развитого промышленного города Сумгайыта.

**Ключевые слова:** *общенациональный лидер Гейдар Алиев, 1970-1985-е годы, Сумгайытский индустриальный центр, социально-экономическое развитие Сумгайыта, Сумгайыт – 70.*

## SUMMARY

### Historical merits of Heydar Aliyev in development of Sumgayit as the industrial center

Historical merits of Heydar Aliyev in development of Sumgait as the industrial center is investigated in the article. Processes of formation of Sumgait as the industrial center in the 1970-1985th years are analyzed for this purpose. Historical merits and Heydar Aliyev's determination in modernization and strengthening of industrial capacity of the Sumgait are improved then. Strategic aspects of social and economic development of the Sumgait and Heydar Aliyev's role in these processes are noted too. Historical merits of Heydar Aliyev in creation of the strong base and powerful potential of development of Sumgait as the industrial center which became a basis for the modern developed industrial city of Sumgayit are generalized.

**Key words:** *the national leader Heydar Aliyev, the 1970-1985th years, the Sumgait industrial center, social and economic development of Sumgait, Sumgait – 70.*

UOT: 338:984

# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İSTEHSALIN STRATEJİ PLANLAŞDIRILMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**ŞƏLALƏ MƏMMƏDOVA**
*Sumqayıt Dövlət Universitetinin*
*"Maliyyə və mühasibat uçotu" kafedrasının*
*baş müəllimi*

*E-mail: memmedovashelale@mail.ru*

İqtisadi inkişaf proseslərində və iqtisadiyyatın idarəe olunması məsələlərində strateji planlaşdırma elmi araşdırma istiqaməti kimi bütövlükdə strateji plan adlandırılan bir və ya bir neçə strategiyanın planlaşdırılması metodikasını və xüsusi metodları işləyib hazırlayan fəaliyyət istiqaməti kimi diqqət çəkir. Strateji planlaşdırma strateji planın hazırlanması üçün zəruri olan kompleks fəaliyyəti ehtiva edən prosesdir [1]. Strateji planlaşdırmanın əsas məqsədi müəssisəni əhatə edən ətraf mühitdə mövcud olan qeyri-sabitliyin və qeyri-müəyyənliyin aradan qaldırılmasından, daxili və xarici dəyişikliklərə vaxtında səmərəli reaksiya verməkdən ibarətdir [2]. Aydındır ki, müəssisənin yuxarı və orta menecerləri idarəetmə və qərarqəbuletmə proseslərində elə prinsip və alqoritmlərə malik olmaq istəyirlər ki, mümkün mürəkkəb vəziyyətlərdən, böhran və çətinliklərdən uğurla çıxsınlar [3].

Bu baxımdan, fəaliyyətin elə plan sənədi olmalıdır ki, müəssisə onu əhatə edən mühitin istənilən dəyişikliklərindən minimum zərərlə çıxsın. Planlaşdırma idarəetmənin çoxsaylı funksiyalarından biri olduğundan strateji planlaşdırma da strateji idarəetmənin funksiyalarından biri olur [4]. Odur ki, strateji planlaşdırma sistem olaraq müəyyən əlaqələrə malik olan elementlərdən ibarətdir. Operativ qərarlardan fərqli olaraq, strateji qərarlar müəssisənin daxili problemlərindən daha çox xarici problemlərinə aiddir və müəssisə ilə ətraf mühit arasındakı münasibətlərə təsir edir. Əlbəttə, bu problemlərin həlli üçün tələb olunan diqqət və vaxt heç də operativ qərarlar üçün nəzərdə tutulandan çox olmur [5]. Lakin nəzərə almaq lazımdır ki, strateji qərarlar operativ qərarlardan daha üstün prioritetə malikdir. Odur ki, müəssisənin təşkilati idarəetməsi ilk növbədə strateji qərarların yerinə yetirilməsinə şərait yaratmalıdır.

Müasir dövrdə müəssisə qeyri-sabit mühitdə öz inkişafını saxlamaq və rəqiblərinə uduzmamaq üçün bazar konyukturasını nəzərə alan strateji plana malik olmalıdır. Müəssisənin strateji planının optimal olması üçün fəaliyyət prosesində ortaya çıxa biləcək risklərin də ciddi şəkildə nəzərə alınması vacibdir [6]. Qeyd edək ki, "strateji planlaşdırma" anlayışı ilk baxışda tamamilə aydın görünsə də, onun elmi ədəbiyyatda hələ də birmənalı tərifi yoxdur. Verilən təriflərin birmənalı olmaması daha çox "strategiya" anlayışı ilə bağlıdır. İ.Ansoff qeyd edir ki, "strategiya təşkilatın öz fəaliyyətində rəhbər tutduğu qərarların qəbulu üçün zəruri olan qaydalardır" [7]. İ.Ansoffa görə müəssisənin məqsədi oriyentir rolunu oynayır. Strategiya isə bu məqsədə çatmaq üçün vasitələri müəyyən edir. Bəzi tədqiqatçılar strategiyaya model kimi yanaşırlar. Məsələn, J.Barni qeyd edir ki, "strategiya müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrini yaxşılaşdırmaq üçün ehtiyatların yerləşdirilməsi modelidir" [8]. "Strategiya gələcəkdə qəbul ediləcək fəaliyyət və qərarlar axınında müəssisənin özünü necə aparması modelidir" [9]. Strateji planlaşdırmanın müəssisələrin inkişafı üçün nə dərəcədə zəruri olmasının elmi əsaslandırılması son dövrlərdə reallaşmışdır və bununla bağlı yanaşmalarda starteji planlaşdırmanın əhəmiyyəti xüsusi diqqət mərkəzində saxlanılmışdır [10]. Strateji planlaşdırmada əsas plan sənədi strateji plandır. Bu sənədin uzunmüddətli planlaşdırmanın büdcəsi ilə əlaqəsi

çox azdır və strateji planlaşdırmada müəssisənin gələcəyi ilə bağlı yüksək dərəcədə proqnoz vermək mümkün deyil. Bundan əlavə, strateji planlaşdırma müəssisənin qeyri-sabit və qeyri-müəyyən ətraf mühitdə fəaliyyətini nəzərdə tutduğundan ekstrapolyasiya metodunu tətbiq etmək mümkün deyildir. Strategiya mexanizmlərinə malik müəssisə analoji rəqibləri üzərində əvvəlcədən az da olsa üstün mövqe əldə edir [11]. Tədqiqatlar müəssisənin istehsal strukturu və planlaşdırma ilə bağlı strategiyalarında bir sıra məsələlərdə xüsusi diqqət yetirməyin vacibliyini göstərmişdir. Məsələn, müəssisənin məhsul istehsalının strukturunun təkmilləşdirilməsi və istehsalın strateji baxımdan planlaşdırılması, əsaslandırılması üçün bir sıra məsələlərdə kompleks və sistemli yanaşmanı, qruplaşdırmanı şərtləndirir:

- Müəssisənin elə məhsulları var ki, onlar bazarda yüksək paya malikdir və bu bazar yüksək templə böyüyür, belə məhsullar müəssisə üçün çox cəlbedicidir və belə məhsulları “ulduz məhsullar” adlandırmaq olar;

- Müəssisənin elə məhsulları var ki, onlar bazarda yüksək paya malik deyil, amma bu məhsulların bazarı getdikcə böyüyür, deməli, belə müəssisə üçün belə məhsulların istehsal edilməsi gələcək üçün perspektivli ola bilər, bu məhsullar qrupunu “sual altında olan məhsullar” və ya “çətin uşaqlar” adlandırmaq olar;

- Müəssisənin elə məhsulları da ola bilər ki, bu məhsullar bazarda yüksək paya malik ola bilər, amma bazarın özü zəif artma tempinə malik ola bilər, belə hallarda adətən bu məhsul bazarları məhsulla artıq doymuş vəziyyətdə olur və adətən belə məhsulları “sağmal inək” adlandırırlar;

- Müəssisənin elə məhsulları ola bilər ki, bu mallar bazarda o qədər də yüksək paya malik deyil və bu məhsulların bazarı da çox aşağı artan templə böyüyür, belə məhsulların istehsalı müəssisə üçün o qədər də əlverişli deyil və onları “uğursuz məhsullar” da adlandırırlar;

- Müəssisənin istehsal etdiyi elə məhsullar ola bilər ki, bu məhsullar bazarda yüksək paya malikdir, amma bazarın özünün genişlənmə tempi getdikcə azalır, əlbəttə, belə məhsulların istehsalı müəyyən müddət müəssisəyə gəlir gətirə bilər, amma müəyyən dövrdən sonra belə məhsulların istehsalı o qədər də əlverişli olmayacaq və belə məhsulları “döyüş atları” da adlandırırlar.

- Müəssisənin istehsal etdiyi elə qrup məhsullar ola bilər ki, bu məhsulların bazarda payı nisbətən az olsun, lakin bu məhsulların bazarı da getdikcə azalan tempə malik olsun, onda belə məhsulların istehsal edilməsi müəssisə üçün arzuolunan deyildir və belə məhsulları “Dodo quşları” adlandırırlar və s.

Bundan əlavə, hər bir malın və məhsulun, xidmətin həyat tsiklinin əsas mərhələrinin öyrənilməsi və qiymətləndirilməsi mütləq şərtlərdən biri kimi dəyərləndirilməlidir [12]. Digər tərəfdən, bazarda dövriyyədə olan mal və xidmətlərin son istehlakçılara çatması ilə bağlı proseslərə, satıcı və alıcı davranışlarına komplekslilik prinsipi əsasında yanaşma təmin edilməlidir. Toxuculuq malları üzrə aparılmış tədqiqiatların nəticəsi maraqlı bir fikrə gəlməyə imkan vermişdir. Belə ki, malın həyat tsiklinin daha uğurlu olmasında toxuculuq məhsullarının rəqabət qabiliyyətliliyinin yüksəkliyi həlledici amil kimi diqqət çəkmişdir [13]. Bir qrup tədqiqatçılar tərəfindən müəyyən bir region götürülməklə aparılmış araşdırılmalar göstərmişdir ki, bir çox yerli analoji məhsullar bütün göstəricilərinə görə idxal olunan toxuculuq və geyim sənayesi məhsullarından üstündürlər [14]. Amma, bu məsələlərin ciddi təhlili, başqa sözlə idxal olunan mallar ilə müqayisədə yerli məhsullara istehlakçı cəlbediciliyinin üstünlüklərinin müəyyən olunması üçün daha optimal metodlar seçilməldir [15]. Bu baxımdan, yerli məhsulların üstün cəhətlərini özündə birləşdirən mexanizmlərin hazırlanması və tətbqinə nail olan toxuculuq və geyim sənayesi müəssisləri yerli bazarda daha çox dayanıqlılıq nümayiş etdirirlər.

Qeyd edək ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra keçmiş sovet ölkələri ilə iqtisadi əlaqələr kəskin surətdə zəiflədi. Bu, digər iqtisadi fəaliyyət sahələrində olduğu kimi sənaye sahəsində də müəssisələrin potensial alıcılarının itirilməsi demək idi. Xüsusilə, planlı iqtisadiyyatda sənaye müəssisəsi alıcılar haqqında düşünməyə zərurət görmürdü. Çünki istehsal edilən məhsulun konkret alıcıları artıq əvvəlcədən bəlli olurdu və satış hazır alıcı siyahısı əsasında aparılırdı. Planlı iqtisadiyyatın, bazar iqtisadiyyatı ilə əvəzlənməsi, keçmiş iqtisadi əlaqələrin zəifləməsi, dünya iqtisadiyyatına inteqrasiyanın rəqabət mühitini gücləndirməsi

Azərbaycanın toxuculuq və geyim sənayesi müəssisələri üçün potensial alıcılar bazarını həmişə diqqətdə saxlamaq zərurəti yaradır. Bundan başqa, uzunmüddətli inkişaf dövrü üçün sözü gedən müəssisələrdə məqsədləri müəyyənləşdirən vahid sistemin olmaması sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyənləşdirilməsini çətinləşdirmiş, planlaşdırmanın sahə prinsipi ilə deyil, proqram-məqsədli prinsip əsasında aparılması, müəssisədə istehsal məsələlərinin həllinin razılaşdırılması səviyyəsini aşağı salmış, maliyyə resurslarının strateji planlaşdırma prosesi ilə əlaqələndirilməməsi, qısamüddətli planların uzunmüddətli inkişaf planları ilə zəif əlaqəliyinə gətirib çıxartmışdır ki, bu da mövzunun seçilməsini aktuallaşdıran amillər sırasına aid edilir.

Qeyd edək ki, ölkəmizdə son illərdə makroiqtisadi səviyyədə müəyyən proseslər bir çox məsələlərə yenidən baxılmasını və strateji yanaşmaların təkmilləşdirilməsini tələb edir. Məsələn, dünya bazarında neft və neft məhsullarının qiymətinin kəskin düşməsi neft ölkələrini, o cümlədən Azərbaycanı öz iqtisadi strategiyasına yenidən baxmağa məcbur etdi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı ilin dekabrında imzaladığı “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi”ndə 2020-ci, 2025-ci və sonrakı dövrlərdə ölkə iqtisadiyyatının inkişafına strateji baxışı, strateji məqsədləri və hədəfləri, həmçinin tələb olunan vəzifələri müəyyən edir. Strateji yol xəritəsi yaxın perspektivdə qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənaye sahələrinin inkişafını nəzərdə tutur. Sənəd Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyi güclənəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır. Ümumilikdə, Azərbaycan Respublikası Prezidentinin “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri”nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 2016-cı il 16 mart tarixli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə 12 strateji yol xəritəsi hazırlanmış və hazırda onların reallaşdırılması prosesləri gedir. Sənəd təkcə inkişaf məqsədləri və prinsiplərini deyil, həm də hər bir istiqamət üzrə qlobal meyilləri, iqtisadiyyatın 360 dərəcəli diaqnostikasını və mövcud vəziyyətin GZİT təhlilini, görüləcək tədbirləri, tələb olunan investisiya və nəticə indikatorlarını əhatə edir.

Ölkəmzidə son illərdə toxuculuq və geyim sənayesi müəssisələrinin inkişafında yeni məqamlar və perspektivlər ortaya çıxmışdır və bunlardan biri də Mingəçevir Toxuculuq Fabrikidir. Keçmiş SSRİ dövrünün tarixçəsinə diqqət yetirsək görərik ki, Mingəçevir Toxuculuq Kombinatı 1960-cı ildə fəaliyyətə başlayıb. 1980-ci illərdə ümummilli liderimiz Heydər Əliyevin kənd təsərrüfatı və yüngül sənaye sahələrinə göstərdiyi xüsusi diqqəti və səyləri nəticəsində həmin kombinat ən böyük inkişaf illərini yaşayıb. Həmin illərdə Mingəçevir Toxuculuq Kombinatı gündəlik 55 ton pambıq iplik, 220 min metr parça istehsal edir, Azərbaycanın bütün trikotaj istehsalı müəssisələrini igliklə təmin edirdi. Kombinatda 4 min nəfərdən çox işçi çalışırdı. Hazırda Mingəçevirdə yaradılan sənaye parkında toxuculuq üzrə ixtisaslaşma getməsi bu sahədə olan potensialın yenidən gücləndirilməsinə, müəssisələrin daha səmərəli fəaliyyət strategiyasının hazırlanmasına imkan verəcəkdir. Belə ki, dövlət başçısının Bakı, Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərində sənaye zonalarının təşkil olunması ilə bağlı irəli sürdüyü təşəbbüslərin, verdiyi tapşırıqların mahiyyətində dayanan mühüm amillərdən biri də sənaye parklarının yaradılmasıdır. Ölkə Prezidentinin 26 fevral 2015-ci il tarixli Sərəncamı ilə Mingəçevir Sənaye Parkı yaradılmışdır [16]. Mingəçevir Sənaye Parkında toxuculuq müəssisəsinin yenidən qurulması burada strateji planlaşdırmaya da çox əhəmiyyətin verilməsinə səbəb olub. Bu müəssisədə strateji inkişaf bütünlükdə Mingəçevir Sənaye Parkının strateji inkişafı ilə, bu isə Sumqayıt Sənaye Parkının inkişafı ilə əlaqələndirilib [17].

Belə ki, ölkəmizdə sənaye parkları institunun formalaşdırılması və inkişaf etdirilməsi üçün kompleks və ardıcıl tədbirlər görülməkdədir. Bu qəbildən olan parklarda qeydiyyata düşən rezientlər 7 il müddətinə mənfəət vergisindən azad edilmiş və dövlət tərəfindən müvafiq infrastruktur obyektlrəi şəbəkəsi yaradılmışdır.

## NƏTİCƏ

Son dövrlərdə ölkəmizdə bir sıra qeyri-neft sektoru sahələrinin, o cümlədən toxuculuq və geyim sənayesi sahəsinin inkişafının sürətləndirilməsi və strateji fəaliyyət proqramlarının hazırlanması, reallaşdırılması məqsədilə ardıcıl tədbirlər görülməkdədir. Bunlarla bağlı bir sıra məsələlərə daha çox önəmin verilməsi tələb olunur və bu istiqamətdə fəaliyyət layihələrin həyata keçirilməsindən əvvəl texniki-iqtisadi əsaslandırılmaların aparılması vacibdir:

- ölkədə toxuculuq və geyim sənayesi məhsulları istehsal edən müəssisələrdə strateji planlaşdırmanın praktiki tətbiqlərinin öyrənilməsi məsələlərinə kompleks yanaşma və dünya təcrübəsinə uyğunlaşma təmin olunmalıdır;
- müəssisələrin idarəedilməsinin təşkilati və plan xidməti strukturunun öyrənilməsi fundamental şəkildə aparılmalı, strateji planlaşdırmanın müvafiq prinsiplərinə və meyaralarına uyğun şəkildə formalaşdırılmalıdır;
- müəssisələrdə strateji planlaşdırma prosesinin tədqiq edilməsi, planlaşdırmada istifadə edilən metodların analizi, strategiyanın, plan və fəaliyyət proqramlarının olması zəruridir;
- strateji planlaşdırma sisteminə real təsir göstərən elementlərinin ayrılması, onlar arasındakı əlaqə mexanizmlərinin müəyyən edilməsi və müəssisənin fəaliyyətinin səmərəliliyinə onların təsir səviyyəsinin araşdırılması mühüm əhəmiyyət kəsb edir;
- sənaye müəssisələrində istehsalın strateji planlaşdırılması və fəaliyyət strategiyası müasir dövrün qlobal çağırışlarına və yeni tələblərə uyğun şəkildə təkmilləşdirilməlidir və s.

***Açar sözlər:*** *strateji planlaşdırma, istehsalın planlaşdırılması, strateji planlaşdırmanın təkmilləşdirilməsi, sənaye müəssisələri, istehsal planının optimallığı, strateji təhlil.*

## ƏDƏBİYYAT:

*1. Левицких О.О. Формирование стратегии управления эффективности деятельности промышленного предприятия // Журнал Фундаментальные исследования, 2011.-№8(часть 2).-С. 435-440.*

*2. Ткаченко Д.Д. Совершенстваование методов стратегического планирования развития промышленного предприятия. // Управление экономическими системами, №4, 2011, С.51-59.*

*3. Сироткин С.А., Кельчевская Н.Р. Старетегическое планирование на промышленном предприятии. Екатеринбург, УрФУ, 2011.-298 с.*

*4. Məmmədova Ş.R. Sənaye müəssisəsinin istehsal planının optimallığında strateji analiz və planlaşdırmanın müasir aspektləri // "Geostrategiya" ictimai-siyasi, elmi-populyar jurnalı. İyul-avqust 2017 № 04(40), S.58-60.*

*5. Иванов И.Н. Организация производства на промышленных предприятиях. Москва, 2013, 352 с.*

*6. Игнатов С.А. Органиазционно-экономические методы управления рисками на предприятиях текстильной промышленности. Дисс. канд. экон. наук. Ростов-на-Дону, 2007.-165 с.*

*7. Ансофф И. Новая корпоративная стратегия: [Пер. с англ.] / И. Ансофф, Э. Дж. Макдоннелл; Пер. С. Жильцов. - СПб. : Питер Ком, 1999. – 414 с.*

*8. Barney, J.B. Gaining and Sustaining Competitive Advantage / J.B. Barney. - New York, 1996. – 570 p., səh 32.*

*9. Mintzberg, H., McHugh, A. Strategy formulation in adhocracy / H. Mintzberg, A. McHugh - Wash.: Administrative Science Quarterly, 1985. – 460 p.*

*10. Валько М.П. Разработка методов стратегического управления предприятиями текстильной промышленности. Дисс. канд. экон. наук. Москва, 2011.-167 с.*

*11. Иванова А.А. Методы повышения эффективности стратегического управления предприятиеем текстильной отрасли на основе системы сбалансированных показателей и сценарного подхода. Дисс. канд. экон. наук. Санкт-Петербург, 2010.-181 с.*

*12. Рощина О.Е. Основные этапы жизненного цикла продукции при решении экономических задач // Транспортное дело России, № 5, 2011, С.128-130.*

*13. Зотикова О.Н. Стратегические направления повышения конкурентоспособности текстильной продукции России // В сборнике «Проблемы*

*развития инновационно-креативной экономики». 2011, С. 299-312.*

*14. Трешевский Ю.И., Гусаров И.В. Формирование системы внутрифирменного планирования промышленного предприятия // Вестник ВГУ, Серия: экономика и управления, 2009.-№2.-77-85.*

*15. Камышев А. Пути достижения конкурентного преимущества. Как добиться конкурентного преимущества // Журнал «Стандарты и качество», 2017, №17(2), С. 43-52.*

*16. Mingəçevir Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 26 fevral 2015-ci*

*17. "Sumqayıt kimya sənaye parkı" MMC. http://scip.az.*

**Резюме**

**НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ СТРАТЕГИЧЕСКОГО ПЛАНИРОВАНИЯ ПРОИЗВОДСТВА НА ПРОМЫШЛЕННЫХ ПРЕДПРИЯТИЯХ**

В статье исследованы направления совершенствования стратегического планирования производства на промышленных предприятиях. С этой целью раскрыта значимость и важные элементы стратегического планирования. Указана важность обеспечения стратегических подходов к вопросам планирования и совершенствования деятельности промышленных предприятий в кризисных условиях. Подчеркнута значимость развития сфер ненефтяного сектора в совершенствовании структуры экономики Азербайджана. Анализирован потенциал развития таких промышленных сфер как текстильная и швейная. Раскрыты перспективы повышения конкурентоспособности текстильной и швейной промышленности за счет создания сети промышленных парков. В конце статьи даны выводы и предложения по рассматриваемым проблемам.

**Ключевые слова:** *стратегическое планирование, планирование производства, совершенствование стратегического планирования, промышленные предприятия, оптимальность производственного плана, стратегический анализ.*

**Abstract**

**DIRECTIONS OF IMPROVEMENT OF STRATEGIC INDUSTRIAL PRODUCTION PLANNING**

The directions of improvement of strategic planning of production in industrial enterprises are explored in the article. The importance and important elements of strategic planning are analyzed for this purpose. The role of ensuring strategic approaches to the planning and improvement of industrial enterprises in crisis conditions is given then. The importance of development of non-oil sector spheres in improvement of Azerbaijan economy structure is emphasized too. The potential for development of industrial spheres such as textiles and clothing producing is analyzed. The prospects of increasing the competitiveness of the textile and clothing producing industry due to the creation of a network of industrial parks are described. Conclusions and suggestions on the issues under consideration are given in the end of the article.

**Key words:** *strategic planning, production planning, improvement of strategic planning, industrial enterprises, optimality of production plan, strategic analysis.*

УДК: 334.012.3

# ВОПРОСЫ ВЗАИМОДЕЯТЕЛЬНОСТИ ФАРМАЦЕВТИЧЕСКОЙ ОТРАСЛИ И ЧАСТНОЙ СИСТЕМЫ ЗДРАВООХРАНЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**НИГЯР РАГИМОВА**
*Диссертант Института Экономики Национальной Академии Наук Азербайджана*

*E-mail: nigiar82@rambler.ru*

Отметим, что повышение актуальности формирования и развития человеческого капитала, обеспечения здоровья населения во все времена было актуальным, сейчас эти проблемы носят более глобальный характер и каждая страна старается комплексно и системно решить проблемы, связанные с улучшением системы здравоохранения, в том числе, одного из важных подразделений данной системы – фармацевтической отрасли. Дело в том, что фармацевтическая отрасль играет важную роль в развитии частного сектора здравоохранения, в эффективности частных медицинских предприятий в целом. Данная отрасль отличается многофункциональностью и мультипликативностью, которая, с одной стороны, способствует улучшению обеспечения необходимыми видами лекарств и медицинских препаратов субъектов системы здравоохранения, с другой стороны, стимулируют создание местных фармацевтических предприятий и, тем самым, минимизирует зависимость страны от импорта определенной номенклатуры лекарств и медицинских препаратов, более того, создает надежную систему бесперебойного обеспечения сети медицинских предприятий фармацевтической продукцией. Как известно, лекарственные средства считаются стратегически важными в контексте обеспечения здоровья людей, которые, в свою очередь, являются одной из приоритетных ценностей государства, поэтому организация и развитие фармацевтической отрасли требуют стратегического отношения, более усовершенствованных механизмов и инструментов. Фармацевтический рынок охватывает экономические механизмы и взаимоотношения между разными участниками, в том числе, субъектами системы здравоохранения и одними из активных участников этого рынка, безусловно, являются частные медицинские предприятия. В современных условиях фармацевтический рынок отличается рядом особенностей:

- как мы отметили, вопросы производства и формирования запасов лекарств, медицинских препаратов и потребность в этой продукции напрямую связана с человеческим фактором, т.е. со здоровьем человека;
- далее, фармацевтическая продукция носит специфический характер, т.е. в большинстве случаев она должна использоваться по назначению врача или лично посредством фармацевта с участием пациента;
- фармацевтическая продукция должна содержать полную информацию о продукте и быть исчерпывающей и прозрачной для потребителя;
- в организации и реализации процессов производства фармацевтической продукции и между аптечной системой отношения носят больше всего социальный характер, так как в большинстве случаев независимо от затрат фармацевтической продукции цены могут резко колебаться и социальная ответственность преимущественно лежит на сети сбыла лекарств и медицинских препаратов и отсюда возрождается необходимость государственного вмешательства, другими словами, применение

механизма государственного регулирования;

- экономическая эффективность фармацевтической деятельности может положительно способствовать не только созданию новых источников добавочной стоимости, но и одновременно повысить экспортный потенциал и, как было отмечено ранее, снизить уровень зависимости от импорта необходимых лекарств и медицинских препаратов;

- фармацевтическая промышленность и фармацевтический рынок отличаются высокой инновационностью и они требуют углубления ведения научно-исследовательской работы, разработки, освоения и применения новейших высоких технологий, новых методов управления и пр.

В современных условиях рынок фармацевтической продукции должен базироваться на обеспечивающих качество медикаментозного обеспечения принципах, таких как, эффективность, доступность и безопасность лекарственных средств для населения. Государство должно четко контролировать предприятия фармацевтической отрасли путем создания гибкой системы мер по регулированию цен на лекарственные средства, прежде всего, на жизненно необходимые медикаменты. Стоит отметить, что особо важное значение имеет обоснование необходимости реализации эффективного выбора лекарственных препаратов и медикаментов на уровне государства с целью оптимального соотношения их стоимостных и качественных параметров, т.к. данный отбор позволит извлечь максимальный лечебный эффект при минимальных затратах материальных средств. В основе отбора оптимальных лекарств и медикаментов должен лежать принцип эффективного соотношения «стоимость-эффективность», который характеризуется максимальной эффективностью лекарства, доступной ценой на него, широким терапевтическим воздействием, наименьшими побочными эффектами и удобством способа применения и лекарственной формы препарата. Кроме того, фармацевтическая промышленность является важнейшей составной части системы здравоохранения, она включает в себя разные общественные и частные организации, которые осуществляют целевые исследования по разработке, производству и продаже медикаментов. На деятельность фармацевтической промышленности особо влияют разные динамические, социальные и экономические факторы и поэтому их детальность регламентируется законодательством, положениям и актами, касающимися разработки и одобрения лекарственных препаратов, производства и контроля качества, маркетинга и продаж. Многие фармацевтические организации тесно сотрудничают с научно-исследовательскими организациями и частными инвесторами, субъектами частного сектора здравоохранения по разработке, производству и продаже лекарственных средств [1]. Кроме того, фармацевтическая отрасль способствует разработке лекарственных средств и необходимых медицинских препаратов по противодействию тяжелым болезням, в том числе, для профилактики разных заболеваний [2]. Как известно, разработка, освоение и обеспечение населения лекарственными препаратами требуют огромных вложений. Например, в настоящее время затраты на разработку одного лекарственного препарата превышают 1,3 млрд. долларов США по сравнению с 138 млн. долл. США в 1975 году. Кроме того, результаты научно-исследовательской деятельности по проектам разработки и освоения разных видов лекарственных препаратов окончательно видны только на стадии доклинических и клинических исследований, когда проверяется и утверждается качество и безопасность медицинских препаратов. Поэтому в развитых странах мира крупные суммы ежегодно направляются на научно-исследовательскую деятельность фармацевтической отрасли. В США ежегодно в фармацевтическую отрасль инвестируется почти 120 млрд. долларов США, эта сумма в 5 раз превышает уровень инвестиций в аэрокосмическую и оборонную промышленности, в 4,5 раза в химическую промышленность и 2,5 раза в компьютерную отрасль [3, с.18]. Развитие

фармацевтической отрасли в нынешних условиях отличается углублением инноваций, иначе результаты могут быть безуспешными, так как характер тяжелых болезней в нынешнем времени тоже усложнился, и для успешного лечения тяжелых заболеваний требуются более высокие технологии и инновации. Необходимо сосредоточиться на развитии ключевых технологий, отличающихся более высокой производительностью и максимальной эффективностью, а их успешное применение в фармацевтической отрасли может способствовать существенному повышению качества жизни пациентов и увеличению продолжительности жизни людей. Фармацевтическая промышленность должна иметь слаженную и организованную структуру, производственную мощность и инфраструктуру, включающую в себя высокий уровень технологий и автоматизацию.

В нынешних условиях особо заметно влияние трансформации происходящих экономических и социальных процессов с учетом динамично изменяющихся условий внешней среды, которые обуславливают разработку и реализацию более долгосрочной инновационно-инвестиционной стратегии и проектов по насущным проблемам и позициям в фармацевтической отрасли. Безусловно, во всех сферах фармацевтической отрасли требуется, как мы отметили ранее, серьезные инвестиционные и финансовые вложения, которые сопряжены с многочисленными рисками [4].

В Азербайджане после приобретения независимости во всех сферах экономики и общества страны, в том числе, в системе здравоохранения и в фармацевтической промышленности, осуществлены последовательные реформы, сформированы новые структуры управления, созданы министерства, комитеты, агентства и прочие государственные органы, в том числе, были созданы и контролирующие структуры в фармацевтической отрасли. Прежде всего, создана законодательная база и юридическая основа развития фармацевтической отрасли - 5 ноября 1996 года был принят Закон Азербайджанской Республики “О фармацевтической деятельности”. Основные функции данного закона заключаются в регулировании правовых, экономических и организационных основ разработки, испытания, производства, хранения, импорта, экспорта и реализации лекарственных средств и обращения юридических и физических лиц между собой по поводу процессов, происходящих в фармацевтической отрасли. Роль государства заключается в создании гарантий для реализации прав граждан страны на лекарственную помощь по международным стандартам, в комплексном обеспечении лекарственной помощи населению и, самое главное, в организации системы государственного контроля над фармацевтической деятельностью [5]. В стране началось создание фармацевтических предприятий и становление фармацевтической промышленности как целостной системы. В советские времена в Азербайджане в городе Баку функционировал химико-фармацевтический завод, который выпускал ограниченный перечень медицинских лекарств, однако в первые годы после восстановления независимости потенциал данного медицинского фармацевтического предприятия был ослаблен и завод практически остановил свою деятельность. И только в последние годы в стране серьезно взялись за строительство новых фармацевтических предприятий. В настоящее время осуществляется стратегия по строительству современных фармацевтических заводов по производству лекарственных средств в кратчайшие сроки и главная цель при этом, на ряду с улучшением обеспечения граждан страны лекарственными средствами, это импортозамещение. Импортозамещение может сократить нагрузку на валютные ресурсы страны - в нынешнее время в Азербайджане свыше 95 % всех лекарственных средств импортируются из разных стран мира. Так, идет интенсивная реализация осуществления проекта по строительству фармацевтического завода «Scandens Pharmaceutical Industries» LTD в городе Баку. В нем ожидается формирование производственной мощности по выпуску свыше 90 наименований твердых лекарственных форм в количестве 150 мл. таблеток и 40

мл. капсул. Совместно с Азербайджанским Государственным Медицинским Университетом ожидается обучить специалистов по производству лекарственных средств с целью возрождения фармацевтической отрасли в стране [6]. Кроме того, в Пираллахинском промышленном парке развертывается создание центра фармацевтических предприятий местного производства, созданием которого планируется обеспечить интенсификацию развития фармацевтической отрасли в Азербайджане. Государством определен ряд льгот и механизмов государственной поддержки для инвесторов, например, инвесторы освобождены на 7 лет от уплаты различных налогов и таможенных пошлин. Прогнозируется расширение в ближайшие годы объема производства фармацевтической отрасли: в 2020 году – до 38,8 млн. манат, в 2021 году – до 39,5 и в 2022 году – до 40,2 млн. манат [7]. Отметим, что 15 декабря 2015 года совместно с Россией был построен завод-резидент Пираллахинского Промышленного Парка - фармацевтическое предприятие совместной собственности Азербайджана (ОАО «Азербайджанская инвестиционная компания» и «Vita-A») и России («R-Farm») – «Hayat Pharm». Ввод его в эксплуатацию планируется произвести до конца 2019 года. Годовая производственная мощь завода планируется быть на уровне 22,5 млн упаковок (500 млн. шт. капсул и таблеток) по 89 наименованиям лекарств и препаратов, а инвестиционные вложения – 74 млн. долл. США. Производимые лекарства и препараты планируется экспортировать в соседние страны, а так же в некоторые страны Европы и Центральной Азии [8]. Кроме того, в 2017 году, в январе на территории этого же Парка был заложен фундамент другого завода совместной собственности Азербайджана и Ирана – «Caspian pharmed». Из мероприятий по снижению зависимости от импорта фармацевтической продукции Азербайджана так же необходимо отметить подписание в 2017 году меморандума о взаимопонимании по строительству медицинского предприятия по производству инъекционных и инфузионных растворов между нашей страной (ОАО «Азербайджанская инвестиционная компания») и Украиной (ЧАО «Индар»), в который планируется вложить 17 млн. долл. США инвестиционных ресурсов [9]. Таким образом, в ближайшей перспективе Пираллахинский Промышленный Парк станет основным центром производства фармацевтической продукции в Азербайджане в силу того, что специализация парка – это производство как раз фармацевтической продукции с помощью использования различных льгот для производителей внутри парка. Примером уже проделанной работы в этой сфере может служить открытый 16 мая 2019 года с участием Президента Азербайджана Ильхама Алиева завод по производству шприцев Diamed в Пираллахинском Промышленном Парке. Производственная мощность завода одноразовых шприцев составляет 150 млн. шприцев в год, на заводе используются технологии и оборудование Японии, Англии, Германии, Италии, Швейцарии и Турции [10].

## ЗАКЛЮЧЕНИЕ

Таким образом, считаем, что в ближайшей перспективе рынок фармацевтической продукции должен базироваться на обеспечивающих качество медикаментозного обеспечения с учетом следующих принципов и факторов развития:

- во-первых, необходимо обеспечить эффективность, доступность и безопасность лекарственных средств для населения;
- государство должно четко контролировать предприятия фармацевтической отрасли путем создания гибкой системы мер по регулированию цен на лекарственные средства, прежде всего, на жизненно необходимые медикаменты;
- особо важное значение имеет обоснование необходимости реализации эффективного выбора лекарственных препаратов и медикаментов на уровне государства с целью оптимального соотношения их стоимостных и качественных параметров, т.к. данный отбор позволит извлечь максимальный лечебный эффект при минимальных затратах материальных средств;
- необходимо ускорить формирование сети

конкурентоспособных фармацевтических частных предприятий для качественного и бесперебойного обеспечения лекарственными препаратами населения страны и т.д.

***Ключевые слова:*** *фармацевтическая отрасль, система здравоохранения, частный сектор здравоохранения, частные предприятия здравоохранения, медицинские препараты, медицинские лекарства.*

**Список литературы:**

*1. Фармацевтическая промышленность - http://base.safework.ru*

*2. Noncommunicable diseases country profiles 2014. World Health Organization, 2014, 210 p. - https://apps.who.int/*

*3. Фармацевтическая промышленность и глобальное здравоохранение. IFPMA. AIMP. Москва, 2013, 30 с.*

*4. Kullman D. PHIS Pharma Profile United Kingdom / WHO Collaborating Centre for Pharmaceutical Pricing and Reimbursement Policies, 2010. http://whocc.goeg.at*

*5. Закон Азербайджанской Республики "О фармацевтической деятельности". Баку, 5 ноября 1996 г., № 189-IГ*

*6. Становление фармацевтической промышленности Азербайджана. 08 май 2019. http://vzglyad.az*

*7. В Азербайджане будут запущены новые фармацевтические заводы. 15 декабрь 2018. https://media.az/read/1067720956/*

*8. Запуск фармацевтического завода Hayat pharm в Баку состоится до конца года. 08.07.2019. http://www.kaspiy.az*

*9. Азербайджан рассчитывает к 2022 г. довести объем производства фармпродукции до 81 млн манатов. https://advis.ru*

*10. Президент Азербайджана принял участие в открытии завода по производству шприцов. http://www.1news.az.*

**XÜLASƏ**

**Azərbaycanda əczaçılıq sahəsinin və özəl səhiyyə sisteminin qarşılıqlı fəaliyyət məsələləri**

Məqalədə Azərbaycanda əczaçılıq sahəsinin və özəl səhiyyə sisteminin qarşılıqlı fəaliyyət məsələləri tədqiq olunmuşdur. Bununla əlaqədar olaraq, ölkədə səhiyyə sistemində əczaçılıq sahəsinin fəaliyyətinin təşkilinə baxılmışdır. Əczaçılıq sahəsində sahibkarlığın inkişafının vacibliyi bildirilmişdir. Özəl əczaçılıq müəssisələrinin inkişaf etdirilməsi problemlərinə toxunulmuşdur. Ölkə əhalisinin keyfiyyətli tibbi preparatlar və dərmanlarla təmir edilməsi üçün sistemli tədbirlərin görülməsi əsaslandırılmışdır. Yaxın illərdə əczaçılıq sahəsinin və özəl səhiyyə sisteminin qarşılıqlı fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində bir sıra təkliflər və tövsiyələr verilmişdir.

**Açar sözləri:** *əczaçılıq sahəsi, səhiyyə sistemi, səhiyyənin özəl sektoru, özəl səhiyyə müəssisələri, tibbi preparatlar, tibbi dərmanlar.*

**SUMMARY**

**Issues of interaction of the pharmaceutical industry and private healthcare system in Azerbaijan**

The interaction of the pharmaceutical industry and the private health care system in Azerbaijan is explored in the article. The activities of the pharmaceutical sector in the health care system of the country are given for this purpose. The importance of development of entrepreneurship in the pharmaceutical industry is descibed then. The development of private pharmaceutical enterprises is analyzed too. Measures to repair the population of the country with quality medicines are justified. A number of suggestions and recommendations to improve the efficiency of the interaction between the pharmaceutical industry and the private healthcare system are given in the end of the article.

**Key words:** *pharmaceutical branch, health care system, private sector of health care, private enterprises of health care, medications, medical drugs.*

UOT: 338.1:334.7:339.923

# STRATEJİ YOL XƏRİTƏLƏRİNƏ UYĞUN OLARAQ SƏNAYE PARKLARINDA İQTİSADİ ARTIM MƏSƏLƏLƏRİ

**İLQAR GÜLMƏMMƏDOV**
*Qərbi Kaspi Universitetinin dissertantı*

*E-mail: g.ilqar@gmail.com*

Son illərdə ölkəmizdə iqtisadi artımın sabitliyinin və dinamikliyinin təmin olunması üçün sənaye parklarından istifadənin səmərəliliyinin yüksəldilməsinə daha çox diqqət yetirilməkdədir. Ölkə Prezidentinin 29 dekabr 2012-ci il tarıxli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında innovativ inkişafın genişləndirilməsi, innovasiyaların işlənməsi, istehsalata tətbiqi ilə bağlı parkların və innovasiya zonalarının təşkili prioritet vəzifələr sırasında yer almışdır. Konsepsiyada qeyd olunur ki, innovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılması da nəzərdə tutulur. Bu baxımdan, müvafiq normativ hüquqi baza hazırlanaraq qəbul ediləcək, innovativ sahibkarlığın və biliklərə əsaslanan iqtisadiyyatın inkişafını təmin etməkdən ötrü İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun fəaliyyətinin genişləndirilməsi nəzərdə tutulur [1]. Bizə görə, texnoparklarla yanaşı, son illərdə ölkəmizdə sənaye parklarının yaradılması və daha yüksək şəkildə fəaliyyətinin təşkili innovasiyaların yayılması və innovatik inkişafının genişləndirilməsi istiqamətində ciddi əhəmiyyət kəsb etməkdədir və artıq sənaye parklarında istehsal olunan yüksək rəqabətqabiliyyətli, həmçinin ixracyönlü qeyri-neft sənaye məhsulları ölkəmizin iqtisadi artırımda əsas mənbələr kimi diqqət çəkməkdədirlər və hər il bu qəbildən olan yüksək texnologiyalar əsaslı yeni müəssisələrin yaradılmasının şahidi oluruq. Başqa bir sənəddə - ölkəmizdə sənayenin inkişafı ilə bağlı ölkə Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda qeyri-neft sektorunun aparıcı sahələri olan sənaye sahələrinin inkişafının müasir texnologiyalar əsasında sürətləndirilməsi, innovasiyaların tətbiqi hesabına məhsuldarlığın artırılması və iqtisadiyyatın yeni artım mənbələrinin təmin edilməsi istiqamətində prioritet vəzifələr qarşıya qoyulmuşdur. Bu Dövlət Proqramında qeyd olunur ki, sənayeyə dövlət dəstəyi tədbirlərinin başlıca məqsədi sənaye müəssisələrinin rəqabət qabiliyyətini artırmaq və onların beynəlxalq bazarlara çıxışını təmin etmək, həmçinin dünya təcrübəsində sənayeyə dəstək tədbirlərinin gücləndirilməsinə nail olmaqdan ibarətdir. Bundan əlavə, investisiyaların təşviqi və iş mühitinin yaxşılaşdırılması, beynəlxalq ticarət və ixracın təşviqi, bacarıqların artırılması və insan resurslarının inkişafı, infrastrukturun qurulması, xüsusi iqtisadi zonalar, sənaye parkları və sənaye klasterlərinin yaradılması, regionların inkişafı, sektorlara xüsusi yanaşma, texnologiyaların transferinin dəstəklənməsi və innovasiyaların təşviqi ilə bağlı məsələlərə Dövlət Proqramında xüsusi dəqqət verilmişdir və göstərilir ki, bu Proqramın icrası zamanı mövcud sənaye və texnologiyalar parklarının fəaliyyətinin gücləndirilməsi, yeni sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, xüsusi iqtisadi zonaların fəaliyyətə

başlaması və regionların sənaye potensialının artırılması istiqamətləri prioritetlik təşkil edəcəkdir [2]. Bu göstərilənlər özünün təsdiqini praktiki fəaliyyət proseslərində tapmaqdadır və hazırda mövcud olan sənaye parklarının, həmçinin yaradılması intensiv şəkildə aparılan sənaye parklarının fəaliyyəti, prioritet istiqamətləri bu qənaətə gəlməyə imkan verir. Sumqayıt, Mingəçəvir şəhərlərində, həmçinin Bakının Qaradağ, Pirallahı rayonlarında fəaliyyət göstərən sənaye parklarında onlarla yüksək texnologiyalar əsaslı innovatik müəssisələrə fəaliyyət göstərməkdədirlər, bir o qədər də müəssisələrin yaradılması prosesləri intensiv şəkildə davam edir. Xüsusilə, Sumqayıtda sənaye parkları şəbəkəsinin genişləndirilməsi üçün kifayət qədər zəmin və iqtisadi aspektlər vardır [3].

Yuxarıda qeyd olunan fəaliyyət istiqamətlərinin əksəriyyəti üzrə strateji hədəflər və mexanizmlər, prioritet vəzifələr, strateji və innovatik yanaşmalar öz əksini 06 dekabr 2016-cı il tarixli "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı"nda tapmışdır [4]. Strateji Yol Xəritəsində qeyd edilir ki, qeyri-neft sektoruna əlavə investisiya qoyuluşları 2025-ci ilədək və ondan sonrakı dövrdə daha rəqabətli iqtisadiyyatın vacib hərəkətverici qüvvəsi kimi diqqət mərkəzində saxlanılacaqdır. Bunlarla bağlı olaraq, sənaye sahələrinə investisiyaların və texnologiyaların cəlb edilməsi məsələləri xeyli aktual olacaqdır. Belə ki, texnologiya, bacarıqlar və qlobal dəyər zəncirlərinə çıxış təklif edən iri xarici şirkətlərin qeyri-neft sektoruna investisiya yatırımı Azərbaycanın qlobal iqtisadi xəritədə yerini möhkəmləndirəcəkdir və hazırda bu proseslər kifayət qədər intensivləşməkdədir. Bu qeyd olunanlarla bərabər, ölkə Prezidentinin 6 dekabr 2016-cı ilin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"ndə də sənaye sektorunun aparıcı sahələri olan – ağır sənaye və maşınqayırma sahələrində innovativ inkişafın sürətləndirilməsi, rəqabətqabiliyyətli məhsul istehsalı hesabına ölkə iqtisadiyyatının strukturunun diversifikasiyalaşdırılması və artım tempinin sabit saxlanılması tədbirləri üzrə hədəflər müəyyənləşdirilmişdir [5]. Bu strateji yol xəritəsində sənaye müəssisələrinin rəqabəıtqabiliyyətinin yüksəldilməsi, infrastrukturun qurulması tədbirləri çərçivəsində, həmçinin müasir texnologiyaların transferi kimi spesifik problemlərin həllində sənaye parkların yaradılması və onların fəaliyyətinin genişləndirilməsi üzrə hədəflər diqqət çəkir [6]. Belə ki, ölkədə artıq fəaliyyətə başlamış Sumqayıt texnologiyaların parkının, Sumqayıt kimya sənaye parkının, Balaxanı və Qaradağ sənaye Parkının üstün cəhətləri, iqtisadi artıma verdiyi töhfələr qeyd edilməklə bərabər, bu istiqamətlər üzrə infrastrukturun gücləndirilməsi, yüksək texnologiyalar əsaslı istehsal sahələrinin yaradılması ağır sənaye sahələrinə investisiyaların cəlb olunması, bu sənaye sahələrinin dayanıqlı inkişafının təmin edilməsi son nəticədə ölkə iqtisadiyyatının şaxələndirilməsinə və iqtisadi artımın daha məhsuldar mənbələrinin yaradılmasına əlavə imkanlar formalaşdıracaqdır və bu istiqamətlərdə görülən tədbirlər artıq öz nəticələrini verməkdədir.

İqtisadi artımın səmərəliliyini əks etdirən, ümumilikdə, bununla bağlı əsas indikator kimi Azərbaycanda ÜDM-in 2007-2018-ci illərdə dinamikası Şəkil 1-də verilmişdir.

**Şəkil 1. Azərbaycanda ÜDM-in 2007-2018-ci illərdə dinamikası, mlrd. manatla (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).**




Şəkil 1-dən göründüyü kimi, 2016-cı ildən başlayaraq, ölkəmizdə ÜDM-in artımı heç də az olmayana tempə malikdir və beləliklə iqtisadi artımın intensivliyi qənaətinə gəlmək olar, belə ki, 2016-2018-ci illərdə iqtisadi artım 32 %-dən

çox təşkil etmişdir. Bu müasir dövrdə kifayət qədər yüksək nəticədir, 2018-ci ildə isə 2017-ci ilə nisbətdə iqtisadi artım 13,4 % səviyyəsində olmuşdur və əldə olunan nəticə beynəlxalq təşkilatların, həmçinin hökumətin özlərinin hazırladıqları proqnozlardan bir neçə dəfə yüksək olmuşdur. Maraqlıdır ki, yaxın illər üçün də ölkə iqtisadiyyatının artımı proqnozlaşdırılmışdır. 2017-2018-ci illərdə ölkəmizdə iqtisadiyyatın artım tempi bərpa olunmaqla bərabər, intensivləşmə diqqət çəkməkdədir. Qeyd etdiyimiz kimi, beynəlxalq təşkilatların əksəriyyəti Azərbaycanda iqtisadi artımın intensivləşəcəyi barədə proqnozlar verməkdədir, məsələn, Dünya Bankının hazırladığı hesabatlarda qeyd olunur ki, ölkəmizdə ÜDM-in həcmi 2020-ci ildə isə 3,3 % təşkil edəcəkdir [7]. Qeyd edək ki, əksər hallarda iqtisadiyyatın real artımını xarakterizə edən yanaşmalar sırasında, əhalinin və məşğul əhalinin hər nəfərinə düşən real ÜDM-ın illik artım sürətinə daha çox üstünlük verilir. Eyni zamanda, "Fitch" təşkilatının proqnozlarına görə, 2019-da ölkə ÜDM-ün artım nümayiş etdirəcəyi və 47,3 mlrd. ABŞ dolları həcmində olacağı gözlənilir [8]. Ölkə hökümətinin proqnozunda isə 2020-ci ilədək nominal ÜDM-in həcmi 13,8 % artacaqdır, belə ki, həmin proqnozda ölkə üzrə ÜDM-in nominal həcmi 2019-cu ildə 75,4 mlrd. manat, 2020 - 81,2 mlrd. manat 2021-ci ildə isə 85 mlrd. manata yaxın verilmişdir [9]. Yüksək beynəlxalq nüfuza malik "Moodys" beynəlxalq agentliyi də yaxın illərdə Azərbaycanda iqtisadi artımın sürətlənəcəyini bildirmişdir [10]. Bu proznozlar baxımından, ölkəmizdə ÜDM-in dinamik artımı üçün görülən tədbirlərdə sənaye parklarının səmərəliliyinin yüksəldilməsi, iqtisadi artımla bağlı potensialdan məhsuldar isteifadə edilməsi vacib şərtlərdəndir. Ölkəmizdə iqtisadi artımın manevrlilik qabiliyyətinin yüksəldilməsi üçün görülən tədbirlərin səmərəliliyi məsələlərinə strateji yanaşmalar diqqət çəkir, bu isə öz növbəsində iqtisadi artımın səviyyəsinin təmin edilməsi üçün əlverişli şərait yaradır. Makroiqtisadi vəziyyətin sabitləşdirilməsi, iqtisadiyyatın diversifikasiyalaşdırılması, xüsusilə qeyri-neft sektoru sahələrinin inkişafının intensivləşdirilməsi əsas prioritet vəzifələr sırasındadır.

Son illərdə sənaye parklarında, həmçinin digər bu qəbildən olan müasir çoxfunksiyalı fəaliyyət zonalarında (texnoparklar, sənaye məhəllələri və s.) yaradılan yüksək texnologiyalar əsaslı sənaye müəssisələrin hesabına iqtisadi artımın təmin edilməsində əhəmiyyətli işlər görülmüşdür və qarşıya qoyulan hədəflərə çatmaq üçün görülən işlərin səmərəliliyinin artırılması təmin olunmuşdur. Bütün bunlar özünü sənaye məhsulunun istehsalında da büruzə vermişdir. Şəkil 2-də 2014-2018-ci illərdə Azərbaycanda ümumi sənaye məhsulunun dinamikası verilmişdir.

**Şəkil 2. Azərbaycanda 2014-2018-ci illərdə ümumi sənaye məhsulunun dinamikası, mlrd. manatla (ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır).**




Şəkil 2-yə nəzər salsaq, görmək mümkündür ki, 2014-2018-ci illərdə ümumi sənaye məhsulunun həcmi 49 % yaxın artmış və 2018-ci ilin yekununda 47,7 mlrd. manat təşkil etmişdir. 2018-ci il ərzində ölkə ÜDM-də sənaye məhsulunun həcmi – 60 %-ə yaxın olmuşdur. Müqayisə üçün bu göstətirci 2014-cü ildə 54,4 %, 2017-ci ildə isə 57 % təşkil etmişdir. Sənayenin son illərdə artımında qeyri-neft sənayesinin intensivliyi və yeni yüksək texnologiyalar əsaslı müəssisələrin yaradılması mühüm əhəmiyyət kəsb etmişdir. Sumqayıt Kimya Sənaye Parkında, Sumqayıt Sənaye Mərkəzində və digər şəhərlərdə yaradılan sənaye parklarında yüksək texnologiyalar əsaslı sənaye müəssisələrinin bir-birinin ardınca istismara verilməsi ölkə iqtisadiyyatınını artımında məhsuldar mənbələrin formalaşdırılmasına əlavə imkanlar yaratmışdır.

Qeyd edək ki, son illərdə iqtisadi artımda əhəmiyyətli rol oynayan qeyri-neft sənayesi məhsullarının, yəni emal sənayesi məhsullarının əhəmiyyətli hissəsi bir sıra rəqabətqabiliyyətli və innovatik inkişafa kifayət qədər meyilli olan

sənaye sahələri ilə bağlıdır və bu proseslərdə sənaye parklarının rolu xeyli yüksəkdir. Məsələn, ölkəmizin ən iri sənaye parkı kimya və neftkimya kompleksi üzrə yaradılmışdır, bu parkda xeyli sayda rezidentlər qeydə alınmış, nəhəng kimya müəssisələri istismara verilmişdir. Təsadüfi deyildir ki, kimya və neftkimya sənayesi müəssisələrində son illərdə istehsalın həcmi xeyli yüksəlmişdir, belə ki əgər 2014-cü ildə bu sektorda ümumi məhsulun həcmi 370,7 mln. manat olmuşdursa, bu göstərici 2017-ci ildə 818,1 mln. manat, 2018-ci ildə isə yenə artım nümayiş etdirərək 887,8 mln. manat təşkil etmişdir. Sumqayıtdakı sənaye parkında istifadəyə verilmiş nəhəng kimya və neftkimya müəssisələrinin istehsal gücü səviyyəsinə çatdıqca, bu göstəricilər əhəmiyyətli səviyyədə yüksələcəkdir və ölkəmizdə iqtisadi artımın təmin olunmasında sənaye parklarının rolu xeyli artacaqdır. Digər sənaye sahələrində də, məsələn qida məhsullarının istehsalı və toxuculuq sənayesində yaradılmış sənaye parklarının hesabına iqtisadi artımın səmərəliliyi xeyli yüksəlmişdir. Ümumilikdə, qeyri-neft sənayesində ümumi məhsulda qida məhsullarının istehsalının xüsusi çəkisi 28,2 % təşkil edir və bu məhsullarının əksəriyyəti Sumqayıtda fəaliyyət göstərən "Azərsun" Sənaye Parkında istehsal olunur. Yaxud tekstil sənayesinin artım dinamikasına fikir versək, 2018-ci ildə ümumi məhsul istehsalın həcmi 358 mln. manat həcmində olmuşdur və bu 2014-cü ildə nisbətdə 3 dəfə, 2017-ci ildə nisbətdə isə 25 % çoxdur və maraqlıdır ki, bu məhsulların əksər hissəsi Sumqayıtda və Mingəçevirdə yerləşən sənaye parklarında istehsal olunur. Bu tip parklarda, eyni zamanda innovasiya fəaliyyətinin formalaşması və inkişaf etdirilməsi üçün əlverişli mühitin yaradılması təmin edilir. Bundan əlavə, sənaye parklarının inkişafı hesabına iqtisadi artımının təmin edilməsi ilə bərabər sahibkarlıq və biznes mühitinin yüksəldilməsi potensialı da diqqət çəkir. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun hazırladığı "İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər" adlı kitabda qeyd olunur ki, Azərbaycanda sənaye parklarının yaradılmasının daha geniş vüsət alacağı gözlənilir, belə parkların yaradılması isə xaricdən müvafiq məhsul idxalının azalmasında da mühüm rol oynamaq iqtidarındadır [11]. Sənaye parklarında yeni texnologiyaların mənimsənilməsi imkanları artdıqca, iqtisadi artımın daha məhsuldar mənbələrinin formalaşması mümkün olur, innovasiyalar daha tez istehsal proseslərinə tətbiq edilir.

## NƏTİCƏ

Tədqiqatın nəticələrinə əsasən qeyd etmək mümkündür ki, yaxın illərdə Azərbaycanda sənaye parklarından səmərəli istifadə olunması üçün əlverişli şərait yaranmışdır. Bunlarla əlaqədar olaraq bir qrup fəaliyyət istiqamətlərinə və məsələlərinə daha çox diqqət yetirilməlidir:

- əvvəla, qəbul etmək lazımdır ki, ölkəmizdə artıq sənaye parkları faktiki fəaliyyət mexanizmləri kimi formalaşdırılmışdır və xüsusilə bu kateqoriyadan olan parklarda dövlət dəstəyi mexanizmlərinin əhəmiyyətli rolu olmuşdur;

-innovasiya əsaslı iqtisadiyyatın formalaşdırılması və iqtisadi artımın səmərəlilik hədəflərinə çatılmasında və potensialın yaradılmasında sənaye parklarının çoxfunksiyalılıq xüsusiyyətləri kifayət qədər səmərəli xarakter daşıyır;

-yaxın illərdə sənaye parkları şəbəkəsinin genişləndirilməsi və yüksək texnologiyalar əsaslı müəssisələrin yaradılması prosesləri daha da sürətləndirilməlidir;

-iqtisadi artımın yeni mənbələrinin formalaşdırılması məqsədilə sənaye parklarının innovatik inkişafı təmin olunmalıdır və s.

**Açar sözlər:** *Strateji yol xəritəsi, sənaye parkları, iqtisadi artım, innovativ inkişaf, rəqabətqabiliyyətli sənaye müəssisələri, sənaye parklarının səmərəlilik problemləri, sənaye parklarının inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT:

*1. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası. Bakı, 2013, 39 s.*

*2. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət*

*Proqramı, Bakı, 2014, 28 s.*

*3. Əliyev Ş.T. Azərbaycan sosial-iqisadi inkişafında Sumqayıt şəhərinin strateji əhəmiyyəti. Monoqrafiya. Sumqayıt, "Azəri" nəşriyyatı, 2019, 368 s.*

*4. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 6 dekabr 2016-cı il.*

*5. Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafina dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*6. Əliyev Ş.T. Azərbaycan iqisadiyyatı. Sumqayıt, 2018, 376 s.*

*7. Azərbaycanın növbəti 3 il üzrə iqtisadi artım göstəriciləri açıqlandı - proqnoz 17 oktyabr 2018. http://finans.az.*

*8. "Fitch" Azərbaycanda iqtisadi artım tempinin sürətlənəcəyini proqnozlaşdırır. 29.12.2018. http://az.baku.ws.*

*9. Azərbaycan hökuməti iqtisadi artım üzrə proqnozları yaxşılaşdırıb. 25 avqust 2018. http://news.day.az/azerinews/1035562.html.*

*10. Moodys: Azərbaycanda iqtisadi artım sürətlənəcək. 09.08.2018. http://qaynarinfo.az/az/moodys-azerbaycanda-iqtisadi-artım-suretlenecek/.*

*11. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər. İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Bakı, 2017, 36 s.*

**РЕЗЮМЕ**

**ВОПРОСЫ ЭКОНОМИЧЕСКОГО РОСТА В ПРОМЫШЛЕННЫХ ПАРКАХ В СООТВЕТСТВИИ СО СТРАТЕГИЧЕСКИМИ ДОРОЖНЫМИ КАРТАМИ**

В статье исследованы вопросы экономического роста в промышленных парках в соответствии со стратегическими дорожными картами. С этой целью анализированы вопросы и проблемы повышения эффективности деятельности созданных и формирующихся промышленных парков страны. Рассмотрено расширение инновационной инфраструктуры и сети конкурентоспособных предприятий в промышленных парках. Раскрыты особенности и многофункциональность промышленных парков исходя из мирового опыта. Рассмотрены перспективы обеспечения экономического роста в промышленных парках, дан ряд рекомендаций и предложений по исследуемым вопросам.

**Ключевые слова:** *стратегическая дорожная карта, промышленные парки, экономический рост, инновационное развитие, конкурентоспособные промышленные предприятия, проблемы эффективности промышленных парков, перспективы развития промышленных парков.*

**SUMMARY**

**ISSUES OF ECONOMIC GROWTH IN INDUSTRIAL PARKS ACCORDING TO STRATEGIC ROAD MAPS**

Issues of economic growth in industrial parks according to strategic road maps are investigated in the article. Questions and problems of increase in efficiency of activity of the created and formed industrial parks of the country are analyzed for this purpose. Expansion of innovative infrastructure and network of the competitive enterprises in industrial parks is considered too. Features and multifunctionality of industrial parks proceeding from international experience are given then. The prospects of ensuring economic growth in industrial parks are considered, a number of recommendations and offers on the studied questions is given in the end of the article.

**Key words:** *strategic road map, industrial parks, economic growth, innovative development, competitive industrial enterprises, problems of efficiency of industrial parks, prospects of development of industrial parks.*

UOT: 336.645.1:336.648

**FARUQ ZİYADOV**
*Azərbaycan Kooperasiya Universitetinin doktorantı*

*E-mail: ziyadov.farug@bk.ru*

# QLOBAL MALİYYƏ ÇAĞIRIŞLARI ŞƏRAİTİNDƏ AQRAR-EMAL MÜƏSSİSƏLƏRİNDƏ İNVESTİSİYA MÜHİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ STRATEJİ YANAŞMALAR

Qlobal çağırışlar və maliyyə qeyri-sabitliyi son 10 il ərzində dünya iqtisadi proseslərində maliyyə axınlarının, hərəkətinin və istifadəsinin mövcud mexanizmlərinin əhəmiyyətli səviyyədə transformasiyası ilə yadda qalmışdır. Bu problemlər investisiyalar və onların yönəldilməsi, cəlb edilməsi üçün də kifayət qədər aktual və xarakterik olmuşdur. Ölkəmizin iqtisadi inkişaf modelinin əsasən formalaşdığı və təkmilləşdirmələrə məruz qaldığı bir dövrdə investisiyalar məsələsi bütün hallarda strateji yanaşmaları tələb edir. 1994-cü il sentyabr ayının 20-də imzalanmış "Əsrin kontrakt"ının icrasından sonra ölkəmizə xarici investisiyaların güclü axını diqqət çəkmişdir, amma, bunlar əsasən neft-qaz sektoruna yönəldilmişdir. Keçən dövr ərzində iqtisadiyyatımıza yatırılan investisiyaların həcmi 280 mlrd. dollardan çox olmuşdur. Etiraf etmək lazımdır ki, ölkəmizdə qeyri-neft sektorunun investisiya mühitinin təkmilləşdirilməsi, bu sahələrdə investisiya cəlbediciliyinin yüksəldilməsi problemləri hələ də vardır. Düzdür, ölkədə strateji yol xəritələrinin reallaşdırılması ilə əlaqədar olaraq, bu istiqamətlərdə strateji yanaşmalara diqqət xeyli artmışdır.

Ölkə Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində maliyyə bazarlarının inkişafının intensivləşdirilməsi, qlobal trendlərin və bununla bağlı aktual çağırışların sistemli, uzunmüddətli dövr üçün perspektivlər əsas götürülməklə nəzərə alınması istiqamətində strateji hədəflər müəyyənləşdirilmişdir [1]. Nəticədə, ölkədə maliyyə sabitliyi gücləndirilmiş, iqtisadiyyatımızın zəifləmiş artım tempi bərpa olunmuş və bu sahədə aqrar-emal müəssisələrinin rolu artırılmış, ümumilikdə, kənd təsərrüfatı sektorunun və aqrar sənaye kompleksinin ölkə iqtisadiyyatında mövqeyi gücləndirilmiş, bu sahələrin investisiya cəlbediciliyinin artırılması tədbirləri görülmüş, şəffaflığın, maliyyə və mühasibat sənədlərinin dürüstlüyü, beynəlxalq standartlara uyğunluğu istiqamətində ardıcıl tədbirlərə başlanılmış, sahibkarlığın inkişafı və biznes mühitinin əlverişliyinin artırılması məsələlərinə yanaşmalar yenilənmişdir. Dövlətin investisiya fəaliyyəti və investisiya fondlarının fəallığının təmin olunmasında mövcud mexanizmlərinin təkmilləşdirilməsi və qanunvericilik bazasının gücləndirilməsi tədbirləri də kifayət qədər səmərəli xarakter daşımışdır. Belə ki, 22 oktyabr 2010-cu ildə "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasinin Qanunu qüvvəyə minmişdir [2]. Bundan əlavə, 18 yanvar 2018-ci ildə ölkə Prezidentinin "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı verilmişdir və bu Sərəncamda qeyri-neft sektoru sahələrində investisiya fəaliyyətinin gücləndirilməsi, bunlarla əlaqədar xarici investorların cəlbi proseslərin maksimum səmərəli təşkilinə dair müvafiq tapşırıqlar verilmiş və strateji qərarlar qəbul olunmuşdur [3]. Aqrar-emal müəssisələrinin fəaliyyətinin canlanması, bütünlükdə, kənd təsərrüfatı sektoru sahələrində və aqrar-sənaye kompleksində kooperativ hərəkatının genişləndirilməsinin qanunvericilik bazasının gücləndirilməsi də müsbət hal kimi dəyərləndirilməlidir. Belə ki, 14 iyun 2016-cı ildən "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu

qüvvəyə minmişdir [4]. Tədqiqatlar göstərir ki, qeyri-neft təmayüllü iqtisadiyyat sahələrinin investisiya cəlbediciliyinin yüksəldilməsinə mane olan amillərin əksəriyyətinin nəzərə alınması və aradan qaldırılması mümkündür, amma, bunun üçün ardıcıl və prinsipial tədbirlər görülməlidir. Maliyyə bazarlarının dinamik inkişafı təmin olunmalı və investisiyaların yatırılmasının sürətləndirilməsini əngəlləyən baryerlərin minimum həddə endirilməsinə straeji yanaşmalar təmin edilməli, preventiv və kompleks tədbirlər həyata keçirilməlidir [5]. Eyni zamanda, məlumdur ki, investorlar kənd təsərrüfatı sahələrinə və aqrar-emal müəssisələrinə investisiyalar yatırmaqda xeyli ehtiyatlı davranırlar və bu, ilk növbədə, həmin müəssisələrdə kommersiya və iqtisadi risklərin geniş dairəsinin olması, mövsümi fəaliyyət problemləri, itkilər, təbii şəraitin gözlənilməz hallarla müşayiət olunması, təbii fəlakətlər, yanğınlar və s. hallarla daha çox bağlıdır. Bu sektorda məhsuldarlıq problemlərinin, toplanan və istehsal olunan məhsulların saxlanılması, istehlakçılara çatdırılması məsələlərində də risklərin mövcudluğu diqqət çəkir. Buna görə də aqrar müəssisələrinin investisiya cəlbediciliyinin artırılması problemləri diqqətlə və dərindən öyrənilməli, zəruri tədbirlərin görülməsinə strateji münasibət ortaya qoyulmalıdır [6].

Aqrar sənaye kompleksinin davamlı inkişafı, modernizasiya edilməsi və yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi müasir dövrün ən aktual problemlərindəndir. Məlumdur ki, bu kimi vəzifələrin öhdəsindən gəlmək üçün külli miqdarda investisiya resursları tələb olunur. İnvestisiya resurslarının cəlb edilməsi üçün aqrar sənaye kompleksinin və onun aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyinin artırılması vacib şərtlərdəndir [7]. Eyni zamanda, aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyinin yüksəldilməsi məqsədilə istifadə olunan mövcud mexanizmlərin qlobal maliyyə və investisiya çağırışlarına uyğunluğu qiymətləndirilməli, istifadə olunan praktiki alətlərin cəlbediciliyinə diqqət artırılmalıdır [8]. Qlobal iqtisadi təhdidlər şəraitində investisiya resurslarının cəlb edilməsi o qədər də asan məsələ deyildir və bunun üçün aqrar-emal müəssisələrinin iqtisadi-təşkilati baxımdan təkmilləşdirilməsi, maddi-texniki bazasının gücləndirilməsi tələb olunur. Bundan əlavə, aqrar-emal sənayesi müəssisələrinə investisiyaların fəal cəlb edilməsi mexanizmlərinin səmərəlilik və gəlirlilik prinsiplərinə xüsusi önəm verilməlidir [9]. Ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılması, strukturunun təkmilləşdirilməsi məsələlərində ərzaq təhlükəsizliyinin təmin olunması kimi strateji vəzifələrin reallaşdırılmasında aqrar-emal sənayesi müəssisələrinin rolu kifayət qədər strateji əhəmiyyət kəsb edir. Xüsusilə, ölkə regionlarının inkişaf etdirilməsi dövlətin prioritet vəzifələrindən hesab olunduğu üçün, bu qəbildən olan müəssisələri regionların inkişafında əhəmiyyəti böyükdür. Həmin müəssisələrinin investisiya cəlbediciliyinin artırılması üçün iri investisiya layihələri, məqsədli dövlət proqramalrı işlənib hazırlanmalı və reallaşdırılmalıdır [10]. Bunlarla bərabər, aqrar-emal müəssisələrinin rəqabətqabiliyyətliliyi və dünya bazarlarına çıxmasına imkan verən səviyyədə işlək investisiya mexanizmlərinin məqsədli tətbiqi tədbirləri həyata keçirilməli, investisiya mühitinin cəlbediciliyi təmin olunmalıdır. Ölkənin aqrar-emal müəssisələrini investisiya fəaliyyəti sahəsində beynəlxalq əlaqələrinin genişləndirilməsi siyasətinə önəm artırılmalı, analoji investor-kompaniyaların ölkəmizin aqrar-emal müəssisələrinə investisiya yatırımları stimullaşdırılmalı və dövlət investisiya siyasətinin çevik mexanizmləri hesabına dəstəklənməlidir [11]. Digər tərəfdən, qeyd etdiyimiz kimi, ölkə regionlarında fəaliyyət göstərən, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsində, işsizliyin azaldılmasında və regionlarında iqtisadi fəallığın artırılmasında çoxfunksiyalı xüsusiyyəti ilə diqqət çəkən aqrar-emal müəssisələrinin investisiya fəaliyyətinin stimullaşdırılması tədbirləri və dövlət dəstəyi mexanizmlərinin hazırlanması vacib hesab olunur [12].

Qeyd edək ki, ölkəmizdə investisiyaların cəlbi istiqamətində fəal dövlət siyasəti və strateji yanaşmaların olmasına baxmayaraq, son illərdə iqtisadiyyata yönəldilən investisiyaların həcmində müəyyən qədər tempin zəiflənməsini qeyd etmək mümkündür. Amma, əvvəlcədən deyək ki, artıq 2018-ci ildə investisiyaların bir çox parametrləri üzrə, o cümlədən, iqtisadiyyata kredit qoyuluşları və yönəldilən investisiyaların artım tempi bərpa olunmuşdur.

Şəkil 1-də ölkəmizə bütün mənbələr üzrə iqtisadiyyata yönəldilən investisiyaların 2014-2018-ci dinamikasına baxmışıq.




**Şəkil 1. Azərbaycana bütün mənbələr üzrə, o cümlədən, xarici investisiyalar nəzərə alınmaqla, investisiya qoyuluşlarının dinamikası, 2014-2018-ci illər, mlrd. manat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/).**

Şəkil 1-in təhlilindən baxdıqda, görmək mümkündür ki, 2014-2018-ci illərdə investisiya qoyuluşların dinamikasında 18,2 % artım qeydə alınmışdır və 2018-ci ilin yekununda investisiya qoyuluşu 26 mlrd. manatdan çox təşkil etmişdir, müqayisə üçün deyək ki, bu göstərici 2017-ci ildə 24,5 mlrd. manata yaxın olmuşdur.

Şəkil 2-də isə ölkəmizdə kənd təsərrüfatı sektoru sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dinamikası verilmişdir.




**Şəkil 2. Azərbaycana kənd təsərrüfatı sektoru sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların dinamikası, 2003-2018-ci illər, mln. manat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/).**

Şəkil 2-nin təhlili üzrə baxdıqda, görmək mümkündür ki, 2003-2018-ci illərdə kənd təsərrüfatı sektoru sahələri üzrə əsas kapitala yönəldilmiş investisiyaların həcmi 20,4 dəfə artmış və 2018-ci ildə 764,4 mln. manat səviyyəsində olmuşdur. Bütün bunlar aqrar-emal müəssisələrinin fəaliyyətinə də müsbət təsir göstərmiş, onların maddi-texniki bazasının gücləndirilməsində və modernizasiya edilməsində əhəmiyyətli rol oynamışdır.

Şəkil 3-də isə kənd təsərrüfatı sektoru sahələri üzrə əsas kapitala yönəldilən investisiyaların ümumi ölkə iqtisadiyyatına yönəldilən investisiyalarda payı təhli olunmuşdur və göründüyü kimi, 2003-2018-ci illərdə bu göstərici üzrə artım 4,4 dəfə təşkil etmişdir.




**Şəkil 3. Azərbaycana kənd təsərrüfatı sektoru sahələri üzrə əsas kapitala yönəldilən investisiyaların ümumi ölkə iqtisadiyyatına yönəldilən investisiyalarda payı, %-lə (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/).**

Şəkil 4-də Azərbaycanda 2003-2018-ci illər üzrə kənd təsərrüfatı məshullarının həcminin ümumi dinamikası əks olunmuşdur.




**Şəkil 4. Azərbaycanda kənd təsərrüfatı məshullarının həcminin ümumi dinamikası, mlrd. manat, 2003-2018-ci illər, mln. manat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları üzrə müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/).**

Şəkil 4-də baxdıqda, qeyd etmək mümkündür ki, kənd təsərrüfatı məhsulların həcminin dəyəri 2003-2018-ci illərdə 4,8 dəfə artmış və 2018-ci ildə 7 mlrd. manatdan çox təşkil etmişdir. Bu isə kənd təsərrüfatı sektorunda fəaliyyət göstərən müəssisələrinin, o cümlədən, aqrar-emal müəssisələrinin əlavə dəyər yaradılmasında rolunun yüksəldiyini göstərir.

Ölkə iqtisadiyyatının investisiya cəlbediciliyinin yüksəldilməsi problemlərinin sistemli həlli üçün onun strukturunun, o cümlədən, xarici investisiyalarının strukturunun araşdırılması və təkmilləşdirilməsi vacibdir [13]. İnvestisiyaların hərəkəti və səmərəlilik problemləri də diqqət mərkəzində saxlanılmalıdır [14]. Son illərdə aqrar-emal müəssisələrinin qarşısında strateji vəzifələr qoyulmuşdur. Azərbaycan Respublikası Prezdentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə göstərilmişdir ki, prioritet və strateji əsas yeri ərzaq bolluğunun yaradılması və bununla əlaqədər aqrar-emal müəssiəsələrinin fəaliyyətinin müasir tələblər səviyyəsinə qaldırılmasıdır. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində bir sıra iqtisadiyyat sahələrinin inkişafı ilə bağlı strateji hədəflər müəyyənləşdirilmişdir [15]. Bundan əlavə, aqrar-emal müəssisələrinin xammal təminatına və innovatik inkişafına xüsusi önəm verilməlidir [16].

## NƏTİCƏ

Yaxın illərdə ölkəmizdə aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyinin yaxşılaşdırılması və investisiya mühitinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi üçün qlobal maliyyə çağırışları əsas götürülməklə, bir sıra məsələlərə xüsusi diqqət yetirilməlidir:

- investisiyaların cəlbi mexanizmlərinin yenilənməsi təmin olunmalı və bu sahədə dünya təcrübəsinin mütərəqqi mexanizmlərinə üstünlük verilməlidir;
- aqrar-emal müəssisələrinin yüksək texnologiyalar əsasında modernizasiya edilməli prosesləri başa çatdırılmalı və bu sahəyə xarici investisiyaların cəlbinin stimullaşdırılması tədbirləri görülməlidir;
- ölkə regionlarında fəaliyyət göstərən aqrar-emal müəssisələrinin strateji əhəmiyyəti nəzərə alınmaqla, onların maddi-texniki bazasının gücləndirilməsinə və bunun üçün məqsədli investisiyaların yatırılmasına strateji yanaşmalar təmin olunmalıdır və s.

## ƏDƏBİYYAT:

*1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafina dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.*

*2. İnvestisiya fondları haqqında Azərbaycan Respublikasinin Qanunu. Bakı şəhəri, 22 oktyabr 2010-cu il. № 1101-IIIQ.*

*3. İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 18 yanvar 2018-ci il.*

*4. Kənd təsərrüfatı kooperasiyası haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il.*

*5. Ataşov B.X. Maliyyə bazarları. Bakı, “Kooperasiya nəşriyyatı”, 2016. -456 s.*

*6. Захарова Н.Ю. Проблемы оценки инвестиционной привлекательности аграрных предприятий // Научный вестник: финансы, банки, инвестиции. – 2011. – № 3(12).-с. 76-80.*

*7. Гладкова Е.П. Инвестиции, их классификация и значение для развития агропромышленного комплекса // Управление экономическими системами, №7, 2012. http://www.uecs.ru.*

*8. Шабунин Н.А. Классификация и оценка основных механизмов привлечения инвестиций в АПК. Международный технико-экономический журнал 2010 №3.-с.15-21.*

*9. Шейко А.А. Инвестиционная политика в воспроизводственном процессе сельского хозяйства (на примере Курской области) // Журнал «Organizmica», №1 (13), 2008. http://www.organizmica.org.*

*10. Кузнецов А.Л, Севрюгин А.С., Севрюгин Ю.В. Инвестиционная привлекательность предприятия: понятие и классификация // Реальный сектор экономики: теория и практика управления. – 2004. – № 1. – с. 56-58.*

*11. Ясенева О.Ю. Орлов А.Ю., Лаврухина Н.В. Проблемы оценки инвестиционной привлекательности предприятия // Журнал*

*«Экономика и социум», №11(30), 2016.*

*12. Наролина Ю.В. Повышение инвестиционной привлекательности АПК региона. Дисс. канд. экон. наук. Воронеж, 2007.- 192 с.*

*13. Гюльалиев М., Алиев Р. Динамика и отраслевая структура иностранных инвестиций, направленных в экономику Азербайджана // Экономический Вестник Донбасса, №3 (41), 2015.-С. 67-74.*

*14. Frenkel R. From the Boom in Capital Inflows to Financial Traps//Capital Market Liberalization and Development. New York: Oxford University Press, 2008, pp. 101-119.*

*15. Azərbaycan Respublikası kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.- 177 s.*

*16. Əliyev Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt Dövlət Universiteti, 2018.-384 s.*

***Açar sözlər:*** *qlobal maliyyə çağırışları, aqrar-emal müəssisələri, investisiya mühiti, strateji yanaşmalar, aqrar-emal müəssisələrinin investisiya cəlbediciliyi, investisiya mühitinin təkmilləşdirilməsi problemləri, investisiya mühitinə strateji yanaşmalar.*

**РЕЗЮМЕ**

**СТРАТЕГИЧЕСКИЕ ПОДХОДЫ К СОВЕРШЕНСТВОВАНИЮ ИНВЕСТИЦИОННОЙ СРЕДЫ НА ПРЕДПРИЯТИЯХ АГРОПЕРЕРАБОТКИ В УСЛОВИЯХ ГЛОБАЛЬНЫХ ФИНАНСОВЫХ ВЫЗОВОВ**

В статье исследованы стратегические подходы к совершенствованию инвестиционной среды на предприятиях агропереработки в условиях глобальных финансовых вызовов. С этой целью анализирована важность совершенствования существующих механизмов повышения инвестиционной привлекательности предприятий агропереработки. Указана роль усиления законодательной базы в создании соответствующих условий для привлечения инвестиций в экономику страны. Анализированы динамика инвестиционных вложений в экономику Азербайджана за счет всех источников финансирования. Кроме того, рассмотрены показатели инвестиционных вложений в основной капитал и другие основные показатели сельскохозяйственного сектора. Акцентировано внимание на исследовании и совершенствовании структуры инвестиционных вложений в экономику страны за последний период. Подготовлены рекомендации и даны предложения по рассматриваемым вопросам.

**Ключевые слова:** *глобальные финансовые вызовы, предприятия агропереработки, инвестиционная среда, стратегические подходы, инвестиционная привлекательность предприятий агропереработки, проблемы совершенствования инвестиционной среды, стратегические подходы к инвестиционной среде.*

**SUMMARY**

**STRATEGIC APPROACHES TO IMPROVEMENT OF THE INVESTMENT ENVIRONMENT AT THE ENTERPRISES OF AGROPROCESSING IN THE CONDITIONS OF GLOBAL FINANCIAL CHALLENGES**

Strategic approaches to improvement of the investment environment at the enterprises of agroprocessing in the conditions of global financial challenges are investigated in the article. Importance of improvement of the existing mechanisms of increase in investment attractiveness of the enterprises of agroprocessing is analyzed for this purpose. The role of strengthening of the legislative base in creation of the corresponding conditions for attraction of investments into national economy is specified. Dynamics of investments in economy of Azerbaijan at the expense of all sources of financing are analyzed too. Indicators of investments in main capital and other key indicators of the agricultural sector are considered then. A research and improvement of structure of investments in national economy for the last period is described. Recommendations and offers on these aspects are given in the end of the article.

**Key words:** *global financial challenges, enterprises of agroprocessing, investment environment, strategic approaches, investment attractiveness of the enterprises of agroprocessing, problem of improvement of the investment environment, strategic approaches to the investment environment.*

UOT: 334.7: 334.722

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASININ STRATEJİ ƏHƏMİYYƏTİ

**RƏŞAD QARAYEV**
*Gəncə Dövlət Universitetinin doktorantı*

*E-mail: reshad.garaev@gmail.com*

Müasir dövrdə Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı strateji yanaşmalar daha çox prioritetlik təşkil etməkdədir. Belə ki, dövlət tərəfindən iqtisadiyyat sahələrinin inkişafının qlobal iqtisadi çağırışlara uyğunlaşdırılması məqsədilə məhsuldar mexanizmlərin işlənib hazırlanması və tətbiqinə ciddi önəm verilir. Bütün bunlarla yanaşı, özəl sektorun, sahibkarlığın inkişaf etdirilməsi məsələlərinə, biznes mühitinin yaxşılaşdırılmasına isə daha strateji səviyyədə yanaşmalar diqqət çəkir. Müstəqilliyimizin bərpasından sonrakı illərdə sahibkarlıq institutunun formalaşdırılması və inkişaf etdirilməsi üzrə milli iqtisadi maraqlar nəzərə alınmaqla, dövlət siyasəti mexanizmləri hazırlanmış və ardıcıl olaraq həyata keçirilməyə başlanılmışdır.

Son illərdə, ölkəmizdə sahibkarlığın inkişafının yeni təşkilati-iqtisadi modellərinin, o cümlədən xüsusi iqtisadi zonaların, sənaye parklarının, sənaye məhəllələrin və aqroparkların yaradılmasına böyük önəm verilməkdədir. Sahibkarlıq subyektlərinə vergi yükünün azaldılması mexanizmlərinin işləkliyi və sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi ölkədə özəl sektorun inkişafını xeyli intensivləşdirmişdir [1]. Bundan əlavə, ölkə Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”nin reallaşdırılması ilə əlaqədar olaraq strateji hədəflərə nail olmaq üçün davamlı tədbirlər görülməkdədir [2]. Eyni zamanda, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə institusional tədbirlər görülmüş, bu sahədə qanunvericilik təkmilləşdirilmiş və institusional mexanizmlər tətbiq olunmuşdur. Özəl sektorda çalışan işçilərinin vergi yükünün azaldılması üzrə yeni qaydalar və dəyişikliklər qüvvəyə minmiş, sadələşdirilmiş vergi dərəcəsi 4 %-dən 2 %-ə endirilmişdir. Kiçik sahibkarlıq subyektləri əldə etdikləri gəlirlərin 75 %-nin gəlir vergisindən azad olunmuşlar. Klaster formasında fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəətin, əmlakın, torpağın 7 il müddətinə mənfəət, əmlak və torpaq vergisindən azad edilmişdur. Bu cür vergi güzəştləri hazırda fəaliyyət göstərən və yaradılmaqda olan sənaye parkları, texnoparklar və sənaye məhəllələrinə də aiddir [3].

Kiçik və orta sahibkarlığın idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə, ölkə Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə İqtisadiyyat Nazirliyinin tərkibində publik hüquqi şəxs statuslu “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi” (ARKOBİA) yaradılmışdır [4]. Bununla belə, qlobal iqtisadi çağırışlar və strateji yol xəritələri çərçivəsində yeni strateji hədəflərin qarşıya məqsəd kimi qoyulması ilə bağlı olaraq, bir çox problemlərin həll edilməsi vacib məsələlər kimi qarşıdadır və hesab edirik ki, ARKOBİA-nın fəaliyyətinin intensivləşməsi ilə bu istiqamətlərdə daha çox səmərəli tədbirlərin hazırlanması və həyata keçirilməsi mümkün olacaqdır. Eyni zamanda, ölkə Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”nin reallaşdırılması ilə bağlı olaraq, ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətinin gücləndirilməsi istehlak mallarının istehsalının əhəmiyyətli səviyyədə genişləndirilməsində, milli iqtisadiyyatın şaxələndirilməsində və rəqabətqabiliyyətliliyinin

yüksəldilməsində mühüm rola malik olacaqlar [5]. Təsadüfi deyildir ki, bu strategiyadan irəli gələn məsələlərin həlli istiqamətində strateji yanaşmalar ortaya qoyulmuşdur. Belə ki, sahibkarlığın inkişaf etdirilməsi ümumilikdə ölkə iqtisadiyyatının dayanıqlı inkişafı kimi baxılır və yeni iqtisadi artım mənbələrinin formalaşdırılmasında sahibkarlığın inkişafına hərtərəfli dəstəyin göstərilməsi, o cümlədən dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, işlək dövlət qurumlarının və strukturlarının yaradılması vacib şərtlər kimi xarakterizə olunurlar [6]. Bu strategiyanın reallaşdırılması məqsədilə 700 milyon manata yaxın investisiyaların yatırılması nəzərdə tutulmuşdur və strateji hədəflərin reallaşdırılması nəticəsində 1,26 mlrd. manat əlavə dəyərin yaradılması, yeni iqtisadi artım mənbələrinin formalaşdırılması mümkün olacadır, həmçinin 34,3 minə yaxın yeni iş yerinin yaradılması proqnozlaşdırılır. Strateji yol xəritəsi çərçivəsində prioritet kimi qəbul olunan hədəflərin reallaşdırılmasından sonra ölkə ÜDM-də kiçik və orta sahibkarlıq subyektlərinin payı 15 %-ə qədər yüksələcək, məşğulluqda isə bu göstəricinin 20 %-ə qədər artması gözlənilir. Eyni zamanda, ölkədə sənaye klasterləri şəbəkəsinin formalaşdırılması bir hədəf kimi qarşıya qoyulmuşdur və bu klasterlər daxilində istehsal olunan məhsullarda kiçik və orta sahibkarlıq subyektlərinin 40 %-ə qədər qaldırılması, həmçinin lizinq əməliyyatlarının ÜDM-də payının 2 %-ə çatdırılması, qeyri-neft ixracında 5 %-lik artıma nail olunması, 3 innovasiya yönlü regional klasterin təşkili və s. nəzərdə tutulmuşdur. Bu sahədə uzunmüddətli dövr üçün strateji hədəflərin reallaşdırılması nəticəsində ölkəmizin iqtisadi və ixrac potensialı xeyli artacaq və sahibkarlıq subyektləri arasında rəqabət mühiti kifayət qədər yüksələcəkdir. Nəticədə, kiçik və orta sahibkarlıq subyektləri ölkənin iqtisadi inkişafının aparıcı qüvvəsinə çevriləcək və rəqabətədavamlı mal, məhsullar istehsal olunan, xidmətlər göstərən müəssisələr sayəsində əsas istehlak malları baxımından ölkənin idxaldan asılılığını minimuma endirəcəkdir. 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış ölkədə ÜDM-in ən azı 60 %-nin kiçik və orta sahibkarlıq subyektləri hesabına təmin edilməsinə, qlobal dəyər zəncirinə qoşulmuş yerli sahibkarlıq subyektlərinin şəbəkəsinin yaradılmasına nail olmaqdır [7]. Artıq, bu hədəflərə çatmaq üçün praktiki işlər intensivləşməkdədir və dövlət tərəfindən müəyyən tənzimləyici mexanizmlər hazırlanaraq həyata keçirilməkdədir. Sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsi və iqtisadi islahatlar prosesində onların rolunun daha da artırılması məqsədilə biznes mühitinin yaxşılaşdırılması tədbirləri genişlənməkdədir. Xüsusilə, iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin reallaşdırılması çərçivəsində qeyri-neft sektorunun müxtəlif sahələrinin potensialından istifadə olunmasında kiçik və orta sahibkarlıq subyektlərinin fəallığının artırılması təmin olunmuşdur. Özəl sektora uzunmüddətli və əlverişli şərtlərlə maliyyə dəstəyinin göstərilməsi dəstəyi ilə dövlət tərəfindən daim sistemli şəkildə tədbirlər görülür, dövlət dəstəyinin gücləndirilməsi istiqamətində ciddi islahatlar həyata keçirilir, iqtisadiyyatın neftdən asılılığın azaldılması istiqamətində sahibkarlıq subyektlərinin rolunun artırılılmasına önəm verilir və ümumilikdə ölkədə biznes mühtinin yaxşılaşdırılması tədbirləri görülür [8].

Sahibkarlıq subyektləri üçün daha münbit biznes mühiti formalaşdırılmış, dövlət orqanları tərəfindən onların fəaliyyətinin səmərəliliyinin artırılması tədbirləri görülür. Bunlarla bağlı İqtisadiyyat Naziri Ş.Mustafayev bildirir ki, qabaqcıl ölkələrin təcrübəsinə görə, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin vahid məkanda "bir pəncərə" prinsipi üzrə təşkili müsbət nəticələr verməklə, həmin xidmətlərin keyfiyyətinin və əlçatanlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. Agentliyin və onun tərkibində "Kiçik və Orta Sahibkarlıq evləri"nin fəaliyyətə başlaması bu sahədə idarəçilik sisteminin müasir tələblərə uyğunlaşdırılmasına, institusional dəstək mexanizmlərinin daha da təkmilləşdirilməsinə, kiçik və orta sahibkarlar üçün zəruri bütün xidmətlərə vahid məkanda rahat çıxışın təmin edilməsinə şərait yaradacaqdır [9]. Eyni zamanda, ölkə Prezidentinin 26 iyun 2018-ci il tarixli Fərmanı ilə ARKOBİA-nın fəaliyyətinin təmin edilməsi istiqamətində mühüm tədbirlərin icrası ilə bağlı müvafiq dövlət orqanlarına əlavə tapşırıqlar verilmiş və ARKOBİA-nın maliyyələşdirilməsi problemlərinin həlli mexanizmləri

müəyyənləşdirilmiş, bunlar üçün maliyyə təminatı mexanizmləri tətbiq edilmiş və qərarlar verilmişdir [10]. Keçən dövr ərzində bu mühüm dövlət qurumunun fəaliyyətinin təşkili üçün müvafiq addımlar atılmış, Agentliyin strukturu təsdiq edilmişdir [11]. Bundan əlavə, ölkə Prezidentinin həmin Fərmanı ilə Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətlərin siyahısı təsdiq olunmuş və bu siyahıda ölkənin müxtəlif nazirliklərinin və mərkəzi orqanlarının KOS subyektlərinə göstərəcəkləri xidmətin konkret siyahısı verilmişdir [12]. Qeyd edək ki, elə həmin Fərmanla ARKOBİA-nın Nizamnaməsi təsdiq edilmiş və bu qurumun prioritet fəaliyyət istiqamətləri: dövlətin bu sahədə dəstəkləyici və tənzimləyici tədbirlərinin hazırlanması və həyata keçirilməsi, sahibkarlıq subyektlərinə praktiki xidmətlərin göstərilməsi, həmçinin dövlət və özəl sahibkarlıq subyektlər arasında əlaqələndirici funksiyaların yerinə yetirilməsindən ibarətdir [13]. ARKOBİA-nın strateji fəaliyyət istiqamətlərindən biri də sahibkarın dostu kimi önəmli missiyanın daşıyıcısına çevrilməkdir. Belə ki, kiçik və orta biznes sektorunun inkişafı ilə bağlı köklü islahatlar aparılır və ölkəmizdə bununla bağlı planlı şəkildə geniş tədbirlər görülməkdədir. Bu şəraitdə agentliyin fəaliyyəti kiçik və orta sahibkarlığın yaradılması və inkişafının bütün mərhələlərində zəruri dəstək tədbirlərinin təşkilindən ibarətdir. Agentliyin icraçı direktoru O.Məmmədova görə, Agentliyin fəaliyyətinin əsas istiqamətlərindən biri sahibkarlığın inkişafı qarşısındakı maneələrin müəyyənləşdirilməsi və bunların aradan qaldırılmasıdır. Təhlillər göstərir ki, biznesin səmərəli təşkili və davamlı inkişafı bir tərəfdən, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyi ilə müəyyən edilirsə, digər tərəfdən sahibkarlığın biznes mühitində öz fəaliyyətini düzgün təşkili ilə şərtləndirilir. Bu çərçivədə sahibkarlığın bilik və bacarıqlarının inkişafına yönəlik bir sıra dəstək xarakterli tədbirlər, o cümlədən təlim, konsaltinq və s. xidmətlərin göstərilməsi sisteminin yaradılması prioritetlik təşkil edir. Agentliyin fəaliyyətinin səmərəsi kiçik və orta sahibkarlıq inkişafı üçün daha əlverişli biznes mühtinin formalaşdırılması, sahibkarlığın iqtisadiyyatdakı rolunun artırılması və s. bu kimi tədbirlərlə müəyyənləşdiriləcəkdir.

Qeyd edək ki, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması tədbirləri, ümumilikə sahibkarlıq mexanizmlərinin ildən ilə təkmilləşdirilməsinə, məhsuldarlığın artırılmasına, ölkə iqtisadiyyatının yeni artım mənbələrinin formalaşdırılmasına imkan vermişdir və nəticədə iqtisadiyyatda əlavə dəyərin həcminin artırılmasında kiçik və orta sahibkarlıq subyektlərinin roluna strateji önəm verilməkdədir. Belə ki, ümumilikdə ölkəmizdə 2017-ci ilin əvvəlinə sahibkarlıq subyektlərinin sayı 169,6 min təşkil etmiş, bunun 165,4 minə yaxını, yaxud 97,9 %-i kiçik sahibkarlıq subyektlərindən ibarət olmuşdur. 2017-ci ilin yekununda sahibkarlıq subyektlərinin əsas kapitala yönəltdikləri investisiyaların ümumi həcmi 3,3 mlrd. manata yaxın olmuş, bunun 2,1 milyarda yaxını kiçik sahibkarlıq subyektləri və 1,2 milyarddan çoxu isə orta sahibkarlıq subyektləri tərəfindən yönəldilmişdir.

Cədvəl 1-də Azərbaycanda 2015-2017-ci illərdə kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəricilərinin müqayisəli təhlili verilmişdir.

**Cədvəl 1.**
**Azərbaycanda kiçik və orta sahibkarlıq subyektlərinin əsas makroiqtisadi göstəriciləri (2015-2017-ci illər)**

| S/s | Göstəricilər | 2015 | | | 2016 | | | 2017 | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | O cümlədən: | | Cəmi | O cümlədən: | | Cəmi | O cümlədən: | |
| | | | Kiçik | Orta | | Kiçik | Orta | | Kiçik | Orta |
| 01 | Yaradılmış əlavə dəyər, mln. manat | 3734,8 | 2932,5 | 802,3 | 3587,2 | 2928,0 | 659,2 | 3807,6 | 3051,9 | 755,7 |
| 02 | İşçilərin sayı, min nəfər | 284,0 | 87,6 | 196,4 | 281,0 | 100,9 | 180,1 | 290,1 | 101,9 | 188,2 |
| 03 | Orta aylıq nominal əmək haqqı, manat | 373,7 | 350,1 | 386,1 | 338,6 | 322,2 | 349,1 | 352,8 | 331,5 | 365,9 |
| 04 | Dövriyyə, mln. manat | 6122,1 | 4718,4 | 1403,7 | 5831,4 | 4666,1 | 1165,1 | 6269,6 | 4884,7 | 1384,9 |
| 05 | Əlavə dəyərdə payı, % | 7,5 | 5,9 | 1,6 | 6,4 | 5,2 | 1,2 | 5,9 | 4,7 | 1,2 |
| | qeyri-neft sektoru üzrə payı, % | 10,9 | 8,6 | 2,3 | 9,9 | 8,1 | 1,8 | 9,5 | 7,6 | 1,9 |
| 06 | İşçilərin sayı, % | 18,7 | 5,8 | 12,9 | 20,4 | 7,3 | 13,1 | 20,8 | 7,3 | 13,5 |
| | qeyri-neft sektoru üzrə payı, % | 19,1 | 5,9 | 13,2 | 20,9 | 7,5 | 13,4 | 21,3 | 7,5 | 13,8 |
| 07 | İllik dövriyyə, % | 11,9 | 9,2 | 2,7 | 6,6 | 5,3 | 1,3 | 6,0 | 4,7 | 1,3 |
| | qeyri-neft sektoru üzrə payı, % | 18,8 | 14,5 | 4,3 | 9,0 | 7,2 | 1,8 | 8,6 | 6,7 | 1,9 |

*Qeyd: Cədvəl ARDSK-nın məlumatları əsasında tərtib olunmuşdur. http://stat.gov.az.*

Cədvəl 1-in təhlili ilə baxsaq, 2015-2017-ci illər ərzində ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin ümumi məhsul istehsalı dövriyyəsi 6,1 milyarddan 6,27 milyardadək, yaxud 2,4 % artmışdır. Yaradılmış əlavə dəyərin həcmi isə həmin dövr ərzində 1,95 % yüksəlmişdir və 2017-ci ilin yekununda 3,8 mlrd. manat olmuşdur. Bunun 3,1 milyarda yaxını kiçik sahibkarlıq subyektlərinin payına düşmüşdür. Maraqlıdır ki, qeyri-neft sektorunda işçilərin ümumi sayında kiçik və orta sahibkarlıq subyektlərinin payı 2015-ci ildəki 18,2 %-dən 2017-ci ildə 21,2 %-ə qədər artmışdır.

## NƏTİCƏ

Yaxın perspektivdə, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması üçün bir sıra məsələlərə strateji yanaşmalar təmin olunmalıdır:

- Strateji Yol Xəritəsininin strateji hədəflərindən çıxış etməklə, sahibkarlığın inkişaf etdirilməsində biznes mühitinin yaxşılaşdırılmasının daha təkmilləşdirilmiş mexanizmlərinin hazırlanması və reallaşdırılması təmin olunmalıdır;
- sahibkarlığın inkişaf etdirilməsi proseslərində təbii ehtiyatları və əmək resursları, həmçinin iqtisadi potensialı nəzərə alınmaqla, iqtisadi fəallığın artırılması və xüsusilə, kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətlərinin səmərəliliyinin yüksəldilməsi tədbirləri görülməlidir.

Hesab edirik ki, bu məsələlərin kompleks həlli ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması problemlərinin daha optimal həllində praktiki baxımdan strateji əhəmiyyət kəsb edə bilər və s.

**Açar sözlər:** *kiçik və orta sahibkarlıq, biznes mühiti, sahibkarlığın inkişaf problemləri, sahibkarlığın inkişafının strateji əhəmiyyəti, strateji yol xəritəsi, biznes mühitinin yaxşılaşdırılması perspektivləri.*

## ƏDƏBİYYAT:

*1. Prezident İlham Əliyev: Dövlət tərəfindən sahibkarlara böyük mənəvi dəstək göstərilir. http://www.gununxeberi.az.*

*2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*3. 2018-ci ildə sahibkarlığın inkişafı sahəsində aparılmış islahatlar və görülmüş işlər. https://economy.gov.az//uploads/fm/.*

*4. Kiçik və orta sahibkarlıq sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezdentinin Fərmanı, Bakı şəhəri, 28 dekabr 2017-ci il.*

*5. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*6. Azərbaycan kiçik və orta sahibkarlığın inkişafı üzrə strateji hədəflər müəyyənləşdirildi. http://az.trend.az.*

*7. Azərbaycan respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair strateji yol xəritəsi. Azərbaycan iqtisadi islahatlar icmalı. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. http://iqtisadiislahat.org.*

*8. İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri qeyri-neft sahəsinin inkişafında mühüm önəm daşıyır. http://old.xalqqazeti.com/az/news/economy/109743.*

*9. Şahin Mustafayev: Yeni Agentlik KOS-un inkişafında mühüm rol oynayacaq. 02.03.2018. http://www.economy.gov.az.*

*10. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 26 iyun 2018-ci il.*

*11. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin strukturu. Azərbaycan Respublikası Prezidentinin Fərmanı 26 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*12. Kiçik və orta biznes evlərində mikro, kiçik və orta sahibkarlıq subyektlərinə göstərilən xidmətləri siyahısı. Azərbaycan Respublikası Prezidentinin Fərmanı 26 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*13. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin Nizamnaməsi. Azərbaycan Respublikası Prezidentinin Fərmanı 26 iyun 2018-ci il tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

## РЕЗЮМЕ
## СТРАТЕГИЧЕСКАЯ ВАЖНОСТЬ УЛУЧШЕНИЯ БИЗНЕС СРЕДЫ РАЗВИТИЯ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

В статье исследована стратегическая важность улучшения бизнес среды развития малого и среднего предпринимательства. С этой целью анализирована важность интенсивного развития малого и среднего предпринимательства в стране и обеспечение улучшения бизнес среды с учетом современных глобальных вызовов. Рассмотрена эффективность организационно-экономических моделей механизмов развития предпринимательства. Определены более эффективные и продуктивные механизмы по совершенствованию управлением малого и среднего предпринимательства. Отмечена важность создания государственного агентства по управлению малого и среднего предпринимательства, раскрыта сущность его основных функций, задач и приоритетных направлений деятельности. Исследованы финансовые аспекты и их влияние на интенсификацию развития предпринимательства. Рассмотрена роль Фонда Развития Предпринимательства в расширении процессов укрепления материально-технической базой и инфраструктуры развития предпринимательства в стране. Анализированы макроэкономические показатели основных субъектов малого и среднего предпринимательства Азербайджана. Подготовлены рекомендации и даны предложения по стратегической важности улучшения бизнес среды развития малого и среднего предпринимательства.



**Ключевые слова:** *малые и средние предпринимательства, бизнес среда, проблемы развития предпринимательства, стратегическая важность развития предпринимательства, стратегическая дорожная карта, перспектива улучшения бизнес среды.*



## SUMMARY
## STRATEGIC IMPORTANCE OF IMPROVING BUSINESS ENVIRONMENT FOR SMALL AND MEDIUM ENTREPRENEURSHIP DEVELOPMENT

The strategic importance of improving the business environment for the development of small and medium enterprises are explored in the article. To this end, the importance of the intensive development of small and medium enterprises in the country and ensuring the improvement of the business environment, taking into account modern global challenges, is analyzed. The effectiveness of organizational and economic models of mechanisms for the development of entrepreneurship is considered. More effective and productive mechanisms for improving the management of small and medium-sized enterprises are identified. The importance of creating a state agency for the management of small and medium-sized enterprises was noted, the essence of its main functions, tasks and priority areas of activity is revealed. The financial aspects and its influence on the intensification of entrepreneurship development are investigated. The role of the Entrepreneurship Development Fund in expanding the processes of strengthening the material and technical base and infrastructure for the development of entrepreneurship in the country is considered. The macroeconomic indicators of the main subjects of small and medium enterprises of Azerbaijan are analyzed. The recommendations and proposals on the strategic importance of improving the business environment for the development of small and medium-sized enterprises are prepared and made.



**Key words:** *small and medium enterprises, business environment, problems of entrepreneurship development, the strategic importance of entrepreneurship development, a strategic roadmap, the prospect of improving the business environment.*

UOT 94(479.24)



# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN KP MK-nın BİRİNCİ KATİBİ SEÇİLMƏSİ. 1969-CU İL 14-İYUL PLENUMU

**XƏLİLZADƏ ARZU**
*Baki Dövlət Universitetinin dosenti, Tarix üzrə fəlsəfə doktoru*

*E-mail: Azerbaijan@rambler.ru*

XX əsrin son otuz ili və XXI əsrin başlanğıcında Azərbaycana rəhbərlik bilavasitə görkəmli dövlət və siyasi xadim Heydər Əlirza oğlu Əliyevin adı ilə bağlıdır. O, kiçik fasilələrlə XX əsrin son otuz ilində Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etmiş, ötən əsrin 1993-cü ilin iyunundan etibarən müstəqil Azərbaycan Respublikasının dövlət başçısı - prezidenti olmuşdur. Tarixdə nadir hadisələrdəndir ki, Heydər Əliyev iki ictimai-siyasi quruluşda Azərbaycana rəhbərlik etmişdir. Hər iki sistemdə görkəmli dövlət və siyasi xadim kimi Azərbaycanın iqtisadiyyatını möhkəmlətmiş, onun şöhrətini, nüfuzunu yüksəklərə qaldırmış, milli mənafeyini, milli mentalitetini, mədəniyyət və mənəviyyatını qorumuş və inkişaf etdirmişdir (6, 18).

Birinci dövrdə - Sovet hakimiyyəti dövründə respublikamızı keçmiş SSRİ-də bütün sahələrdə öncül yerlərdən birinə çıxartmış, sosial iqtisadi və mədəni sahələrdə həyata keçirilən tədbirlər və uzaqgörən siyasət nəticəsində qazanılan nailiyyətlər ölkəmizin dövlət müstəqilliyi dövrü üçün mühüm sosial-iqtisadi və mədəni baza, təməl rolunu oynamışdır. İstər Sovetlər Birliyi, istərsə də müstəqil Azərbaycan Respublikası dövründə Vətəninə, xalqına sədaqətlə, ləyaqətlə xidmət Heydər Əliyevin mübarizə devizi və həyat idealı olmuşdur. O, əmək və ictimai fəaliyyətinin ilk dövrlərindən özünün şəxsi keyfiyyətləri ilə fərqlənmiş, ən yüksək rəhbərlik səviyyəsinə qalxmışdır. Əmək fəaliyyətinə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Daxili İşlər Komissarlığında və Xalq Komissarları Sovetində başlamışdır (3, 155; 1).

Onun qabiliyyəti tezliklə aşkar olur. Naxçıvan MSSR Vilayət Partiya Komitəsi ona təhlükəsizlik orqanlarına işləməyə zəmanət verir. 1944-cü ildən bu orqanda fəaliyyətini davam etdirir. Xidməti vəzifəsini layiqincə yerinə yetirir. Eyni zamanda xalqının tarixi ilə maraqlanır, XX əsrdə xalqımızın başına gətirilən bəlalar, repressiyalar onların səbəblərini araşdırmaq barədə daha çox düşünür. “Antisovet qruplar” adı ilə Azərbaycanın görkəmli ziyalılarının, tanınmış adamlarının repressiya edilməsi onu hər zaman düşündürürdü. Mövqeyindən istifadə edərək, o vaxtlar gizli saxlanılan arxiv sənədlərini öyrənir. Sonralar müstəqil Azərbaycan Respublikasının prezidenti kimi sovet təhlükəsizlik orqanlarındakı keçmiş fəaliyyətini xatırlayaraq qeyd edirdi ki, bu orqana işə keçdiyim vaxt mən gənc idim, bir işçi kimi arxiv materialları ilə 1920-1921-ci illərdə, xüsusən, 1937-38-ci illərin, ondan sonrakı dövrlərin materialları ilə tanış olarkən daim öz-özümə sual vermişəm: “Bu antisovet qruplar, Sovet hakimiyyətini devirmək istəyən qruplar kimlərdir, hansılardır?” O vaxtlar Sovet hakimiyyətinin repressiya siyasəti, ümumiyyətlə, hər yerdə həyata keçirilmişdi. Lakin Azərbaycanda həyata keçirilən repressiyalar başqa yerlərə nisbətən daha çox və daha ağır olmuşdu. O, bunun köklərini, səbəblərini araşdırır, onları həyata keçirənlərin kimliyini öyrənirdim. Prezident Heydər Əliyev 1997-ci il iyulun 4-də Azərbaycan Respublikası təhlükəsizlik orqanlarının peşə bayramı gününə həsr olunmuş təntənəli yığıncaqda deyirdi: “Mən 37-38-ci illərin materiallarına baxanda gördüm: kim idi o vaxt NKVD-nin başında duranlar? Qriqoryan, Markaryan, Topuridze (yarı erməni, yarı gürcü idi) və başqaları. 1953-cü ilə kimi bu orqanlarda qalmış,

Azərbaycana xəyanət etmiş adamlardan idi, onların əksəriyyəti azərbaycanlı deyildi”. Məhz bunlar görkəmli azərbaycanlıları repressiya qurbanı edənlər idi (4).

Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1998-ci il yanvarın 14-də Azərbaycan Respublikası Konstitusiya Komissiyasının iclasında Sovet hakimiyyəti dövründə keçirilən repressiyalarda xalqımıza qarşı edilən cinayətlərdən danışaraq tamamilə haqlı olaraq qeyd edirdi ki, 1920-1930-cu illərdə nə qədər repressiyalar olub, insanlar öz yer-yurdundan sürgün edilibdir. O vaxt Sovet hakimiyyətinin siyasəti hər yerə aid olsa da, sürgün olunanlar içərisində ən çox repressiya və deportasiyaya məruz qalan elə Azərbaycan xalqı idi. “...Zaqafqaziyadan götürsək ki, 1920-ci ildən Sovetlər hakimiyyəti çökənədək hansı xalqdan nə qədər sürgün olunubdur, heç yerdə Azərbaycanda olduğu qədər adam sürgün edilməyibdir. 1937-1938-ci illər repressiyalarında Zaqafqaziyada heç yerdə Azərbaycanda olduğu qədər repressiya olmayıbdı. Bunlardan başqa, azərbaycanlılara başqa adla da divan tutulubdur. XX əsrin başlanğıcında bir parça çörək dalınca Şimali Azərbaycana, Bakıya üz tutan Cənubi Azərbaycandan olanlar da ciddi repressiyaya məruz qalmışlar. Bu məsələ rəsmi şəkildə ilk dəfə açıqlandı: “Bundan əlavə, azərbaycanlıların bir hissəsi 1937-1938-ci illərdə buradan İrana sürgün edilibdir. Bu da tarixi bir hadisədir, çoxdan unudulubdur. İran təbəəsi olduğuna görə azərbaycanlıları buradan, Azərbaycanın hər yerindən kütləvi surətdə sürgün etdilər”. Bütün bu milli faciələri də Azərbaycan xalqı yaşayıbdır. Təəssüf ki, bu hadisələr xalqdan, sonrakı nəsillərdən gizlədilibdir (6, 40).

Prezidentin işıqlandırdığı faktlar tarixi həqiqətləri bir daha yada salır, açıqlayırdı. Mərkəzi aparatdan başqa Azərbaycanın 51 rayonundan 31-də NKVD-nin rayon şöbəsinin başında duranlar ermənilər idi, Astarada-Arakelov, Astraxanbazarda-Camardyan, Zəngilanda-Zərgəryan, SamuxdaPetrosyan, Masallıda-Avanesov, Lənkəranda-Movsesyan, Naxçıvanda-Akopyan, Aqacanyan, Akopov, Seyranov, Zəkyan, Parseqov, İonesyan, Şıxanyan idi. Bakıda mərkəzi aparatda isə yuxarıda adları qeyd edilənlər və başqaları hökmranlıq edirdilər. Onlar hər vasitə ilə görkəmli azərbaycanlıların repressiya edilməsinə, yurd yuvasından didərgin salınmasına çalışırdılar. Cəza orqanlarında kadr siyasətinin bu şəkildə həyata keçirilməsinə son qoyulmasında və təhlükəsizlik orqanlarında azərbaycanlıların işə qəbul edilməsində, kadr məsələsində milliləşmə siyasətinin həyata keçirilməsində Heydər Əliyevin xidmətləri əvəzsiz olmuşdur (2).

Heydər Əliyev 1950-ci ildə Leninqradda Təhlükəsizlik Orqanının Ali Məktəbini bitirdikdən sonra Bakıda işləyir. Dövlət Təhlükəsizliyi Komitəsində əks-kəşfiyyat şöbəsində bölmə rəisi təyin edilir. Qeyd etmək lazımdır ki, o vaxt ilk dəfə idi ki, Heydər Əliyev azərbaycanlı kimi bölmə rəisi idi. 1953-cü ilin sonunda o, şöbə rəisi təyin olunur, bu da nadir hadisə idi. Şöbə rəisi kimi böyük çətinliklərlə qarşılaşsa da, bu orqanda sağlamlaşma aparmaq, yeni gənc kadrlan işə qəbul etmək sahəsində böyük fəallıq göstərir. Heydər Əliyev o illəri belə xatırlayırdı: “cəsarətli addımlar atmağa, təmizləmə işləri görməyə başladım, həmin şöbədə işləyən bir neçə zabitin cinayətkar olduqlarına görə həbs edilməsinə, cəzalandırılmasına, işdən çıxarılmasına nail oldum. Xatirəmdədir, 1954-cü ilin əvvəli idi. Mən başladım təmizləmə işləri aparmağa... Bir dəfə, iki dəfə, üç dəfə bu addımları atdım və sonra, 1955-ci ildə də bunların, həmin o cəsarətli addımlarımın qurbanı oldum. Amma öz inadımdan dönmədim, həmin o təmizləmə işlərinə başladım. Məhz onun bilavasitə iştirakı və rəhbərliyi ilə 1953-cü ildən təhlükəsizlik orqanlarında təmizləmə, milli kadrların irəli çəkilməsi prosesi başlayıbdır. Heydər Əliyev deyirdi: “Deyə bilərəm ki, təxminən 1953-cü ildən saflaşma, sağlamlaşma prosesi gedib və mən də bu prosesin bilavasitə iştirakçısı, son illərdə təşkilatçısı olmuşam və o vaxtlar bu işləri görmüşəm” (4).

1960-cı ildə təhlükəsizlik orqanlarında aparılan ixtisar nəticəsində beş şöbə birləşdirildi və Heydər Əliyev birləşmiş şöbəyə rəis təyin edildi. Onun bilavasitə iştirakı ilə gənc kadrlar irəli çəkildi. Rəhbər vəzifələrdə azərbaycanlıların sayı artdı. Heydər Əliyev 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə sədri

vəzifəsinə irəli çəkilmişdi. Təhlükəsizlik orqanında işləyən vaxt SSRİ-nin dövlət təhlükəsizliyinin təmin edilməsində xidmətlərinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 26 may 1962-ci il tarixli fərmanı ilə Heydər Əlirza oğlu Əliyev Qırmızı Ulduz ordeni ilə təltif edilmişdi. Bu dövrdə onun respublikaya, xalqına xidməti sahəsində daha geniş imkanları yaranır, fəaliyyəti genişlənir. "1968-ci ildə mən respublikada Dövlət Təhlükəsizlik Komitəsinin sədri idim. Universitetdə bir neçə adam Azərbaycan tarixini araşdırarkən Azərbaycanın Rusiyaya birləşməsi haqqında mübahisə aparmışdı ki, Azərbaycan Rusiyanın tərkibinə könüllü surətdə girmişdi, yaxud elə-belə girmişdi, ya da məcburi girmişdi. Bunu o vaxtlar şişirtdilər... Bu böyük bir iğtişaş yaratdı. Başladılar araşdırmağa ki, bunlar millətçidirlər, yaxud başqa fikirləri var, dövlət mövqeyindən kənarda yaşayırlar və s." (1).

1964-cü ildə Azərbaycanın Rusiyaya birləşdirilməsinin 150 illiyi qeyd edilirdi. Akademik Z. Bünyadov başda olmaqla respublika tarixçilərindən bir neçə nəfəri bu birləşmənin könüllü şəkildə olmadığını qeyd edirdilər. Buna görə də Z. Bünyadovu cəzalandırmağa səy edilir. Heydər Əliyev öz səlahiyyətlərindən istifadə edərək bu aksiyanın həyata keçirilməsinin qarşısının alınmasında öz xidmətini göstərir. O deyirdi: "Mən şəxsən Ziya Bünyadovun o illərdə xidmətlərinə çox yüksək qiymət vermiş və bu xidmətləri qiymətləndirmək üçün alimdən gələni etmişdim"( 1).

Təhlükəsizlik Komitəsindəki fəaliyyəti zamanı o, Azərbaycan xalqının mənafeyini qorumağa, onun açıqfikirli övladlarını əsassız təqiblərdən xilas etməyə çalışırdı. Heydər Əliyev Təhlükəsizlik Komitəsində rəhbər vəzifədə işlədiyi vaxtda da milli xüsusiyyətlərin, milli mentalitetin, milli şüurun inkişaf etdirilməsinin təmin edilməsinə xüsusi əhəmiyyət verirdi. 1969-cu il iyulun 14-də keçmiş Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi. Plenumda keçmiş Sov.İKP-nin katibi İ.V.Kapitonov və Sov.İKP bölmə müdiri Y.M.Startsev iştirak edirdi. Müzakirəyə bir məsələ - təşkilat məsələsi qoyulmuşdu. Plenumu Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundov açıq elan edir və sözü İ.V.Kapitonova verir. O, son illərdə respublikanın iqtisadi və mədəni inkişafının ümumi xarakteristikası və meydana gələn geriliyindən məlumat verməklə Sov.İKP MK-nın bu məsələlərə diqqət verdiyi barədə plenum üzvlərinə və iştirakçılarına məlumat vermişdi. Son on ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyən V.Y.Axundov respublikanın iqtisadiyyatı və mədəniyyətini inkişaf etdirmək, təşkilat və ideoloji işi yaxşılaşdırmaq üçün mümkün olan hər şeyi etmiş və xeyli qüvvə sərf etmişdi. Lakin son vaxtlar V.Y.Axundovun səhhəti pisləşmişdi və bunu özü də başa düşürdü ki, birinci katib vəzifəsində respublika qarşısında duran böyük və mürəkkəb işləri həyata keçirmək onun üçün çətindir. Bununla əlaqədar olaraq Sov.İKP MK-ya elmi işə keçirilməsi haqqında xahişlə müraciət etmişdi. Məlum idi ki, o, tibb elmləri doktoru, professor kimi elmi işə meyl edir. Sov.İKP MK-nm katibi İ.V.Kapitonov çıxışında qeyd etmişdi ki, Azərbaycan yüksək inkişaf etmiş sənaye ölkəsidir. Çoxşaxəli kənd təsərrüfatı strukturuna malikdir. Böyük miqyasda tikinti işləri aparılır. Elm və mədəniyyət inkişaf edir. Bir sözlə, respublikanın təsərrüfatı böyükdür, eyni zamanda olduqca mürəkkəbdir. Respublikada bir çox problemlər, həll edilməmiş vəzifələr, çətinliklər və çatışmazlıqlar vardır. Bütün bunlar və V.Y.Axundovun səhhətini nəzərə alaraq partiyanın Mərkəzi Komitəsi onun xahişini yerinə yetirməyi qərara almışdır (6, 50-52).

Azərbaycan Kommunist Partiyasının 1969-cu il 14 iyul tarixli plenumu respublika partiya təşkilatının birinci katibliyinə namizəd məsələsini də müzakirə etdi. Bu məsələ hələ bu vaxta qədər Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsində uzun müddət və hərtərəfli araşdırılmışdı. Birinci katib vəzifəsinə bir çox namizəd irəli sürülmüş və müzakirə edilmişdi. Ciddi və hərtərəfli öyrənildikdən sonra Sov.İKP Mərkəzi Komitəsi Heydər Əliyevin namizədliyi üzərində dayanmışdı. İ.V.Kapitonov plenum üzvlərinin Heydər Əliyevi yaxşı tanıdıqlarını nəzərə alaraq onun haqqında Mərkəzi Komitənin fikrini çatdıraraq demişdi: "Heydər Əliyev yoldaş obyektiv olaraq üstünlüyə malikdir. Ən böyük

üstünlüyü ondadır ki, o, hələ cavandır. 1923-cü ildə anadan olub. Onun 46 yaşı vardır. Birinci katib vəzifəsinə üç il, beş il müddətinə yox, daha uzun müddətə seçmək lazımdır... Əliyev yoldaş bizim respublika partiya təşkilatında fəal iştirak edir. Partiyanın Mərkəzi Komitəsinin tərkibinə daxildir, respublika Ali Sovetinin üzvüdür. Əliyev yoldaş əməli fəaliyyətində yetkin siyasi savadlı işçi kimi özünü göstərmişdir. Sov.İKP Mərkəzi Komitəsində də biz onu belə qiymətləndiririk, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin bürosunda da sizin yoldaşlar belə qiymətləndirir. O, yaxşı təşkilatçıdır, adamlarla işləməyi bacarır, bununla yanaşı, özünə və başqalarına qarşı tələbkardır. Sizə məlumat vermək istəyirəm ki, yoldaş Əliyev Sov.İKP Siyasi bürosunun iclasına dəvət edilmiş, onunla söhbət aparılmışdır" (6, 53-54).

Bütün bunları nəzərə alaraq, Sov.İKP-nin Siyasi Bürosu "Azərbaycan KP-nin Mərkəzi Komitəsi Heydər Əliyevin KP MK-nın birinci katibi və büro üzvü seçilməsi barədə təklifi plenumun müzakirəsinə verir". Plenuma sədrlik edən S. V. Kozlov bu məsələ ilə bağlı heç kəsin sualı olmadığını bildirdikdən sonra sözü sabiq birinci katib V.Axundova verir. O özünün xəstələndiyini, üç aya yaxın Moskvada xəstəxanada yatdığını qeyd edir və səhhətinin kəskinləşməsi ilə bağlı vəzifədən azad edilməsi haqqında xahişlə müraciət edərək, elmi işlə məşğul olmaq istədiyini bildirir. Respublikaya 10 il başçılıq edən Vəli Axundov plenumda Heydər Əliyev haqqında belə söyləmişdi: "Heydər Əliyevə xas olan bütün siyasi və iş keyfiyyətləri söyləməyə imkan verir ki, o, respublikaya layiqincə rəhbərlik edəcək, böyük və çətin işin öhdəsindən bacarıqla gələcək. O, kifayət qədər savadlı, hərtərəfli hazırlıqlı yüksək intellektə malikdir. O, bütün kadrlara qarşı eyni dərəcədə düzgün mövqedədir, çünki kifayət qədər obyektiv, vicdanlı və layiqli insandır. Dzerjinski demişdi ki, çekistin isti ürəyi, aydın ağlı, təmiz əli olmalıdır. Bütün bu keyfiyyətlər Heydər Əliyevə məxsusdur və mən əminəm ki, respublikaya başçılıq edərkən o, bu cəhətlərindən istifadə edərək respublikanın gözəl adət-ənənələrini layiqincə davam etdirəcək". Plenum V.Axundovun xahişini təmin edir, səhhətini və elmi işlərlə məşğul olmaq arzusunu nəzərə alıb, (artıq o, Respublika Elmlər Akademiyasının vitseprezidenti vəzifəsinə seçilmişdi) onu Azərbaycan KP-nın rəhbərliyindən azad edir. Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçilməsi məsələsi səsverməyə qoyulur. Onun eyni zamanda Azərbaycan KP MK üzvlüyünə namizədlikdən MK-nın üzvü seçilmək məsələsinə də baxılır. Plenum yekdilliklə Heydər Əliyevə səs verir və o, AKP MK-nın birinci katibi vəzifəsinə seçilir. Plenumda çıxış edən Heydər Əliyev göstərir ki, o, tam məsuliyyətlə qarşıda duran çətin və mürəkkəb vəzifələri anlayır və öz əməli işində bunların həlli üçün əlindən gələni əsirgəməyəcək. "Mən bütün büro üzvlərinin köməyinə ümid edirəm və hesab edirəm ki, birgə, mehriban əməkdaşlığımız gələcək uğurlarımıza gözəl zəmin yaradacaqdır"(3, 155).

Azərbaycan Kommunist Partiyası MK-nın 14 iyul 1969-cu il tarixli plenumu yekdilliklə qərara alır:

1. V.Y.Axundovun səhhətinə görə və Azərbaycan SSR EA-nın vitse-prezidenti seçilməsi ilə əlaqədar olaraq onun Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi vəzifəsindən və büro üzvlüyündən azad edilməsi haqqında xahişi təmin edilsin. 2. Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin üzvlüyünə namizədlikdən üzvlüyünə keçirilsin. 3. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və büro üzvü seçilsin. 4. Sov.İKP Mərkəzi Komitəsindən bu qərarın təsdiq edilməsi xahiş edilsin. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev çıxışında ona böyük etimad göstərilməsinə görə, Sov.İKP MK-ya, onun baş katibi L.İ.Brejnevə və Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə səmimi təşəkkürünü bildirir. Plenumda Heydər Əliyev demişdi: "Bu vəzifəyə keçməklə mən üzərimə düşən məsuliyyəti dərk edirəm, qarşımda duran vəzifələrin mürəkkəbliyini və çətinliyini başa düşərək əmin etmək istəyirəm ki, bu böyük və yüksək etimadı doğrultmaq üçün əlimdən gələn bütün imkanlarımdan istifadə edəcəyəm. Bununla mən Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin bütün tərkibinə, MK-nın büro üzvlərinə, Respublikamızın bütün rəhbər partiya, sovet və təsərrüfat işçilərinin köməkliyinə

və müdafiəsinə arxalanıram və ümid edirəm. Hesab edirəm ki, birgə səmimi fəal işimiz bizim gələcək müvəffəqiyyətlərimizin rəhni olacaqdır" (3, 155). Heydər Əliyevin ümidverici və səmimi çıxışı alqışlarla qarşılanmışdı.

Heydər Əliyev Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi seçilən vaxt respublika iqtisadiyyatı dərin iqtisadi böhran mərhələsinə qədəm qoymuşdu. 60-cı illərdə iqtisadiyyatın inkişafında mənfi meyllər özünü göstərirdi. Bir sıra obyektiv və subyektiv səbəblərə görə Azərbaycanın sosial-iqtisadi inkişafdan geridə qalması artıq nəzərə çarpırdı. Bir çox sahələrdə - milli gəlirin inkişaf templərinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə görə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsala tətbiqinə görə, ictimai əməyin məhsuldarlığına görə, ümumittifaq göstəricilərindən geridə qalırdı. 1965-ci ildə 1940-cı ilə nisbətən Azərbaycanda məcmu ictimai məhsul 3,6 dəfə, sənaye məhsullarının həcmi 4 dəfə artmışdı. Lakin Ümumittifaq üzrə bu göstəricilər müvafiq surətdə 5,7 və 7,9 dəfəyə çatırdı. Azərbaycan SSR milli gəlirin həcminə görə ümumittifaq səviyyəsindən 2 dəfə, əsas fondlara görə 1,8 kapital qoyuluşu üzrə 1,7 dəfə geri qalırdı. Neft sənayesi, energetika, qara metallurgiya, kimya və neft kimyası sənayesində işlərin fasiləsiz aparılması pozulur, bir çox sahələrin texniki-iqtisadi göstəriciləri aşağı düşürdü. Kənd təsərrüfatının istehsal səviyyəsi aşağı düşməkdə davam edirdi. Meliorasiya və dəmyə torpaqların suvarılmasında, kənd təsərrüfatı işlərinin mexanikləşdirilməsində nöqsanlar var idi. Kənd təsərrüfatında taxılın, pambığın, tərəvəzin, üzümün, çay yarpağının və başqa bitkilərin məhsuldarlığı aşağı səviyyədə idi (6, 69-70).

Respublikanı belə bir ağır vəziyyətdən qurtarmaq üçün çıxış yolu axtarıb tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsip etibarı ilə yeni konseptual proqram işlənməsi, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri həyata keçirilməsi, təsərrüfatçılıq işində yeni metodlar tətbiq edilməsi və i.a. zəruri vəzifələr qarşıda dururdu. Bu çətin və mürəkkəb işlərin həyata keçirilməsində güclü, bacarıqlı təşkilatçı, cəsarətli bir rəhbərə ehtiyac var idi. Belə bir rəhbər də Heydər Əliyev oldu. Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçiləndən bir ay keçməmiş Azərbaycan KP MK-nın 1969-cu il avqust plenumunda məruzə ilə çıxış edir. Məruzədə respublika iqtisadiyyatında yaranmış acınacaqlı vəziyyət böyük prinsipiallıqla dərindən və hərtərəfli təhlil edilir və xalq təsərrüfatına, mədəni quruculuğa rəhbərlikdə buraxılmış ciddi nöqsanlar və çatışmazlıqlar aşkar edilir. Bütün təşkilatları dövlət və əmək intizamını möhkəmlətməyə, respublikada mənəvi-psixoloji mühiti sağlamlaşdırmağa istiqamətləndirir. Heydər Əliyev 1969-1970-ci illərdə keçirilən Azərbaycan KP MK-nın plenumlarında, fəallar yığıncaqlarında, toplantılarda və başqa yığıncaqlarda məruzə və çıxışlarında ardıcıl olaraq təsərrüfat və mədəni quruculuq məsələlərini təhlil edir və yeni vəzifələr qarşıya qoyurdu. Həmin illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi oldu. Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyevin yorulmaz fəaliyyəti, misilsiz təşəbbüskarlığı və böyük təşkilatçılığı bütün 1970-80-ci illərdə müvəffəqiyyətlərin rəhni oldu. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin respublika partiya təşkilatının XXVIII qurultayına (10-12 mart 1971-ci il) hesabat məruzəsində respublikada vəziyyətin dərin təhlili verilmişdi. Təsərrüfat və mədəni quruculuq təcrübəsində, kadrların seçilib yerləşdirilməsində bir sıra ciddi çatışmazlıqlar və səhvlər meydana çıxarılmışdı. Sonrakı illər və Heydər Əliyev dühasının yorulmaz fəaliyyəti göstərdi ki, 1969-cu ilin 14 iyulunda Heydər Əliyevə göstərilmiş etimad heç də təsadüfi olmamışdı. Azərbaycan xalqının işıqlı gələcəyi məhz bu möhtəşəm tarixlə sıx sürətdə bağlı oldu.

**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev, ümummilli lider, inkişaf strategiyası, dövlətçilik.*

## ƏDƏBİYYAT

*1. "Azərbaycan" qəzeti, 21 may 1998-ci il*

*2. Heydər Əliyev Elektron Sənədlər Toplusu. H.Əliyev Elektron kitablar və məqalələr*

*3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I*

*cild. Bakı, 1997.*

*4. Heydər Əliyev. Respublikanın milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığınacaqda nitqi. "Azərbaycan" qəzeti, 6 iyul 1997-ci il*

*5. Heydər Əliyev. Respublikanın milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığınacaqda nitqi. "Azərbaycan" qəzeti, 6 iyul 1997-ci il*

*6. Hüseynova İ. Müstəqil Azərbaycanın qurucusu. Bakı, 2004.*

**Д.ф.п.и., доцент Арзу Джахид гызы Халилзаде**
**Бакинский Государственный Университет**
**Гейдар Алиев Избрание первым секретарем ЦК КП Азербайджана. Пленум от 14 июля 1969 года.**

**РЕЗЮМЕ**

В статье рассказывается о гении, великом лидере, прекрасном человеке Гейдаре Алиеве, оставившим незаменимый и неизгладимый след в судьбе азербайджанского народа.
Все то, что сделал Гейдар Алиев для Азербайджана после прихода к власти 14 июля 1969 года, составляет основную часть статьи. После назначения Гейдара Алиева первым секретарем Центрального комитета Компартии Азербайджана политика, экономика и общественная жизнь в Азербайджане начала развиваться быстрыми темпами, во всех сферах был достигнут прогресс. Сельское хозяйство, промышленность, транспорт, аграрная жизнь развивались по восходящей линии. Избрание в 1993 году Гейдара Алиева Президентом Азербайджанской Республики стало показателем правильности того выбора, который сделал азербайджанский народ.
Его политическая линия и сегодня успешно претворяется в жизнь.

В статье широко освещается жизнь и деятельность выдающегося гения Гейдара Алиева, получившего имя великого лидера, общенационального лидера за правильные решения во все периоды истории. В этой статье отражена многогранная деятельность Гейдара Алиева, создателя партии "Ени Азербайджан", основателя динамичной стратегии развития Азербайджана.

**Ключевые слова:** *Azerbaijan, Heydar Aliev, general national leader, strategy of development, statehood.*

**PhD Khalilzade Arzu Jahid**
**Associate professor of Baku State University**
**Heydar Aliyev Election as the first secretary of the Central Committee of Communist Party of Azerbaijan. A plenum of July 14, 1969.**

**SUMMARY**

In article it is told about the genius, the great leader, the wonderful person Heydar Aliyev, left an irreplaceable and indelible mark in the fate of the Azerbaijani people. All that was made by Heydar Aliyev for Azerbaijan after coming to power on July 14, 1969 makes the main part of article. After Heydar Aliyev's appointment the first secretary of the Central committee of the Communist Party of Azerbaijan the policy, economy and public life in Azerbaijan began to develop in high gear, in all spheres progress was made. Agriculture, the industry, transport, agrarian life developed in the line of ascent. Election in 1993 of Heydar Aliyev as the President of the Azerbaijan Republic became an indicator of correctness of that choice which made the Azerbaijani people. Its political line is successfully realized also today.

Life and activity of the outstanding genius Heydar Aliyev who received a name of the great leader, national leader for the correct decisions during the entire periods of history is widely covered in article. Many-sided activity of Heydar Aliyev, the founder of New Azerbaijan party, the founder of the dynamic strategy of development for Azerbaijan is reflected in this article.

**Key words:** *Азербайджан, Гейдар Алиев, общенациональный лидер, стратегия развития, государственность*

**UOT 94, 94(470) "191..."**

# DÜNYA SOSİALİZM DÜŞƏRGƏSİNİN İFLASINDA ŞƏRQİ VƏ MƏRKƏZİ AVROPANIN SOSİALİST DÖVLƏTLƏRİNİN YERİ VƏ ROLU HAQQINDA BƏZİ MÜLAHİZƏLƏR

**İBRAHİM ƏLİYEV**
*Tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Turizm və Menecment Universitetinin dosenti*

*E-mail: Ibral5@yahoo.com*

XX əsrin son mərhələsi mövcud dünya durumunda baş verən qlobal dəyişikliklə xarakterizə edilir. "Soyuq müharibənin" başa çatması, SSRİ-nin və onun ətrafında birləşmiş sosializm dünyasının məğlub olaraq iflasa uğraması bu əsrdə baş vermiş nəhəng hadisələrlə müqayisə edilə bilər. Onun nəticəsi öz müqyasına görə heç də Birinci və İkinci dünya müharibələri, müstəmləkə sisteminin dağılması kimi qlobal hadisələrin nəticələrindən az təsirli və az əhəmiyyətli deyildir.

SSRİ-nin və sosializm dünyasının iflasının səbəblərinə münasibətdə birmənalı fikir yoxdur. Bu günə qədər edilmiş tədqiqatlarda bir-birinə daban-dabana zidd olan çoxsaylı fərqli fikirlər deyilmiş, ən müxtəlif versiyalar irəli sürülərək tarixin bu gediş özünəməxsus şəkildə qiymətləndirilmişdir. Şübhəsiz, bu məsələlər daha böyük, fundamental tədqiqatların obyekti olmaqda davam edir. Belə ki, hələ çox məqamlara aydınlıq gətirilməlidir.

XX əsrin axırlarında baş vermiş bu hadisələr və gedən proseslər araşdırılarkən həmişə başlıca diqqət SSRİ-nin problemlərinə, onun iflasının səbəblərinə yönəldilir. Əslində, bu, qanunauyğundur. Sosializm dünyasının başlıca qalası olmaqla bu sistemin taleyi SSRİ ilə daha çox bağlı idi. Bu sistemin həyatında olan dəyişikliklər də əksər məsəslərdə onun uğurları və məğlubiyyətləri ətrafında baş verirdi. Lakin unutmaq olmaz ki, dünya sosializm düşərgəsinin digər dövlətlərində gedən proseslər bu məsələlərdə özünəməxsus təsirə malik olmuşdur.

Bizim haqqında danışmaq və mülahizələrimizi bildirmək istədiyimiz məsələ isə SSRİ ətrafında formalaşmış və dünya sosializm düşərgəsinə daxil olan Şərqi və Mərkəzi Avropanın sosialist dövlətlərinin iflas ərəfəsində vəziyyəti, ümumi proseslərə təsiri, nəticələrdə rolu və sair məsələlərdir.

Dünya sosializminin həyatında baş vermiş bu köklü hadişədən danışarkən onun bütün dövrlərinə qısa bir ekskurs etmək, onun nəzəri əsaslarını və bir sıra konkret məsələlərini bir daha nəzərdən keçirmək yerinə düşərdi.

Sosializmin praktik olaraq tarix səhnəsinə çıxması, həyata tətbiqi XX əsrin əvvəllərinə aiddir. Birinci Dünya müharibəsinin mühüm yekunlarından biri dünyanın iki düşmən düşərgəsinə parçalanması oldu. Rusiyada monarxiyanın devrilməsi, onun ardınca sosialist çevrilişi nəticəsində bolşeviklərin hakimiyyətə gəlməsi ilə yeni bir ictimai-iqtisadi sistemin – sosializm quruluşunun əsası qoyuldu. Həmin vaxtdan bu yeni sistemə qarşı kapitalizm dünyasının başladığı barışmaz müharibə XX əsrin axırlarına qədər dövrün siyasi mühitini səciyyələndirən cəhətlərdən biri olmuşdur.

İlk vaxtlar Sovet Rusiyası, onun ardınca isə ittifaq dövləti kimi formalaşdırılmış Sovet Sosialist Respublikaları İttifaqı – SSRİ dünyanın yeganə sosialist dövləti olaraq qarşısına sosializm quruluşunu bütün dünyaya tətbiq etmək üçün "permanent inqilab" nəzəriyyəsini həyata keçirmək iddiası ilə kapitalizm dünyasına müharibə elan etmiş oldu. Bu nəzəriyyə Marksizmin o ideyasına əsaslanırdı ki, sosializmin mövcudluğunun vacib şərti onun bütün dünyada bərqərar olmasıdır. Bunun üçün isə hər hansı bir ölkədə başlanmış sosialist inqilabının bütün dünyada qələbə ilə başa çatana qədər davam etdirilməsi tələb olunurdu. Bolşeviklər özlərini dünyada Marksizm-Leninizm təliminə söykənən

Sosializm quruculuğu nəzəriyyəsinin yeganə daşıyıcısı və həyata keçirən qüvvə kimi təqdim edirdilər.

Qeyd etmək lazımdır ki, sosializm nəzəriyyəsinin özündə kifayət qədər ziddiyyətli məqamlar vardır ki, onlar da bu sistemin problemlərində öz təsirini göstərmişdir. Lakin bu sosializm nəzəriyyəsinində olan mübahisəli məqamlar başqa bir tədqiqatın mövzusu ola bilər. Bu məqalədə isə məqsəd sonu iflasla bitən bir prosesin bir sıra məsələlərinə diqqət yetirməkdir.

Məlum olduğu kimi sosializm quruluşunun cəlbediciliyi Qərb ölkəıərində çox yüksək olmuşdur. Xüsusən Sovet hakimiyyətinin ilk onilliklərində o, dünya proletariatı, digər yoxsul əhali arasında populyar idi. Eyni zamanda kapitalizm dünyasının yuxarı təbəqəsi yeni ideologiya ilə silahlanmış proletar hərəkatını həyəcanla izləyir, onun qarşısını almaq üçün vasitələr axtarırdı.

Hər şeydən öncə qeyd etmək lazımdır ki, sosializm nəzəriyyəsi kiminsə uydurması deyildi. Ona olan ehtiyac insanlığın ədalətli cəmiyyətə olan ehtiyacından yaranmışdı. O, kapitalizm cəmiyyətinin iqtisadi reallıqlarının müsibətlərindən xilas olmaq, dünyada sosial bərabərliyə nail olmaq üçün aparılan mübarizənin nəticəsi kimi ortaya çıxmışdı.

Sosializm dünyasınnın genişlənməsi prosesi İkinci dünya müharibəsindən sonra yeni vüsət aldı. O, bir ölkə çərçivəsindən çıxaraq yeni-yeni dövlətləri əhatə etdi. Faşizmin məğlub edilməsində həlledici rol oynamış SSRİ müharibənin sonuna qazandığı nüfuza və təsir imkanlarına güvənərək faşizmdən azad edilməsində rol oynamış bir dövlət kimi Şərqi Avropada və Asiyada xeyli sayda dövlətlərdə ictimai-iqtisadi sistemi dəyişməyə və SSRİ modelinə yaxın sosialist hakimiyyətlərinin bərqərar olmasına nail oldu. Polşa, Macarıstan, Bolqarıstan, Yuqoslaviya, Çexoslavakiya, Albaniya, Şərqi Almaniya, Rumıniya müxtəlif adlar altında sosialist dövlətlərinə çevroldilər. Asiyada isə bu proses Çin, Vyetnam, Koreya, Kamboca, Tailand, Laosda sosialisr dövlətləri yaradıldı. Yeni-yeni ölkələrdə sosialist dəyişikliklərinin həyata keçirilməsi və sovet tipli sosializm quruluşunun tətbiqi bir sıra obyektiv və subyektiv amillərə söykənirdi:

- Uzun illər kapitalizm rejimindən əzab çəkən əhali vəziyyətdən çıxış yolunu mövcud bu rejimin ləğvində, xüsusi mülkiyyətə əsaslanan ictimai-iqtisadi sistemdən imtina edilməsində, sosializm qaydalarına və ictimai-iqtisadi münasibətlər sisteminə keçilməsində görürdü. Ölkələrin əhalisinin əksəriyyəti sosializm quruluşuna rəğbətlə yanaşırdılar.

- İkinci dünya müharibəsindən sonra sovet əsgərinin ayağının dəydiyi olkələrdə sovet dövləti nümunəsində sosializm rejimlərinin qurulmasına əlverişli şərait yaranırdı. Faşistlərin ölkədən qovulması, faşizm rejiminə xidmət etmiş şəxslərin cəzalandırılması ölkə kommunistləri üçün geniş imkanlar açırdı. Hakimiyyətə gətirilən bu qüvvələr o qədər də dərinə getmədən sovet modeli əsasında yeni dövlətin əsasını qoyurdular.

- Müzəffər sovet qoşunlarının həmin ölkələrdə olması təkcə daxildəki antikommunist qüvvələrin deyil, həm də xaricdən ola biləcək təzyiqlərin qarşısını alır və hakimiyyətə gətirilmiş kommunist rejiminin bərqərar olması və möhkəmlənməsi üçün əlverişli şərait yaradırdı.

Sosializm təliminin belə sürətlə yayılmasından qorxuya düşən Kapitalizm dünyası hər vasitə ilə bu prosesin qarşısını almağa çalışır, onu hərbi bloklarla əhatə edir, müxtəlif vasitələrlə mübarizə aparırdı. 1947-ci ildə sosializm-kapitalizm qarşıdurması "Soyuq müharibə" adı ilə tanınır və İkinci dünya müharibəsindən XX əsrin axırlarına kimi dünya beynəlxalq durumunun mahiyyətini müəyyənləşdirirdi. [1, s.5-7]

Bir qədər sonra dünya müstəmləkə sisteminin iflasa uğraması sayəsində sosializm təlimi dünyanın yeni dövlətlərini əhatə etməyə başladı. Bir sıra ölkələrdə Sovet dövlətinin dəstəyi ilə sosialist orientasiyalı dövlətlər tarix səhnəsinə çıxdılar. Bu proses sosializmin uğurlu yürüşü kimi qəbul edilir və onun rəqiblərini həyəcanlandırırdı.

1947-ci ildə sosializm düşərgəsi ölkələrini idarə etmək üçün Kommunist və Fəhlə Partiyalarının İnformasiya Bürosu (Kominform) yaradılmışdı. Bu təşkilat faktik olaraq İkinci dünya müharibəsi gedişində ləğv edilmiş Kommunist İnternasionalını əvəz edirdi. [2]

Hələ 1949-cu ildə sosialist dövlətlərinin Qarşılıqlı İqtisadi Yardım Şurası (QİYŞ) yaradılmışdı. [3] 1955-ci ildə isə NATO blokunun əleyhinə sosialist dövlətlərinin hərbi bloku olan

Varşava Müqaviləsi Təşkilatı (VMT) yaradıldı ki, onun tərkibinə SSRİ, Polşa, Almaniya Demokratik Respublikası, Macarıstan, Bolqarıstan, Rumıniya, Çexoslavakiya daxil oldu. [4; 5]. Həmin ölkələrdə hakimiyyətdə əyləşdirilmiş partiyalar və onların liderlərinin başlıca dayağı SSRİ idi. Onun itaətindən ən cüzi yayınmaların qarşısı amansızcasına alındı. Onlarda formalaşdırılmış ictimai-iqtisadi sistem eyni zamanda sovet maddi dəstəyinə söykənirdi. Müstəqil iqtisadi inkişafdan danışmaq çətin idi. Yalnız bu asılılıqdan bir qədər azad olmaq mümkün olan ölkələrdə fərqli inkişafı görmək olurdu.

Sosializmin tarixi sübut etdi ki, Rusya imperiyasında baş vermiş inqilab vəd edilən ədalətli sosial cəmiyyətin yaradılmasına gətirib çıxarmadı. Bütövlükdə sosializm nəzəriyyəsində olan çatışmazlıqlar Rusiyanın özündə də tədricən dərinləşən böhranda müşahidə olunurdu. İkinci dünya müharibəsinin yekununda əlverişli şəraitdən istifadə edən Sovet dövlətinin sosializm yoluna çəkdiyi dövlətlərdə tətbiq edilən yeni ictimai iqtisadi sistemin isə problemləri daha çox idi. Yerli xüsusiyyətləri və inkişaf səviyyəsini nəzərə almadan sosializmin sovet modelinin həmin ölkələrdə tətbiq edilməsi təbii olaraq çoxsaylı problemlər yaradırdı. Bütün bu və digər amillər ikinci dünya müharibəsindən sonra yaradılmış sosialist dövlətlərində eyni sosial-iqtisadi, siyasi-ideoloji standartlar əsasında yaradılmış eyni tipli rejimin tətbiqinə gətirib çıxardı. Onların hər birində ictimai həyatın bütün sahələrində sovet dövlətində olan dəyərlər sistemi bərqərar edilir, mərhələlər təkrar edilirdi. Mülkiyyətin milliləşdirilməsi, kənd təsərrüfatında kollektivəşmə, sənayeləşdirmə, mədəni inqilab, kommunist ideologiyasının yeganə ideologiyaya çevrilməsi, çox cüzi fərqlərlə bu ölkələrdə tətbiq edilirdi. Onların bəzilərində saxlanılan fərqlər isə əksər hallarda formal xarakter daşıyırdı. Məhz bu səbəbdən onların hər birində zaman-zaman kəskin problemlər üzə çıxır, bəzi hallarda ümumxalq münaqişəsinə gətirib çıxarırdı.

. Digər tərəfdən Sovet dövləti üçün xarakterik olan neqativ əlamətlər burada daha güclü şəkildə öz mənfi təsirini göstərirdi. İlk vaxtlar əhalinin əksəriyyəti tərəfindən böyük ümid və rəğbətlə qarşılanmış sosializm rejimi vaxt keçdikcə öz ziddiyyətli və problemli cəhətlərini göstərməyə başladı. Digər tərəfdən yeni quruluşdan gözlədiklərini ala bilməyən əhali üçün sosializm sistemi zaman-zaman öz cazibədarlığını itirdi, mövcud rejimlərə qarşı narazılıq üzə çıxaraq dərinləşirdi.

Avropanın sosialist ölkələrində mövcud ictimai-iqtisadi sistemin uyğun olmayan cəhətlərinin aradan qaldırılmasına cəhdlər olmuşdu. Lakin hər dəfə bu cəhdlər müqavimətə rast gəlmiş, dövlətlər arasında ziddiyyətlərin üzə çıxmasına səbəb olmuşdu.

Bu münaqişələr əksər hallarda boğularaq örtbasdır edilirdi. Onlar hər ölkədə özünəməxsus şəkildə baş verirdi. Onların ən böyükləri isə sosializm dünyasının tarixində dərin iz qoymuşdu.

II dünya müharibəsindən sonra kapializm dünyasının ən böyük itkisi Almaniyanın parçalanması və Şərqi Almaniyada sosialist dövlətinin yaradılması oldu. 1945-ci ildə müharibədən sonra Almaniya 4 işğal zonasına bölünmüşdü. Sovet dövlətinin nəzarətinə Almaniyanın şərq torpaqları daxil idi. 1949-cu ilin axırrında bu ərazidə Almaniya Demokratik Respublikası yaradıldı. İdarəetmə sistemi sovet dövlətinin nümunəsində yenidən quruldu. 1950-ci illər ərzində sənaye müəsssisələrinin çoxu milliləşdirilərək dövlətin əlində cəmləşdi, kənd təsərrüfatı kooperasiyaları yaradılmağa başladı.

Almaniya Demokratik Respublikasının sosialist dövlətləri içərisində unikallığı onda idi ki, bir xalqın, bir ölkənin çərçivəsində bir birinə düşmən olan iki fərqli sistemin yarışı əyani şəkildə nümayiş olunurdu. Artıq 1960-cı illərin əvvəllərində ADR-in Almaniya Federativ Respublikasından əhəmiyyətli dərəcədə geri qalması müşahidə olunurdu. Buna görə də SSRİ-nin və sosializm düşərgəsinin imkanları bu ölkəyə yönəldilsə də, bu geriləməni gizlətmək mümkün deyildi. Sovet qoşununun ADR ərazisində yerləşməsi baş verə biləcək münaqişələrin qarşısında ciddi maneə idi.

1953-cü ildə Almaniya Demokratik Respublikasında əhalinin həyat səviyyəsinin aşağı düşməsi ilə əlaqədar xalq çıxışı baş vermişdi. Onun qarşısı amansızlıqla alındı. Bundan sonra narazı əhali çıxış yolunu müxtəlif yollarla Qərbi Berlinə və Almaniya Federativ Respublikasına qaçmaqda görürdülər. Bu axının qarşısını almaq üçün isə 1961-ci ildə məşhur “Berlin divarı” inşa edilir və

bu sədd sosializmin neqativ reallıqlarının simvoluna çevrilir. [6]

Hələ 1949-50-ci illərdə sosialist Macarıstanın əsası qoyularkən onun siyasi və ictimai-iqtisadi sistemində, ciddi dəyişikliklər edildi. Kənddə kollektivləşmə həyata keçirildi. Kütləvi repressiyalar macar cəmiyyəttini sovet nümunəsində süzgəcdən keçirdi. Müharibədə faşist Almaniyasının müttəfiqi kimi çıxış etdiyindən onun üzərinə qoyulmuş təzminat əhali üzərində ağır bir yük idi. Ölkənin kənd təsərrüfatında və sənayesində uğursuzluqlar, əhalinin maddi rifahının pisləşməsi ciddi narazılıqlara səbəb oldu.

1950-ci illərin ortalarında hakimiyyətə gətirilmiş yeni qüvvələr İmre Nadın rəhbərliyi altında əsaslı islahatların keçirilməsinə cəhd etsə də, onun qarşısı alındı. 1956-cı ilin oktyabrında ölkədə kütləvi antikommunist hərəkatı başlandı. Onların təzyiqi ilə İmre Nad Macarıstanın Baş Naziri təyin edildi. Yeni hökumət kommunistlərin hakimiyyətinə zərbə vuran addımlar həyata keçirməyə başladı. 4 noyabrda Sovet qoşunları Macarıstana daxil olaraq üsyanı boğdu.

Macarıstan Sosialist Fəhlə Partiyası Yanoş Kadarın rəhbərliyi altında 1970-1980-ci illərdə bir sıra liberal islahatlar keçirilmişdi ki, bu da müəyyən qədər rejimin kəskin cəhətlərini yumşaltmağ imkan verirdi. İstehsal vasitələri üzərində xırda xüsusi mülkiyyətə icazə verildi. Sənayenin bir neçə sahəsində Macarıstan sosialist dövlətləri arasında öndə gedirdi. İstehlak bazarı qonşularından fərqli olaraq mal qıtlığından əziyyət çəkmirdi. Bütün müsbət cəhətlərə baxmayaraq sosializm dünyasını bürüyən ictimai-iqtisadi və siyasi böhran Macarıstandan yan keçmədi. Soyuq müharibənin başa çatması, SSRİ-nin onlar üzərində himayəçilik mövqeyindən geri çəkilməsi burada da Qərbə yönümü sürətləndirdi. 1988-ci ildə Macarıstanda MSFP baş katibi seçilmiş Karoy Qros ölkədə bazar iqtisadiyyatının tətbiqi və köhnə münasibətlər sistemindən imtina edilməsi istiqamətində fəal dəyişiklikləri həyata keçirməyə başladı. Nə qədər çətin olsa da, hökumət qeyri-populyar addımlar ataraq iqtisadiyyatda köklü dəyişikliklərə başladı. Siyasi həyatda demokratiyanın və ideoloği plüralizmin genişləndirilməsi istiqamətində islahatlara start verildi. Bununla da Macarıstanda sosializmin təməl prinsiplərindən imtina istiqamətində işlər son nəticədə bu ölkədə siyasi sistemin dəyişməsinə gətirib çıxardı. [7]

Yuqoslaviya sosialist ölkələri içərisində 6 respublikadan ibarət çoxmillətli dövlət idi.

II dünya müharibəsindən sonra regionun digər sosialist dövlətləri kimi Yuqoslaviyada da iqtisadi və siyasi sistem Sovet dövlətinin nümunəsində qurulmuşdu. Lakin onun lideri Broz Titonun İosif Stalinlə fikir ayrılığı və münaqişəsi nəticəsində ölkənin sosialist İnformbürosunu tərk etməsi ilə bütün sahələrdə münaqişənin genişlənməsinə və Yuqoslaviyanın sosializmin nəzərdə tutulmuş ümumi yolundan bir qədər uzaqlaşmasına səbəb oldu. Yuqoslaviya VMT-na da daxil olmaqdan imtina etmiş, bir qədər sonra bloklara qoşulmamaq hərəkatının yaradanlardan biri olmuşdur. Həmin dövrdə Tito rejimi Şərqlə Qərb arasında vasitəçilik funksiyasını yerinə yetirirdi.

Titonun güclü iradəsi ilə Yuqoslaviya həyatın bütün sahələrində xeyli uğurlar əldə edə bilmişdi. Lakin olun ölümündən sonra ölkənin birliyini qoruyub saxlamaq mümkün olmadı. Əslində Yuqoslaviyanın bir çoxmillətli dövlət olaraq parçalanması prosesinin əsası 1974-cü ildə qəbul olunmuş yeni konstitusiyanın respublikalarına sərbəstliyini genişləndirməsi ilə başlandı. Respublikalarda millətçilik ideyaları başlıca ideyaya çevrildi. Belə bir şəraitdə ölkəni parçalanmaya aparan səbəblərdən biri də respublikaların qeyri-bərabər inkişafı idi. [8]

Polşada sosialist hakimiyyəti II dünya müharibəsindən dərhal sonra bərqərar oldu. Onun bir neçə ad altında mərhələlərdən keçməsinə baxmayaraq bu hakimiyyət elə ilk günlərdən kommunistlərə məxsus idi. Düzdür, müharibənin gedişində formal olaraq Londonda yaradılmış Polşa hökuməti qalırdı. Lakin yaranmış siyasi situasiya onların buraya gəlməsinə və hakimiyyətə iddialarını reallaşdırmağa imkan vermədi. Londondakı mühacir Polşa hökuməti 1990-cı ilə qədər mövcud olsa da onların bu olkədə heç bir təsir gücü yox idi. 1952-ci ildə qəbul olunmuş yeni konstitusiya Polşa Xalq Respublikasının adını və siyasi sistemini qəti olaraq təsbit etdi. Ölkədə çoxpartiyalılıq saxlansa da, real hakimiyyət Polşa Birləşmiş Fəhlə Partiyasına məxsus idi. 1956-cı ildə Polşanın Poznan şəhərində rejimə qarşı

fəhlələrin ilk güclü etiraz çıxışı oldu və bu çıxış da amansızlıqla yatırıldı. Belə çıxışlar 1968-ci , 1970-ci, 1976-cı illərdə daha böyük formada baş vermişdi.

Polşada həyatın müxtəlif sahələrində olan problemlər ətrafında qarşıdurmalar 1980-cı illərin əvvəllərindən etibarən daha intensiv xarakter aldı. 1982-ci ildə təsərrüfat subyektlərinin müstəqilliyinin genişləndirilməsi, mərkəzləşdirilmiş planlaşdırma sisteminin dəyişdirilməsi istiqamətində məhdud islahatın keçirilməsinə olunan cəhd əhalinin kütləvi çıxışlar ilə müşaiyyət olunurdu. Hərəkatın önündə rəsmi həmkarlar təşkilatlarına alternativ kimi yaradılmış "Həmrəylik" həmkarlar təşkilatı gedirdi. 1988-ci ildə "Həmrəylik" həmkarlar ittifaqlarının qeydiyyata alınması ilə başlanan kütləvi çıxışlar bir daha gücləndi. Polşa Birləşmiş Fəhlə Partiyasın tərkibində də hərəkarı dəstəkləyən qanad özünü göstərməyə başladı. İqtisadiyyatın idarə edilməsində sərt dövlət planlaşdırılmasının səmərəsizliyi əyani şəkildə nümayiş olunurdu. Ölkənin xaricdən aldığı borc ağır yük kimi ölkə iqtisadiyyatına ağır zərbə vururdu.

1980-ci illərrin axırlarında SSRİ-nin Polşaya təsirinin zəifllədilməsi başlanmış prosesləri gücləndirdi. 1981-ci ildə hakimiyyətə gətirilmiş V.Yaruzelskinin rejimi də bu proseslərin qarşısını almaq iqtidarında deyildi. Hərbçi general Vatslav Yaruzelskinin partiya və dövlət rəhbərliyinə gətirilməsi, onun sərt rejimi də başlanmış proseslərin qarşısını ala bilmədi. Bütün bu dərinləşən hərəkatlar 1980-ci illərin axırlarında Avropanın sosialict dövlətlərində mövcud ictimai-siyasi və iqtisadi sistemin iflası ilə nəticələndi. [9]

1968-ci ildə Çexoslavakiyada başlanmış liberallaşma meylləri siyasi hakimiyyətdə dəyişikliyə gətirib çıxardı. Kommunist partiyasının rəhbərliyinə gələn A.Dubçekin ciddi dəyişikliklər etmək istəyən və ümumi sosializm standarttından bir qədər uzaqlaşmaq cəhdlərinin qarşısı SSRİ və onun Varşava Müqaviləsi Təşkilatı üzrə müttəfiqlərinin hərbi müdaxiləsi ilə alındı. O vaxtdan mövcud rejimin yaratdığı sərt mühitin müəyyənləşdirdiyi çərçivələr dəyişilməz qalırdı. Lakin onun daxilində yetişən böhran günbəgün dərinləşərək sosializm dünyasını zəiflədir, onun gələcək iflasına zəmin hazırlayırdı. Çıxışların boğulmasından sonra bu narazılıq gizli formada qalırdı. Baxmayaraq ki, bu ölkənin iqtisadi inkişaf səviyyəsi nisbətən yüksək idi, bütövlükdə mövcud sosial-iqtisadi vəziyyət Qərb ölkələri ilə müqayisədə geri qalırdı və bu hal narazılıqlara əsas verirdi. Buna görə də bu ölkədə də ciddi islahatların keçirilməsinə ehtiyac günbəgün daha dərindən hiss olunurdu.

Bolqarıstan özünün sosial-iqtisadi və siyasi durumuna görə SSRİ-yə ən yaxın olan dövlət idi. SSRİ üçün xarakterik olan problemlər bu ölkədə tam təkrar olunurdu. Onlarda əlavə olaraq türk-müsəlman əhaliyə münasibətdə yeridilən millətçi siyasət orada vəziyyəti daha da dərinləşdirirdi. 1988-89-cu illərdə ölkədə ictimai-siyasi vəziyyət gərginləşir.

Avropada sosialist dövlətlərindən biri olan Rumıniyada Nikolae Çauşeskinin dövründə gərginlik ağır həddə çatmışdı.

Albaniya sosialist ölkələrindən ən yoxsulu idi. Ənvər Xoca diktaturası şəraitində faktiki olaraq xarici aləmdən tam təcrid olunmuşdu.

Qeyd olunduğu kimi, sosialist dövlətlərinin, eləcə də sosializm düşərgəsinin zəif cəhətləri 1980-ci illərdə SSRİ-nin böhran mərhələsinə daxil olması dövründə özünü daha qabarıq şəkildə göstərməyə başladı. SSRİ-nin zəifləməsi, "soyuq müharibə" cəbhəsində bir birinin ardınca mövqelərini itirməsi sosialist ölkələrinin, xüsusən Şərqi və Mərkəzi Avropa sosialist dövlətlərində uzun illər boyu potensial formada qorunub saxlanmış problemləri böhran məqamında qısa müddət ərzində üzə çıxarmağa başladı. 1980-ci illərdə sosializm olkələri düşərgəsində köklü dəyişikliklər labüd olurdu. Ölkələrin həyatında üst-üstə yığılan çoxsaylı sosial, iqtisadi və siyasi problemlər onlarda köhnə ictimai-iqtisadi və siyasi quruluşdan imtina edilməsinə gətirib çıxardı. Onların hamısında vəziyyət eyni deyildi. Lakin bütövlükdə onlardın hər birində böhran dərinləşirdi. Ümumi bəla isə iqtisadiyyatın idarə edilməsində bürokratik idarəçiliyin hökmranlığı, süni maneələrin qoyulması oldu. Əgər əvvəlki vaxtlarda mülkiyyətin dövlətin əlində toplanması, əmək ehtiyatlarının səfərbər edilməsi müsbət nəticələr verirdisə, zaman keçdikcə bu məhdudiyyətlər ölkələrin inkişafının tormozuna çevrildi.

Düzgün maliyyə siyasəti aparılmadığından

şərqi Avropa sosialist dövlətlərinin xarici borcları ağır yükə çevrilmişdi. 1970-80-ci illərdə onların ümumi borcu 8 milyard dollardan 85 milyard dollara artmışdı ki, onun da ödəniş balansının kəsirini ləğv etmək üçün sosial ödənişlərin azalmasına, investisiyaların ixtisarına getməli olurdular. Bu da ölkələrdə sosial-iqtisadi durumun pisləşməsinə, böhranın dərinləşməsinə səbəb olurdu. Vəziyyəti düzəltmək üçün bu və ya digər ölkədə edilən cəhdlərin uğursuzluğu sosializmin yaşamaq şansını heçə endirirdi. [10, s.153]

Nə qədər ki, SSRİ güclü idi, bu münaqişələrin qarşısı bu və ya digər dərəcədə alınır, onları sosializm dünyası çərçivəsində saxlamaq mümkün olurdu. Lakin yeni şəraitdə Şərqi və Mərkəzi Avropanın sosialist dövlətlərində bərqərar olmuş sərt rejimlər artıq vəziyyətə nəzarət etmək iqtidarında deyildilər. Onların daxilində yetişən narazılıq hərəkatı müxtəlif vaxtlarda bir birinin ardınca yüksəlməyə başlamışdı. Ümumi olan isə o idi ki, SSRİ-nin zəifləməsi şəraitində onlardakı ictimai–siyasi və iqtisadi sistemin eybəcərlikləri qabarıq şəkildə üzə çıxır və həmin rejimlərin süqutunun labüdlüyünü nümayiş etdirirdi.

1989-cu ildə SSRİ-də gedən proseslər, onun açıq-aşkar ictimai həyatın bütün sahələrində əsas prinsiplərindən imtina etməsi, Sovet rəhbərliyinin öz xarici siyasət doktrinalarından geri çəkilməsi həlledici məqamlardan biri idi. Yeni doktrinada Varşava Müqaviləsi Təşkilatınının sosialist dövlətlərini himayə etmək missiyasından imtina edilməsi, onların daxili işlərinə qarışmamaq ideyasını bəyan etməsi həmin dövlətlərdə demokratik hərəkatın yeni dalğasına təkan verirdi. Sovet dövlətinin bu cür mövqeyi sosialist ölkələri daxilində fəaliyyət göstərən antisosialist qüvvələrin və onlara dıəstək verən Qərb dövlətlərinin əl-qolunu açdı. [11. S.379]

Şərqi və Mərkəzi Avropanın sosialist dövlətlərində başlanan demokratik hərəkatla da dramatik məqamlarında Qərbdən gələn dəstəyin rolu çox böyük idi. Başqa cür nəticə ola da bilməzdi. Uzun illər sosializm dünyası ilə üz-üzə duran Qərb əlverişli məqamda öz siyasətini yeridirdi. Qərb dövlətləri çoxdan bu ölkələrdəı gedən prosesləri diqqət mərkəzində saxlayır, ona hər cür dəstək verirdilər. SSRİ-nin onlara himayədarlıq siyasətindən imtina etməsi onlar üçün geniş meydan açdı. [12, s.153] AFR və ABŞ Macarıstanda hökumətə müxalif qüvvələrə böyük maliyyə yardımı göstərirdilər [13, s. 85-86] Onlar Yuqoslaviyada milli zəmində başlamış münaqişələrə dəstək verirdilər. [14, s. 29]

Beləliklə, 1980-ci illərin ikinci yarısında dünya sosialist-kapitalist qarşıdurmasında – soyuq müharibədə təkcə SSRİ uduzmadı. Qeyd olunduğu kimi, bu qarşıdurmada SSRİ-nin yeri və rolu birinci idi, lakin SSRİ-nin iflasından danışarkən onu əhatə edən digər sosialist dövlətlərində və üçüncü dünya ölkələrində gedən prosesləri də nəzərdən qaçırmaq olmaz. “Soyuq müharibədə” SSRİ-nin Qərb dünyasına uduzması və sosializmin daşıyıcısı olaraq iflasa uğraması qlobal bir dünya prosesinin tərkib hissəsi idi.

Avropanın sosialist dövlətlərində 1980-ci illərdə başlanan dəyişmə prosesləri özünü xalq kütlələrinin fəallığının artmasında, mövcud rejimlərə qarşı müqavimətinin atırılmasında müşahidə olunurdu. Nəhayət, 1989-cu ildə SSRİ-də gedən proseslərin yekun fazasına daxil olması məqamında bir-birinin ardınca sosialist dövlətlərində ictimai-iqtisadi sistemin dəyişməsinə aparan inqilablara gətirib çıxardı 1991-ci ildə SSRİ-nin dağılması ilə bu proses başa çatmış oldu.

**Açar sözlər:** *Sosializm birliyi ölkələri; SSRİ-nin iflası; QİYŞ; Varşava Müqaviləsi Təşkilatı; Soyuq müharibə.*

**ƏDƏBİYYAT:**

*1. Ильинский И. М. Холодная война: новый этап // Знание. Понимание. Умение. — 2015. — № 3.*

*2. Информационное бюро коммунистических и рабочих партий https://bigenc.ru/world_history/text/2015983*

*3. Сове́т Экономи́ческой Взаимопо́мощи. https://bigenc.ru/domestic_history/text/3589191 )*

*4. Организа́ция Варша́вского Догово́ра https://bigenc.ru/military_science/text/2683231)*

*5. Известия, 2 июля 1991;*

*6. Германская Демократическая Республика (Deutsche Demokratische Republik), ГДР (DDR). https://www.booksite.ru/fulltext/1/001/008/009/814.htm)*

*7. Венгерская Народная Республика http://his-*

*toric.ru/books/item/f00/s00/z0000020/st013.shtml)*

*8. Югославия, Социалистическая Федеративная Республика Югославия, СФРЮ http://geo.historic.ru/enc/item/f00/s00/m000035/index.shtml)*

*9. По́льская Наро́дная Респу́блика https://pravo.studio/gosudarstva-prava-istoriya/polskaya-narodnaya-respublika-narodnoy-69095.html*

*10. Новейшая история стран Европы и Америки. XX век. Ч.3: 1945–2000. – М., 2004*

*11. Медведев В. А. Распад. Как он назревал в «мировой системе социализма». М., 1994*

*12. Новейшая история стран Европы и Америки. XX век. Ч.3: 1945–2000. – М., 2004*

*13. Усиевич М. А. Десятилетие реформ в Венгрии. 90-е годы XX в. // Новая и Новейшая история. 2002. № 5.*

*14. Тягуненко Л. В. Союзная Республика Югославия на рубеже XXI века // Новая и новейшая история. 2001. № 3.*

## НЕКОТОРЫЕ РАЗМЫШЛЕНИЯ О МЕСТЕ И РОЛИ СОЦИАЛИСТИЧЕСКИХ ГОСУДАРСТВ ВОСТОЧНОЙ И ЦЕНТРАЛЬНОЙ ЕВРОПЫ В КРАХЕ ВСЕМИРНОГО ЛАГЕРЯ СОЦИАЛИЗМА

**Ибрагим Алиев**
**Кандидат исторических наук,**
**Досент Азербайджанского Университета Туризиа и Менесмента.**
**Ibral5@yahoo.com**

### АННОТАЦИЯ:

Одним из глобальных событий, произошедших в мировой истории в конце двадцатого века, стал распад СССР и объединенный вокруг него лагерь мирового социализма. Это событие привело к фундаментальным изменениям в мире и дало толчок к формированию нового мирового порядка. В этой статье рассматриваются место и роль стран Восточной и Центральной Европы в крахе социализма и его последствия с позиции судьбу этих стран. Исходя их результатов исследований можно сказать, что подход к этим вопросам с точки зрения глобальных процессов способствует более реалистичному их пониманию.

**Ключевые слова:** *страны Социалистического Содружества; Распад СССР; Совет Экономической Взаимопомощи; Организация Варшавского Договора; Холодная война*

## SOME REFLECTIONS ON THE PLACE AND ROLE OF THE SOCIALIST STATES OF EASTERN AND CENTRAL EUROPE İN THE COLLAPSE OF THE WORLD CAMP OF SOCIALISM

**Ibrahim Aliyev**
**PhD in History, associate professor of Azerbaijan University of Tourism and Management**
**Ibral5@yahoo.com**

### ABSTRACT:

One of the global events that took place in world history at the end of the twentieth century was the collapse of the USSR and the camp of world socialism united around it. This event led to fundamental changes in the world and gave impetus to the formation of a new world order. This article discusses the place and role of the countries of Eastern and Central Europe in the collapse of socialism and its consequences from the perspective of the fate of these countries. Based on their research results, it can be said that an approach to these issues from the point of view of global processes contributes to a more realistic understanding of them.

**Key words:** *countries of the Socialist Commonwealth; The collapse of the USSR; Council for Mutual Economic Assistance; Warsaw Pact Organization; Cold war*

UOT 94 (479.24);

# ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ VASİTƏÇİ DÖVLƏTLƏRİN ROLU VƏ FƏALİYYƏTİNƏ DAİR

**ƏDALƏT MUSTAFAYEV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu “Qarabağ tarixi” şöbəsinin böyük elmi işçisi, Tarix üzrə fəlsəfə doktoru*

*E-mail: edalet__mustafayev@mail.ru*

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin davam etməsi, status-kvonun dəyişməsinə imkan verilməməsinin səbəbləri ictimaiyyətdə sual doğuran məsələlərdən biri kimi daima diqqət mərkəzində olmuşdur. 1994-cü il iyulun 5-də Avstriya milli şurasının prezidenti Hayns Fişer Azərbaycan nümayəndə heyətini qəbul edərkən, sabiq SSRİ ərazisində İttifaqı bərpa etmək istəyən qüvvələrin mövcudluğunu da narahatlıqla qeyd etdi. Eyni zamanda iyulun 8-dək davam edən ATƏM-in parlamentlərarası assambleyasının 3-cü illik iclası Dağlıq Qarabağ münaqişəsində Minsk qrupunun səmərəli fəaliyyəti yüksək qiymətləndirilir və münaqişənin danışıqlar yolu ilə, ATƏM-in prinsiplərinə müvafiq qaydada həll olunması planlarını və cəhdlərini müdafiə edir [9].

1994-cü il dekabrın 5-6-da Budapeşt Zirvə toplantısı ATƏM tarixində təşkilat daxilində struktur dəyişiklikləri edilib, onun daha da gücləndirilməsi məsələsinə toxunuldu. Zirvə toplantısında bəzi məsələlərlə yanaşı “Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi” barədə qərar qəbul olundu. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmini məqsədilə ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə, həmçinin Minsk Konfransına iki həmsədrin təyin edilməsi məsələsi də öz əksini tapdı. ATƏM-in Minsk Konfransında həmsədrlik Rusiya və İsveçə tapşırıldı. Azərbaycan Prezidenti Heydər Əliyev çıxışında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün nəzərdə tutulmuş məsələlərin həyata keçirilməsi üçün dövlət başçılarına müraciət edərək ATƏM üzvlərini bu işdə yaxından kömək etməyə çağırdı [13,s347].

Qeyd etmək lazımdır ki, növbəti addım Lissabon sammitində dünyanın əksər dövlətlərinin iştirakı ilə qəbul edilən sənəd Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda aparılacaq növbəti danışıqların ümumi istiqamətini aydınlaşdırsa da, bu münaqişədən geosiyasi məqsədlər naminə yararlanan dövlətlər, ilk növbədə, Respublikanın yerüstü və yeraltı sərvətləri uğrunda kəskin mübarizə aparırlar. Rusiya, ABŞ, Fransa prezidentləri 1997-ci il iyunun 23-də Denverdə Dağlıq Qarabağ konfliktinin davam etməsindən, onun Qafqaz regionunda iqtisadi, sosial inkişafı və əmin-amanlığı təhlükə altına aldığından narahatlıq ifadə edir, münaqişənin tez bir zamanda həlli üçün mühüm addımlar atılmasını vacib sayırdılar [13,s354]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ciddi müzakirələr apararaq “Rusiyadan Ermənistana qanunsuz yolla silah verilməsi məsələsinin müzakirəsinə geniş yer ayıran prezidentlər bu məsələnin daha ətraflı araşdırılması məqsədilə üçtərəfli komissiya yaradılmasını qərara aldılar”[2]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində status-kvonun qalmasının səbəbi kimi ABŞ dövlət katibinin birinci müavini C. Telbot 1998-ci il martın 31-də “Amerikanın Cənubi Qafqaz siyasəti” mövzusunda çıxış edərkən hesab edirdi ki, “...tərəflərin razılığa gələ bilmədiyi Dağlıq Qarabağın statusu məsələsidir” [11 ]. Tədqiqatlar onu deməyə əsas verir ki, C.Telbotun fikirləri həqiqəti əks etdirmir. Regionu təsir dairəsində saxlamağa çalışan, geosiyasi maraqları öz xeyrinə dəyişmək istəyən Rusiya Federasiyasının

Ermənistan kartından yararlanmağını, birgə hərbi əməkdaşlığını göstərməsi, digər həmsədrlərin xristian təəssübkeşliyinə sadiq qalmalarını vurğulaması daha məqsədəuyğun olardı. "Xalq qəzeti"nin 4 fevral 1998-ci il tarixli nömrəsində Rusiya-Ermənistan hərbi əməkdaşlığına aid, Rusiya Federasiyası Müdafiə Nazirliyinin gündəlik "Zakafkaziyanın hərbi gündəliyi" qəzetinin 3 dekabr 1997-ci il tarixli nömrəsində Ermənistan Müdafiə Nazirliyinin "Armyanskiy voyn" qəzetinin müxbiri Ara Tatevosyanın "Ermənistan-Rusiya hərbi əməkdaşlığı inkişafını davam etdirir" adlı məqaləsi verilmişdir. ...1995-ci ildə Ermənistan və Rusiya prezidentləri "Rusiya hərbi bazalarının Ermənistanda yerləşdirilməsi barədə müqavilə imzalamışlar. Rusiya Federasiyası müdafiə nazirinin Yerevan səfəri zamanı bu ölkələr arasında hərbi əməkdaşlıq məsələlərinə dair imzalanmış 18 sənədə daha 12 protokol və saziş əldə edilmişdir [10]. Qəbul edilmiş sənədlər Ermənistan-Rusiya hərbi əməkdaşlığının bütün sahələrini, "Zaqafqaziyada hərbi koalisiya qruplaşmalarının yaradılması", "Operativ və döyüş hazırlığı sahəsində tədbirlərin birgə planlaşdırılması" kimi "vacib sənədlərin" qəbul edilməsi diqqəti cəlb edir. Rusiyanın müdafiə naziri İ.Sergeyev iyul ayında Yerevana səfəri zamanı bildirmişdir ki, Ermənistan-Rusiya hərbi əməkdaşlığı bu ölkələr arasında mövcud münasibətlərin səviyyəsinə tam uyğundur və geniş inkişaf perspektivləri vardır [5]. Ermənistanda "ordunun gücləndirilməsinin" tam nəzarətdə saxlanmasına baxmayaraq siyasi sabitliyin tədricən pozulması prezidentin 1998-ci il fevralın 3-də könüllü istefasına gətirib çıxardı [8]. Fevralın 5-də ATƏT-in Minsk qrupunda Türkiyənin xüsusi səfiri Əli Hikmət Alpı qəbul edən Heydər Əliyev Minsk Qrupunda Türkiyənin xüsusi səlahiyyətli səfirinin olmasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində müstəsna əhəmiyyəti ola biləcəyindən söz açmışdır [3].

1998-ci il aprelin 28-də MDB-nin Moskva zirvə görüşündə iştirak etmiş dövlət başçısının Ermənistan prezidenti Robert Köçaryanla, daha sonra Rusiya Xarici işlər naziri Yevgeni Primakovla təkbətək görüşündə Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə olunmuşdur. Daha sonra, "Azərbaycan Respublikası və Ermənistan Respublikası Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, siyasi vasitələrlə, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqları davam etdirmək yolu ilə aradan qaldırılmasına sadiq qaldıqlarını təsdiqləyir və 1994-cü ilin mayında əldə olunmuş atəşkəs rejiminə bundan sonra da dönmədən əməl etməyə hazır olduqlarını bildirirlər..." [4].

Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Rusiya tərəfinin fəallığı, tərəflər arasında dialoqun təşkili 1998-ci il avqustunda yenidən canlanmağa başladı. Azərbaycan hökumətinin ən prioritet məsələlərindən olan Dağlıq Qarabağ münaqişəsinin həlli ön planda idi. 1998-ci il avqustun 9-da Rusiya Xarici İşlər naziri Primakovun erməni həmkarı Oskanyanla görüşündə Azərbaycan Respublikası ilə ümumi çərçivədə Dağlıq Qarabağ məsələsinin həlli təklifi barədə söhbətlər apardılar. Ondan 20 gün sonra Rusiya nümayəndəsi Pastuxov Azərbaycana səfərində H.Əliyevlə görüşərək "ümumi dövlət" formulunu müzakirə etmişdir[13,s.437]. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Beynəlxalq dövlətlərin 1998-ci ilə kimi Dağlıq Qarabağla bağlı "sülhməramlı siyasət"ində münaqişənin həlli barədə bəzi yeni təklifləri olsa da, sonrakı görüş və təkliflər bir-birinə oxşar, şablon variant kimi bir-birini təkrarlayan, sonu görünməyən görüşlərdən ibarət olmuşdur.

1998-ci idə noyabrın 8-12-də ATƏT-in Minsk qrupunun nümayəndələri Bakı, Yerevan və Stepanakertə səfəri zamanı Dağlıq Qarabağ siyasi münaqişəsinin tənzimlənməsində ümumi prinsiplərin (ümumi dövlət konsepsiyası əsasında) təqdim etdilər. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin "həlli məqsədilə" "həmsədrlərin 1998-ci il noyabrın 9-da verdikləri yeni təkliflərdən danışan prezident Heydər Əliyev bildirdi ki, biz həmin təklifləri çox diqqətlə öyrənmişik. Noyabrın 9-da axşam Minsk qrupunun həmsədrlərinə bəyanat vermişik ki, bu təkliflər Azərbaycan tərəfindən qəbul edilə bilməz" [6].

1999-cu il martın 23-də Rusiyanın Xarici İşlər nazirinin müavini L.V.Draçevski Rusiyanın Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin Moskvada görüşməsi fikrini H.Əliyevə çatdırmaq üçün Bakıya gəlmişdi. Draçevski həmin təklifi 26-28-i martda Yerevana gedərək Köçəryana bildirdi. Rusiyanın bu təklifinin nəticəsi kimi aprelin 1-də H.Əliyev

və R.Köçəryanın Moskvada prezident kimi ilk görüşləri baş tutdu. Həmin vaxt Moskvada MDB-nin iclası keçirilirdi. Prezidentlərin görüşündən sonra Rusiyanın Xarici İşlər naziri İvanovun da söhbətdə iştirak etdiyi bildirilir. Bununla da, iki dövlət başçısının görüşlər silsiləsinin əsası qoyuldu [13,s.437].

ABŞ-ın "İrs" fondunun aparıcı araşdırmaçısı Ariyel Koenin Qafqaz münaqişələri ilə bağlı olan məqaləsi də, məhz bu baxımdan diqqət çəkir: "Moskvaya anlatmaq zəruridir ki, Cənubi Qafqazda separatçıları bundan sonra da dəstəkləmək Rusiyaya amerikan yardımının sonu deməkdir...Moskva abxaz separatçılarını və Qarabağ ermənilərini rəsmi Bakı və Tbilisiyə qarşı mübarizədə dəstəkləyir. Rusiyada çoxları belə hesab edirlər ki, Qafqazda qeyri-sabitlik bölgədə Kremlin təsirinin artmasına kömək edir. Moskva artıq Ermənistan və Abxaziyaya 1 milyard dollarlıq silah vermişdir" [1].

Cənubi Qafqazda siyasi vəziyyətin dəyişməməsi, münaqişədə status-kvonun qalması məqsədilə 2008-ci il noyabrın 2-də Rusiya Prezidentinin dəvətilə Moskvada Azərbaycan Respublikası və Ermənistan Respublikası prezidentlərinin görüşü keçirilmişdir. ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında siyasi vasitələrlə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi vəziyyəti və perspektivlərinin müzakirəsi ətrafında dialoq baş tutdu. "Moskva bəyannaməsi" də 2007-ci il noyabrın 27-də qəbul edilmiş "Madrid prinsipləri" davam etmiş və nəticədə razılaşdırılmışdır ki, sülhün tənzimlənməsinə nail olmaq üçün onun bütün aspekt və mərhələlərində beynəlxalq təminatın hüquqi öhdəliklərinə əməl etmək lazımdır [14].

2010-cu il yanvarın 25-də Rusiyanın Soçi şəhərində "Krasnaya polyana" qəbul evində Azərbaycan, Ermənistan və Rusiya prezidentləri - İlham Əliyev, Dmitri Medvedyev və Serj Sarkisyanın üçtərəfli görüşdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli perspektivləri müzakirə olunub. Daha sonra, bu dövlətlərin Xarici İşlər nazirləri Elmar Məmmədyarov, Sergey Lavrov və Eduard Nalbandyanın müzakirəsi zamanı Prezidentlərin üçtərəfli görüşünə dair yekun bəyanatla Rusiyanın Xarici İşlər Naziri S. Lavrov çıxış edib. Rusiya Xarici İşlər Nazirinin sözlərinə görə, görüşdə əvvəlki formatla aparılan danışıqlar davam etdirilib: "Danışıqlar ATƏT-in Minsk Qrupu həmsədrləri olan ABŞ, Rusiya və Fransanın münaqişənin bütün maraqlı tərəflərini razı salacaq dinc vasitələrlə həlli yollarının axtarılmasına dair səylərini möhkəmləndirib. "Nevsm.am" saytı isə xəbər verir ki, Ermənistan prezidenti Serj Sarkisyan Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqmətində səylərini yüksək qiymətləndirib. "Mediamaks" agentliyinin məlumatına görə, bu ölkənin Müdafiə Naziri Seyran Ohanyan tələbələr qarşısında çıxışı zamanı aparılan danışıqlarda Qarabağın statusu ilə yanaşı, regionun Ermənistanla əlaqəsini təmin edəcək quru əlaqəsi və Dağlıq Qarabağ beynəlxalq təhlükəsizlik zəmanətinin verilməsi kimi məsələlərin də müzakirə edildiyini bildirib [7].

Rusiya tərəfindən Ermənistan Respublikasına müxtəlif vaxtlarda– 1996-ci ildə bir milyard və 2008-ci ildə isə 800 mln. dollarlıq döyüş texnikasının, silah-sursatın verilməsi deyilənləri təsdiq edir[16]. Azərbaycanın xarici siyasət doktrinasını, konsepsiyasını bütün regional dövlətlərlə balanslaşdırılmış siyasət yeritdiyi halda Rusiya Federasiyasının atdığı neqativ addımlar işğalçıya açıq hərbi dəstəyi nümayiş etdirir.

Qeyd etmək lazımdır ki, geosiyasi baxımdan böyük dövlətlərin region uğrunda apardıqları mübarizədə, supergüclər "xristian təəssübkeşliyini" unutmurlar. Bəzən belə təəssürat yaranır ki, ABŞ münaqişənin "ədalətli" həllinə çalışır. -"Azadlığa Dəstək Aktı"na məhdudiyyətlər qoyan 907-ci əlavə"nin uzun müddət qüvvədə qalması təsadüfi hal olmayıb ABŞ-ın maraqlarına xidmət edən məsələdir. Bütün görülən tədbirlərə baxmayaraq, bu sərt qadağanı özündə ehtiva edən maddənin tətbiqi 2002-ci ilə kimi davam etdi.

Son illər geosiyasi anlamda Rusiya Federasiyası ilə Türkiyə Respublikasının yaxınlaşmasında pərdəarxası məqamların olması regionda yeni güclərin formalaşması anlamına gəlir. Rusiya analitikləri belə hesab edirlər ki, Dağlıq Qarabağın güc yolu ilə azad edilməsi riskli məsələ olub neqativ hallara gətirib çıxara bilər. Qeyd etmək lazımdır ki, bununla da, Rusiya analitikləri Dağlıq Qarabağın geosiasi problem olmasını və açıq surətdə Rusiyanın dövlət maraqlarını önə çəkirlər.

Hazırda Rusiya Federasiyası, Ermənistan-Azərbaycan münaqişəsində "balansı" qorumağa çalışır və Azərbaycanın hərbi qüdrətinin artması

müqabilində Ermənistanla əlavə hərbi müqavilələr bağlayıraq hərbi-texniki əməkdaşlığı gücləndirir. 2010-cu il avqust ayında Rusiya prezidenti Dmitriy Medvedyevin Ermənistana rəsmi səfəri zamanı, bir sıra sənədlərlə yanaşı, 1995-ci ildə Ermənistanla hərbi sahədə bağlanmış müqaviləyə 5 saylı protokol əlavə edərək 102-ci hərbi bazanın səlahiyyətlərini artırmış oldu. Yəni, bu zamana kimi 102-ci hərbi baza yalnız Ermənistanın Türkiyə və İranla sərhədinə nəzarət edirdisə, bu əlavədən sonra hərbi bazanın səlahiyyətini genişləndirərək bütün Ermənistan ərazisində nəzarət etməyi qanunla təsbit etdi. Bağlanan hərbi müqavilələrə əlavələr Ermənistan ərazisində olan hərbi qüvvələrin 102-ci hərbi bazaya tabe olmasını bir daha sübut edir" [15].

SSRİ-nin süqutundan sonra Dağlıq Qarabağ problemini ölkənin daxili problemindən beynəlxalq problemə çevrilərək qismən 3 mərhələyə bölən müəlliflərdə vardır. Birinci, keçmiş SSR-də Yeltsin-Nazarbayev təşəbbüs qrupunun fəaliyyəti, ikinci, qlobal beynəlxalq institutların-ATƏT-in və sonra BMT-nin fəaliyyəti, üçüncü, qlobal beynəlxalq təşkilatların, yeni formalaşmış MDB institutlarının və onların arxasında dayanan Rusiyanın və eləcə də regional güclərin fəaliyyəti[12]. Məlum "təşəbbüsçülərin" fəaliyyəti erməniləri işğaldan "çəkindirə bilməmişdir". Hazırda Dağlıq Qarabağ konfliktinin nizamlanması prosesi ATƏT-in Minsk qrupunun 2007-ci il noyabrın 29-da Madriddə əsası qoyulan "Madrid prinsipləri" adını almış əsaslarla davam etdirilir. Bütün bunlara baxmayaraq, işğalçı Ermənistan Rusiya Federasiyasının hərbi və siyasi gücü tərəfindən idarə olunaraq qorunur.

Avstriya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Karl Ollenqer Qarabağ ətrafında hazırkı gərginliyi nəzərə alaraq bildirirdi: "Nə mümkündürsə etmək lazımdır ki, münaqişə alovlanmasın". Qeyd etmək lazımdır ki, işğal olunmuş ərazilərin azad olunması hüququ Azərbaycanın əlindədir və heç bir beynəlxalq qanun buna məhdudiyyət qoymamalıdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində əsas təsir gücünə malik olan Rusiya Federasiyası regional və geosiyasi baxımdan praqmatik olmayıb, imperiya maraqlarından irəli gələn siyasət yürüdürdü. Məhz bu baxımdan, bəzi rus müəllifləri müasir Rusiya Federasiyasının xarici siyasət strategiyasının istiqamətlərində üç mərhələni önə çəkirlər: birinci mərhələ, superdövlət statusunun saxlanması, siyasi təsir gücünün digər dövlətlər üzərində artırılmasından; ikinci mərhələ, regional hökmranlıq saxlanmaqla, lokal siyasi güclə kifayətlənməkdən. üçüncü mərhələ isə, praqmatik xarici siyasət yeritməklə müxtəlif sülhməramlı bloklarda təmsil olunmaqdan, qonşu dövlətlərlə normal əlaqələrin qurulması baxımından beynəlxalq qanunlara riayət olunmasından ibarət olduğu bildirilir [17].

Araşdırmalar göstərir ki, status-kvonun saxlanmasında ən maraqlı tərəf kimi Rusiya federasiyası regional maraqlarda Cənubi Qafqazda geosiyasi prosesləri öz xeyrinə həll etməyə çalışaraq MDB-nin xarici sərhədlərinin birgə mühafizəsi, vahid hava hücumundan müdafiə (HHM) sistemi, Kollektiv Təhlükəsizlik haqqında müqaviləyə dəyişikliklər və düzəlişlər barədə sazişləri qəbul etdirməyə çalışır, digər həmsədr dövlətlərdə xristian təəssübkeşliyi ilə yanaşı öz maraqlarını həyata keçirmək üçün bütün mümkün vasitələrdən istifadə edərək xalqların sülhə hazırlanması konsepsiyasından çıxış edərək məhz işğalçı dövlətin siyasətini müdafiə edirlər.

**Açar sözlər:** *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, vasitəçi dövlətlər, Rusiya Federasiyası, ATƏT-in Minsk qrupu, status-kvo*

**İstifadə edilmiş ədəbiyyat və mənbələrin siyahısı**

*1. Ariyel Koen: ABŞ-ın "İrs" fondunun aparıcı araşdırmaçısı. Qafqaz qarşımdadır Qafqazda münaqişələr ABŞ-ın mənafeyinə təhlükədir // "Xalq" qəz. 9 dekabr 1998, № 331*

*2. Azərbaycan nefti dünya siyasətində // Tərt.: İlham Əliyev, Akif Muradverdiyev. Bakı: Azərbaycan nəşriyyatı, 1997. 327 s.*

*3. Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunda Türkiyənin xüsusi səfirini qəbul etmişdir. "Xalq" qəz., 6 fevral 1998*

*4. Azərbaycan Prezidenti Heydər Əliyev MDB-nin Moskva zirvə görüşündə iştirak etmişdir // "Xalq" qəz., 1 may 1998, № 114*

*5. Fərhadova G,. T. Qdlyanın vasitəçilik missiyası Ermənistanın marağına xidmət edir // "Xalq" qəz., 16 oktyabr 1998*

*6. Heydər Əliyev: "Ümumi dövlət" prinsipi Azərbaycan dövlətinin, xalqının ümumi mənafelərinə ziddir // " Xalq" qəz., 27 noyabr*

*1998, № 320*

*7. "Həftə içi" qəz., 26 yanvar 2010, № 014*

*8. Qalib A., Ermənistan prezidenti L. Ter-Petrosyan istefa verdi // "Xalq" qəz., 5 fevral 1998*

*9. Qurbanov A. Vyanada da Qarabağdan danışdılar". // "Azərbaycan" qəz., 13 iyul 1994, № 134*

*10. Mirzəbəyli İ. Yerevanın militarist siyasəti Ermənistan-Azərbaycan münaqişəsini lokallıqdan çıxara bilər // "Xalq" qəz., 4 fevral 1998*

*11. Nəsibli R. Qarabağa dair sülh danışıqları tezliklə bərpa olunmalıdır. C. Telbottun fikri belədir // "Xalq" qəz., 4 aprel 1998*

*12. E. Актуальные проблемы международных отношений. Т. 1-3. М., 2000-2002*

*13. Казимиров В. Н Мир Караваху: Посредничество России в урегулировании Нагорно- Карабахского конфликта. М: Издателстово «Международные отношения», 2009. 455 с.*

*14. Маендорфская декларация 2 ноября 2008 года и ситуация вокруг Нагорного Карабаха. М.: Изд. «Русская панорама», 2002*

*15. Минасян С. Россия в карабахском конфликте: ни войны, ни мира // http://noev-kovcheg.ru/mag/2011-05/2432*

*16. Сергей Марков: «Роставки оружия Армении создают баланс» // Газ. «ЕХО» № 14 (1975) 24 января 2009*

*17. Соловьев А.И. Политология: Политическая теория, политические технологии: Учебник для студентов вузов / А.И. Соловьев. М.: Аспект Пресс, 2006. 559 с.18*

**Адалет Мустафаев**
**Старший научный сотрудник отдела истории Карабаха Института истории им. А.Бакиханова НАНА, к.и.н.**

**Роль и деятельность стран-посредников в армяно-азербайджанском нагорно-карабахском конфликте**

**РЕЗЮМЕ**

В статье анализируется деятельность Минской группы ОБСЕ по урегулированию армяно-азербайджанского нагорно-карабахского конфликта. Из исследования видно, что в ходе деятельности Минской группы не было достигнуто никакого прогресса в урегулировании конфликта, с другой стороны, статус-кво остался неизменным в результате неконструктивной позиции агрессора Армении, который опирался на военную и материальную мощь этих государств. Хронология событий показывает, что деятельность стран Минской группы ОБСЕ негативно сказывается на оккупации азербайджанских территорий.

**Ключевые слова:** *Армяно-азербайджанский нагорно-карабахский конфликт, страны-посредники, Российская Федерация, Минская группа ОБСЕ, статус-кво*

**Adalat Mustafayev**
**Senior Research at the Department of History of Karabakh, Institute of History named after A.Bakikhanov of ANAS, PhD**

**The role and activities of the mediating countries in the Armenia-Azerbaijan Nagorno-Karabakh conflict**

**SUMMARY**

The article analyzed the activities of the OSCE Minsk Group for the settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict. It is clear from the research that, no progress has been achieved in the settlement of the conflict during the activities of the Minsk Group, on the other hand, the status quo remained unchanged as a result of the non-constructive position of the aggressor Armenia, which relied on the military and material strength of these states. The chronology of events shows that, the activity of the OSCE Minsk Group countries negatively affects the occupation of the Azerbaijani territories.

**Keywords:** *Armenia-Azerbaijan Nagorno-Karabakh conflict, mediating states, the Russian Federation, the OSCE Minsk Group, the status quo*

UOT: 94(479.24)

# 1930-CU İL NUXA-ZAQATALA ÜSYANININ YATIRILMASINDA DÖVLƏT SİYASİ İDARƏSİNİN HİSSƏLƏRİNİN İŞTİRAKI BARƏDƏ

**ƏNVƏR MƏMMƏDOV**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: mammadovanvar1969@mail.ru*

Kolxoz quruculuğu istiqamətində həyata keçirilmiş tədbirlər zamanı yerlərdə sovet hakimiyyət orqanları tərəfindən yol verilmiş zorakılıqlara qarşı baş vermiş 1930-cu il Nuxa-Zaqatala üsyanının yatırılmasına Qızıl Ordu ilə yanaşı Dövlət Siyasi İdarəsinin hissələri də cəlb olunmuşdu. Təsadüfi deyildi ki, üsyanın yatırılmasından sonra onun qalıqlarının aradan qaldırılması məqsədilə həyata keçirilmiş tədbirlərdə xüsusi fəallıq göstərdiyinə görə Dövlət Siyasi İdarəsinin hissələrinin şəxsi heyətinin bir qrupu Azərbaycan İnqilab Komitəsi tərəfindən müxtəlif dərəcəli mükafatlarla təltif olunmuşdu.

Nuxa-Zaqatala qəzasında üsyanın başlanması barədə xəbər alınan kimi ilk olaraq aprelin 12-də Gəncədən Dövlət Siyasi İdarəsinin 24-cü alayın 100 nəfərlik iki bölüyü Kravsovun başçılığı altında Nuxaya göndərilir. Həmin gün təxminən saat 16 radələrində Cəfəabada çatan bu dəstə Nuxadan göndərilmiş iki kommunist vasitəsilə şəhərdə üsyanın başlanması, eləcə də üsyançılar tərəfindən Nuxa Partiya Komitəsinin binasının tutulması barədə məlumat alır. Nuxa Qəza İnqilab Komitəsinin sədri tərəfindən xüsusi tapşırıqla göndərilmiş bu nümayəndələr həmin hissələrə qəza rəhbərliyinin onlara yardım göstərilməsi barədəki xahişini çatdırırlar. Nuxanın bir kilometrliyində isə şəhərdən qaça bilmiş, şəhər poçtunun rəisi Çudov və Dövlət Siyasi İdarəsinin Nuxa şöbəsinin müvəkkilinin də olduğu 5 nəfərlik qrup tərəfindən şəhərdə baş verənlər – islah evində saxlanılan 200-ə kimi dustağın buraxılması, onların bir hissəsinin üsyançılara qoşulması, şəhərdə olan 1000 nəfərə kimi üsyançının 70-80 faizinin silahlı olması barədə xəbər alınır [4, 32 arxa-33].

Şəhərin yuxarı hissəsini ələ keçirən üsyançılar islah evində saxlanılan üç yüzə yaxın dustağı (bəzi məlumatlarda dustaqların sayının 183 nəfər olduğu göstərilir – Ə.M.) azad edir [7, 840], şəhərdəki bir sıra dövlət idarələrini tutaraq sovet-partiya işçilərinin sığındığı poçtu mühasirəyə almışdılar. Dövlət Siyasi İdarəsinin 24-cü alayın Kravsovun başçılığı altında Nuxaya göndərilmiş 100 nəfərlik iki bölüyü poçtu mühasirəyə almış üsyançıları geri oturdub poçta daxil ola bilsələr də özləri burada mühasirə vəziyyətinə düşürlər. Şəhər poçtunu mühasirəyə almış 200 nəfərlik üsyançı dəstə ilə bura sığınmış Dövlət Siyasi İdarəsinin 24-cü alayının 100 nəfərlik qruplaşması arasında gedən döyüş zamanı aprelin 13-ü günortaya olan məlumatda hökumət qüvvələrindən bir nəfərin öldürüldüyü, 4 nəfərin yaralandığı bildirilirdi [7, 18]. Bundan sonra Bakıdan Dövlət Siyasi idarəsinin daha iki bölüyü də təcili olaraq üsyan rayonuna göndərilir [7, 127].

Bu arada Baş Göynük üsyançılarının digər bir dəstəsi Qax istiqamətində hücuma keçir [7, 840]. Kürmükçayda mövqe tutmuş Dövlət Siyasi İdarəsi Nuxa-Zaqatala şöbəsinin sədr köməkçisi Arininin dəstəsinə üsyançıların Göynükdən Qax istiqamətindəki hücumunu dəf etmək tapşırılmışdı. Aprelin 14-də Baş Göynük üsyançılarının Qaxingiloyu tutmaq üçün etdiyi ilk cəhdin qarşısı Arininin dəstəsi tərəfindən alınmışdısa da, artıq həmin gün axşam saat 19-da olmuş ikinci hücum zamanı onlar kəndi ələ keçirə bilmişdilər [7, 358 arxa]. Bu döyüşlərdə Arininin tabeliyindəki qüvvələrdən dörd nəfər, o cümlədən Dövlət Siyasi İdarəsi dairə şöbəsinin müvəkkili Sergeyev öldürülmüşdü. Üsyançılar isə İlisu və Sarıbaş kəndləri istiqamətində sıxışdırılmışdılar [7, 108]. Qaxda vəziyyətin təhlükəli həddə çatdığını görən Qəza İnqilab Komitəsi oraya sərəncamında olan kom-

munarlar və Dövlət Siyasi İdarəsinin qüvvələrindən ibarət otuz nəfərlik əlavə dəstə göndərir. Lakin yerli üsyançıların Baş Göynükdən gəlmiş dəstə ilə birləşmiş qüvvələri şəhərdəki hərbi hissə və yerli kommunarlarla apardığı döyüşlərdən sonra rayonda hakimiyyəti ələ ala bilirlər [7, 53, 81].

Aprelin 14-də hökumət qüvvələrinin Nuxa şəhərinə başlanan ümumi hücum zamanı Dövlət Siyasi İdarəsinin hissələrinə şəhərdəki ayrı-ayrı üsyan mərkəzlərini ləğv etmək həvalə olunmuşdu. Buna uyğun olaraq Azərbaycan Dövlət Siyasi İdarəsinin 24-cü alayın bir pulemyot və bir atıcı olmaqla iki bölükdən ibarət dəstəyə şəhərin baş küçəsi olan Lenin küçəsi boyunca hücuma keçmək əmri verilir. Alayın bölük komandiri Movsesovun başçılığı altındakı bu dəstəyə bələdçiliyi poçtun rəisi Çudov edirdi. Movsesov sərəncamındakı qüvvələrdən atıcı bölüyü sol istiqamətdə göndərməklə onlara bilavasitə hücumu həyata keçirəcək birinci dəstənin sol cinahını qorumağı tapşırır, özü isə yerdə qalan qüvvələrlə birinci dəstənin sağ cinahında mövqe tutur. Sursat ehtiyatı olan maşınların mühafizəsi 4 əsgərə tapşırılır. Şəhərin mərkəzinə doğru hücumu həyata keçirən birinci dəstə cəmi 200 metr irəlilədikdən sonra bütün istiqamətlərdən evlərdə və bağlarda mövqe tutan üsyançıların güclü atəşi ilə qarşılaşır. Belə olduqda Movsesov əsas qüvvələrə üsyançılar tərəfindən xüsusilə ciddi müqavimətin göstərildiyi poçtun binasını tutmaq əmrini verir. Lakin hökumət qüvvələrinin bu istiqamətdəki həmlələrinin qarşısı üsyanşılar tərəfindən dəf edilir. Qranat və qumbaraların köməkliyi ilə poçtda mövqe tutmuş üsyançı dəstəni geri oturtmağa müvəffəq olan hökumət qüvvələri poçtun binasını ələ keçirə bilsələr də məscidin həyətindən onlara qarşı hərəkətə başlayan çoxsaylı üsyançıların qarşısında duruş gətirə bilməyərək geriyə çəkilərək poçtun binasına sığınırlar. Burada onların ətraf aləmlə əlaqəsi kəsilərək mühasirə vəziyyətində qalırlar. Lakin axşama doğru rabitənin bərpa edilməsi ilə poçtdakı hökumət qüvvələrinin komandiri Movsesov M.C.Bağırovla əlaqə saxlayaraq Nuxa şəhərindəki vəziyyətlə bağlı məlumat verir. Bağırov son patrona kimi müdafiə olunmaq barədə göstəriş verməklə axşama kimi Bakıdan köməyin gələcəyini vəd edir.

Poçtun binasında mühasirədə qalmış Movsesova yardıma göndərilmiş hissələrin şəhərə daxil olması ilə onlar üsyançıların ciddi müqavimətilə qarşılaşırdılar. 24-cü alayın əsgərlərindən ibarət Lyubnevin başçılığı altındakı dəstə üsyançıların bütün ciddi-cəhdlərinə rəğmən mühasirədə olan Movsesovun dəstəsi ilə birləşə bilir. Bu alayın qalan hissəsi isə bir pulemyotla poçtdan 2,5 kilometr məsafədə şəhərin şimal-şərqində döyüş mövqeyini tutur [4, 33]. Aprelin 14-ü olmuş hücum zamanı şəhərə girə bilmiş Sommerin başçılığı altındakı dəstə də üsyançıların mühasirəsindən çıxaraq Dövlət Siyasi İdarəsinin 24-cü alayının poçtda mühasirədə olan dəstəsi ilə birləşə bilir. Nəticədə köməyin gəlməsindən sonra şəhərdəki qırmızı hissələrin ümumi sayı 200-ə çatır ki, bu hissələr poçtu mühasirə edən üsyançı dəstəni geri oturdaraq axşama doğru şəhərin cənub hissəsinə, poçt və Qəza İcraiyyə Komitəsinin binasına nəzarəti ələ keçirə bilir [7, 67, 85].

Aprelin 14-ü gün ərzində üsyançılarla baş vermiş müxtəlif toqquşmalarda Dövlət Siyasi İdarəsinin qüvvələrindən 4 nəfər öldürülmüş, 12 nəfər yaralanmışdı. Həmin gün onların Nuxa şəhərini tutmaq üçün etdiyi bütün cəhdlərin qarşısı üsyançılar tərəfindən qətiyyətlə alınmışdı [7, 359].

Şəhər uğrunda ən şiddətli döyüşlər aprelin 15-i baş verir. Şimal və qərb istiqamətlərdən Nuxaya hücum edən Sommerin 1-ci rotası şəhərin qərbində, Qoxmuq xəttindəki yüksəkliklərə çıxa bilirlər. Lisinovun başçılığı altındakı 2-ci rota Oxud kəndi istiqamətdən hərəkət edərək Nuxanın şərq və şimal-şərq hissəsindəki yüksəklikləri tutur. Nuxanın cənubundan, Nuxa-Yevlax şossesi boyu hücuma keçən 3-cü rota şəhərə cənubdan birləşən Qışlaq kəndini ələ keçirir [9, 90-94].

Əlavə itki və dağıntılara yol vermək istəməyən üsyançıların geri çəkilməsindən sonra şəhər hökumət qüvvələri tərəfindən tutulur. Nuxadakı üsyanın yatırılmasına şəxsən rəhbərlik etmiş L. Beriya və Zaqafqaziya Dövlət Siyasi İdarəsinin nümayəndəsi Qulbisin 1930-cu il aprelin 15-də SSRİ Dövlət Siyasi İdarəsinə göndərdikləri məlumatda deyilirdi: “Səhra dəstələri, bizim qüvvələrimiz (Dövlət Siyasi İdarəsinin qüvvələri - Ə.M.) və göndərilmiş əlavə qüvvələrin birgə səyi ilə Nuxa tutulmuşdur. Şəhərin alınması zamanı bizim hissələrimizdən 12 nəfər öldürülmüş, 25 nəfər yaralanmış, üsyançılardan isə 80 nəfər öldürülmüş, 40 nəfər yaralanmış, 400-ü əsir alınmışdır (onlardan 100-ü üsyan fəalı) [2, 252; 7, 52 arxa, 359 arxa, 841].

Nuxada asayişi qorumaq üçün şəhərdə

Azərbaycan Dövlət Siyasi İdarəsinin 100 əsgərindən ibarət iki bölüyü saxlanmaqla qalan hissələr Zaqatala rayonundakı həyəcanların yatırılmasına səfərbər olunur.

Zaqatala rayonundakı üsyanın yatırılması əməliyyatına bölgədəki üsyan mərkəzi olan Baş Göynüyün və başgöynüklü üsyançıların nəzarətində olan Qaxingiloyun tutulmasından sonra başlamaq qərara alınır. Qaxa hücum etmiş Baş Göynükdəki dəstənin ləğv edilməsi, bununla da Zaqatala ilə əlaqənin bərpa edilməsi məqsədilə artıq üsyan yatırılmış Nuxa şəhərindəki hökumət qüvvələri aprelin 16-ı səhər tezdən iki istiqamətdə hərəkətə başlayırlar. Onlardan 4-cü Qafqaz atıcı alayının üç atıcı və bir pulemyot rotalarından ibarət Patseviçin başçılığı altındakı birinci dəstəyə Göynüyü tutmaq və oradakı üsyançı dəstəni ləğv etmək tapşırığı verilmişdi. Azərbaycan Dövlət Siyasi İdarəsinin iki rotası və bir zirehli maşından ibarət ikinci dəstə isə Nuxa-Zaqatala şossesi ilə hərəkət edərək Qaxingiloydakı üsyançı dəstəni ləğv etməli, bundan sonra isə Zaqatala ilə əlaqəni bərpa etməli idi. Baş Zəyzid və Aşağı Zəyzid kəndlərindəki üsyançı dəstələrin ləğv edilməsi əmr olunmuş bir zirehli maşına malik Qafqaz eskadronu, bundan sonra əvvəlcə Göynüyə, oradan da Qaxingiloya hərəkət etməli idi. Göynük və Qaxingiloyun tutulması əməliyyatına rəhbərlik Nuxada olan 2-ci diviziya komandiri Tuxareli və Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri Bağırova həvalə olunmuşdu [7, 65-66, 91].

Tərəflər arasında bir-neçə saat davam etmiş döyüşdən sonra hökumət qüvvələri zirehli maşının köməkliyi ilə üsyançıları geri oturdaraq həmin günü saat 16-da Qaxingiloyu ələ keçirə bilir. Kəndin hökumət qüvvələri tərəfindən tutulması ilə buradakı 200 nəfərlik üsyançı dəstə ələ keçirdikləri 4 avtomaşında Zaqatala istiqamətində geri çəkilir [7, 108; 4, 34 arxa].

Yaranmış təhlükəli vəziyyət hakimiyyət orqanlarından qəti tədbirlərin görülməsini tələb edirdi. Qəza rəhbərliyi və bölgədəki hərbi hissələrin komandanlığı əlavə kömək gələnə kimi sərəncamında olan qüvvələrlə ilk olaraq Zaqataladakı üsyan mərkəzini yatırmağı qərara alır. Aprelin 16-da Lepinovun dəstəsi qısa döyüşdən sonra Əliabadda üsyançıların müqavimətini qıraraq kəndi tutur. Bu döyüşdə üsyançılardan dörd nəfər öldürülür.

Hərbi komandanlıq Balakən və Qabaqçöl kəndlərinin tutulması əməliyyatına başlamazdan əvvəl üsyançıların müqavimətinin qırıldığı ərazilərdə təhlükəsizliyi təmin etmək üçün əlavə tədbirlər görür, ayrı-ayrı məntəqələrdə Dövlət Siyasi İdarəsinin hissələri yerləşdirilir. Bu məqsədlə 24-cü alayın bir bölüyü zirehli maşınla Zaqatala şəhərində, dördüncü Qafqaz piyada alayının ikinci bölüyü bir pulemyotla Tala kəndində, birinci bölüyü isə iki pulemyotla Əliabad kəndində, həmin alayın birinci rotasının bir bölüyü üç pulemyotla Qaxingiloyda, Qafqaz eskadronu Almalı kəndində yerləşdirilir. Dördüncü alayın Baş Göynük və Aşağı Göynükdəki hissələri Zaqatalaya gətirilərək 24-cü alayın qərargah rəisi Ferapontov şəhərin komendantı təyin olunur [2, 209-210].

Üsyanın sonuncu mərkəzi olan Qabaqçölün tutulması üçün Dövlət Siyasi İdarəsinin hissələri cəlb olunmuşdu. Balakən və Qabaqçölün tutulması məqsədilə hələ aprelin 16-da Dövlət Siysi İdarəsinin 8-ci alayından 265 nəfərlik dəstə ayrılmışdı. Bu birləşmə iki hissəyə ayrılmaqla birinci dəstə cənub-qərb istiqamətdən Balakənə, ikinci dəstə isə şimaldan Laqodexiyə hücum edərək yolda qarşılarına çıxan üsyançı dəstələri dağıdaraq Qabaqçöldə birləşməli idi [4, 7].

Aprelin 19-da Nuxa-Zaqatala rayonuna əlavə olaraq 64-cü süvari alay, birinci Azərbaycan alayının bir rotası, ikinci Azərbaycan alayının iki rotası və Azərbaycan diviziyasının əlahiddə Qafqaz eskadronu gətirilir [7, 865]. Kəndə gələn şosse yollarını nəzarətə almaq, Kaxetiya istiqamətdən yolları bağlamaq və Qabaqçölü hər tərəfdən mühasirədə saxlamaq üçün Napareulidən doqquzuncu alayın bir rotası Laqodexiyə gətirilərək Sığnaq ilə Zaqatala qəzalarının sərhəddində yerləşdirilir. Tiflisdən əlavə olaraq səkkizinci alayın daha 80 əsgəri də bu bölgəyə gətirilir. Qabaqçöl əməliyyatına rəhbərlik Sumbatov, Lordkipanidze və Lepindən ibarət üçlüyə həvalə olunur [7, 84]. Balakən-Qabaqçöl əməliyyatına bilavasitə rəhbərlik etməli olan Azərbaycan Dövlət Siyasi İdarəsinin rəisi Mircəfər Bağırov və diviziya komandiri Tuxareli aprelin 17-i Zaqatalaya gəlirlər [2, 209].

Sonuncu üsyan mərkəzinin tutulmasından sonra Nuxa-Zaqatala qəzasının kəndlərində cəza dəstələrinin iştirakı ilə təmizləmə əməliyyatı keçirilir. Üsyanın yatırılmasından dərhal sonra həm üsyan iştirakçıları, həm də üsyan zamanı səbatsızlıq

göstərmiş partiya-sovet işçilərinin üzə çıxarılaraq cəzalandırılması üçün bu bölgəyə Azərbaycan SSR Ali Məhkəməsinin Fövqəladə Sessiyası göndərilir [7, 851].

Mayın sonunda Nuxa-Zaqatala qəzasında banditizmin ləğv edilməsi və əhalidə olan silahların toplanması əməliyyatına rəhbərlik etmək məqsədilə Azərbaycan Dövlət Siyasi İdarəsinin rəis müavini Aqrbanın sədrliyi ilə diviziya komandiri Frinovski və Azərbaycan Dövlət Siyasi İdarəsi Nuxa-Zaqatala şöbəsinin rəisi Şabanbəyovdan ibarət siyasi üçlük təşkil olunur. Üçlüyə xüsusilə təhlükəli "bandit"lərin və qolçomaqların qohumlarına qarşı cəza tədbirləri görmək tapşırığı verilmişdi. Azərbaycan Dövlət Siyasi İdarəsinə Nuxa şəhərini əksinqilabi elementlərdən təmizləmək və fəaliyyətdə olan "bandit" qruplarını parçalamaq işini sürətləndirmək tapşırılır. Azərbaycan Dövlət Siyasi İdarəsinin qəzadakı 8-ci və 24-cü alayları Dövlət Siyasi İdarəsinin Leninqrad və Belarusiya məktəblərinin hissələri ilə əvəz olunur [6, 304].

Üsyanın əsasən yatırılmasından sonra pərakəndə şəkildə fəaliyyət göstərən üsyançı dəstələrə qarşı mübarizə hökumət qüvvələrinə daha çox itkilər hesabına başa gəlirdi. Cənubi Qafqazda banditizmin ləğvinə dair iyunun 18-ə olan operativ məlumata görə həmin vaxta kimi hökumət qüvvələrinin verdiyi itkilər (bura aprel üsyanı zamanı verdiyi itkilər də daxildir - Ə.M.) aşağıdakı kimi göstərilirdi: Ümumilikdə hökumət qüvvələrinin verdiyi itkilərin (73 nəfər öldürülmüş, 70 nəfər yaralanmış, 18 nəfər əsir alınmışdı) xeyli hissəsi Dövlət Siyasi İdarəsinin hissələrinin payına düşürdü. Belə ki, üsyançı qüvvələrə qarşı əməliyyatlarda Dövlət Siyasi İdarəsinin hissələrindən 21 nəfər öldürülmüş, 44 nəfər yaralanmış, 2 nəfər əsir alınmışdı [6, 311-312, 343].

Üsyanın yatırılmaSından Sonra onun Qalıqlarının tamamilə aradan qaldırılması məqsədi ilə Dövlət Siyasi İdarəsinin hissələrinin cəlb olunması ilə bölgədə qəfil təmizləmə (hərbi-çekist – Ə.M.) əməliyyatı keçirilmişdi. Bu məqsədlə 1931-ci ilin yanvarın əvvəllərindən etibarən Zaqatala qəzasına əlavə hərbi hissələr gətirilir. Onlardan 466 nəfərlik əsgər heyəti Balakəndə, bir batalyon, bir Qafqaz piyada atıcı alayı Qabaqçöldə, Car-Muxax məntəqəsində Cənubi Qafqaz Dövlət Siyasi İdarəsinin 189 əsgəri, Danaçıda üçüncü gürcü atıcı alayının üçüncü batalyonu, Varxiyanda bu alayın ikinci batalyonu, Qaxinqiloyda Cənubi Qafqaz Dövlət Siyasi İdarəsinin 305 əsgəri və Qafqaz piyada alayının bir batalyonu, Əliabadda Cənubi Qafqaz Dövlət Siyasi İdarəsinin 222 əsgəri, Zaqatala şəhərində isə Dövlət Siyasi İdarəsinin əsgəri hissələri yerləşdirilmişdi. Bu hissələrə hərbi-çekist əməliyyatının gedişi zamanı yerləşdiyi ərazilərdə baş verə biləcək iğtişaşı dərhal, yerindəcə boğmaq vəzifəsi tapşırılmışdı. Bundan əlavə Zaqatalada yerləşmiş əməliyyata rəhbərlik edəcək dairə fövqəladə üçlüyünün sərəncamına 60 piyada, 42 süvari əsgər, bir zirehli və bir yük maşını ehtiyat qüvvəsi kimi verilir.

Nuxa və Zaqatala qəzasında 1930-cu il üsyanının yatırılmasındakı "xüsusi xidmətləri"nə görə Dövlət Siyasi İdarəsinin və Qızıl Ordu hissələrinin şəxsi heyətinin bir qrupu Azərbaycan İnqilab Komitəsi tərəfindən müxtəlif dərəcəli mükafatlarla təltif olunur. ZSFSR Dövlət Siyasi İdarəsinin sədri Beriya ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinə göndərdiyi 1931-ci il 27 aprel tarixli məktubunda 1930 və 1931-ci illərdə üsyançı qüvvələrə qarşı apardığı əməliyyatlarda 21 nəfərin öldürüldüyü, 30 nəfərin yaralandığı Dövlət Siyasi İdarəsinin 8-ci, eləcə də 24-cü alaylarının "əksinqilabi qüvvələrə qarşı mübarizədəki xidmətlərinə" görə "Qırmızı bayraq" ordeni ilə təltif edilməsi məsələsinə baxmağı xahiş edirdi [4, 2].

Özünün 29 iyun 1931-ci il tarixli iclasında bu müraciətə baxan ZSFSR Mərkəzi İcraiyyə Komitəsi Dövlət Siyasi İdarəsinin 8-ci və 24-cü alayların "Qırmızı bayraq" ordeni ilə təltif edilməsi barədə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin qarşısında məsələ qaldırmağı qərara alır [4, 1, 20].

SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin katibliyi tərəfindən 1931-ci il 19 sentyabr tarixli qərarla ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin Dövlət Siyasi İdarəsinin 8-ci və 24-cü alayların "Qırmızı bayraq" ordeni ilə təltif edilməsi barədəki təqdimatı təsdiqə göndərilir [4, 41-42].

Bundan əlavə 1930-cu ilin fevralın 2-dən noyabrın 20-ə kimi üsyançı qüvvələrə qarşı apardığı əməliyyatlara görə Dövlət Siyasi İdarəsinin 24-cü alayın şəxsi heyətindən 80 nəfərin müxtəlif mükafatlarla təltif olunması barədə ZSFSR Dövlət Siyasi İdarəsi qarşısında məsələ qaldırılmışdı. Onlardan 2 nəfərin "Qırmızı bayraq" ordeni (alay komandirinin köməkçisi Vasiliy Kravsov və atıcı Pavel Yemelyanov), 2 nəfərin "Mauzer" döyüş silahı (alay komandiri Sergey Qreçkin və bölük komandiri

Aleksandr Movsesov), 4 nəfərin "Karonina" döyüş tapançası (alay komandirinin köməkçiləri Semyon Feropontov, Fyodor Tverentinov, Georgiy Prokuşev və alayın siyasi hissə rəisi Konstantin Vişnevskiy), 3 nəfərin gümüş saat (bölük komandirləri Nikolay Buxonin və İvan Suxmanov, atıcı Yeqor Vorobyov), 13 nəfərin metal saat, 56 nəfərin isə müxtəlif məbləğdə pul və digər mükafatlarla təltif olunması nəzərdə tutulmuşdu [4, 37-37 arxa].

Nəticə olaraq qeyd etmək olar ki, Azərbaycanın şimal-qərb bölgəsində baş vermiş 1930-cu il üsyanının yatırılmasına cəlb olunmuş Dövlət Siyasi İdarəsinin hissələri tərəfindən həyəcanın yatırılması və ondan sonra həyata keçirilmiş cəza tədbirlərinin bölgə üçün son dərəcə acı nəticələri olmuşdur. Üsyanda iştirak etmiş əhalinin cəzalandırılması məqsədi ilə geniş ordu hissələrinin cəlb olunmasıyla həyata keçirilmiş qəfil təmizləmə, hərbi-çekist əməliyyatı zamanı heç kimə günahsızlığını sübut etmək üçün imkan verilməmiş, fəal iştirakçılar istintaq aparılmadan güllələnmiş, həbs olunanların əmlakı müsadirə olunmuşdu.

**Açar sözlər:** *Nuxa-Zaqatala qəzası, üsyançılar, kollektivləşmə, Dövlət Siyasi İdarəsi, hərbi hissələr, əməliyyat.*

### İstifadə olunmuş mənbə və ədəbiyyat


1. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi (ARPİİSSA), f.1, s.86, iş 24*
2. *ARPİİSSA, f. 1, siy. 231, iş 25*
3. *ARPİİSSA, f. 1, siy. 231, iş 79*
4. *Rusiya Federasiyasının Dövlət Arxivi (RFDA), f. 3316, siy. 64, iş 1134*
5. *Rusiya Dövlət Hərbi Arxivi (RDHA), f. 25873, siy. 1, iş 93*
6. *RDHA, f. 25873, siy. 1, iş 1205*
7. *RDHA, f. 25873, siy. 1, iş 1206*
8. *Gürcüsta Mərkəzi Tarix Arxivi (GMTA), f. 1864, siy. 2, iş 884*
9. *Чекисты Азербайджана (Документы, очерки, рассказы). Баку, Азернешр, 1981*


### Об участии частей Главного Политического Управления в подавлении Нухинско-Закатальского восстания 1930 г.

### РЕЗЮМЕ


Восстание 1930 года, охватившее большинство селений Нухинско-Закатальского уезда и явившееся по сути, народным движением, было подавлено в результате совместной военной операции, проведенной погранвойсками, частями Главного Политического Управления и отрядами милиции. В течение восстания между повстанцами и регулярными правительственными силами произошли три серьезных боя - во время взятия Нухи, у селений Тала и Габагчель.

В представленной статье на основе сведений документов, обнаруженных в азербайджанских и российских архивах и впервые введенных в научный оборот, исследуется проблема участия частей Главного Политического Управления как в подавлении восстания, так и в последующих жестких карательных действиях против местного населения.


***Ключевые слова:*** *Нуха-Закатальский уезд, повстанцы, коллективизация, Государственное Политическое Управление, воинские части, операция.*

### On the participation of parts of the Main Political Directorate in the suppression of the Nukha-Zakatala uprising of 1930

### SUMMARY


The uprising of 1930, which engulfed most of the villages of the Nukha-Zakatala district and was essentially a popular movement, was suppressed as a result of a joint military operation carried out by the border troops, units of the Main Political Directorate and police units. During the uprising, there were three serious battles between the rebels and regular government forces - during the capture of Nukha, near the villages of Tala and Gabagchel.

In the presented article, on the basis of information documents found in the Azerbaijani and Russian archives and first introduced into scientific circulation, the problem of the participation of parts of the Main Political Directorate is investigated both in suppressing the uprising and in subsequent tough punitive actions against the local population.


**Key words:** *Nukha-Zakatala district, rebels, collectivization, State Political Directorate, military units, operation.*

UOT 94(470) "191..."

# VƏTƏNDAŞ MÜHARİBƏSİ DÖVRÜNDƏ (1917-1922) RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİ

**ƏZİM HEYDƏROV**
*Bakı Dövlət Universiteti,*
*Qafqaz xalqları tarixi kafedrası,*
*doktorant*

*E-mail: azimheydar@gmail.com*

1917-ci ilin fevralında inqilab nəticəsində Rusiya İmperiyasında 300 illik hökmranlıq etmiş Romanovlar sülələsi devrildi. Cənubi Qafqazın idarəsini nəzarətdə saxlamaq üçün Müvəqqəti hökumət tərəfindən Xüsusi Komitə yaratdı. Lakin Kerenskinin başçılıq etdiyi müvəqqəti hökumət uzun müddət hakimiyyətdə qala bilmədiyindən bu təşəbbüsün də ömrü qısa oldu. V.Leninin rəhbərliyi ilə bolşeviklər partiyası 1917-ci ilin oktyabrında çevriliş edərək hakimiyyəti ələ keçirdi. Cənubi Qafqazdan Rusiyanın Müəssislər Məclisinə seçilən deputatlar hakimiyyət dəyişikliyi nəticəsində Petroqrada və Moskvaya gedə bilmədiklərinə görə 1918-ci il fevralın 14-də Tiflisdə Zaqafqaziyanın ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini, başqa sözlə Zaqafqaziya Parlamentini yaratdılar.

1917-ci ilin oktyabr çevrilişindən sonra baş verən vətəndaş müharibəsi dövründə həm ağlar, həm də qırmızılar Cənubi Qafqazı öz nəzarətlərində saxlamaqda israrlı idilər. 1918-ci ilin mayın ayında RSFSR-in xarici işlər üzrə komissarının müavini Çeçerin Almaniyanın diplomatik nümayəndəsi Mirbaxa göndərdiyi notalarda Cənubi Qafqazın Rusiyadan ayrılmasını və müstəqil Zaqafqaziyanı tanımayacaqlarını [8, s. 285], Osmanlı imperiyası ilə danışıqlar masasında oturan tərəflərin Cənubi Qafqazın geniş xalq kütlələrini təmsil etmədiyini bildirərək, gedən müzakirələrdə Rusiyanın da iştirakını tələb edir [8, s. 302-303]. 1918-ci ilin martında Azərbaycan ərazisində Bakı xalq komissarları sovetinin sədri, RSFSR-in Qafqaz üzrə fövqəladə komissarı S. Şaumyanın dəstəyi ilə daşnaklar tərəfindən törədilən qırğınlar çar Rusiyası dövründə təməli qoyulmuş tandemin davamı idi. 1919-cu il aprelin 25-də Tiflisdə Qafqaz konfransı işə başladı. Konfransda Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrinin iştirakı ilə yeni yaranmış dövlətlərin bir çox problemləri siyasi, iqtisadi və maliyyə məsələləri, eləcə də sərhəd problemləri müzakirə edildi. Bu zaman məlum oldu ki, region ölkələri arasında ərazi-sərhəd məsələləri ilə bağlı kəskin ziddiyyətlər mövcuddur. Dağıstanın Ağ qvardiyaçı general Denikinin könüllü ordusu tərəfindən işğalı konfransı öz işini dayandırmağa məcbur etdi. İmperiyanın sərhədlərini bərpa etmək iddiasında olan Denikin"Vahid və bölünməz Rusiya" şüarı ilə 1919-cu ilin yazında Dağıstan Dağlılar Respublikasına soxuldu və Dərbəndi işğal etdi. Əvvəl verdiyi bəyanatlarda da Çar generalının Azərbaycana qarşı təcavüzkar, qərəzli niyyəti olduğu məlum idi. Bu məsələ ilə bağlı respublika parlamentinin çağırılmış fövqəladə iclasında qəbul olunmuş qərara görə sərhədlərin təhlükəsizliyini təmin etmək üçün Dövlət Müdafiə Komitəsi yaradılaraq bütün hakimiyyət səlahiyyəti ona verildi.

Denikinin "könüllülər ordusu" 1919-cu ilin əvvəllərində Şimali Qafqazda əhəmiyyətli strateji üstünlüyü ələ keçirərək, Dondan Vladiqafqazadək rus ordu komandanlığını elan etdi. 1919-cu il fevralın 11-də general Denikinin qoşunları Vladiqafqazı və Qroznunu tutdu. Martın əvvəllərində isə Simali Qafqaz Dağlı Respublikasının ərazisini işğala başlayaraq, bu respublikanın hökumətindən hakimiyyətdən imtina etməsini tələb etdi. 1919-cu ilin əvvəllərindən başlayaraq Denikin qoşunlarının Şimali Qafqaza etdikləri basqınlar Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyinin ciddi narahatlığına səbəb olmuşdu. Cümhuriyyətin Nazirlər Şurasının sədri və xarici işlər naziri F.X. Xoyskinin 1919-cu il martın 6-da müttəfiqlər qoşunlarının Bakıdakı baş komandanı general Tomsona göndərdiyi notada xahiş edilirdi ki, bütün Qafqazı bürüyə

biləcək yanğının qarşısını almaq məqsədilə Denikin ordusunun Qafqaz Dağlı respublikasına qarşı törətdikləri təcavüz dərhal dayandırılsın və denikinin könüllü ordusunun Dağlı respublikasının hüdudlarından çıxarılması üçün qəti tədbirlərin görülsün. Lakin F. Xoyskinin diplomatik səylərinə baxmayaraq hökumətin təqdim etdiyi notaya pozitiv reaksiya göstərilmədi, Denikin ordusunun Dağlı Respublikasının ərazisindən çıxarılması istiqamətində Tomsonun başçılıq etdiyi Bakıda yerləşən Antanta qoşunlarının baş komandanlığı tərəfindən hər hansı bir tədbir görülmədi.

Niyyətlərini beynəlmiləlçilik ideyaları ilə maskalamış bolşeviklərdən fərqli olan ağların Qafqaz cəbhəsinə başçılıq edən, Rus Ordusunun Ali Baş Komandanının müavini Denikin 1919-cu il dekabrın 12-də Parisə göndərdiyi teleqrafda "Ali komandanlığın əsas vəzifəsinin Rusiya imperiyasının ərazi bütövlüyünün bərpası olduğunu, təsadüfən meydana çıxmış dövlət birləşmələrinin İmperiyanın sərvətlərini israf etməyə imkan verilməyəcəyini, xarici şirkətlərin Ali Baş Komandanlıq xaricində başqa qurumlarla bağladıqları müqavilələrin hüquqi əsasının olmadığını" bildirirdi [4, v. 18]. Denikin Azərbaycan və Ermənistan arasındakı müharibə vəziyyətində tərəf kimi ikincini seçmişdi və bu da təbii idi. Belə ki, o, Azərbaycan ordusunda qulluq edən rus zabitlərinə Azərbaycanın Ermənistana qarşı düşmənçiliyini əsas gətirərək dərhal istefa vermələrini əmr edirdi [4, v. 23]. Paris Sülh Konfransına gedəcək Azərbaycan nümayəndə heyətinin rəhbəri Ə.M.Topçubaşov Denikin hökumətinin nümayəndəsi Sazonovla görüşündə, onu "vahid və bölünməz Rusiya" uğrunda mübarizə ideyasından çəkindirməyə çalışırdı.

Azərbaycanın beynəlxalq aləmdə tanınmasına baxmayaraq, ölkənin şimal sərhədlərindəki vəziyyət gərgin olaraq qalırdı. 1919-cu il iyunun 27-də Azərbaycan və Gürcüstan Denikin təhdidinə qarşı sərhədlərin birgə müdafiəsi və hərbi əməkdaşlıq haqqında müqavilə imzalandı. Ermənistan isə Rusiya əleyhinə hər hansı bir ittifaqa qoşulmaqdan imtina etdi [5, s. 107]. 1920-ci il yanvarında Sovet Rusiyasının xarici işlər komissarı G.Çiçerin ADR-in xarici işlər naziri F. Xoyskiyə göndərdiyi notada Azərbaycan hökumətini Denikinə qarşı mübarizədə qeyri səmimilikdə ittiham edirək Azərbaycan hökumətinə göndərdiyi notada Denikin əleyhinə hərbi ittifaq bağlamağı təklif edirdi [10, v. 77]. Sovet hökumətinin əsas məqsədinin yeni yaranmış respublikanı Denikinlə qeyri-bərabər hərbi münaqişəyə cəlb edərək zəiflədib, sonra isə onun istiqlaliyyətinə son qoymaq olduğunu Azərbaycan rəhbərliyi yaxşı başa düşürdü. Buna görə də AXC-nin xarici işlər naziri F.Xoyski Denikinlə Sovet hökuməti arasındakı mübarizənin rus xalqının daxili işi olması və Azərbaycan hökumətinin Rusiyanın daxili işinə qarışmaq niyyətində olmadığını cavab notasında bildirirdi [4, v. 77]. Yəni göndərdiyi notalarda Çiçerin Azərbaycanın müstəqilliyinə münasibətini bildirməyərək Azərbaycan hökumətini Denikinə qarşı mübarizə aparmaqdan yayınmaqda ittiham edirdi.

Bir başqa tərəfdən Brest-Litovsk müqaviləsindən kənara çıxılaraq Bakının Osmanlı ordusu tərəfindən tutulması sovet rusiyası ilə Almaniya arasında diplomatik böhrana gətirmişdi [86, s. 496].

Sovet Rusiyası vətəndaş müharibəsində əsas rəqiblərini məğlub etdikdən sonra onun ilk işi 1917-ci il çevrilişi nəticəsində faktiki olaraq nəzarətindən çıxmış keçmiş imperiya sərhədlərini bərpa etmək oldu. Bu siyasət Cənubi Qafqazdan da yan keçmədi.

Denikin qoşunlarının dağıdılması və Qızıl Ordunun mart ayı ərzində Stavropol, Pyatiqorsk, Armavir və Novorossiysk şəhərlərini işğal etməsi regiondakı hərbi-strateji vəziyyəti kökündən dəyişdirdi. Neftlə zəngin olan Bakı, həmçinin bütün Güney Qafqaz üzərində V.İ.Leninin sözlərinə görə "son dərəcə lazımlı olan" nəzarəti əldə etmək arzusu bəsləyən Sovet Rusiyası, Türkiyə tərəfindən gözlənilmədən dəstək aldı, öz növbəsində Türkiyənin Antanta ilə mübarizədə şimal qonşusunun dəstəyinə ehtiyacı var idi. Aprel ayının 27-28-də XI Qızıl Ordu və yerli boşeviklər tərəfindən həyata keçirilən uğurlu Bakı əməliyyatı Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin ləğvinə və Xəzər dənizinin Astaraya qədər bütün qərb sahilində sovet nəzarətinin bərqərar olmasına gətirib çıxardı. Aprelin 28-də Azərbaycan Sovet Respublikasının müvəqqəti- inqilabi komitəsi Rusiya xalq komisarları sovetinin sədri V.İ. Leninə göndərdiyi teleqramda "Musavat hökümətini xain və azərbaycan zəhmətkeşlərinin və müstəqilliyinin düşməni olduğunu bildirərək, Rusiyanın düşməni

olan Antanta ölkələri ilə bütün əlaqələrin kəsildiyini elan edir. Həmçinin dünya imperalizmi ilə mübarizədə öz güclərinin olmadığına görə sovet Rusiyasına ittifaq təklifi edirək, kömək üçün qırmızı ordu birliklərinin göndərilməsini xahiş edir.” [8, s. 489-490].

Burada bir məqamı diqqətə almaq lazımdır ki, yenə də Ukrayna və Rusiyanın mərkəzi qara torpaq əyalətlərindən fərqli olaraq bolşeviklərin Cənubi Qafqaz siyasəti fərqli idi. Belə ki, əgər yuxarıda adı çəkilən bölgələrdə Mərkəzin tapşırığı ilə əhalidən ərzaq məhsulları kütləvi şəkildə məcburən toplanırdı və sovet ordusu Azərbaycana gəldiyi ilk günlərdə bu qaydanı tətbiq etməyə başlasa da Rusiya Kommunist Partiyasının mərkəzi komitəsinin siyasi bürosunun 1920-ci il 20 noyabr tarixli qətnaməsində Azərbaycanla bağlı ərzaq siyasətini yumşaltmaq Muğan zonasında ərzaq toplanışında ehtiyyatlı olmaq, Muğan ətrafı ərazilərdə isə ümumiyyətlə əhalidən heç nə yığılmaması, buraya hərbi gücü arıtmaq üçün əlavə 7 diviziya göndərilməsi və müsəlman kommunistlərin səfərbər edilərək göndərilməsi qərarı alınır [7, s. 47]. Xəzər uğrunda döyüşün son və olduqca təsiredici akkordu 1920-ci ilin may ayında həyata keçirilən VXHD-nin Ənzəli desant əməliyyatı oldu. Nəticədə 36-cı ingilis piyada diviziyası Rəştə tərəf çəkilmək məcburiyyəti qarşısında qaldı. 1920-ci ilin iyul ayının əvvəlində ingilislər Batumu tərk etdilər. 1920-ci il noyabr ayının 29-da XI Qızıl Ordu tərəfindən Ermənistan Respublikası tutulsa da faktiki olaraq onu Türkiyə ilə bağlamış olduğu alçaldıcı sülh müqaviləsindən azad etdi. RSFSR-in xalq komisarları sovetinin sədri V. Lenin həmən ilin dekabrın 2-də Ermənistan hərbi-inqilabi komitəsinin başçısı S. Kasyana göndərdiyi teleqramda Ermənistanın Azərbaycan və Türkiyə ilə konfliktli vəziyyətini nəzərdə tutaraq “...Şübhə etmirəm ki, Siz Ermənistanın Türkiyə və Azərbaycan zəhmətkeşləri ilə qardaşlıq həmrəyliyinin yaradılması üçün əlinizdən gələni edəcəksiniz” deyir [7, s. 54].

Lakin sovet Ermənistanı yarandığı ilk gündən öz daxili resursları hesabına yaşamağa qadir dövlət olmadığını göstərməyə başlayır. Belə ki, erməni komunistlərinin nümayəndə heyyətinin Moskvaya səfərindən sonra 1920-ci il dekabrın 13-də RSFSR-in xalq komisarları soveti Ermənistana qızıl pul ilə 600 min rubl yardım etmək qərarı alır. 1921-1922-ci illərdə isə sovet Rusiyasından Ermənistana dəmir yolu vasitəsi ilə buğda, çörək, gündəlik təsərrüfat malları, şəkər və s. Göndərilir. Bu illərdə Rusiya ilə yanaşı sovet Azərbaycanı da ayaqları üzərində dura bilməyən Ermənistana donor dövlət kimi yardım edərək buğda, neft və neft məhsulları göndərir [6, s. 306]. Beləliklə, Güney Qafqaz uğrunda uzunmüddətli və gərgin hərbi-siyasi mübarizə Sovet Rusiyasının xeyrinə başa çatdı.

1918-ci ilin mayında yaranmış müstəqil Azərbaycan dövləti 1920-ci il aprelin 28-də işğal edildikdən sonra müstəqil dövlətin bütün atributları bolşeviklər tərəfindən saxlanılsa da, respublikaya daxili və xarici real nəzarət Moskvanın əlində idi.

Sovet Rusiyası XI ordunun Azərbaycanı işğalı ərəfəsində Gürcüstana bitərəf olacağı təqdirdə müstəqilliyini tanımaq və AXC ilə bağladığı bütün müqavilələrin qüvvədə qalacağı barəsində verdiyi vəədlərini yerinə yetirmək fikrində deyildi.

Azərbaycan Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsi Siyasi Bürosunun 1920-ci ilin 12 avqust tarixli iclasında “Gürcüstana neft buraxmayıb. Köhnə- danışıqları uzatma siyasətini davam etdirmək” qərarı alınır [2, v. 7]. Yenə həmən ilin 27 avqust tarixli iclasında Gürcüstanla heç bir halda ticarət müqaviləsi bağlamamaq, Azərbaycanda daşnaklara qarşı aparılan mübarizəni Ermənistanın kommunistlərə qarşı apardığı repressiyaya cavab kimi bildirmək, bu mövzuları Çiçerin və Kirovla məşləhətləşmək qərarı alındı [1, v. 2]. Azərbaycan Respublikasının Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun 15 iyul 1920-ci il tarixli iclasında isə azərbaycanlı kommunistlər Nərimanov, Mirzə Davud, Dadaş Bünyadzadə ilə yanaşı, Yeqorovun, Mikoyanın, Ordjenikidzenin, Stasovun, Ermənistan təmsilçisi Leqeranın və XI qırmızı ordu nümayəndəsinin iştirakı ilə Gürcüstan ilə Ticarət müqaviləsi müzakirə olundu. Burada Gürcüstanın Bakı neftini Vrangelə göndərəcəyi əsas gətirilərək qərara alınır ki, Azərbaycanın Rusiya ilə ümumi iqtisadi siyasəti olduğu üçün, yalnız Rusiyanın neft və neft məhsulları ilə tam təminatından sonra əgər artıq qalarsa, Gürcüstana da həmçinin yanacaq verilməsindən söhbət gedə bilər [3, v. 14].

1921-ci il fevralın 25-də isə Gürcüstan Sovet Rusiyasının nəzarətinə keçir. 1921-ci il fevral ayının 25-də isə Gürcüstan Respublikası sovet ordusu tərəfindən işğalını Serqo Orcenikidze Bakıdan

Leninə göndərdiyi “Tiflis üzərində artıq sovet bayrağı dalğalanır. Yaşasın Sovet Gürcüstanı” teleqramı ilə bildirir [9, s. 454].

Gürcüstanda sovet hakimiyyətinin qurulması ilə Cənubi Qafqazın Rusiya tərəfindən işğalı başa çatdı. Bu işğal ancaq heç bir iqtisadiyyatı, təbii sərvəti, dənizə çıxışı olmayan, Türkiyə ilə müharibədə uduzub onun alçaldıcı sülhə gedən Ermənistan üçün çox əlverişli oldu.

### İstifadə edilmiş ədəbiyyat


1. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: Fond №1, siyahı №1, iş №23*
2. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: Fond №1, siyahı №1, iş №24*
3. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: Fond №1, siyahı №1, iş №18*
4. *Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi: Fond №268, siyahı №20, iş №12*
5. *Багирова И. Интеграционные процессы на Южном Кавказе и политика великих держав в исторической ретроспективе хх века. Кавказ & Глобализация, том 1 (2), 2007*
6. *История армянского народа древнейших времён до наших дней/под редакцией проф. М. Г. Нерсисяна. Ереван: Издательство Ереванского университета, 1980, 454 стр.*
7. *Ленин В.И. Полное собрание сочинений в 55 томах (5-е издание). Том 42. Москва: Издательство политической литературы, 1970, 633 с.*
8. *Министерство Иностранных Дел СССР. Документы Внешней Политики СССР. 1 Том. Москва: Государственное Издательство Политической Литературы, 1958, 805 стр.*
9. *Рейфилд Д. Грузия. Перекресток империй. История длиной в три тысячи лет. Москва: КоЛибри, Азбука-Аттикус, 2017, 608 с.*


**Açar sözlər:** *Azərbaycan, Gürcüstan, Ermənistan, Rusiya, Zaqafqaziya, Çiçerin, Xoyski, Sovet, bolşevik, kommunist, işğal.*

## РЕЗЮМЕ

### Политика России на Южном Кавказе в годы гражданской войны (1917-1922)

Начиная с XVIII века Российская империя начала проводить активную, агрессивную политику в Южно Кавказском регионе. Этот регион был в центре внимания даже в самые критические времена. Наиболее ярким примером этого является период гражданской войны (1917-1922 гг.), когда и “белые”, и “красные” не смотря появлению независимых государств в регионе пытались восстановить границы раздробленной империи.

**Ключевые слова:** *Азербайджан, Грузия, Армения, Россия, Закавказье, Чичерин, Хойский, Советский, Большевик, коммунист, оккупация.*

## SUMMARY

### Russia’s policy in the South Caucasus during the civil war (1917-1922)

Starting from the 18th century, the Russian Empire began to pursue an active, aggressive policy in the South Caucasus region. This region was in the spotlight even in the most critical times. The most striking example of this is the period of civil war (1917–1922), when both the “white” and the “red”, despite the emergence of independent states in the region, tried to restore the borders of a fragmented empire.

**Key words:** *Azerbaijan, Georgia, Armenia, Russia, Transcaucasia, Chicherin, Xoyski, Soviet, Bolshevik, communist, occupation.*

UOT 94 (479.24)

# DƏNİZKƏNARI BULVAR - YÜZ ON YAŞLI İSTİRAHƏT MƏKANI

**KÖNÜL İMAMVERDİYEVA**
*Dövlət Bayrağı Muzeyinin direktoru*
*Tarix üzrə fəlsəfə doktoru*

*E-mail: k.imamverdiyeva@gmail.gom*

Bakı şəhərinin tarixi memarlıq baxımından böyük əhəmiyyətə malik məkanları sırasında Dənizkənarı bulvarın adı iftixar hissi ilə çəkilir. Bu il Bakı bulvarının yaranmasından yüz on il keçir. Burada Qərb və Şərqin çoxəsrlik memarlıq, landşaft mədəniyyətlərinin sintezi duyulur, Azərbaycanın keçmişi və müasirliyi spesifik ahəngdarlıqla uzlaşır. Bakı bulvarı özünün yüksək inkişaf səviyyəsinə görə dünyanın ən müasir dənizkənarı parklarından biridir. Paytaxtın gözəllik rəmzlərindən sayılan Dənizkənarı bulvar yerli sakinlər və qonaqların mənalı istirahətinin təmin edən əvəzolunmaz guşədir.

Sahil boyunca uzanan füsunkar gözəlliyə malik olan Dənizkənarı bulvar Bakı şəhərini dünyanın müasir şəhərlərindən fərqləndirən əsas səbəblərdən biridir. Vaxtılə bu məkana yüksək qiymət Ümummilli lider Heydər Əliyev tərəfindən verilmişdir. Bakı bulvarının əhəmiyyətini nəzərə alan Heydər Əliyev 1998-ci il dekabrın 29-da Dənizkənarı bulvara Milli Park statusu verilməsi haqqında Fərman imzalamışdır. Məhz bu Fərmandan sonra Dənizkənarı bulvar yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Nazirlər Kabinetinin 29 dekabr 2001-ci il tarixli qərarına əsasən, Dənizkənarı Milli Park ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilmişdir.

Hazırda Bakı bulvarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində inanılmaz dərəcədə dəyişib. Azərbaycanda baş verən sosial-iqtisadi inkişaf Bakı şəhərinin memarlıq baxımından görünüşünə və eyni zamanda Dənizkənarı Milli Parkın inkişafına da öz təsirini göstərmişdir. Dövlət başçısının tapşırığı ilə Dənizkənarı Milli Parkda aparılan yenidənqurma və abadlıq işlərinin nəticəsində onun ərazisi sahilboyu uzadılaraq 16 kilometrə çatdırılmış, burada yüksək tələblərə cavab verən müasir infrastruktur yaradılmışdır.

“Bulvar” sözü fransız mənşəlidir və sahil boyunca “gəzinti zolağı” anlamını verir. Lakin əvvələr “bulvar” kəlməsi “dairəvi müdafiə istehkamı”, “qala” mənasını daşıyırdı. İlk belə bulvarı ingilislər 1428-ci ildə Orlean şəhərinin mühasirəsi zamanı yaratmışlar. Həmin dövrdə də holland mənşəli “bolwerg” kəlməsi “dairəvi qala divarları” - şəhər ətrafında tikilən müdafiə tikilisini bildirirdi. [13, s.116] Müasir yozumunu bu söz XVII-ci əsrin sonunda, Fransa kralı XIV-cü Lüdovikin sayəsində qazanmışdır. Onun fərmanı ilə istehkam qurğularının yerində gəzinti üçün yaşıllıq zolağı salınmışdır. [14]

Bakı bulvarının yaranma tarixi XX-ci əsrin əvvələrindən - 1909-cu ildən başlayır. Məhz yüz on il əvvəl Xəzərin Bakı sahili və o zaman rus imperatoru II Aleksandrın adını daşıyan sahil küçəsi arasında yaşıllıq zolağı – bulvar – salınmışdır. Bulvar böyük inkişaf yolunu keçmişdir. 1859-su ildə Şamaxı şəhərində baş vermiş zəlzələ nəticəsində quberniya mərkəzinin Bakıya köçürülməsi şəhərin yeni inkişaf mərhələsinin başlanğıcı oldu. Qeyd etmək lazımdır ki, Bakı bulvarının salınması bilavasitə dənizkənarı sahilin nizamlanması ilə bağlı məsələ idi. Bu ərazidə tikinti işlərinin başlanması XIX-cu əsrin ikinci yarısına təsadüf edir. Sahil zolağında ilk mühəndis işləri azərbaycanlı memar Qasım bəy Hacıbababəyov (1811-1874) tərəfindən aparılmışdır. O, 1862-ci ildə bütün sahil boyunca anbarların tikilməsi haqqında layihə tərtib etmişdir. Burada 1867-ci ildə su kəməri çəkilmiş, fəvvarə və digər tikililər də inşa edilmişdir. [6, s.36; 10, s.31] 1865-ci ildə Bakının hərbi qubernatoru və mülki hissə

idarəsinin rəisi general-leytenant M.P. Kolyubakinin xahişi ilə şəhəri dəniz sahilindən ayıran köhnə qala divarının sökülməsinə görə icazə verilir. [12]Qala divarının daşları dənizkənarı sahilin və sahil boyunca yeni evlərin tikintisinə istifadə olunmuşdu.

Neft sənayesinin inkişafı nəticəsində Bakı böyük ticarət limanına çevrilir. Bakı limanı Rusiya imperiyasının ən böyük limanlar sırasına daxil idi. Burada yük və sərnişin daşımaları həyata keçirilirdi. O zaman iqtisadi məqsədlər üçün istifadə olunan ensiz sahil zolağında yerləşən müxtəlif körpülər və anbarlar buranı tamamilə baxımsız, yararsız vəziyyətə salmışdı. Sahil zolağı iki hissəyə ayrılırdı: qərbdə Aleksandrovski, şərq istiqamətində isə Petrovski sahili. Belə bir vəziyyət vahid sahil küçəsinin salınmasına məhdudiyyət yaradırdı. Eyni zamanda, şəhər əhalisinin dənizə çıxışına da əngəl olurdu. [7, s.179-180]

Bakı şəhərinin inkişafı, əhali sayının artması, Xəzər dənizinin səviyyəsinin aşağı enməsi, qala divarları söküldükdən sonra şəhərin sahilə doğru genişlənməsi sahil zolağının formalaşmasına, ümumiyyətlə paytaxt şəhərinin ümumi görünüşünün daha da inkişaf etdirilməsinə əhəmiyyətli dərəcədə zərurət yaratmışdı. XIX-cu əsrin sonunda sahil zolağının nizamlanmasına dair müxtəlif layihələr hazırlanmışdı.

1897-ci ildə Şəhər İdarəsi Petrovski və Aleksandrovski küçələrinin nizamlanmasına dair təkliflərini Bakı şəhər Dumasının plan komissiyasına təqdim etdi. Təqdim olunan layihədə Qara Şəhərdən Mixaylovski küçəsinə qədər daş səddin tikilməsi və 30 metr enində sahil zolağının çəkilməsi təklif olunurdu. Plan komissiyası şəhərin gözəllik, həm də hərəkət sərbəstliyinin təmin edilməsi baxımından nəzərdə tutulan sahilin 50 metr civarında müəyyən edilməsinə qərar verir. [1,s. 1-2] Lakin sahil zolağında müəyyən işlər aparılsa da, çoxsaylı körpülərin və anbarların olması vahid sahil küçəsinin yaradılmasına mane olurdu. Burada aparılan abadlaşdırma işləri heç bir nəticə vermirdi. Şəhərin dəniz fasadı demək olar ki, yaradılmamışdı.

1898-ci ildə Bakı şəhərinin ilk Baş planı mülki mühəndis N.Fon der Nonne tərəfindən tərtib edilmişdir. O, plan komissiyasının sahil küçəsini Dadaşovun dokundan Qara şəhərə qədər uzadılması təkliflərini nəzərə almışdır. Lakin sahil zolağında özəl şirkətlərə məxsus körpülərin yerləşməsi səbəbindən o yalnız bu ərazinin boş hissəsini genişləndirilməsi və burada bulvarın salınmasını təklif etdi. [фатуллаев энциклопедия c. 66] Beləliklə, Fon Der Nonnenin planında Dənizkənarı sahilin nizama salınması ilə bağlı məsələ özəl şirkətlərin maraqları ilə toqquşduğuna görə öz həllini tapmamışdır.

Sahil ərazisində yaşıllığın salınması bu ərazinin bulvar şəklinə salınması üçün mühüm rol oynayırdı. Qeyd etmək lazımdır ki, şəhər hakimiyyəti Bakıda bağ və parkların kifayət qədər olmadığı üçün sahil boyunca yaşıllıq bağının yaradılmasına böyük önəm verirdi. Bulvarın salınması ilə bağlı məsələ 1902-ci il avqustun 12-də Bağ Komissiyasının iclasında müzakirə olunmuşdur. Bu iclasda dənizkənarı sahilin nizamlanmış hissəsində şəhər bağından "Qafqaz və Merkuri" cəmiyyətinin binalarına qədər bağın salınması nəzərdə tutulurdu. Bununla bağlı mühəndis K.B.Skureviç və şəhər bağbanı A.E.Vasilyev sahildə bağın salınması və burada çiçəklərin və ağacların əkilməsi ilə bağlı lahiyə təqdim etmişdilər. Bu layihəyə əsasən çiçəklərin salınması və ağacların əkilməsi sahil zolağının yalnız geniş hissəsində nəzərdə tutulurdu. Bu məqsədlə dənizkənarı sahilin bir hissəsinə münbit torpağın tökülməsi, sahilin nizamlanmış hissəsində isə arabaların hərəkəti və yüklərin daşınması üçün sahil boyunca yeni bir küçənin salınması təklif olunurdu. Tikinti komissiyası bulvarın salınması ilə bağlı məsələnin müzakirəsi zamanı yüklərin daşınması üçün sahil küçəsinə "Qafqaz və Merkuri" şirkəti və Daş körpü istiqamətindən iki çıxışın ayrılmasını təklif etmişdir. Bundan əlavə şəhər sakinlərinin gəzintisinin rahatlığı üçün bulvarda iki xiyabanın salınmasına qərar verildi.[1, s.20-21] Şəhər İdarəsinin və Bağ komissiyasının növbəti iclasında şəhər bağbanı A.E.Vasilyev sahil zolağında yaşıllığın salınmasına dair ətraflı təkliflərini təqdim edir. Onun tərəfindən yerli iqlimin xüsusiyyətləri nəzərə alınaraq xeyli ağac və kol əkilmişdi. Maliyyənin ayrılmaması və təbii səbəblərdən – daimi əsən külək, su qıtlığı və s. Yaşıllıq sahəsinin ömrü çox olmamışdı.

[11] Beləliklə, bulvarın salınması Bakı Şəhər Duması tərəfindən dəfələrlə müzakirə olunsa da, təqdim olunan layihələrin maliyyələşdirilməməsi ucbatından məsələ öz həllini tapmırdı.

Bu istiqamətdə işlər yalnız 1909-cu ildə Bakı Şəhər İdarəsinin tikinti şöbəsinin rəhbəri olmuş, istedadlı təşkilatçı Məhəmməd Həsən Hacınskinin zamanında həyata keçmişdir. Rusiyada təhsil almış M.H.Hacınski Bakı Şəhər İdarəsində fəaliyyəti dövründə şəhərin abadlaşdırılması və yenidən qurulmasında bilavasitə iştirak etmişdir. O, Bakının ən məhşur abidələrindən biri olan Şirvanşahlar sarayının qorunması və bərpasında da mühüm işlər görmüşdür. Bu dövrdə maarifpərvər, vətənpərvər, Avropa təhsili almış ziyalıların yetişməsi və onların doğma şəhərini daha da inkişaf etdirmək və gözəlləşdirmək arzusu Bakı bulvarının salınmasında əsas rol oynamışdır.

1909-cu il aprelin 7-də Məhəmməd Həsən Hacınski Bakı Şəhər Dumasının iclasında Dənizkənarı bulvarın tikintisi ilə bağlı məsələnin müzakirəyə çıxarılmasına nail olur. Onun bu iclasda qətiyyətli çıxışı dənizkənarı bulvarın salınması məsələsində əhəmiyyətli rol oynadı. Həmin məruzə 1909-cu il aprelin 9-da “Kaspi” və “Bakı” qəzetlərinin 77-ci nömrələrində çap olunur. M.H.Hacınski məruzəsində Aleksandr sahil küçəsində bulvarın salınması haqqında tikinti komisiyyasının müzakirəsinin nəticələrini diqqətə çatdırır və əhali üçün yeni bulvarın salınmasının vacib olduğunu sübut edir. O, çıxışında şəhərdə olan Mixayloviski bağının şəhər əhalisinin asudə vaxtını keçirməsi üçün azlıq etdiyini və bu məqsədlə geniş bir yerin ayrılmasının zəruriliyini qeyd edir və yeni salınacaq dənizkənarı bulvarın şəhər büdcəsinə ayda 4-6 min rubl mənfəət gətirəcəyi fikri ilə bu layihənin iqtisadi cəhətdən sərfəli olduğunu vurğulayırdı. [8, s.4] Bakı Şəhər İdarəsi Bakı şəhər Dumasına bulvar üçün Daş körpüdən Aleksandrovski çimərliyinə kimi torpaq ərazisinin ayrılmasını və bulvarın salınması üçün smeta xərclərinin təsdiq olunmasını təklif edirdi. Nəticədə Bakı şəhər Duması bulvarın salınmasının əhəmiyyətini nəzərə alaraq bu layihənin icrasına 10 min rubl vəsait ayırır və onun saxlanması üçün illik 2500 rubl vəsaitin ayrılmasını təklif edir. [3, s.3] Şəhər İdarəsi ümüd edirdi ki, sərf olunan maliyyə xərcləri bulvar ərazisində torpaq sahələrinin icarəyə verilməsi ilə öz həllini tapacaq. M.H.Hacınskinin bu məruzəsi duma tərəfindən yüksək razılıqla qarşılanır və Şəhər İdarəsinə bu layihənin tezliklə həyata keçirilməsi tövsiyyə olunur. M.H.Hacınskinin layihəsi bulvarın salınmasına maliyyənin ayrılmasına dair ilk sənəd idi. Beləliklə, M.H.Hacınski tərəfindən Bakı şəhər Dumasının iclasında Dənizkənarı bulvarın salınması məsələsinin müzakirəyə çıxarılması bulvarın yaradılmasına böyük təkan verdi. Bakı şəhər Dumasının növbəti iclaslarında Dənizkənarı bulvarın tədricən genişləndirilməsi müzakirə olunurdu. 1909-cu ildə bulvarın artıq üçdə bir hissəsi hazır idi: “Daş körpü”dən Gömrük körpüsünə (indiki Azneft meydanından Bulvar idman klubunun binasına kimi) qədər ərazidə bulvarın salınması ilə bağlı işlər tamamlanmışdı. Bulvarın “Qafqaz və Merkuri” şirkətinin körpüsünə (A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasına kimi) qədər ərazinin uzadılması isə 1910-cu ildə baş verdi. [9, s.3]

Yuxarıda göstərilən tarixi faktlar Dənizkənarı bulvarın və eyni zamanda Bakı şəhərinin memarlıq baxımından quruculuq, inkişaf tarixinin öyrənilməsində mühüm rol oynayacaqdır.

**İstifadə olunmuş ədəbiyyat**

*1. ARDTA: f.389, siyahı 3, iş 2103, v. 1-2*
*2. ARDTA: f.389, siyahı 3, iş 2362, v. 20-21 ob.*
*3. Bakı qəzeti, 1909, №77*
*4. Fətullayev Ş. Bakı memarları XIX əsrin sonu–XX əsrin əvvəlində. Bakı: “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 296 s.*
*5. Фатуллаев Ш.С. Архитектурная энциклопедия Баку, Баку: «Шарг-Гарб», 2013,324 с.*
*6. Fətullayev Ş.XIX əsr və XX əsrin əvvəllərində Azərbaycanda şəhərsalma və memarlıq. Bakı: “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 478 s.*
*7. Fətullayev Ş. Bakıda şəhərsalma XIX əsr - XX əsrin əvvəllərində, Bakı: “Şərq-Qərb” Nəşriyyat Evi, 2013, 340 s.*
*8. Kaspi qəzeti, 1909, №77*
*9. Kaspi qəzeti, 1909, №159*
*10. Ибрагимов К. Бакинская набережная // İRS – Nasledie, 2009. №3. – C30-34*

*11. Колтунов С.П. Бакинский бульвар на набережной. https://www.ourbaku.com/index.php/%D0%91%D1%83%D0%BB%D1%8C%D0%B2%D0%B0%D1%80_%D0%BD%D0%B0_%D0%BD%D0%B0%D0%B1%D0%B5%D1%80%D0%B5%D0%B6%D0%BD%D0%BE%D0%B9*

*12. Колтунов С.П. Ичери шехер. Крепостные стены. https://www.ourbaku.com/index.php/%D0%98%D1%87%D0%B5%D1%80%D0%B8_%D0%A8%D0%B5%D1%85%D0%B5%D1%80._%D0%9A%D1%80%D0%B5%D0%BF%D0%BE%D1%81%D1%82%D0%BD%D1%8B%D0%B5_%D1%81%D1%82%D0%B5%D0%BD%D1%8B*

*13. Преловская Е.С., Пуляевская Е.В. Бульвары: архитектурный облик прошлого и настоящего// Вестник ИрГТУ, 2015. №2 (97).- с. 116-120.*

*14. Слово «бульвар», как оно возникло, как появились первые бульвары? Французский взгляд. И сколько бульварных линий в Париже. http://www.portalostranah.ru/view.php?id=291*

**Konul İmamverdiyeva, Ph.D. in History,**
**Director of the State Flag museum**

**The 110th anniversary of the founding of Seaside boulevard**

**SUMMARY**

Seaside boulevard is one of the most valuable objects of our material culture, representing exceptional historical and architectural significance. This article discusses the history of the foundation and development of Baku boulevard.

In the second half of the 19th century, the sustainable development of Baku, population growth, and the expansion of the city to the coastal strip after the dismantling of the fortress walls necessitated the improvement of the promenade and the construction of Baku boulevard. İn spite of the fact that the construction of the boulevard was repeatedly discussed in the Baku City Duma, but the problem was not solved due to lack of funding. The final decision to create the Baku boulevard was made at a meeting of the Baku City Duma on April 7, 1909.

The article used archival materials and a theoretical review of the scientific literature on this topic. It should be noted that in the article, based on analysis of archival documents, it was possible to establish the exact date of foundation of Baku boulevard.

**Key words:** *boulevard, prominade, marinas, seaside park, beautification, project,City Administration.*

**Кенуль Имамвердиева,**
**доктор философии по истории,**
**директор Музея Государственного флага**

**110-летие со дня основания Приморского бульвара**

**РЕЗЮМЕ**

Приморский бульвар – один из наиболее ценных объектов нашей материальной культуры, представляющий исключительную историко-архитектурную значимость.

В данной статье рассматривается история основания и развития Бакинского бульвара. Во второй половине XIX века устойчивое развитие Баку, рост численности населения, расширение города к береговой полосе после демонтажа крепостных стен вызвали необходимость благоустройства набережной и строительства Бакинского бульвара. Несмотря на то, что постройка бульвара неоднократно обсуждалась в Бакинской Городской Думе, проблема не была решена из-за отсутствия финансирования. Окончательное решение о создании Бакинского бульвара было принято на заседании Бакинской Городской Думы 7 апреля 1909 года.

В статье были использованы архивные материалы и теоретический обзор научной литературы посвященной этой теме. Необходимо отметить, что в статье благодаря анализу архивных документов удалось установить точную дату основания Бакинского бульвара.

**Ключевые слова:** *бульвар, набережная, пристани, приморский парк, благоустройство, проект, Городское управление.*

UOT 94(479.24)

# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANIN RUSİYA VƏ AVROPA ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİ

**İLQAR ABDULLAYEV**
*Bakı şəhəri, Nərimanov rayonu,*
*MLK- nın tarix müəllmi,*
*Tarix üzrə fəlsəfə doktoru, əməkdar müəllim*

*E-mail: ilqar.heyderoglu@mail.ru*

Azərbaycan xalqı çox qədim və zəngin tarixə malikdir. Dövlətçilik tariximiz 5000 min ildən artıq bir dövrü əhatə edir. Yerləşdiyi olduqca gözəl, əlverişli strateji mövqe doğma VƏTƏNİMİZİ tarixin ən dərin qatlarından dünyanın aparıcı, siyasi ab-havanı müəyyənləşdirən dövlətlərin diqqət mərkəzində olmasına səbəb olmuşdur. Zamanın sərt dönüşləri, qüdrətli imperiyaların, qəddar cahangirlərin yüzillərlə davam edən qanlı hökmranlığı, Azərbaycan varlığını yer üzündən silə bilməmişdir [3,5]

Təbiidir ki, Azərbaycanın əlverişlı strateji mövqeyi həm də onun beynəlxalq ticarət yollarının kəsişdiyi yerdə qərar tutması ilə səciyyələnirdi. Belə ki, həm Qərbdən Şərqə və Şərqdən Qərbə, eləcə də Şimaldan Cənuba və Cənubdan Şimala gedən ticarət yolları Azərbaycandan keçirdi. Nəticədə tarixin orta çağlarında (kifayət qədər dərin qatlarından) Azərbaycan həm Rusiya, həm də Avropa ölkələrinin tacirlərinin diqqətini cəlb edirdi. Hal - hazırkı dövrdə də Azərbaycan öz strateji mövqeyinə görə istər Rusiya, istərsə də Avropa ölkələri üçün çox mühüm əhəmiyyət kəsb etməkdədir. Təsadüfi deyil ki, Prezident İ.Əliyev öz çıxışlarında dəfələrlə bildirmişdir ki, müasir dövrdə Cənubi Qafqazda Azərbaycanın iştirakı olmadan heç bir layihə həyata keçirilə bilməz. Buna görə də Moskva – Ankara – Tehran üçbucağının daha da gücləndiyi bir dövrdə nəticə etibarı ilə Fars körfəzi, Hind okeanı ilə Şimaldakı dənizləri birləşdirəcək Astara (İran) – Astara (Azərbaycan) dəmir yolunun çəkilməsi məsələsində ən aktiv tərəflərdən biri də Rusiya olmuşdur.

Əgər Azərbaycanın, indiki rusların əcdadı hesab olunan şərq slavyanları ilə əlaqələrinin tarixinə nəzər salsaq, onların hələ V – VI əsrlərə aid olduğunu müəyyənləşdirə bilərik [4,3].

Ayrı – ayrı dövrlərdə Kiyev və Novqorod tacirləri Xəzər dənizinin qərb və cənub sərhədlərinə gəlmişlər. VII – XII əsrlərdə isə slavyan knyazlarının Azərbaycan dövlətləri ilə iqtisadi əlaqələri daha da güclənmişdir. Həmin dövrlərdə slavyanlarla azərbaycanlı tacirlərin əlaqələri daha fəal olmuşdur. Digər şərq ölkələrinin tacirləri ilə bərabər onlar da qədim rus şəhərlərində, Volqa çayının mənsəbində görünürdülər. Nisbətən sonrakı dövrlərdə də ərəb işğalına, digər təlatümlü hadisələrə baxmayaraq, bu məhsuldar diyar inkişafdan qalmırdı. Artıq IX – XI əsrlər ərəb tarixçi və coğrafiyaşünaslarının əsərlərində Bakı vilayətində külli miqdarda neft hasil edilməsinə və hərbi məqsədlərlə bir sıra Şərq və Qərb ölkələrinə daşınmasına dair məlumatlara rast gəlirik. Ərəb müəllifləri Şirvanda, Xəzər dənizini sahilində balıqçılığın da inkişaf etdiyini xəbər verirlər. Bəzi qiymətli balıq növləri bir sıra Yaxın Şərq ölkələrinə ixrac olunurdu.

X əsrin ikinci yarısından ərəb müəllifləri Bakının Xəzər dənizində mühüm liman şəhəri olduğunu qeyd edirlər. Buradan İrana və Xəzər dənizi sahilində yerləşən qonşu ölkələrə neft, duz və s. mallar aparılır və oradan Şərqin uzaq ölkələrinə daşınırdı. Ticarət gəmiləri Xəzərin cənub sahillərində Bakıya, oradan isə Atilə (Volqaya), xəzərlər ölkəsinə qədər üzürdülər [1,131].

Mənbələr, həmçinin Şirvandan və Xəzər dənizindəki adalardan dənizlə Cürcana, oradan isə karvan yolu ilə hind torpaqlarına boyaqotu boyağı aparıldığını xəbər verirlər. Uzaq ölkələrlə - Hindistanda və ehtimal ki, bahalı ipək parçalar gətirilən Çinlə ticarət edilirdi. IX – X əsrlərdə Şirvan şəhərləri spesifik malların istehsalı və satışı sahəsində ixtisaslaşırdı ki, bu da həmin şəhərlərdə çoxlu miqdarda sənətkarların toplaşdığını göstərirdi. Bazarlar üçün həmin şəhərlərin kənarında iri sahələr ayrılırdı. Şirvan şəhərlərinə Xəzərdən, Rus dövlətindən, İrandan, Bizansadan və Uzaq Şərq

ölkələrindən – Hindistandan, Çindən, İraqdan, Suriyadan tacirlər gəlir, gətirdikləri malların əvəzinə karvanlarla neft, duz, balıq, mal – qara, zəfəran, qırmızı boyaq, boyaqotu və digər mallar aparırdılar. İxrac olunan mallar arasında sənətkarlıq məmulatları, başlıca olaraq xamna və Şamaxıda, onun ətrafındakı kəndlərdə toxunan ipək parçalar, Şirvan şəhərlərində - Bakı və onun ətrafında, Xursanda, Muğanda hazırlanan yun parçalar, xalçalar, xalça məmulatları, örtüklər, Beyləqan və Şabranda istehsal edilən saxsı və mis qablar da var idi.

Ən iri şəhərlər – Bərdə, Dərbənd, Gəncə, Şamaxı, Bakı – beynəlxalq ticarət yollarının üstündə idi. Başlıca ticarət yolu Muğandan keçib, Kürün sağ sahili ilə Tiflisə, oradan isə Qara dənizə gedirdi. Xəzər sahilləri ilə Bakı və Dərbənd limanlarından və daha sonra Xəzər xaqanlığından keçərək şimala gedən yol da mühüm əhəmiyyətə malik idi [1,132]

Belə ki, bu yol Azərbaycan torpaqlarını Rus knyazlıqları ilə əlaqələndirirdi. O dövrlərdə Rusiyadan Azərbaycana əsasən bal, mum, müxtəlif xəz dərilər, mis, samovar və s. mallar gətirirdilərsə, Azərbaycandan Rusiyaya meyvə qurusu, pambıq, neft, müxtəlif ədviyyat, eləcə də yüksək keyfiyyətli zəfəran aparılırdı. Elə həmin dövrlərdə Azərbaycanın Rusiya və Avropa ölkələri ilə də geniş miqyasda iqtisadi, diplomatik, siyai əlaqələri geniş miqyasda həyata keçirilirdi. Azərbaycanın Avropa dövlətləri ilə əlaqələrinin dərin iqtisadi kökləri vardı. Belə ki, bu əlaqələr qarşılıqlı faydası olan ticarət əlaqələri zəminində meydana gəlmişdi [3,52].

Azərbaycan tarixin orta əsrlərdən başlayaraq Rusiya və Qərbi Avropanın müxtəlif Şərq malları ilə, xüsusən hazır məhsullarla təmin olunmasında mühüm rol oynayırdı. Avropa ölkələrində feodallaşmanın başa çatması, sənətkarlığın kənd təsərrüfatından ayrılması, şəhərlərin meydana gəlməsi və əmtəə - pul münasibətlərinin inkişafı ilə bu əlaqələr daha da genişləndi, həm də artıq qarşılıqlı xarakter almağa başladı. Rus və Avropa tacirlərinin Şərqə, o cümlədən Azərbaycana axını artdı.

XIII – XIV əsrlərdə Azərbaycan tacirləri Avropa – Asiya iqtisadi əlaqələrinin həyata keçirildiyi başlıca rayonlar olan Qara dəniz və Aralıq dənizi sahillərindəki ticarət mərkəzlərində qızğın ticarət edirdiər [3,53]. Burada avropalılar müxtəlif Şərq ölkələrindən, o cümlədən Azərbaycandan gəlmiş tacirlərdən növbənöv zərif ipək parçalar, xam ipək, müxtəlif ədviyyat məhsulları, nadir daş – qaş və başqa Şərq malları alır, sonra isə həmin məhsulları Qərb ölkələrində qat – qat bahasına satırdılar. Müxtəlif Şərq malları-ipək, pambıq parçalar, bəzək şeyləri, ədviyyat və s. hələ XII – XIII əsrlərdə Fransadakı məşhur Şampan yarmarkasının canlanmasında mühüm rol oynayırdı. Həmin malları Şampan yarmarkalarına və Qərbin başqa ticarət mərkəzlərinə Avropa – Şərq ticarətində vasitəçilik edən italyan tacirləri aparıb çıxarırdılar. Yeri gəlmişkən məşhur italyan səyyahı Marko Polonun XIII əsrin II yarısına aid məlumatları Azərbaycan şəhərlərində müxtəlif Şərq ölkələrindən gəlmiş tacirlərlə yanaşı, avropalıların da qızğın ticarət etdiyini sübut edir. XIII əsrin 70 –ci illərində və həmin əsrin sonlarında – iki dəfə Azərbaycanda olmuş Marko Polo, hətta, Xəzər dənizində Genuya gəmilərinin üzdüyünü qeyd edir.

Nisbətən sonrakı dövrlərdə, XV əsrdə də Azərbaycanın Rusiya ilə əlaqələri davam edirdi. Lakin həmin dövrdə feodal pərakəndəliyi ticarət əlaqələrinin daha da genişlənməsinə imkan vermirdi. Belə ki, bir çox hallarda Xəzər dənizinin şimal –qərbindən, Dağıstandan, Qaraqaytak və Dərbənddən keçərək Rusiyaya istiqamətlənən ticarət karvanları elə həmin feodal hakimlərinin göndərdikləri silahlı dəstələr tərəfindən qarət olunurdular. Həmin dövrlərdə vahid, mərkəzləşmiş Rus dövləti yaranmadığından Azərbaycan tacirlərinin bu ölkə ilə əlaqələri kortəbii şəkildə həyata keçirilirdi. Mərkəzləşmiş Rus dövləti yaranandan sonra isə bu ölkə ilə təkcə ticarət – iqtisadi yox, həm də diplomatik əlaqələr genişlənməyə başladı. Rus dövləti ilə ticarət əlaqələrinin genişlənməsində XV əsrdə “rus xalqı tərəfindən qeyri – rəsmi surətdə paytaxt kimi qəbul edilən” Moskvanın müstəsna dərəcədə böyük rolu vardı. Təsadüfi deyildi ki, XV əsrin sonlarında Moskva Rus dövlətində ticarətdə ən yüksək səviyyədə inkişaf etmiş bir şəhər idi.

Şərq və Qərb mallarının tranziti Rusiya vasitəsi ilə həyta keçirilirdi. Yazılı mənbələrin sübut etdiyi kimi, həmin dövrlərdə Rusiyaya gələn xarici tacirlərin əksəriyyəti Yaxın Şərq ölkələrinin nümayəndələri idilər. Onlar buradan digər xarici ölkələrə gedirdilər. Həmin dövrlərdə Rus dövlətinə gələn Şərq tacirlərinin əksəriyyəti Kiyev, Smolensk, habelə Novqorodda məskunlaşırdılar. Bu şəhərlərdəki bazarlarda onlar üçün xüsusi cərgələr də düzəldilmişdi [8,63]. Şərq tacirləri həmin

dövrlərdə Tver və Moskva kimi şəhərlərdə də geniş miqyasda məskunlaşırdılar.

XV əsrin II yarısında Şirvandan olan səfir və tacirlər rəsmi diplomatik tapşırıqlarla tez-tez Moskva sarayının qonaqları arasında olurdular. Həmin qonaqlar arasında ən çox azərbaycanlı tacirlər olurdular ki, bu da həmni dövrlərdə Xəzər dənizinin qərb sahillərindəki münasib limanların və xam ipək istehsalının əsasən burada yerləşməsi ilə bağlı idi. Göstərmək yerinə düşərdi ki, hələ XV əsrin II yarısından Fərrux Yassarla III İvan arasında səfirlər mübadiləsi olmuşdur. Moskva knyazlığının Qafqaz ölkələri ilə olmuş əlaqələrinin ən mükəmməl tədqiqatçılarından hesab edilən S. A. Belokurov da bu barədə danışarkən göstərir ki, bizim arxivlərdə Moskva dövlətinin Qafqaz ölkələri ilə daha əvvəllər olmuş ticarət əlaqələri haqqında məlumat yoxdur. Belə ki, III İvanın vaxtında ticarət və diplomatik əlaqələrlə məşğul olan ayrıca bir təşkilat olmamışdır. Belə məsələləri Böyük Knyaz və Boyar Duması, şərq ölkələrində isə şah və onun saray əhli həll edirdi.

Azərbaycandan Moskva dövlətinə ilk səfirlik 1465 –ci ildə Şirvanşah Fərrux Yasar tərəfindən Həsən bəyin rəhbərliyi ilə göndərilmiş nümayəndə heyəti hesab edilir. Bu nümayəndə heyəti ilə III İvan hökuməti arasında hədiyyələr mübadiləsi də olmuşdur. Əlbəttə, burada əsas məsələ heç də hədiyyələr mübadiləsi deyildi. O vaxtlar bu iki dövlət arasında müzakirə edilən məsələlərdən biri də XV əsrdə Qızıl Orda dövlətindən ayrılmış Həştərxan xanlığına qarşı ittifaq yaratmaq olmuşdur. XV əsrin 60–cı illərində bu iki ölkə arasında olmuş səfirlər mübadiləsi Azərbaycan – Rus rəsmi əlaqələrinin yaranmasının əsasını qoymuşdur. Lakin təəssüflər olsun ki, İran tarixçiləri bu səfirlər mübadiləsi haqqında susurlar. Onlar nədənsə yalnız Qızıl Orda dövlətinə qarşı ittifaq bağlamaq üçün Marko Polonun rəhbərliyi altında olan nümayəndə heyətinin Uzun Həsənin sarayına gəlişini Rusiya tərəfdən bu sahədə atılmış ilk addım kimi qəbul edirlər.

Qeyd etməliyik ki, Həsən bəyin rəhbərliyi altında nümayəndə heyəti knyaz III İvan tərəfindən çox yüksək səviyyədə qarşılanmış və növbəti il V. Papinin rəhbərliyi altında Şirvanşahlar sarayına Rusiya nümayəndələri çox qiymətli hədiyyələrlə gəlmişlər. Təkcə onu demək kifayətdir ki, hədiyyələr arasında 90 şunqar (şahinin bir növü) quşu da olmuşdur ki, o dövrlər üçün onlar xüsusilə yüksək qiymətləndirilirdi.

V. Papinin rəhbərliyi altında göndərilmiş nümayəndə heyəti Rus dövlətinin ümumiyyətlə Şərq ölkələri ilə münasibətdə ilk diplomatik addım hesab olunur. Diplomatik heyətlərin mübadiləsinin baş tutması çox güman ki, Şirvanşah Fərrux Yasarın digər şərq ölkələri rəhbərlərindən daha əvvəl mərkəzləşmiş Rus dövlətini qəbul etməsi və gələcəkdə onun cənub, Şirvanın isə şimal sərhədlərinin təhlükəsizliyinin təmin edilməsində mühüm şərt olacaq dostluq və ittifaq yaratmağı təklif etməsi ilə bağlı olmuşdur.

Bundan başqa Xəzərin qərb sərhədlərində kifayət qədər böyük və məhsuldar ərazini tutmuş müstəqil Şirvanşahlar dövləti ilə ittifaq gələcəkdə Rus dövlətinə əlverişli satış bazarı və lazımi malların alınması yeri kimi çox lazım idi.

İlk səfirlər mübadiləsindən sonra bu iki dövlət arasında ticarət əlaqələri daha da genişlənmişdir. Danışılan dövrdə tacirlər çox vaxt həm də “böyük səfir” funksiyasını yerinə yetirirdilər. Məlumdur ki, V. Papinin nümayəndə heyətində Tver taciri Afanasi Nikitin də olmuşdur. O, digər tacirlərlə Azərbaycana gəlmiş, sonra isə daha cənub ölkələrinə getmişdir. Onun keçib getmiş olduğu yol boyu gördüklərini qələmə alması, “gündəlik” tutması, XV əsr hadisələri haqqında məlumatların (yerli təbii sərvət, o dövrdə ticarətin aparılması qaydası, şəhərlərin vəziyyəti və s.) zamanamıza qədər gəlib çıxmasında çox mühüm rol oynamışdır.

V. Papinin nümayəndə heyətinin tərkibində olmuş tacirlərin bir qismi Dərbənd yaxınlığında qarət olunur və əsir götürülürlər. Lakin Şirvanşah Fərrux Yassarın qətiyyətli tələbi ilə qaytaq hökmdarı Xəlil bəy tərəfindən azad edilirlər. Bu fakt da bir daha sübut edir ki, Şirvanşah Rus çarının timsalında düşmənlərinə qarşı mübarizədə öz müttəfiqini görmək istəmişdir. Buna görə də “kafir” rusları “müsəlman” qaytaq həkmdarından qətiyyətlə müdafiə edir.

Bir qədər sonra, 1472-ci ildə isə, Böyük Moskva knyazı III İvanın adından Marko Rossonun (rus Mark) başçılığı altında Ağqoyunlu hökmdarı Uzun Həsənin sarayına nümayəndə heyəti göndərilir. Onun haqqında o dövrlərdə Uzun Həsənin sarayında olmuş Venetsiya nümayəndəsi Ambrocco Kontarini də məlumat verir [10,173]. Venetsiyalılar hələ XIV - XV əsrlərdə Cənubi Qafqaz ölkələrinə tez – tez

gəlirdilər. Onları ilk növbədə ipəkçiliyin məskəni kimi Azərbaycan daha çox maraqlandırırdı.

XVI əsrdə də Azərbaycanın, xüsusilə Şirvanın xarici ölkələrlə əlaqələri davam və inkişaf edirdi. Bu, xeyli dərəcədə həm də Şirvanın həmin dövrlərdə demək olar ki, tam müstəqil siyasət yeritməsi ilə bağlı idi. Belə ki, həmin dövrlərdə Şirvanın bəylərbəyi Abdulla xan Ustaclı mərkəzi hakimiyyətin "başı üstündən" Moskvaya "öz" nümayəndəliyini göndərərək Rus hakim dairələri ilə danışıqlar aparmışdı. Bu barədə bizə İngiltərəyə məxsus "Moskva" kompaniyasının nümayəndəsi, təcrübəli kəşfiyyatçı A. Cenkinson İvan Qroznının qəbulunda olarkən Abdulla xanın nümayəndəsi ilə görüşməsi haqqında məlumat verir.

A.Cenkinson Rusiya ərazisindən, yəni Volqa - Xəzər yolu ilə Şərq ölkələrinə keçmək üçün İvan Qroznı hökumətindən razılıq almaq istəyirdi. A. Cenkinsonun Səfəvilər dövlətinə getmək niyyətində olduğunu bilən İvan Qroznı ona bütövlükdə bu ölkə ilə, əsasən ipəkçiliyin daha yüksək səviyyədə inkişaf etdiyi Şirvanla sıx ticarət əlaqələri qurması haqqında göstəriş verir. Bu, həm də o zamanlar artıq vahid mərkəzləşmiş dövlətə çevrilmiş Rusiyanın cənub sərhədlərini daim təhlükədə saxlayan Krım xanlığının vassal asılılığında olduğu Osmanlı Türkiyəsinə qarşı müttəfiq əldə etmək cəhdi idi.

A. Cenkinson Moskva çarı İ. Qroznıdan Səfəvilər dövlətinə getmək üçün razılıq aldıqda onunla bərabər Şirvan bəylərbəyinin nümayəndəsi də yola düşür. 18 avqust 1562 -ci ildə A. Cenkinson Şamaxıya çataraq Abdulla xanın qəbuluna düşür və Şirvan hüdudunda ticarət etmək üçün razılıq almaq istəyir. Lakin istədiyinə nail olmadıqda A. Cenkinson Qəzvinə, I Təhmasibin yanına gedir. Abdulla xanın göstərişi ilə A. Cenkinsonu bu səfərdə onun Moskvaya göndərdiyi elçi müşayiət edir. Onların Volqa – Xəzər ticarət yolu haqqındakı təklifi Osmanlı Türkiyəsi ilə təzəlikcə sülh müqaviləsi bağladığına görə onu qıcıqlandırmaq istəməyən I Təhmasib tərəfindən mənfi qarşılanır. Osmanlı Türkiyəsi Səfəvilərin Avropa ilə ticarət məqsədi ilə Kiçik Asiyanı dolanaraq Volqa – Xəzər ticarət yolundan istifadə etmələrinə qısqanclıqla yanaşırdılar. Lakin 1563 –cü ildə Şamaxıya qayıdan A. Cenkinson xam ipəyin Rusiya və İngiltərəyə aparılmasını maddi cəhətdən məqsədəuyğun sayan Abdulla xanın lazımi sənədləri imzalmasına nail olur [4,30]. Cenkinsondan sonra Azərbaycana İngiltərə ticarət şirkətlərinin başqa agentləri də gəlmişdilər [2,20].

Haqqında söz gedən dövrdə həm Səfəvilərin, həm də Moskva knyazlığının Osmanlı Türkiyəsi ilə münasibətləri gərgin idi. Lakin Səfəvilərlə Osmanlılar arasında 1555 -ci ildə sülh müqaviləsi imzalandığına, habelə Livoniya ordeni ilə müharibəni davam etdirdiyinə görə danışılan dövrdə Rus knyazlığı da Osmanlılarla açıq müharibəyə girmədi. Lakin İvan Qroznı Səfəvilərin Osmanlılarla müharibəyə girməsini daha real və mümkün hesab edərək özünün yaxın adamı A. Xoznikov vasitəsi ilə Qəzvinə 100 top, 500 tüfəng göndərmişdi. Bu, o dövrlər üçün kifayət qədər böyük qüvvə idi. O dövrlərdə Səfəvi hökmdarının ordusunda odlu silah yox idi. Lakin o dövrlərdə Osmanlı Türkiyəsi Həştərxanın Rus dövlətinin əlində qalması ilə heç cür barışa bilmirdi.

Belə ki, Osmanlılar üçün Həştərxan təkcə Volqa -Xəzər ticarət yolunu neytrallaşdırmaq üçün yox, həm də Mərkəzi Asiyanın müsəlman ölkələri ilə geniş miqyasda əlaqələr saxlamaqla onları özündən asılı vəziyyətə saxlamaqda bir vasitə olmalı idi. Bu, həm də Osmanlı və Krım qoşunlarına gələcəkdə Səfəvilərin ərazisinə Azovdan və Kuban – Şimali Qafqazdan girməyə imkan verəcəkdi. Buna görə də 1569-cu ildə Türklər Həştərxanı güc tətbiq etməklə tutmaq üçün hücuma keçir və buranı tuturlar. Lakin, XVI əsrin əvvəllərində Ağqoyunlular dövlətinin yerində Səfəvilər dövlətinin yaranması Osmanlı imperiyasının Şərqə doğru genişlənməsində ciddi maneəyə çevrildi [9,170].

1578 - ci ildə isə Osmanlılarla Səfəvilər arasında müharibənin növbəti, III mərhələsi başlanır. Müharibənin bu mərhələsinin sonunda türk qoşunları Azərbaycanı bütövlükdə tutaraq Xəzərin qərb sahillərinə çıxırlar. 1583 –cü ildə Bakı və bir qədər sonra Dərbənd də Osmanlılar tərəfindən tutulur. Beləliklə də ruslar Xəzərin Azərbaycan sahilləri və bu yerlər vasitəsi ilə Səfəvilərlə əlaqə saxlamaq imkanından məhrum olurlar. Göstərilməlidir ki, türklər tərəfindən Dərbənd və Bakının tutulması Rus – Səfəvi ticarət əlaqələrinin onların ixtiyarına keçməsi ilə bərabər, Həştərxanın da Səfəvilərlə Mərkəzi Asiya xanlıqları arasındakı vasiyəçilik rolunu heçə endirir, Moskva knyazlığını isə cənub – şərqdən müdafiəsiz qoyurdu. Həştərxanın ələ keçirilməsi ilə Osmanlılar Dnestrdən Xəzər dənizinə qədər olan dairəni ələ keçirmiş oldular. Təxminən

həmin dövrlərdə özbəklərin hücumu nəticəsində Səfəvilər Xorasan vilayətini itirdilər.

Həmin dövrlərdə Səfəvilərə rəhbərlik edən iradəsiz Məhəmməd Xudabəndə ölkə daxilində heç bir dəstək tapa bilmədiyindən kömək üçün Moskva dövlətinə müraciət edir. Moskva dövlətinə bu məqsədlə Hadı bəyin rəhbərliyi ilə göndərilmiş nümayəndə heyəti ruslara osmanlılara qarşı müharibədə uğurlu kömək müqabilində Dərbənd və Bakını bu iki şəhər arasındakı sahil zolağı ərazilərlə birlikdə əbədi olaraq onlara güzəştə gedəcəklərini bildirirdi. Hadı bəyin bu təklifi ruslar üçün çox cəlbedici olduğundan rus çarı bu nümayəndə heyətinin yolda kazaklar tərəfindən qarətə məruz qaldığını biləndə, hətta təcili olaraq günahkarları tapdıraraq onları sərt şəkildə cəzalandırmışdı. Lakin Hadı bəyin başçılığı altında nümayəndəlik Moskvada olarkən Səfəvilərdə dövlət çevrilişi baş vermiş və hakimiyyətə I Şah Abbas gəlmişdi. O vaxtlar Şəfəvilərin təklifi rusiya tərəfini o qədər maraqlandırırdı ki, tezliklə Fyodor İvanoviç tərəfindən Q. P. Vasilçikovun başçılığı altında Səfəvilərlə danışıqlar aparmaq üçün nümayəndə heyəti göndərildi. Deyilməlidir ki, Vasilçikovun başçılıq etdiyi nümayəndə heyəti Qəzvinə gəlib çatana qədər Səfəvilərdə hakimiyyətə artıq I Şah Abbas gəlmişdi. Q. P. Vasilçikov Hadı bəyin Fyodor İvanoviçə etdiyi təklifi I Şah Abbasa çatdıranda şah bildirmişdi ki, o, Dərbəndi, Şamaxını və Bakını ruslara yalnız o şərtlə güzəştə gedə bilər ki, adı çəkilən şəhərlər yalnız onların silahı ilə alınsın. Əgər bu şəhərlər şah ordusu tərəfindən alınacaqsa, onda onların rusiya tərəfinə keçməsindən söhbət belə gedə bilməz.

1590-cı ildə isə Şah Abbas Osmanlılarla alçaldıcı İstanbul müqaviləsini imzaladı ki, nətəcədə də Xalxal, Qaradağ, Ərdəbil və Zəncandan başqa bütün Azərbaycan Osmanlıların əlinə keçdi. Türklər dərhal burada möhkəmlənmək üçün bütün lazımi işləri görməyə başlayırlar. Bu vaxtlar rus dövlətinin Səfəvilərlə münasibətləri daha geniş miqyasda davam edirdi. Təsadüfi deyildir ki, Vasilçikovun missiyasından sonra bura 1594 – cü ildə A. D. Zveniqorodskinin rəhbərliyi altında nümayəndə heyəti göndərilir. Göstərilməlidir ki, Şirvanın Osmanlılar tərəfindən tutulması, Şirvanın xam ipəyinin Avropa ölkələrinə Volqa – Xəzər yolu ilə yox, Aralıq dənzi sahillərindəki limanlar vasitəsilə aparılması Rusiya büdcəsinə çox böyük zərbə idi. Digər tərəfdən isə 1639 –cu ilə qədər Səfəvilərlə Osmanlılar arasında getmış müharibə Azərbaycanın həm iqtisadiyyatına, həm də Şamaxı, Bakı, Təbriz, Naxçıvan, Ordubad və s. kimi ticatər - sənətkarlıq mərkəzlərinə çox böyük zərbə vururdu. Lakin bütün bunlara baxmyaraq XVII əsrə aid sənədlərlə tanış olduqca Təbriz, Ərdəbil və Şamaxı kimi şəhərlərdə xam ipəyin geniş miqyasda istehsal edilməsini və onun Rusiya, eləcə də Avropanın müxtəlif şəhərlərinə ixrac edildiyinə əmin oluruq [6,96].

XVII əsrin əvvəllərində isveç – polşa müdaxiləsindən sonra özünə gələn Rusiya Qafqaz uğrunda daha fəal mübarizə aparmağa başladı. Gürcü çarlığı ilə əlaqə yaradan rus çarı tezliklə Qafqazda mühüm amil olan erməni tacirlərini öz tərəfinə çəkmək, eləcə də Şamaxı bazarını və Cənubi Qafqazın ticarət mərkəzi olan şəhərləri ilə əlaqə yaratmaq üçün əhəmiyyətli addımlar atmağa başladı. Göstərilməlidir ki, bu barədə F. Kotovun, A. Olearinin, Y. Streysin, A. Suxanovun, Ş. Şardenin, E. Çələbinin maraqlı məlumatları vardır. XVII əsrin 20 –ci illərindən başlayaraq azərbaycanlı tacirlərin Rusiyaya səfərləri daha da artmışdı. Onlarla birlikdə buraya sənətkar ustalar da gəlir və onların bəziləri həmişəlik Rusiyada qalırdı. 1626 –cı il martın 26 –da Rusiya Gömrük divanxanasının dəftərində edilmiş qeydlərdən bəlli olur ki, buraya azərbaycanlı tacir Xəlil Mahmudov kirşələrlə Moskvaya 14 tay meşin və qumaş, 5 kirvənkə ənlik, 374 kindək (ipək parçadan geyim), 3 kisə başqa mallar gətirmişdilər [2,20].

O dövrlərdə Azərbaycanda saxsı qablar istehsalında da çox yüksək nailiyyətlər qazanılmışdı. Təsadüfi deyildir ki, indi də Dövlət Ermitajında o dövrə aid Azərbaycanda hazırlanmış çoxlu miqdarda yüksək keyfiyyətli saxsı qablar nümayiş etdirilir [5,94].

1639-cu ildə Qəsri-Şirin müqaviləsi imzalanandan sonra Səfəvi-Osmanlı münsibətlərində sülh dövrü başlandı. Bununla əlaqədar olaraq Səfəvilərdə dinc quruculuq dövründə iqtisadiyyatda canlanma özünü qabarıq şəkildə göstərirdi. Bu baxımdan Şamaxının da rolu ipəkçiliyin mərkəzi kimi getdikcə artırdı. Təsadüfi deyildir ki, həmin dövrlərdə, 1633-cü ildə Qolşteyn səfiri Bruqeman Moskva dövlətinin qarşısında Dağıstanın, Azərbaycanın və Gilanın Xəzər sahillərini özünə birləşdirilməsi məsələsini qoymuşdu. Lakin həmin dövrlərdə Moskva knyazlığı Xəzər sahili vilayətləri birləşdirmək

haqqında yox, Cənubi Qafqaz və Dağıstanı öz ticarət – iqtisadi və siyasi nüfuz dairəsində saxlamaq xəttini götürmüşdü. Həmin dövrlərdə yerli hakimlər –Azərbaycan, xüsusilə də Şirvan bəylərbəyi Ruslarla sülh şəraitində yaşamağa çalışır və münasibətləri mürəkkəbləşdirəcək hadisələrdən çəkinirdilər.

Həmin dövrlərdə həm Rus knyazlığı, həm də Səvəfilər qarşılıqlı surətdə ticarət münasibətlərini inkişaf etdirməkdə maraqlı idilər. Belə ki, 1664 – cü ildə şah II Abbasın rus tacirlərinə bir sıra əhəmiyyətli güzəştlərə görə onlar bütün Səfəvi dövləti ərazisində gömrüksüz ticarət etmək hüququna malik oldular. Eləcə də həmin dövrdə rus çarının vermiş olduğu fərmana görə səfəvi tacirləri burada gömrüksüz ticarət etmək hüququna malik olurlar. Təsadüfi deyildir ki, XVII əsrin 80-90-cı illərində Şamaxıda yaşayan yezuit missionerlərinin məktublarında bu şəhərdə Moskoviya və Türkiyə ilə ticarət edən tacirlərin böyük anbarlarının olduğu bildirilir [7,85]. Məktublarda daha sonra göstərilir ki, Moskoviyalıların burada böyük karvan – sarayları, mağazaları var idi ki, burada qalay, mis, aşılanmış dəri, mex və s. gətirib satırılar. O dövrlərdə indiki kimi Rus çarı Səfəvilər tərəfdən gələn ticarət yollarının Rusiya ərazisindən keçərək Qərbi Avropaya getməsi üçün bu işlərdə xüsusilə seçilən erməni tacirlərinə çox güzəştlər edirdi [7,85]. Eləcə də Şah Abbas o dövrlərdə “böyük sürgün”dən sonra İsfahanda erməni tacirləri üçün Kələntər Xaçikin başçılığı altında ayrıca bir məhəllə saldırmışdı. Bir qədər sonra Xaçikin başçılığı altında ermənilər rus çarının yanına nümayəndə göndərərək Qərbi Avropaya getmək üçün Volqa – Xəzər yolu ilə keçərkən güzəştlər istədilər. Rus çarı Fyodor Mixayloviç erməni tacirlərinə güzəçtləri nəzərdə tutan fərmanı imzalayır.

1666 –cı ildə isə ermənilərə məxsus yeniculfa kompaniyası rus çarı Aleksey Mixayloviçə müraciət edərək onlara yükü daşımaq üçün tranzit hüququ verilməsini istəyirlər. Onlar bu müraciətlərində rus çarına bildirirlər ki, bu vaxta qədər onlar Qərbi Avropa ilə ticarət əlaqələrini Türkiyə vasitəsilə həyata keçirirdilər [4,40]. Əgər Aleksey Mixayloviç müvafiq şərait yaradarsa erməni tacirləri Qərbi Avropa ilə ticarət əlaqələrini Volqa – Xəzər yolu ilə həyata keçirərdilər ki, bu da rus knyazının büdcəsinə çox böyük gəlir gətirərdi. Bundan sonra rus çarı 8 maddədən ibarət müvafiq sənəd imzalayır. Bir çox tarixçilərin fikrincə Rusiya və Səfəvilər arasında diplomatik əlaqələrin qurulmasında erməni tacirləri şahın diplomatik nümayəndələri kimi çıxış etmişlər. Rus dövləti erməni kompaniyası ilə ticarət müqaviləsinə (oxu: ümumiyyətlə erməni amilindən) Cənubi Qafqazda və Səfəvilər ərazisində qalıb möhkəmlənmək üçün bir vasitə kimi baxmışdır [4,41]. Lakin bir sıra amillər, xüsusilə kazak quldur dəstələri Xəzərdə ticarət əlaqələrinin inkişafına mane olurdular ki, buna görə də tezliklə rus çarı xüsusi dəniz donanması yaratmağa məcbur oldu. Bu məqsədlə yaradılan ilk rus hərbi gəmisi xüsusi olaraq Hollandiyadan dəvət olunmuş mütəxəssislər tərəfindən XVII əsrin 60 –cı illərində Oka çayinin sahilində inşa edilmiş “Oryol” olur. Göstərilməlidir ki, həmin dövrlərdə S. Razinin başçılığı altında rus kazak dəstələrinin quldurluq hərəkətləri rus və Səfəvi dövlətləri arasında ticarətə mane olurdu. Ona görə də Razin üsyanı yatırıldıqdan sonra bu iki ölkə arasında ticarət əlaqələri daha yüksək sürətlə inkişaf etməyə başlamışdır. Artıq Həştərxandan Dərbəndə, Bakıya və başqa şəhərlərə daim dəstə - dəstə rus tacirləri gəlirdilər. İngilis tacirlərindən R. Conson, A. Kitçin və A. Edvards Xəzər dənizində üzən rus gəmilərini tərifləyir, bildirirdilər ki, gələcəkdə rus gəmilərini daha da qüvvətləndirmək lazımdır[2,22].

Yuxarıda dediklərimizə yekun vuraraq deməliyik ki, orta əsrlərin əsasən orta dönəmində Rusiya ilə, eləcə də buradan keçməklə digər Avropa ölkələri ilə aparılan ticarət əlaqələri həm Azərbaycan, həm də adı çəkilən ölkələr üçün ictimai – iqtisadi, siyasi və mədəni cəhətdən inkişafa çox güclü təkan olmuşdur. Belə ki, Şərqi Avropa və Volqaboyu ölkələrinin tacirlər Dərbənd və Bakı vasitəsi ilə Azərbaycanla ticarət əlaqələri saxlayır, buradan keçib Şərq ölkələrinə gedirilər. Hülakülər dövründə Qazan xan tərəfindən aparılan islahatlar Azərbaycanın iqtisadi və ticarət sahəsində inkişafına təkanverici rol oynadı. Nisbətən sonralar Azərbaycanın Rusiya, eləcə də digər Avropa ölkələri ilə ticarət əlaqələri isə son nəticədə sənətkarlıq, eləcə də mədəniyyət, incəsənət, ədəbiyyat və s. sahələrdə də bir sıra əhəmiyyətli nailiyyətlər qazanmağa imkan verdi. Təsadüfi deyildir ki, məhz həmin dövrlərdə XIII – XIV əsrlərdə Təbrizdə Bağdadın Nizamiyyə mədrəsəsindən sonra Şərqdə ikinci ali məktəb açıldı. 1259 – cu ildə Marağada Nəsirəddin Tusinin rəhbərliyi ilə tikilmiş, həmçinin XIV əsrdə Şam – Qazanda (Təbrizdə) tikilmiş rəsədxanalar Şərqdə nücum elminin mərkəzinə çevrilmişdi. Ticarətin

inkişafı, tacirlər üçün keçib – gedəcəkləri yollar vacib rol oynadığına görə coğrafiya elmi də xeyli inkişaf etdi. Tezliklə bu sahədə Z. Qəzvininin, H. Qəzvininin, Ə. Bakuvinin bir sıra sanballı əsərləri meydana gəldi. Dilçilik sahəsində Hinduşah Naxçıvani və onun oğlu Məhəmməd Naxçıvaninin əsərləri elmi dövriyyəyə daxil oldu. Təsadüfi deyildir ki, elə həmin dövrlərdən də "Azərbaycan dili" termini işlənməyə başlandı. XIII əsrdə Həsənoğlu Şeyx İzzətdinin ilk dəfə Azərbaycan, eləcə də fars dillərində divanlar yaratmasını isə ticarət, sənətkarlıq və mədəniyyətin inkişafının ən yüksək səviyyədə təzahürü hesab etmək olar.

Tarixin nisbətən sonrakı dövrlərində - XVI – XVII əsrlərdə də ticarət və sənətkarlığın inkişafı ilə paralel surətdə mədəniyyət sahəsində də bir sıra əhəmiyyətli nailiyyətlər əldə edildi. Belə ki, XVI əsrdə Təbrizdə böyük bir kitabxana açıldı. I Şah İsmayıl isə Marağa rəsədxanasını bərpa etmək üçün məşhur riyaziyyatçı və astronom Qiyasəddini Marağaya göndərmiş və bərpa işləri başlanmışdı. Filosof Həqirinin, şair Rəhmətinin, I Təhmasibin və I Şah Abbasın saray tarixçiləri olmuş Həsən bəy Rumlunun, İsgəndər bəy Münşinin bir sıra qiymətli əsərləri də məhz bu dövrlərdə meydana gəlmişdi. Həmin dövrlərdə mədəniyyət sahəsində bir sıra digər nailiyyətlər də əldə edilmişdir.

Əlbəttə, mədəniyyət sahəsində yuxarıda göstərilən bütün nailyyətlər ilk öncə ticarət və sənətkarlıq sahəsində əldə edilmiş müvəffəqiyyətlərlə bağlı idi. Çünki adı çəkilən sahələr bir- biri ilə qırılmaz surətdə bağlıdırlar. Qeyd edilməlidir ki, Rusiya və qərb ölkələri ilə əlaqələr nəticəsində təkcə Azərbaycan yox, adı çəkilən ölkələr də qarşılıqlı şəkildə faydalanırdılar. Belə ki, Moskva Kremli də belə hesab edilir ki, Şamaxılı Əli Kərim tərəfindən tikilmişdir. Elə Kreml sözünün də Əli Kərimin adından yarandığı hesab edilir. (Eli Kerim, - Kerim – Kreml).

### İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI


1. *Aşurbəyli S. Şirvanşahlar dövləti. Bakı, Azərnəşr, 1997, 408 səh.*
2. *Quliyev Ə.N. Azərbaycan – Rusiya münasibətləri tarixindən. Bakı, 2015, "Renessans – A" Nəşriyyat Evi, 56 səh.*
3. *Mahmudov Y. Azərbaycan diplomatiyası. Bakı, Təhsil, 2006, 416 səh.*
4. *Алиев Ф. М. Азербайджано-русские отношения, ч. – Баку, Элм, 1985. – 173 стр.*
5. *Гейдаров М. Х. Ремесленное производство в городах Азербайджана в XVII вв. Баку, 1967, Наука, 199 с.*
6. *Гейдаров М. Х. Социально – экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII – XVIII вв. Баку, Элм, 1987, 212 с.*
7. *Гейдаров М. Х. Торговля и торговые связи Азербайджана в позднем средневековье. Элм, 1999. -168 с.*
8. *Гусейнов А. Азербайджано – русские отношения XV – XVII веков. АН Азербайджанской ССР, Баку, 1963, 226 с.*
9. *Махмудов Я. Азербайджан и Европа. Дипломатические отношения в средние века. Москва, 2010. 400 стр.*
10. *Сборник статей по истории по Азербайджана. Вып. 1. Издательство АН Аз. ССР. Баку, 1949. 226 стр.*


**Açar sözlər:** *Azərbaycan, Rusiya, Avropa, iqtisadi əlaqələr, siyasi əlaqələr*



### РЕЗЮМЕ

В этой статье говорится о взаимоотношениях Азербайджана с Европой и Россией в средневековье. В средневековье как Азербайджан играет для России и Европы, так и эти страны играли для Азербайджана важную роль которые обосновывается конкретными фактами.

**Ключевые слова:** *Азербайджан, Россия, Европа, экономические отношение, политические отношение.*

### SUMMARY

This article deals with the relation of Azerbaijan between Russia and European countries, In the Middle ages, Azerbaijan had a great role in Russia and European countries in the Middle ages and at the some time the countries named played a great role for Azerbaijan and there are a lot of concrete facts about this relation,

**Key words:** *Azerbaijan, Russia, Europe, finacial relution, political relation*

УДК 727/479.243/«94-99»

# АЗЕРБАЙДЖАНО-ТАТАРСКИЕ СВЯЗИ В ОБЛАСТИ ПЕЧАТИ В НАЧАЛЕ XX ВЕКА (ДО 1917 Г.).

**ШАРИФЗЯНОВА НИГЯР**
*Диссертант отдела «История азербайджано-российских связей» Института Истории им. А.А. Бакиханова НАНА*

Несмотря на всяческие противодействия со стороны царских чиновников в отношении мусульман в деле печатания и выпуска национальных газет начало XX века, между тем, явилось важным этапом в истории развития печатного дела, как у азербайджанского, так и татарского народов. Нахождение двух народов в составе Российской империи несколько предопределило общий ход истории процесса развития печати, литературы, и имел во многом схожие черты, происходило взаимовлияние. Существуя в рамках единого государства их объединяли общие цели, потребности, проблемы и чаяния нынешней жизни. Особенностью этого периода является неуклонное созревание обще-мусульманского движения народов Российской империи, которое на начальном этапе своего развития ставило перед собой религиозно-культурные и просветительские цели. Сторонники движения джадидизма боролись за всеобщее массовое просвещение, и в особенности за просвещение женщин. В этом отношении пресса играла важную роль. Одним из главных тормозов прогресса народных масс являлось отсутствие на понятном для них языке органа печати. Изданная Гасан беком Зардаби в Баку в 1875 г. газета «Экинчи» явилась первой газетой на тюркском языке во всей Российской империи. Этим было положено начало не только азербайджанской, но и всей тюрко-мусульманской журналистики (2). Издание ее первыми радостно приветствовали именно крымские, поволжские, оренбургские, сибирские татары, так как несмотря на многочисленные попытки их создания прессы на родном языке, так и не увенчались успехом. На имя Казанского губернатора с 60-х гг.XIX века до 1905 года поступило 20 прошений татар с просьбой разрешить им организовать периодические издания на родном языке, однако правительственные органы отвечали отказом, ссылаясь то на якобы некомпетентность издателей, то на невозможность контроля со стороны цензуры за периодическими изданиями на татарском языке (31, с.757). В этот период единственная тюркоязычная газета «Экинчи» сыграла значительную роль в просвещении мусульман России. Но в 1877 г. газета была закрыта российскими властями. После ее закрытия и последовательного закрытия других печатных изданий — «Зия», «Зия-и-Кавказия» и «Кешкюль», в Азербайджане практически отсутствовали газеты для мусульман. Газеты «Каспий», «Бакинские известия» и другие, издававшиеся на средства азербайджанской буржуазии выходили на русском языке. В газетах со статьями часто выступали передовые общественные культурные деятели, но для большинства безграмотного населения, не знающего русского языка они могли оказать лишь незначительное влияние (4, с. 53). На то время единственным печатным органом всех российских мусульман являлась татарская газета «Тарджуман» («Переводчик»), которую крымско-татарский просветитель И.Гаспринский издавал в Бахчисарае (Крым) с 1883 г. Издание газеты стало прорывом в печатном деле мусульман России. Эта газета долгое время была единственным изданием на тюркском языке вплоть до 1905 г. (29, с.66). Газета сыграла неоценимую роль в деле просвещения и европеизации мусульман России, ставила своей целью воспитание всех тюркских народов в духе единства, без различия рода, племени и территории. Благодаря этому вся поволжская и крымско-татарская

интеллигенция пропитывалась идеей единства, этот же дух проникал и на Кавказ (35, с.22). На её страницах печатались видные представители мусульманской интеллигенции, в том числе и азербайджанские, такие как Н. Нариманов, Н.Б. Усуббеков, Ахмед бек Агаев и многие другие. Насиб-бек Усуббеков работал в конторе и редакции «Тарджуман», вместе с сыном и дочерью И.Гаспринского. Насиб-бек Усуббеков в эти годы активно участвовал в литературной и культурной жизни крымских татар (3).

Ввиду отсутствия органов печати на родном языке до 1905 года многие представители татарской интеллигенции вынуждены были публиковать свои статьи в имеющихся тюркоязычных изданиях. Одной из таких газет стала «Шарги Рус», выходившая в Тифлисе с конца марта 1903 г., редактором которой являлся М.Шахтахтинский. Именно здесь татарский писатель Шакир Мухаммедов и татарский публицист Камиль Тухватуллин обогатили опытом свою публицистическую деятельность. Последний уже в 1904 году в Уральске создает литературно-политический журнал «Аль-гаср-аль-Джадид» (8), а в 1905 году являлся издателем и редактором газеты «Фикер». Были найдены многочисленные публикации Шакира Мухаммедова в газете «Шарги Рус» за 1903-1904 гг. Он печатался под собственным именем, а также под псевдонимом «Татар углы» («Сын татарина») (5). В архиве Института языка и литературы им. Г.Ибрагимова Академии Наук Республики Татарстан хранятся письма Ш.Мухаммедова адресованные редактору газеты «Шарги-Рус». Из их содержания известно, что Ш. Мухаммедов не только вел активную публицистическую деятельность с газетой «Шарги-Рус», посредством которой стремился высказать свою точку зрению по отношению к происходящим событиям в обществе, но и являлся постоянным ее подписчиком (6, с.7 ). В газете «Шарги-Рус» публиковались известия о положении мусульман России, Туркестана, Сибири, и, так как Ш.Мухаммедов писал из Оренбурга, то сообщал о положении оренбургских мусульман. Первая из его таких статей была опубликована в 96 номере за 1903 год. В данной статье Ш. Мухаммедов пишет о том, что в Оренбурге много мусульман, но они разделились на две группы – сторонников усули-кадим и сторонников усули-джадид. Приверженцы старого метода обучения, хотя и не все, оспаривают необходимость владения знаниями (26).

Революция 1905 г., провозгласив демократические принципы дала мощный толчок для развития печатного дела мусульман. Рассматриваемый период характеризуется небывалой активизацией российских мусульман в печатном деле, и прежде всего, национальной азербайджанской и татарской периодической печати.

Татарские работники печати и изданий активно участвовали и помогали в развитии азербайджанской печати. Сразу же после первой русской революции А.Топчибашеву Кавказским наместником было разрешено издание газеты «Хаят» в Баку на татарском (азербайджанском) языке. В создании газеты принимали участие все лучшие мусульманские силы из числа пишущих мусульман Кавказа, Крыма, Казани. В виду отсутствия достаточного опыта и нехватки кадров в сфере журналистики их привлекали для работы в печатных изданиях (12). Газета «Хаят», выходившая в Баку с 7 июня 1905 год по 3 сентября 1906 г. сыграла важную роль в развитии азербайджанской национальной печати. Она явилась первой газетой среди мусульманского населения Кавказа, а в Крыму была вторым печатным органом после газеты «Тарджуман» (1, с. 229).

Как в азербайджанской, так и в татарской периодической печати систематически освещались события из жизни двух народов. В газетах имеются различные сведения о новостях в печатном деле и появлении новых газет и журналов. Так, в газете «Каспий» сообщается о том, что в Оренбурге будет выходить новый татарский журнал «Шура» («Совет»), редактором которого будет Рза-Эддин Фахреддинов (15). Там же в последующих номерах сообщается о том, что получен первый номер журнала и в передовой статье определяя направление издания, редактор надеется на то, что он станет путеводителем и воспитательным советом для своего народа. Также в татарском журнале прискорбно упоминается о том, что потерян азербайджанский журнал «Фиюзат»,

издававшийся в 1906-1907 гг. редактором которого был Алибек Гусейнзаде. Р.Фахреддинов высказал с надеждой мысль о том, что новый журнал, явившийся собратом «Фиюзат» быть может заменит его (16). И действительно уже очень скоро журнал приобрел популярность. Как отмечал Газиз Губайдуллин «историко-общественный журнал «Шура» вследствие доступности языка, стал читаться не только татарами, но и всеми передовыми либеральными элементами и борцами против феодальных пережитков и даже закавказских тюрков (азербайджанцев)». В каждом номере журнала сам Фахреддинов помещал статьи по биографии замечательных деятелей мусульманского и тюрко-татарского мира. Одна из статей была посвящена биографии азербайджанско-тюркского тюрколога и востоковеда Казанского Университета Мирза Казем-бека (9, с. 29-30).

Татарские просветители также способствовали распространению азербайджанской печати среди мусульман страны. Татарский проповедник и публицист, а также один из основателей и лидеров общемусульманского движения Абдрашид Ибрагимов в письме к А. М. Топчибашеву от 29 ноября 1904 г. отмечал, что «…газета «Каспий» неся благородную миссию распространения зачатков культуры и прогресса среди мусульман России, а также ознакомления с укладом жизни этих мусульман тех передовых слоев русской интеллигенции, которые этим интересуются искренно - не распространена, однако так широко, как это, по моему убеждению, должно было быть…». Далее он пишет, что причина кроется в том, что у газеты нет постоянных сотрудников-корреспондентов в таких районах России, где преобладающий элемент населения – мусульмане, т.е. татары, башкиры, киргизы и эти районы – Казань, Уфа, Оренбург, Астрахань и др. Он также высказал мысль о том, что если бы на страницах газеты были помещены статьи отражающие интересы этих населенных мусульманами районов, она нашла бы более широкий круг читателей. В связи с этим А.И. Ибрагимов не будучи лично знаком с А.М.Топчибашевым, но имея достаточно хорошее представление о нем по его письмам к нему, а также литературным трудам в газете обратился с предложением рассмотреть кандидатуру Ибниамина Ахтямова (уфимский татарин) в качестве корреспондента – сотрудника для вышеназванных районов. К тому времени И.А. Ахтямов уже состоял корреспондентом «Самарской газеты» и газеты «Уральская жизнь» (37,с.43-44). Уже 12 декабря 1904 г. в «Каспие» под псевдонимом «Инородец» была помещена первая публикация И.А. Ахтямова под названием «Уфимские письма» (11). В письме к А.М. Топчибашеву от декабря 1904 г. И. Гаспринский также пишет о том, что напишет в газете «Тарджуман» о «Каспие» и газете «Шарги Рус», чтобы обратить внимание татар и вызвать корреспондетов (28). Таким образом, несомненно, предложение А. Ибрагимова и инициатива И. Гаспринского оказали добрую услугу как делу общего прогресса среди мусульман, так и лично А.М. Топчибашеву, как редактору газеты «Каспий». Позже в газете «Шарги -Рус», когда газета из Тифлиса была переведена в Баку в 1905 г. (13), по инициативе И.Гаспринского стали помещаться статьи освещавшие жизнь мусульманского населения России – волжских, крымских татар и среднеазиатских народов. Но газета «Шарги-Рус», издателем которой являлся М.Шахтахтинский не разделяла позицию редактора газеты «Тарджуман» И.Гаспринского, который был сторонником использования всеми тюркскими народами турко-османского языка в качестве литературного. В отличие от него М.Шахтахтинский призывал к расширению социальных функций родного языка и развитию у азербайджанцев собственной национальной идентичности (30, с.180 ).

В Баку с марта 1912 года уроженцем Симбирской губернии Санатулла Айнуловым-Ибрагимовым начинает издаваться общественно-политическая и литературная газета «Икбал». Её стали получать взамен газеты «Ени Иршад», вследствие отъезда из Баку её редактора-издателя Юсуфа Ахмедова. Газета ставит своей задачей распространение прогресса среди мусульман. Свободное волеизъявление народа, а также вопросы демократического развития впервые нашли отражение в этой газете. В передовой статье в первом номере С. Айнулов-Ибрагимов говорит о том, что «…мусульмане вместо науки витают в облаках…и

нельзя жить исключительно духовным миром; никак нельзя отделить материальный мир от духовного…». Статья заканчивается словами «Мы ставим задачей работать в области обоих миров. Этим путем мы надеемся достигнуть пути к культуре и прогрессу» (20). Газета также являлась пропагандистом идеи государственной независимости и свободы. На ее страницах публиковались М.Э.Расулзаде, Г.Гаджибеков, Н.Нариманов, Г.Джавид, И. Гаспринский и др. Таким образом, газета «Икбал» являлась первым пропагандистом идей партии «Мусават». С 1914 года ее редактором становится М.Э.Расулзаде (39). С 1917 года после закрытия газеты большинство авторов перешли в газету «Ачыг сёз», которая являлась печатным органом партии «Мусават».

В свою очередь, благодаря усилиям азербайджанской интеллигенции в городах России, где компактно проживало мусульманское население, выходили газеты на родном языке. В Астрахани с 1907-1911 гг. на татарском языке издавалась газета «Бурхани-Таракки» («Свидетельство прогресса») выходцем из Ширвана Мустафа Лютфи Ширванским. (14). Кроме того он являлся основателем в Астрахани мусульманского общества «Шураи Ислам» и директором мусульманской школы «Дарульадаб», где обучались мальчики и девочки (27). Все свои знания и силы он направлял на борьбу с невежественностью и косностью представителей реакционных кругов, старался, чтобы мусульманские дети приобщались к знаниям и культуре. Не зря руководимая им школа называлась «Дарульадаб» - «Храм культуры». По признанию астраханской газеты «Гюнеш» школа являлась родником прогресса и света (22). Вскоре М.Л.Ширванский из-за призыва к культуре и образованию подвергся гонениям со стороны правящих чиновников. По их мнению, чем безграмотнее и невежественнее народ, тем крепче их верноподданнические чувства. В 1908 году М.Л. Ширванский был освобожден от должности директора школы и арестован. Редактором газеты стал его земляк Хабибулла Умар Заде (17). Издававшаяся три раза в неделю газета из-за возникших финансовых затруднений была закрыта и только лишь в 1910 году возобновилось ее издание. Это событие было радостно встречено другими прогрессивными татарскими изданиями. В связи с этим газета «Гюнеш» в своем номере поместила статью Мухаммеда Садига, в которой говорится о том, что «закрытие «Бурхани-Таракки» отрыло широкий простор для нападок темных и безграмотных эфенди на школы и прочие образовательные учреждения». После длительных обсуждений татарские представители прогрессивных кругов и интеллигенции Астрахани создали общество и, обеспечив расходы на год продолжили издание «Бурхани-Таракки» (22). Мустафа Лютфи Ширванский являлся также редактором и издателем газеты «Хамийет» («Покровительство»). Она выходила на татарском языке с начала 1907 г. в Астрахани (14). Вся деятельность Мустафы Лютфи и как педагога и как редактора газет была направлена на пробуждение масс из спячки невежества.

Н. Нариманов в период ссылки в Астрахань был известен не только как врач, общественный деятель и деятель в области театра, но и как литератор и журналист. Он часто среди рабочих татар, киргизов и других, читал массовые лекции, всячески старался помогать просвещению народа (23). Весь его период пребывания в качестве ссыльного в течение 5 лет связан с общественно-политической и культурно-просветительской деятельностью и занимает один из важных периодов его такой деятельности. После прибытия в Астрахань в газете «Бурхани-таракки» появляется статья под названием «Доктор Нариман бек», в которой дается весьма лестная характеристика Н. Нариманову как общественному деятелю и врачу. Обращаясь к нему от имени астраханцев, газета просит чувствовать Н. Нариманова в Астрахани не ссыльным, а самым желанными дорогим человеком (21). Другая астраханская газета «Идель» также посвятила специальную статью Н. Нариманову, в которой сообщалось о его общественной и литературной деятельности. Едва Н.Нариманов поселился в Астрахани, как сразу же развертывает энергичную просветительскую работу: активно сотрудничает в газетах, занимается литературной деятельностью. В эти годы в Астрахани издается целый ряд газет, в

которых Н. Нариманов принимал участие – «Астраханский листок», «Астраханский край», «Астраханский вестник», «Бурхани-таракки», «Прикаспийский край» и другие. Ряд статей Н. Нариманова, написанных и опубликованных в газете «Прикаспийский край», перепечатывались на татарском языке в газете «Бурхани-таракки». В 39-м номере газеты «Прикаспийский край» сообщалось, что с декабря в газете открывается мусульманский отдел и что им будет руководить знаток мусульманской жизни, популярный мусульманский литератор Н. Нариманов. В этом же номере была помещена статья Н. Нариманова «Женское образование среди мусульман». В этой статье автор показывает тяжелое положение мусульманских женщин и высказывался против служителей культа. В другой статье «Еще о женском вопросе» Н. Нариманов поднимает свой голос против мулл и духовенства, являющихся противниками прогресса мусульманских женщин (33, с.55-56).

В газете «Бурхани-таракки» Н. Нариманов руководил отделом науки. Посредством астраханской печати он оказал неоценимые услуги в медицинской науке. На страницах этой газеты систематически появляются статьи Н.Нариманова по вопросам медицины, борьбы с болезнями и медицинского просвещения масс. (22). Таким образом, Н. Нариманов боролся не только за духовное, нравственное возрождение нации, но также и за физическое благополучие народных масс. Так в 123-м номере газеты «Прикаспийский край» Н. Нариманов поместил статью «К открытию лиги по борьбе с туберкулезом в г. Астрахани», в которой призывал вести пропаганду на татарском, азербайджанском и русском языках о путях борьбы с туберкулезом и его предотвращением. О большой популярности этих статей говорит тот факт, что газета издает их в виде отдельных брошюр (33, с.57).

Имя выдающегося татарского общественно-политического деятеля Мирсаида Хайдаргалиевича Султан-Галиева также связано с Баку, где поначалу он работает учителем и библиотекарем, а затем в качестве журналиста и тесно сотрудничает с местной прессой. В годы учебы в Казанской учительской школе, которую он окончил в 1911 году, на его глазах набирало силу движение джадидов и именно это оказало влияние на формирование его убеждений. В эти же годы он сотрудничал с газетой «Тарджуман» и другими изданиями близкими к партии «Иттифак-аль-муслимин». Таким образом, он несомненно, примыкал к джадидам. Работая в качестве журналиста, в своих статьях поначалу он затрагивал в основном вопросы, касающиеся просвещения и образования, а после 1917 года его статьи носят сугубо политический характер. Этот факт также подтверждает то, что он являлся последователем движения джадидов. С 1915 года он переезжает в Баку, где на нефтяных промыслах работало много татар (32, с.9), и публикуется под псевдонимом «Кельке-баш», «Мирсаит». В газетах «Кавказское слово», «Каспий», «Баку», «Кавказская копейка» пишет статьи, репортажи, зарисовки, фельетоны о жизни татар. В его статьях рассматриваются вопросы культуры и образования мусульман (24,25). М.Султан-Галиев писал многочисленные статьи на тему армяно-азербайджанского конфликта и активно освещал этот вопрос. Писал много обращений к русским, армянам, грузинам о нуждах и чаяниях мусульман. Он составлял обзор азербайджанских газет и публиковал их в местных русскоязычных газетах. В Баку М.Султан-Галиев был одним из учредителей газеты «Известия Бакинских мусульманских общественных организаций» (34, с. 53-70). Она начала выходить в качестве приложения к газете «Каспий» с конца апреля 1917 года. В газете активно публиковались статьи, пропагандирующие национальные идеи.

В тюркской прессе в начале XX века особенно активно освещались темы о положении мусульманской женщины в обществе. Если в конце XIX века начинается только поднятие вопроса об образовании мусульманской женщины и ее положения в обществе, то уже в начале XX века заметно проявляется активный интерес и участие самих женщин в этом вопросе. В связи с этим стали появляться издания женских журналов, а также первые женщины журналистки. В этих журналах активно пропагандировали просвещение женщин, вопросы женского образования, ее раскрепощения, а также приобщения ее к общественной жизни. Впервые такую попытку

предприняла спутница жизни И. Гаспринского Зухра, происходившая из казанского татарского рода Акчуриных, трудившаяся и помогавшая ему в редакции газеты «Тарджуман». Она стала издавать женский журнал «Тербие» в 1887 году, тем самым став одной из первой мусульманкой-журналисткой. (36, с. 5). Но вскоре издание журнала запретили со стороны российских властей. Одноименный женский журнал «Тербие» стал выходить в Казани в 1908 году, который нашел широкую читательскую аудиторию на Кавказе. Издательницей являлась Фахри-бану Казакова, а редактором Г.Саинов (18). Но еще до этого в 1905 г. И.Гаспринский стал издавать первый в мире тюрко-мусульманский женский журнал «Алеми Нисван» на крымско-татарском языке, редактором которого была его дочь Шефика Гаспринская. С ее именем связано женское мусульманское движение, лидером которого она являлась. Основным фактором этого движения явилось развитие светской системы образования и воспитание нового поколения мусульманок стремившихся к более активной общественно-политической роли. Так как журнал издавался как бесплатное еженедельное приложение к газете «Терджуман», несомненно, он получил популярность и среди азербайджанок. В 1905-1914 гг. повсеместно начинают создаваться женские общества, а газета «Тарджуман» и журнал «Алеми нисван» особое внимание читателей обращают к информации о настоящем положении женского населения в разных регионах России, Кавказа и Средней Азии, поднимают такие вопросы, как получение образования мусульманками, возможность открытия для них специальных школ. В 1911 году вышел последний номер журнала. В Баку эстафету по изданию женского журнала приняла Хадиджа ханум Алибекова. В 1911 г. она организовала журнал под названием «Ишыг» («Свет») (2, с.366). Это было первое печатное издание для женщин не только в Азербайджане. Газета пользовалась популярностью среди мусульман всей России. Об этом свидетельствует тот факт, что около 200 экземпляров газеты отправлялись подписчикам за пределами Кавказа (10,с.28;38). Издание просуществовало недолго, всего один год, но на его страницах получил отражение женский взгляд на проблемы дискриминации в мусульманском обществе. Редакторами и авторами статей журнала в основном были женщины. Среди сотрудниц журнала была молодая азербайджанская поэтесса Сона ханум Ахундова (21). Красной нитью, также как и в журнале «Алеми Нисван» проходила идея просвещения женщин, ликвидация неграмотности, открытию образовательных курсов и женских клубов, повышение культурного уровня, равноправия, призыв к участию в общественной жизни.

Таким образом, в рассматриваемый период наблюдается взаимовлияние деятелей в области печати обоих регионов, а также их совместная активная деятельность в деле просвещения мусульман посредством прессы. Из всего вышесказанного следует подытожить, что в связи с развернувшимся движением джадидизма и активным освещением женского вопроса, началось постепенное приобщение женщин к общественной жизни, а также участие самих женщин в деле печати. Все это явилось результатом совместной работы проделанной тюрко-татарской интеллигенцией, где пресса сыграла исключительную роль. Активная деятельность азербайджанской и татарской интеллигенции заняла ключевую позицию в развитии мусульманской демократической прессы, а также в деле просвещения и пропаганды всеобщего образования мусульман России в начале XX века.

**Ключевые слова:** *азербайджанская и татарская периодическая печать, женские журналы, публицистическая деятельность.*

**Список использованной литературы:**

1. *Azərbaycan tarixi 7 cilddə. Cild 5(1900-1920-ci illər).-Bakı:Elm,2001.,672 s.*

2. *Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası iki cilddə. I cild. Baş redaktor Yaqub Mahmudov. Bakı-2004*

3. *Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası iki cilddə. II cild. Baş redaktor Yaqub Mahmudov. Bakı-2005*

4. *Köçərli F.N.Nərimanov: fəaliyyəti, həyati və dünyagörüşü. Bakı, 1965*

5. *Qaynullin M.Tatar-Azərbaycan ədəbi*

*əlaqələrinə dair./ "Azərbaycan" jurnalı, № 3, mart 1967-ci il.*

*6. Агаев И. Из истории национально-политической мысли Азербайджана. Баку, 1992 г.*

*7. Гарифуллина Венера Инсуровна. Идейно-художественное своеобразие творчества Шакира Мухаммедова. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. Казань 2009 г.*

*8. Гасанова Манзар. Габдулла Тукай и азербайджанское литературоведение.*

*9. Губайдуллин Г. Развитие исторической литературы у тюрко-татарских народов./ Выступление на Первом Всесоюзном Тюркологическом съезде.*

*10. Гусейнова Д.С. Азербайджанская интеллигенция в конце XIX-начале XX вв. // Автореф. дисс. докт. ист. наук. – Баку, 1993. С. 28.*

*11. Газета «Каспий», 12 декабря 1904 г.*

*12. Газета Каспий, № 80, апрель 1905 г.*

*13. Газета Каспий, №18, январь 1905 г.*

*14. Газета «Каспий», №43, февраль 1907 г.*

*15. Газета Каспий № 6, январь 1908 г.*

*16. Газета Каспий, №18, январь 1908 г.*

*17. Газета «Каспий», №48, февраль 1908 г.*

*18. Газета «Каспий», № 67, март 1908 г.*

*19. Газета «Каспий», №17, 1911 г.*

*20. Газета «Каспий», № 54, март 1912 г.*

*21. Газета «Бурхани-таракки», 11 октября 1909 г.*

*22. Газета «Молодежь Азербайджана», 31 августа 1991г.*

*23. Газета «Бакинский рабочий» № 63, 22 марта 1925 г.*

*24. Газета «Баку», №237, 1916 г.*

*25. Газета «Баку», №202, 1916 г.*

*26. Газета «Шарги-Рус», № 96, 1903 г..*

*27. ГААО, ф.1, оп.12, д.722; ф.286, оп.2, д.297; ф.1, оп.2, д.1730, л.8.*

*28. ГААР. Ф.3172. Оп.1. Д. 2. Л. 49.*

*29. Исхаков С.М. Первая русская революция и мусульмане Российской империи. Москва, 2007 г.*

*30. История общественно-культурного реформаторства на Кавказе и в Центральной Азии (XIX – начало XX века).Самарканд,2012. стр.180*

*31. История татар с древнейших времен в 7 томах. Том 6. Казань 2013.*

*32. Ибранные труды. Мирсаит Султан-Галиев, Казань 1998 г.*

*33. Казиев М. Н. Нариманов (жизнь и деятельность). Баку, 1970 г.*

*34. Ланда Р.Г.Мирсаид Султан-Галиев. Вопросы истории, № 8, Август 1999.*

*35. Мухаммед Гаяз Исхаки. 2004, №8*

*36. Таиров Наиль. Акчурины. Казань, 2002.*

*37. Топчибаши А.М.: документы из личных архивов 1903-1934 гг./ Сост. предисл.и прим. Исхаков С.М. М., 2012 г.*

*38. www.kaspiy.az/news. Газета «Каспий», 19.12.2014.*

*39. www.ourbaku.com*

## XÜLASƏ

**XX əsrin əvvəllərində mətbuat sahəsində azərbaycanlıların tatarlarla əlaqələri (1917-ci ilə qədər)**

**Şərifzyanova Nigar Xaris qızı**

Məqalədə XX əsrin əvvəllərindən 1917-ci ilə qədər mətbuat sahəsində azərbaycanlıların tatarlarla münasibətləri ətraflı araşdırılır. Milli demokratik mətbuatın inkişafındakı, habelə Rusiya bütün müsəlmanlarının xalq maarifləndirmə işinin təbliğatında azərbaycan və tatar publisist xadimlərinin rolu və əhəmiyyəti açıqlanır.

**Açar sözlər:** *azərbaycan və tatar dövri mətbuatı, qadın jurnalları, publisistik fəaliyyəti.*

## RESUME

**Azerbaijan-Tatar relations in the field of press at the beginning of the XX century (until 1917).**

**Sharifzyanova Nigar**

The article examines in detail the Azerbaijan-Tatar relations in the field of the press at the begining of the 20th century until 1917. The role and significance of the joint journalistic activities of the Turkic-Tatar leaders in the development of the national democratic press, as well as the propaganda of universal public education and enlightenment of Muslims of Russia are revealed.

**Key words:** *Azerbaijani and Tatar periodicals, women's magazines, journalistic activities.*

UOT 39; 572.9

# Etnoqrafiya və tarixi antropologiya

## MULTİKULTURAL MEDİA: AZƏRBAYCANDA YAŞAYAN XALQLARIN MƏTBUATI

**NİYAZ NİFTİYEV**
*Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü, araşdırmaçı-jurnalist*

Azərbaycanda yaşayan hər hansı bir azsaylı xalqın öz media orqanını təsis etməkdə problemi yoxdur. Bu cür KİV-lər əsasən, təşkilatlara məxsus olur, bütün etnik təşkilatlar isə cəmiyyət formasındadır. Multikultural subyektlərin mətbuat tarixini araşdıranda onların heç də hamısının maliyyə imkanlarının o qədər də yaxşı olmadığını müşahidə edirik. Amma bütün çətinliklərə baxmayaraq, onların bəziləri ayda bir dəfə də olsa öz qəzetləri, hər gün yenilənən saytları ilə özləri haqqında cəmiyyətə informasiya ötürə bilirlər. Çap mediasına imkanı çatmayanlar isə internet resurslarından və yaxud da sosial şəbəkələrin imkanlarından istifadə edərək müxtəlif mövzularla cəmiyyətə öz mesajlarını çatdırırlar. Onların yazılı və internet yayım mediası ilə tanış olduqda bunu aydın görə bilərik.

Azərbaycan dövləti də ölkədə yaşayan milli azlıqların, azsaylı xalqlar və etnik qrupların öz KİV alətlərini açmasında maraqlıdır. Ayrı-ayrı zamanlarda da dövlət bu kimi media orqanlarının maliyyələşməsində mühüm rol oynayıb.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 31 iyul tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasının "Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin sahələri" (V) bölməsində dövlətin, əsasən, hansı sahələr üzrə proqram və layihələrin həyata keçirilməsini dəstəklədiyi xüsusi qeyd olunur. Burada da "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" xüsusi bənd kimi göstərilir. (1)

Azərbaycanda rəqəmsal yayıma keçidlə əlaqədar Şimal bölgəsində (bu bölgədə milli azlıqlar kompakt halda yaşayır) yeni rəqəmsal avadanlıqlar quraşdırılıb. Ölkənin bu bölgəsini (Şabran, Quba, Qusar və Xaçmaz) rəqəmli televiziya ilə təmin etmək üçün Xaçmazın Yergüc kəndində 77 metr hündürlüyündə radio və televiziya qülləsində rəqəmsal cihazlar istifadəyə verilib. Bu cihazlar vasitəsilə təkcə, Qubanın 40-dan çox dağlıq kəndi artıq peyk antenalarından istifadə etmədən ölkədə yayımlanan TV-lərə çox rahatlıqla baxa bilirlər. Yəni Şabran-Quba-Qusar-Xaçmaz-Yalama və Nabran ərazisində bu məsələ ilə bağlı heç bir problem yoxdur. Ölkənin hər yerində olduğu kimi, müasir telecihazlar rəqəmli tezliyi birbaşa paket şəklində qəbul edir, köhnələrdə isə dekoderlərdən istifadə olunur.

"Sputnik Azərbaycan"ın 1 yaşı ərəfəsində (25 may 2016) Prezidentin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov agentliyin suallarını cavablandırarkən ölkədəki rus dilli medianın perspektivlərindən bəhs etmişdi. Ə.Həsənov qeyd etmişdir ki, media dinamik və innovativ yeniliklərə daha açıq olduğundan, orada cəmiyyətlərimizdə hökm sürən əhval-ruhiyyə, qarşılıqlı əlaqələrin xarakteri qabarıq formada özünü göstərir: "Bilirsiniz ki, Azərbaycan cəmiyyətinin bir hissəsi, xüsusilə intellektual təbəqə uzun illərdir rus dilində informasiya alır, bu dildə yenilikləri mənimsəyir. Çünki Sovet İttifaqı dağıldıqdan sonra bir çox post-sovet respublikalarından fərqli olaraq, Azərbaycanda rus dilinin əhəmiyyəti, ona olan maraq azalmadı. Ölkəmizdə rusdilli ali və orta məktəblər fəaliyyətini davam etdirdi, bir çox təhsil ocaqlarında rus sektorları vardır. Azərbaycanda çoxlu sayda rus dilində media orqanı fəaliyyət göstərir, aparıcı internet resurslarının isə rusdilli versiyaları mövcuddur. Əlbəttə, bütün bunlar Azərbaycanda rus xalqına, onun mədəniyyətinə və dilinə olan hörmətin əyani təzahürüdür".

10 mart 2017-ci ildə Milli Məclisin plenar iclasında "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanun layihəsinə dəyişikliklər qəbul olundu. Qəbul olunan dəyişikliklərin biri də "Zorakılığın və dini ekstremizmin təbliğinə dair məlumatlar, milli, irqi və ya dini

nifrət və düşmənçiliyin salınmasına, dövlətin konstitusiya quruluşunun zorla dəyişdirilməsinə, ərazi bütövlüyünün parçalanmasına, hakimiyyətin zorla ələ keçirilməsinə və ya saxlanmasına, kütləvi iğtişaşların təşkil edilməsinə" yönələn açıq çağırışların qadağan edilməsidir.

Bu gün Azərbaycanda təkcə 60-a yaxın mətbu və şəbəkə nəşri, habelə 7 böyük informasiya agentliyi rus dilində fəaliyyət göstərir.

AzərTAc-ın Moskvadakı xüsusi müxbiri Fəridə Abdullayeva 10 oktyabr 2015-ci il tarixdə, "Xalq qəzeti"ndə dərc etdirdiyi "Rusiya-Azərbaycan: vahid informasiya məkanına doğru hərəkət amilləri" məqaləsində qeyd edir ki, Azərbaycan KİV-nin ümumi sayının, təxminən, 15 faizini "rus sektoru" təşkil edir: "Bunun praktikada nə demək olduğunu nümayiş etdirmək üçün statistik göstəricilərə müraciət edək: "AzərTAc-ın saytına müraciətlərin sayına görə, Azərbaycandan sonra ikinci yeri Rusiya tutur. Bundan əlavə, həmin saytın rusdilli versiyasına ən çox müraciət edənlər Rusiyadan olan istifadəçilərdir. AzərTAc-ın video saytında rus dilində xüsusi reportajlar, müsahibələr və başqa materiallar yerləşdirilir. Burada da Rusiyadan olan istifadəçilərin sayı başqa dillərdə olan bölmələrlə müqayisədə xeyli çoxdur".

Ölkədə yaşayan ləzgilər bu məsələdə çox fəaldırlar. 1992-ci ildə yaratdıqları "Samur" qəzetinin ilk redaktoru jurnalist Feyruz Bədəlov olub. Onun redaktor olduğu 8 ay ərzində qəzetin 24 sayı işıq üzü görüb. Bundan sonra incəsənət elmləri doktoru Nurəddin Həbibov redaktor təyin olunub. Onun redaktorluğu dövründə qəzet fasilələrlə 21 dəfə çıxıb. 1997-ci ildə yazıçı-jurnalist Sədaqət Kərimova "Samur"un baş redaktoru kimi fəaliyyətə başlayıb. Qəzet ləzgi xalqının tarixindən, mədəniyyətindən, dilindən, adət-ənənələrindən, problemlərindən bəhs edir. 1997-2007-ci illərdə 68 gənc müəllifin əsərləri ilk dəfə olaraq "Samur" qəzetində işıq üzü görüb. Artıq, həmin yazarlardan bir neçəsinin ayrıca kitabları çap olunub. 2000-ci ildə redaksiya öz hesabına gənc şairlərin əsərlərindən ibarət "Yaxşı yol!" adlı şeirlər kitabını oxuculara təqdim edib. Qəzetin baş redaktoru Sədaqət Kərimovanın təşkil etdiyi ləzgi dili kurslarında onlarca gənc ana dilində yazıb-oxumağı öyrənib.

Samurpress.net "Samur" qəzetinin rəsmi saytıdır. Saytda "Samur" qəzetinin yayımladığı məlumat və xəbərlər yerləşdirilir. Bundan əlavə, saytda müxtəlif reportajlar, fotolar və videolar yayımlanır. Samurpress.net saytı da öz məlumat və xəbərlərini qəzetdə olduğu kimi, üç dildə - Azərbaycan, ləzgi və rus dillərində yayımlayır. (2)

"Qusar" (ləzg. КцIар) - 1932-ci ildə Hil (indiki Qusar) rayon partiya təşkilatı və rayon Fəhlə, kəndli və əsgər Deputatları Soveti İcraiyyə Komitəsinin orqanı kimi "Sosializm tempi" adı ilə ləzgi dilində nəşrə başlayıb. Daha sonra "Qızıl Qusar" adlanıb, ilk redaktoru Nurəddin Şərifov olub. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qəzet "Qusar" adlanıb və səhifələrində isə rayonda, ölkədə və dünyada baş verən yeniliklər barədə məlumatlar verilir. "Qusar" respublikanın rayon qəzetləri sırasında birinci olaraq ofset çap üsuluna keçmiş, tərtibatını təkmilləşdirmiş, öz kompüter mərkəzini yaratmışdır. Məhz, buna görə, ən çətin anlarda belə fəaliyyətini davam etdirmiş, kiçik bir kollektivin zəhməti ilə oxuculara fasiləsiz olaraq maraqlı saylar təqdim edilmişdir. Hazırda, qəzet Azərbaycan və ləzgi dillərində Qusar rayon İcra Hakimiyyəti başçısının Aparatı və Redaksiya Kollektivinin dəstəyi ilə çap olunur, iki dildə - Azərbaycan və ləzgicə materiallar verir. Ləzgi dilində materiallar, əsasən qəzetin 3-cü və 4-cü səhifələrində işıq üzü görür. Qəzetin http://www.gusarpress.com/ saytı daimi yenilənir. Saytda qəzetin hər sayının PDF forması yerləşdirilir, "Xəbər Lenti"ndə qəzetdə gedən başlıqlar həm Azərbaycan, həm də ləzgi dilində təqdim olunur. Saytda qəzetin 2011- 2017-ci illərdə çıxan sayları da arxivləşdirilib. (3)

Alamjurnal.az "АЛАМ" jurnalının tanıtım və xəbər saytı kimi fəaliyyət göstərir. Burada ləzgilərin gündəlik həyatına, mətbəxinə, mədəniyyətinə, görkəmli nümayəndələrinə aid müxtəlif aktual xəbər və məlumatlar rus və ləzgi dillərində yayımlanır. Yazılı materiallarla yanaşı, saytda foto və video materiallar da paylaşılır. (4)

Azərbaycanda yaşayan udilərin də internet saytı mövcuddur. Udi.az saytı Alban-Udi Xristian Cəmiyyəti tərəfindən 10 aprel 2003-cü ildə yaradılıb. Həmin ilin 26 may tarixində isə cəmiyyət keçirdiyi təqdimat konfransında özünü rəsmən elan edib. Daha sonra isə cəmiyyətin rəsmi saytı - udi.az fəaliyyətə başlayıb. Bu saytda albanlar və udilərin tarixi, mədəniyyəti və məişəti haqda geniş məlumatlar yayımlanır. Cəmiyyətin ən son xəbərləri ilə də bu saytın köməyi ilə tanış olmaq mümkündür. Saytda Azərbaycan və rus dillərində müxtəlif səpkili məlumatlar yerləşdirilir. (5)

Udilərə aid başqa bir sayt isə http://www.udi-ocag.az/az/ adlanır. Bu sayt vasitəsi ilə də maraqlı informasiyalar, yeniliklər əldə etmək mümkündür. (6)

“Axısxa” qəzeti Azərbaycanda Yaşayan Axısxa Türkləri “Vətən” İctimai Birliyinin rəsmi mətbuat orqanı kimi 2012-ci ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. 2012-ci ildən nəşr olunan “Axısxa” qəzetinin təsis edilməsində heç bir çətinlik olmayıb. Azərbaycan dilində çap olunan qəzetin səhifələrində “Vətən” İçtimai Birliyinin gördüyü işlər, Azərbaycan və digər ölkələrdə yaşayan Axısxa türkləri haqqında məlumatlar işıqlandırılır.

İctimai Birliyin http://ahiska.az/ saytı da fəaliyyət göstərir. (7)

“Vestnik” (Carçı) qəzeti 1994-cü il aprelin 20-də qeydə alınıb. Rübdə bir dəfə olmaqla Azərbaycan Rus İcmasının (sədr deputat Mixail Zabelindir) üzvləri üçün nəşr olunur. İcmanın digər mətbu nəşri olan “OKO” qəzeti isə 2007-ci ilin dekabr ayında qeydə alınıb. 4500 nüsxə tirajla ölkə əhalisi arasında yayımlanır.

Roa.az 2015-ci ildən Azərbaycandakı Rus İcmasının saytı kimi fəaliyyət göstərir. Saytda respublikamızın daxili həyatı və rus icmasının fəaliyyəti haqda geniş məlumatlar yayımlanır. Rus icmasının iş fəaliyyəti - tədbirləri, icma rəhbərliyinin çıxışları, məqalələri, müraciətləri saytın ana xəttini təşkil edir. (8)

Polonia-baku.org saytı “Poloniya - Azərbaycan” Polşa İcmasının fəaliyyətini əks etdirən rəsmi sayt kimi fəaliyyət göstərir. Saytda Azərbaycanda yaşayan polyaklar haqda ətraflı məlumat əldə etmək mümkündür. Sayt öz məlumatlarını 3 dildə - polyak, Azərbaycan və rus dillərində əhaliyə çatdırır. Saytda Azərbaycanda yaşayan polyakların gündəlik həyatı, mədəniyyəti və s. haqda müxtəlif məlumatlar yerləşdirilir, eyni zamanda, Azərbaycanda baş verən mühüm hadisələrə də yer verilir. Məsələn, Xocalı faciəsi günü sayt bu faciəni əks etdirən şəkillər paylaşır və baş vermiş qanlı hadisələr haqda ictimaiyyəti məlumatlandırır. Burada Azərbaycanda yaşayan polyaklar haqda ən vacib və son xəbərlər verilir. (9)

Azərbaycanda yaşayan talışlarında müxtəlif illərdə qəzet və saytları çap olunub. Onların bəziləri indi də fəaliyyət göstərir. “Tolışi sədo” (Talışın səsi) qəzetinin ilk sayı 20 fevral 1992-ci ildə Bakı şəhərində 8501 tirajla çapdan çıxıb. 2001-ci ilin iyul ayından başlayaraq “Tolışon sədo” adlı başqa bir qəzet çap olunub. “Tolışi sədo” ilə “Tolışon sədo” mətbu nəşrləri arasındakı yerdəyişmənin maraqlı tarixçəsi var. Talışların mətbuat tarixini tədqiq edən Allahverdi Bayramidən aldığımız məlumata görə (müəl. – N.N), 2011-ci ilin iyun ayında qəzetin baş redaktoru N.Məmmədovla məsul katibi R.Cəlilovun münasibətləri pozulur. Baş redaktor elan edir ki, o, daha qəzet nəşr etməyəcək. R.Cəlilov isə “Tolışi sədo” qəzetinin atributlarını cüzi fərqlə saxlayaraq “Tolışon sədo” adlı yeni qəzeti qeydiyyatdan keçirir. “Tolışon sədo” qəzeti talış dili, ədəbiyyatı və mədəniyyəti ilə yanaşı, ictimai-siyasi mövzulara da vaxtaşırı müraciət edib.

Bu gün talışlara aid müntəzəm çıxan qəzetlərin sırasında “Dodo” fərqlənir. Qəzetin baş redaktoru İradə Məlikovadır. Qəzet təkcə talışlar deyil, ölkədə yaşayan digər azsaylı xalqlarla da bağlı maraqlı məlumatlar yayır.

Hazırda, talışlar internet resurslarının - saytların, sosial şəbəkələrin imkanlarından geniş istifadə edirlər: “Tolış.info”, “Tolış.org”, “TolışPress.org”, “Tolışi Kə”, “Tolışi poeziya”, “Toloşon”, “Əmə tolışonimon”, “Tolışə şairon”, “Tolışə şeiron” və s.

Avestatalysh.worldpress.com saytı öz xəbər və məlumatlarını ingilis, rus və Azərbaycan dillərində izləyicilərinə çatdırır. Burada talış xalqının gündəlik həyatı, Azərbaycanda baş verən mühüm hadisələr haqda məlumatlar verilir. (10)

“Aləm” jurnalı 2016-cı ilin oktyabr ayından fəaliyyət göstərir, talış və Azərbaycan dillərində nəşr olunur. Jurnal talış dilinin, ədəbiyyatının və mədəniyyətinin tədqiqi və təbliği ilə məşğuldur.

Avarulia.worldpress.com Azərbaycanda yaşayan etnik avarlara məxsus olan saytdır. Saytın “Kateqoriyalar”, “Son yazılar” və “Arxiv” bölmələri vardır. Saytda axtarış aparmaq üçün xüsusi “Axtar” bölməsi yaradılıb. Yayımlanmış yazılara şərhlər vermək mümkündür. (11)

Shahdagpeoples.az əsasən, Şahdağda yaşayan xalqlar haqda üç dildə - Azərbaycan, rus, ingilis dillərində məlumat və xəbərlər yayımlayan etnotanıtım - xəbər saytıdır. Saytda daimi olaraq Şahdağ xalqlarının gündəlik həyatı və mühüm hadisələrlə bağlı xəbərlər verilir, həmçinin, bu ərazilərin mənzərəli yerlərini əks etdirən fotolar yerləşdirilir. Saytın “Rəsmi” rubrikasında etnik azlıqlara aid müxtəlif sənədlər, qanunlar və digər ölkə saytlarının Azərbaycan və bu ölkədə yaşayan milli azlıqlar haqda yazdıqları məqalələr haqda

məlumatlar verilir. “Şahdağ xalqları” bölməsində bu ərazidə yaşayan “Buduqlar”, “Qrızlılar”, “Xınalıqlar”, “Əliklilər”, “Yergüclülər”, “Haputlular” və “Ceklilər”in gündəlik həyatları haqda məlumatlar, foto və videolar yayımlanır. “Digər bölgə əhalisi” bölməsində isə “Ləzgilər”, “Türkdillilər”, “Yəhudilər” və “Tatlar” haqda müxtəlif xəbər və məlumatlar yerləşdirilir. “Layihələr” bölməsi isə boşdur. “Əlaqələr” bölməsində saytla əlaqə vasitələri qeyd olunub. Saytda axtarışın aparılması prosesini asanlaşdırmaq üçün “Axtar” bölməsi də mövcuddur. Saytın “Son xəbərlər” lentində isə ən son xəbərlərlə tanış olmaq olar. (12)

Facebook sosial şəbəkəsindəki “Şahdağ xalqları” səhifəsi shadagpeoples.az saytının rəsmi Facebook səhifəsidir.

Azərbaycanda yaşayan kürdlər mətbuatda iki qəzetlə təmsil olunur. Bunlar - müstəqil qəzet kimi nəşr edilən “Diplomat” və “Ronahi” Kürd Mədəniyyət Mərkəzinin mətbuat orqanı olan “Dənge kurd” (Kürdün səsi) qəzetləridir. Dövlətin maliyyə dəstəyi ilə Azərbaycan radiosunda həftədə üç dəfə olmaqla, 15 dəqiqə kürd dilində radio veriliş yayımlanır.

Stmegi.com STMEGİ Fondunun rəsmi saytıdır. Burada Fond və Dağ yəhudiləri haqqında müxtəlif xəbər və məlumatlar, foto və video materiallar yayımlanır. Eyni zamanda, saytda beynəlxalq xəbərlər də yerləşdirilir. Burdakı yazılar rus, ingilis və yəhudi dillərində ictimaiyyətə təqdim olunur. Saytın 7 əsas bölməsi var: “Fond”, “Xəbərlər”, “STMEGİ TV”, “STMEGİ Junior”, “Dağ yəhudiləri”, “İudaizm” və “Fikirlər”. Dağ Yəhudilərinin Beynəlxalq Fondu Rusiyada daimi əsaslarla fəaliyyət göstərir, İsrail, Azərbaycan və ABŞ-da isə Fondun filialları vardır. Hazırda, Çində və Avropada fəaliyyət göstərmək üçün proqram hazırlanır. STMEGİ Fondu Dağ yəhudilərinin mədəniyyəti haqda disklərin, kasetlərin buraxılmasını və yayılmasını, eləcə də Azərbaycanda “Birlik - Единство”, ABŞ-da “Yeni Üfüq”, İsraildə “Qafqaz qəzeti” qəzetlərinin maliyyələşməsini həyata keçirir. (13)

“Soxnut” Yəhudi cəmiyyəti “Əziz”, “Azİz” Azərbaycan-İsrail Dostluq Cəmiyyəti “Azərbaycan-İsrail” adlı qəzetlərini, Qırmızı Qəsəbədəki “Yedinstvo” (“Birlik”) cəmiyyəti isə “Qudyal” adlı jurnal nəşr edir.

“Birlik-Yedinstvo” qəzeti 2002-ci ildən Qubada nəşr olunur. Qəzet dağ yəhudiləri icmasının həyat mənzərəsini özündə əks etdirməklə yanaşı, daim Azərbaycan-İsrail, Azərbaycan-Rusiya dövlətləri arasında dostluq münasibətlərinin inkişafından, sosial-iqtisadi, mədəni əlaqələrdən bəhs edən yazılar təqdim edir.

“Facebook”da (facebook.com/www.yahudi.az) yəhudilərin “Azərbaycan Yəhudiləri-Beyt David” adlı səhifələri mövcuddur. Onlar sosial şəbəkənin bu imkanından istifadə edərək müxtəlif səpkili məlumatları orada yayımlayırlar. Bu səhifənin 3 mindən çox izləyicisi vardır. Səhifədə Yəhudi cəmiyyəti, yəhudilərin Azərbaycanda yaşayışı, fəaliyyəti, onların ölkədə baş verən hadisə və proseslərə verdikləri reaksiya haqda müxtəlif məlumatlar yerləşdirilir. Məsələn, Xocalı soyqırımı ilə bağlı keçirdikləri aksiyadan ətraflı məlumat və videogörüntülər yerləşdiriblər. Əlavə olaraq, burada Azərbaycan-İsrail və Türkiyə-İsrail münasibətləri haqda xəbərlər və müxtəlif məlumatlar yayımlanır. Yəhudi millətinin tarixi, mədəniyyəti və əldə etdikləri nailiyyətlərə bu səhifədə geniş yer verilir.

Gürcü icmasının rəhbəri Rafael Qvaladze ilə söhbətdə (müəl.–N.N.) aydın oldu ki, Azərbaycanda yaşayan gürcü icmasının heç bir müstəqil media vasitəsi yoxdur. Azərbaycan radiosunda gürcü dilində yayımlanan verilişdə icmanın və ölkədə yaşayan gürcülərin fəaliyyəti ilə bağlı müxtəlif informasiyalar verilir.

İngiloy icmasının rəhbəri Sevinc Bulacova bizimlə (müəl. – N.N.) söhbətdə bildirdi ki, Azərbaycanda yaşayan ingiloy icmasının da heç bir media vasitəsi yoxdur. İcma rəsmisi belə bir fikirdədir ki, Zaqatalada azsaylı xalqlar çoxdur və bu səbəbdən də onların hər biri mətbuat orqanı yaratsa, o zaman xaotik situasiya hökm sürər; baş verən hadisələr fərqli şəkildə əhaliyə çatdırılar, nəticədə bu Zaqatalada mənfi hal yarada bilər. Ümumilikdə isə Azərbaycanda hər hansı bir azsaylı xalqın media orqanı təsis etməsində problem yoxdur.

Respublika “Tunqantel” Tatar Mədəniyyət Cəmiyyətinin rəhbəri Gülcan Myasutova ilə söhbətdə (müəl. – N.N.) məlum oldu ki, tatar icmasının da fəaliyyətdə olan hər hansı bir media orqanı yoxdur. Maliyyə çatışmazlığı səbəbindən tatarlar qəzet, jurnal və ya sayt təsis edə bilməyiblər.

Tatların heç bir mətbu orqanı olmasa da, Facebook sosial şəbəkəsində “Tatlar” adlı səhifəsi var. Səhifədə tat, Azərbaycan, ingilis və rus dillərində məlumatlar və xəbərlər paylaşılır. Səhifə 5513 dəfə bəyənilib.

Burada sosial və siyasi yönümlü foto və video materiallar, eyni zamanda, tatların gündəlik həyatını əks etdirən məlumatlar və beynəlxalq xəbərlər paylaşılır.

Qeyd edək ki, 01 sentyabr, 2019-cu il tarixdən "Kamillik" Vətəndaşların Hüquqi Maarifləndirilməsi İctimai Birliyinin Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə həyata keçirdiyi "İnformasiya texnologiyalarından səmərəli istifadə etməklə mədəni müxtəlifliyin təbliği" layihəsi çərçivəsində Multikultural Azərbaycan (multikultural.az) internet resursu fəaliyyətə başlayıb. "Multikultural Azərbaycan" (multikultural.az) internet resursu ölkədə yaşayan bütün xalqlara bərbər imkanlar yaradır, mədəni müxtəlifliyi təbliğ edir. Eyni zamanda müxtəlif mədəni qrupların dilləri, mədəniyyətləri, məişətlərinin qorunmasında dövlətin gördüyü işləri ictimailəşdiriri. Multikultural.az internet resursu həm də Azərbaycanın çoxmillətli ailəsində birgə həyat və fəaliyyətin inkişaf etdirilməsinə çalışır. "Multikultural Azərbaycan" (multikultural.az) internet resursu Azərbaycan, rus və ingilis dillərindədir. (14)

Əlbəttə, multikultural media müxtəlifliyinin fəlsəfəsi dəqiq, obyektiv xəbər verərək azad düşüncəni ifadə etməklə ictimai maraqlara xidmət göstərməkdən ibarətdir. Ümumiləşdirmə aparsaq, həqiqətlərin olduğu kimi milli toplumlara çatdırılması əsasdır ki, bu missiyanı da onların mətbuat orqanları yerinə yetirir. Fikrin hansı səviyyədə formalaşması mətbuatın öz funksiyasını hansı səviyyədə yerinə yetirməsindən daha çox asılıdır. Obyektivlik, qərəzsizlik və dövlətçilik prinsiplərinin qorunduğu halda hansısa yanlış, mənfi fikir yaradan məlumatdan danışmaq mümkünsüzdür. Günümüzün əsas çağırışlarından birinin informasiya təhlükəsizliyinin təmin edilməsi olduğunu da nəzərə alsaq, yazılı və elektron KİV-lərlə sosial media arasında rəqabətin artdığı çağdaş dövrümüzdə jurnalistikanın inkişaf problemləri ilə yanaşı, hər dövlətin milli təhlükəsizliyi ilə eyni səviyyədə dəyərləndirilən, ictimai rəyin formalaşdırılmasında başlıca aparıcı rola malik informasiya təhlükəsizliyinin qorunması bütünlükdə cəmiyyətin, insanların vətəndaşlıq borcu olmalıdır.

Diqqət yetirilən digər sahə isə müasir jurnalistikaya ciddi təsir göstərən sosial şəbəkələrdə yerləşdirilən informasiyaların ölkəmizdə yaşayan milli azlıqlar arasında əməkdaşlığın genişləndirilməsindəki rolunu və əhəmiyyətini düzgün dərk etmək və məsuliyyətlə yanaşmaqdır. Həyatımızın ayrılmaz parçasına çevrilən, cəmiyyətin hər üzvünü hadisələr haqqında məlumatlandıran internetin ictimai rəyin formalaşdırılmasındakı rolu böyükdür. Əsas məsələ isə internetdən istifadə zamanı informasiya məsuliyyətini əsas tutaraq, məlumatların ictimaiyyətə çatdırılmasında, auditoriyanın formalaşdırılmasında peşəkarlığı artırmaqdır.

**Açar sözlər:** *Multikultural media, Tolerantlıq, Ruslar, Avarlar, Tatlar, Tatarlar, Ahıska türkləri, Talışlar, Ləzgilər, İngiloylar, Yəhudilər, Udilər.*

**İstifadə olunan mənbələr:**


1. *http://kivdf.gov.az/menu/151/Konsepsiya/*
2. *Samurpress.net*
3. *http://www.gusarpress.com/*
4. *http://www.alamjurnal.az*
5. *http://www.udi.az*
6. *http://www.udi-ocag.az/az/*
7. *http://www.ahiska.az/*
8. *http://www.roa.az*
9. *http://www.polonia-baku.org*
10. *http://www.avestatalysh.worldpress.com*
11. *http://www.avarulia.worldpress.com*
12. *http://www.shahdagpeoples.az*
13. *http://www.stmegi.com*
14. *http://multikultural.az/az/about/*


**SUMMARY**

The article provides information on press agencies created by various nations residing in Azerbaijan during the years of independence. At the same time, the state's care and its work carried out in this direction are investigated.

**Key words:** *Multicultural media, Tolerance, Ahiska Turks, Georgians, Girizs, Lezgins, Russians, Talushes, Jews, Ingiloys.*

**РЕЗЮМЕ**

В статье дается информация о печатных органах, созданных в годы независимости некоторыми различными народами, проживающими в Азербайджане. Одновременно исследовались дела и оказанное в этом направлении внимание государства.

**Ключевые слова:** *Мультикультуральная медиа, Толерантность, Ахахцы, Ахыскинские турки, Грузины, Ингилойцы, Курды, Крызы, Русские, Талыши, Татары, Таты, Удины, Евреи.*

UOT 1(091)

# Fəlsəfə

# YASPERS FƏLSƏFƏSİNDƏ ÜNSİYYƏT EKZİSTENSİYA KİMİ

**AYNURƏ ƏHMƏDOVA**
*Bakı Slavyan Universitetinin müəllimi, doktorant*

*E-mail: a_akhmedova@mail.ru*

Cəmiyyətdə yaranan problemlərin həlli üçün insanlararası ünsiyyətin inkişafını öyrənmək vacib amillərdən biridir. Bunun üçün Yaspersin ünsiyyət konsepsiyasını araşdırmaq məqsədəyönəlmiş addımdır. Yaspersin ünsiyyət təlimi cəmiyyətdə yayılan ruhsuz, cansız ünsiyyətə qarşı yönəlmişdir.

Qərb fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri olan Karl Yaspers (1883-1969) XX əsr fəlsəfəsinin inkişafında özünəməxsus yer tutur. Qərbdə XX əsr fəlsəfəsinin ən geniş yayılmış təlimlərindən biri olan ekzistensializm fəlsəfəsinin təşəkkülü və inkişafı məhz Yaspersin adı ilə bağlıdır Bu bir danılmaz faktdır ki, ekzistensializmin rolunun yüksəlməsində, onun bu qədər genişlənməsində Yaspersin rolu müstəsnadır. Karl Yaspers insan, onun mövcudluğu, dünyada yeri və rolu məsələlərinə yeni nəfəs, yeni məzmun gətirmişdir: filosof ekzistensiyanı ünsiyyətdən hasil edirdi. Bu o deməkdir ki, Yaspers insan mövcudluğunu ünsiyyətdə görürdü. Məhz buna görə də onun fəlsəfəsinin mərkəzi problemi ünsiyyət idi. O, fəlsəfənin predmetini ancaq ünsiyyətdə görürdü. Kommunikasiya problemlərini ilk əhatəli işləyən Yaspers əslində daim həqiqət axtarışında idi. Bu axtarışda o, ünsiyyəti tapmış, ünsiyyət problemini öyrənməyin nə qədər vacibliyini anlamışdır. Ünsiyyətin insan həyatı üçün, bütövlükdə götürdükdə isə bütün bəşəriyyət üçün müstəsna əhəmiyyətini başa düşən filosof bu problemi bütöv bir fəlsəfi sistem kimi işləmiş və bununla da böyük bir kəşfə imza atmışdır [ 4, 67]. İnsanlığın gələcəyi barədə düşünən Yaspersin fikrincə, bütün bəşəriyyət təhlükə qarşısındadır. “AFR hara gedir?” əsərində bəşəriyyətin taleyi barədə ümidsizliyə qapılan filosof düşünür ki, Avropa insanı böhran keçirir [4,72], insanlıq məhv olur. Yaspersə görə bütün bəlaların əsasında insanlar arasında ünsiyyət qaydalarının pozulması durur. Cəmiyyətdə nevroz xəstələrinin çoxalması, özgələşmənin artması, intiharların sayının artmasının həyəcan təbili çalmağa səbəb olması, insanların düzgün, həqiqi ünsiyyət qurmamalarından qaynaqlanır. Bu da ilk olaraq ünsiyyətsizlikdən başlayır. Ünsiyyətsizliyin ümumbəşəri bəla [4,68] olduğunu vurğulayan Yaspers bu sosial problemin həlli üçün bütün yaradıcılığı boyu müalicə üsulu hazırlamaq axtarışında olmuşdur.

K.Yaspers öz fəlsəfəsini hər kəsə aid olan, bütün insanlığın problemi – ünsiyyət probleminə həsr etmişdir. O, cəmiyyəti, insanları yalnız filosof, tarixçi, siyasətçi kimi deyil, həm də psixiatr kimi müşahidə edirdi. Yaspersin bu cür bilik imkanları fəlsəfədə insan problemini orijinal şəkildə işləməsinə kömək oldu. O, həmçinin insanları birləşdirəcək, qarşılıqlı anlaşmanı təmin edəcək “həqiqi ünsiyyət” konsepsiyasını da bu biliklərdən çıxış edərək yaratmışdır. Filosofun həqiqi ünsiyyət konsepsiyası onun sosial-siyasi görüşləri, dini, tarixi, mədəni baxışları ilə bağlıdır. Həqiqi ünsiyyət konsepsiyası Yaspers fəlsəfəsinin əsasını təşkil edir. Onun təliminin müxtəlifliyi ondan ibarətdir ki, bu təlimi yaratmaqla Yaspersin məqsədi insan mövcudluğunun yollarını müəyyənləşdirmək və onun həqiqi varlığını – şəxsiyyətinin əsasını təşkil edən ekzistensiyanı tapmaqdır. Yaspersə görə həqiqi ünsiyyət insanların səviyyələrini, onların özünəməxsus xüsusiyyətlərini inkişaf etdirir, insanların fərdiləşməsinə və mənəvi inkişafına kömək edir. Bu ünsiyyət insanın öz varlığını tam dərk etməsini, insanın özünü şəxsiyyət kimi tanımasını hər kəsdən tələb edir. Yaspersə görə həqiqi ünsiyyət elə bir mühitdir ki, insanların ruhən birləşməsinə, bir-birinə dərindən bağlanmasına

səbəb olur. O qeyd edirdi ki, insan sosial həyatdan asılıdır. İnsanların həyatı sosial mühitsiz mümkün deyil. İnsan həyatı vəfasızlıqla, xəyanətlə əhatələnmişdir. Filosof bildirir ki, bütün həyatını ədalətə həsr edən, cəmiyyətə fayda verən bir insan toplumun xəyanəti ilə üzləşə bilər. Həmçinin ömrünü dövlətin rifahına xidmətdə keçirən insanı bir gün dövlət çox asanlıqla məhv edər. O, yazırdı: "Yalnız ekzistensial kommunikasiyada insan vəfasına etibar etmək olar" [1.627]. Yaspers bu zaman yenə bədbinliyə qapılır, insan həyatının xəyanətdən yan keçəcəyinin mümkünsüzlüyünü deyirdi. Bunun səbəbini isə insanın obyektiv varlıq olmamasında görürdü. Həmçinin o qeyd edirdi ki, insan varlığı fanidir, insana mütləq mənada etibar etmək olmaz.

K. Yaspersin fəlsəfəsində "əhataedən" kateqoriyası özünəməxsus yer tutur. Əhataedən kateqoriyası ilk dəfə fəlsəfəyə gətirən filosof bu termini fövqəllik anlamında işlədir. "Əhataedən" həm insanın daxilindədir, həm də ondan kənardadır. O, heç nə etmir, amma hər bir hadisə onun sayəsində baş verir. O görünmür, lakin hər şeyi əhatə edir. "Əhataedən həm öz-özünə dünyadır, həm də bizik". Yaspers qeyd edir ki, ünsiyyət təkcə fərdlər arasında deyil, həmçinin "əhataedənlə" insan arasında baş verir. O göstərirdi ki, biz hər bir şeyi obyekt və subyekt olmaqla iki kateqoriyaya bölürük, əslində isə obyekt, və subyektlə yanaşı üçüncü nə isə var. Bu üçüncünü anlamaq üçün Yaspersin təqdim etdiyi sxemi özünün dediyi kimi [1,590] başa düşmək lazımdır. Onun yaratdığı "əhataedən" ya biz də daxil olmaqla hər şeyi əhatə edən özlüyündə varlıq, ya da biz özümüz olan varlıqdır. Özlüyündə varlıq - dünya və transsendensiya adlanır. Özlüyündə varlıq bizi, həmçinin biz olmasaq da hər şeyi əhatə edən varlıqdır. Yaspers dünyanı predmet yox, ideya kimi təsəvvür edir. Transsendensiya dünya deyil, o, dünyadakı varlıqlarla ünsiyyətdə olur. Transsendensiya predmet kimi gözlə görünmür, biz onu görmürük, eşitmirik, amma o, bizimlə danışır. Biz əgər ondan imtina etsək, əşyavi dünyada dustaq olarıq – özümüzü və digər predmetləri yalnız əşya kimi qavrayarıq. Transsendensiya görünməsə də hər tərəfdən bizi əhatə edir.

Biz: 1) özümüz olan varlıq; 2) ümumiyyətlə şüur; 3) ruh və ekzistensiyadır.

- Biz gerçək varlığıq. Deməli, hər bir insanın özündən başqa insanın həyatı, yaşantısı, fizioloji quruluşu, dili, əməlləri gerçək varlıqdır.

- Ümumiyyətlə şüur hər şeyin insan beynində inikasıdır. Şüurumuza daxil olan hər şey var olandır, artıq bizim üçün varlıqdır. Ümumiyyətlə şüur yeni biliklərin əldə olunması, görmədiyimiz predmetlərin və hadisələrin təsəvvür edilməsidir.

- Biz həmçinin ruhuq. İnsanın ruhi həyatı ideyaların, fikirlərin həyatıdır. Ruhi həyatda insanın özü və dünya barədə fikirləri, həyatın mənasına dair, həmçinin praktik ideyaları, sevgi və nifrət kimi hissləri öz əksini tapır. Ruhi həyat əşyavi deyil, biz onu əşya etmək üçün sxem, işarə və obrazlar üzərinə köçürə bilərik.

- Ekzistensiya kimi biz gerçək varlıqdan kənarda, həmçinin ümumiyyətlə şüurdan və ruhdan uzaqda yaşayırıq. İnsanın ekzistensial mahiyyəti onun özünə qarşı duyduğu hisslərində, bitməyən arzu və istəklərində, əbədiyyətə can atmasında görünür.

K.Yaspersin fikrincə, insanın daxilində bir bədbinlik hissi var. Çünki o, daim öz nəğd, gerçək varlığına, öz biliyinə, öz mənəvi dünyasına hansısa bir uyğunsuzluq hissi keçirir [1,593]. Yaspersin fikrincə, insan tək olarsa ən əlverişli vəziyyətdə belə onun müvəffəqiyyət qazanması məhdudiyyətlidir. Ünsiyyət nəinki "Mən" və "Digərləri" arasında, həmçinin transsendensiya vasitəsilə həyata keçirilir. Yaspersin fikrincə insan özünü başqa bir insanla ünsiyyətdə dərk edə bilər. Bu zaman yaranan "kommunikasiya həqiqətin zamanda açılması olur" [1,614]. Ünsiyyət insanın kimliyini, məqsəd və niyyətlərinin nə olduğunu müəyyənləşdirir. Yaspersin təbirincə, ünsiyyət "insanı gerçəklik qədər həyəcanlandırır" [1,614]. Filosofun fikrincə, ünsiyyət quran insanlar bir-biri üçün var olmanın təminatıdır.

İnsanın dili onun emosiyaları ilə əlaqədardır. Yəni insan şadlanarsa, o zaman daha çox danışar, kədərli zamanında isə sükuta qərq olar. Ən çox dəyərli hesab etdiyi arzusu həyata keçməyəndə də insan sükutu seçir və bununla da onun üçün heç bir şeyin o qədər də önəmi olmadığını göstərir. Sükut insanın heç nə istəmədiyini, heç bir şey arzulamadığını bildirir.

İnsan həyatında texnikanın mühüm rolunun olduğunu deyən filosof texnikaya belə bir tərif verirdi: texnika bilikli insanın təbiət üzərində ağalığına yönəlmiş hərəkətlərinin məcmusudur. Texnikanın məqsədi insanın ehtiyacı olduğu mühiti yaratmaqdır. "Tarixin mənası və təyinatı" əsərində o, bildirir ki, tarixi inkişafın əsas amili – insanın texnikanı öz məqsədləri üçün necə istifadə etməsi, texnikanın insana və təbiətə təsiri, yəni texnika nəticəsində insanın və təbiətin dəyişməsidir. İnsan amilinin, insanlararası münasibətlərin önəmli faktor olmasını bütün ciddiyyəti ilə müasir texnika aşkar etmişdir. Daim inkişaf edən və yenilənən müasir texnika insan-təbiət münasibətlərində dəyişiklik etdi. Əvvəllər təbiətin tam ağası olan insan indi təbiətin əsirinə çevrilir. İnsanın özü yaratdığı ikinci təbiətində boğulması təhlükəsi yaranır [4,158-159].

K.Yaspersin fikrincə indi insan texnikanı deyil, texnika insanı idarə edir. Onun bənzətməsinə görə texnika yer kürəsini böyük bir fabrikə çevirmişdir. Bu fabrikdə işləyən, texnikanın əsirinə çevrilmiş insanlar bir robot və ya hansısa bir mexanizmdir, çünki onun funksiyaları texnika tərəfindən planlaşdırılmışdır. Artıq insan faydalı funksiyalar yerinə yetirmək qabiliyyətinə endirilmiş robota çevrilmişdir. Ünsiyyət fəaliyyətini hansısa texniki mexanizmin hərəkətinə [4,159] bənzədir. Burada insan hissləri, arzuları olmayan bir robotla eynidir. Bir robot kimi düşünmədən, öz fərdiliyini qorumadan kütlənin bir hissəsi və ya maşının bir detalıdır. Perspektivləri barədə düşünməyən, xəyalları belə olmayan insan özü-özündən özgələşir. Daim özündən narazılıq, texnika vasitəsilə vəd edilən illuzor "həqiqətlərin əsirliyində" qalan insan özündən belə imtina edir. Özündən narazı olan insan daxilində gərginlik, münaqişə yaşayır. Məhz buna görə də o, həmişə maska gəzdirir və onun maskası ünsiyyətdə olduğu insanlardan asılı olaraq dəyişir. Bu isə insanın səmimilikdən uzaqlaşmasına, digərləri ilə münasibətdə qeyri-həqiqi, "yalan ünsiyyət" qurmasına gətirib çıxarır. İnsanlararası səmimiyyətin itməsi cəmiyyət üçün bir çox bəlalara yol açır. Yaspersin bu fikirləri özünəməxsus həqiqətə malikdir. Belə ki, intihar hadisələri, cəmiyyətlərdə yaranan insanlararası neqativ münasibətlər, konfliktlər, ailə dəyərlərinin dağılması, əxlaq meyarlarının dəyişməsi prosesi daha da çoxalır.

K.Yaspersin fikrincə, texnikanın hökmranlığı cansız varlıq üzərində olmalıdır. Canlı varlıq onun hakimiyyəti altına düşərsə, o, şüurlu mexanizmdən başqa bir şey deyildir. Filosofa görə insanlar texnikadan daha çox şey gözləyirlər. Lakin təbii olan şeylərin texnikadan asılı hala düşməsi ağlasığmazdır. Çünki tərbiyəni, kommunikasiya proseslərini texniki qaydalarla idarə etmək mümkün deyil. Texnika insanları yaxınlaşdırsa da, onun həyatını rahatlaşdırsa da onun azadlığını əlindən almışdır. Texnikanın köləsi olan insan, Yaspersə görə sosium daxilində azaddır. O, azadlığı kommunikasiyadan əldə edirdi. İnsan azadlığı sosial mühitdən kənarda insana məxsus olmur. O, nə isə başqa bir şeydir - deyən Yaspers azadlıq əldə etmək üçün iki mühüm tələbə əməl etməyi vacib sayırdı: birincisi, tək-tək insanlararası kommunikasiyanın dərinliyi – bu, Yaspersin ünsiyyətin növü kimi ayırdığı orijinal ünsiyyətə uyğun gəlir. İkincisi isə, ictimai şəraitin azadlığı naminə insanların şüurlu fəaliyyətidir [1,234].

Bir tərəfdən istehsalda insan əməyinin minimuma endirilməsi də, digər tərəfdən istehsalın tör-töküntüsünü yığışdırmaq, maşınların texnikanın təmirini, ona nəzarətin həyata keçirilməsi üçün yenidən insan əməyinə ehtiyac duyulur. İnsan vəzifəsi dəyişmiş halda istehsalın bir hissəsini təşkil edir. Onsuz istehsal qeyri-mümkündür. İnsan həyatı üçün "önəmlilik" daşıyan bu vəzifə üçün isə o, evini, vətənini tərk edir. Keçmişini, adət-ənənələrini unudur. Texnika insanın həyatını elə ağuşuna alır ki, o dincəlmək bilmədən texnikaya xidmət edir. Belə şəraitdə insan özü ilə yorğun ruh daşıyır. Yaspers haqlı olaraq bildirirdi ki, yorğunluq halında yalnız instinktlər, həmçinin əyləncə və sensasiya tələbatı fəaliyyət göstərir [1,177]. İnsanların azadlığı bir-birindən asılıdır. Hər bir cəmiyyət daxilində fəaliyyət göstərən fərdin azadlığı digərlərinin azadlığı ilə sıx bağlıdır. Bu zaman isə azadlığın bütün növləri tam reallaşa bilməz. Məsələn, siyasi azadlığın mümkünlüyünü Yaspers utopiya hesab edirdi. Ümumiyyətlə, Yaspersin fikrincə, tamamilə azadlıq qeyri-mümkündür. O hesab edir ki, azadlıq təfəkkürdə baş

verir. Azadlığı zorla yaratmaq olmaz. Onu azad insanlarla ünsiyyət gedişində əldə etmək olar. Ünsiyyətin xarakteri ilə insanın azadlığı əlaqəlidir. Səmimi, qəlbən qurulan ünsiyyət zamanı insan azadlığa qovuşa bilər. Yaspers azadlığı tam anlamıyla həqiqət anlayışından asılı edirdi. O göstərirdi ki, insan o zaman həqiqətə çata bilər ki, onun ünsiyyəti tamamilə səmimi olsun. İnsan ünsiyyətdə səmimiyyət vasitəsilə azadlığa qovuşa bilərsə, deməli, həqiqəti tapan insan azadlığa qovuşmuş insandır. Karl Yaspersin fikrincə, qanunlara söykənən dövlət quruluşu, xüsusi qaydalarla idarə olunan cəmiyyətlər azadlığa təminat vermir. Burada münasibətlər əsasən formallıqdan ibarətdir. Formal münasibətlərin olduğu yerdə isə insan azadlıqdan məhrum yaşayır, səmimi olmur, daim axtarışında olduğu həqiqəti tapa bilmir, özünü tənha, bədbəxt, miskin hesab edir. İnsanın azadlığı onun tərbiyəsindən başlayır. Burada insanın özünütərbiyəsi başlıca şərtdir. Özünütərbiyə isə insan vicdanının aliliyindən xəbər verir. Yaspersin fikrincə ünsiyyət zamanı yaranan özünütərbiyə azadlığın ən etibarlı təminatçısıdır. Burada o, insanlararası səmimi münasibət zamanı yaranan qarşılıqlı anlamanı və heç bir şərt qoyulmadan, qadağa olmadan bir-birinin haqqını qorumanı azadlığın şərtlərindən hesab edir.

K.Yaspersin ideya mənbəyi Kirqekor olmuşdur. Kirkeqorda Yaspers özü üçün ruhi təskinlik tapırdı. Onu daha çox cəlb edən isə o idi ki, Kirqekor insanın “bataqlıqdan”, sıxıntılardan çıxış yolunu Allaha qovuşmaqda, Onunla ünsiyyətdə görürdü. Həyatın mənası haqqında düşüncələrində də birmənalı olaraq o, ünsiyyət vasitəsilə Allaha sığınmanın vacibliyini vurğulayırdı. Yaspers Kirkeqorun fikirlərini, ideyalarını tamamilə qəbul etmişdi. Kirkeqor kimi Yaspers də obyektiv gerçəkliyin mütləqliyi ideyasını rədd edirdi və həyatda hər şeyin dəyişkən olduğunu, əbədi, sabit heç bir şeyin olmadığını irəli sürürdü. Ona görə də gerçəklikdəki predmet və hadisələr inamsızlıq yaradır, həyatdakı hər şey şübhəlidir. İnsan yalnız o zaman təskinlik tapar ki, o, özünə, öz daxili aləminə baş vursun. Bu zaman o, Allahla ünsiyyətə girər, varlığın, mövcudatın mənbəyini tapar, həyatın mənası barədə düzgün qərara gələ bilər. Insan ruhu yalnız Allahla ünsiyyətdə dinclik, rahatlıq qazanar. Yaspers mövcudluğun, varlığın sirrini məhz onda görürdü. Özünün də etiraf etdiyi kimi, onun fəlsəfəsinin əsas ideya mənbəyi xristianlıq idi. Yaspers görüşlərinin xristianlıqdan qaynaqlanması ilə fəxr edirdi [9,76]. Yaspers belə bir ideya irəli sürürdü ki, hər şeyin əsasında inam durur. Burada söhbət yalnız Allaha inamdan gedir. “İnam həyatdır, inamsız yaşamaq mümkün deyil” fikirləri Yaspersə məxsusdur. İnam irrasionalizmə əsaslanır. Xatırlamaq yerinə düşər ki, ekzistensializm fəlsəfəsi irrasionalist təlimdir [4,96]. Yaspers öz təliminə sadiq qalaraq bildirirdi ki, insan zəkası üçün hər şeyin dərk edilməsi mümkünsüzdür. Bununla yanaşı o, ifrat irrasionalizmə də meyl etmirdi. Filosof zəkanın insan həyatında əhəmiyyətli rolundan danışaraq qeyd edirdi ki, insan məhz zəkası vasitəsilə dünyada baş verən hadisə və prosesləri dərk edə bilər. “Həqiqətin mənbələri kommunikasiyadadır” deyən filosof Allaha inamda insanlardan uzaqlaşıb adını həqiqət axtarmaq qoyaraq tənhalığa meyl edən insanları tənqid edirdi. Onun fikrincə bu hərəkətlərin özündə bir “sevgisizlik” [1,615] var. İnam irrasionalizmə əsaslandığı kimi insan zəkası da rasionalizmə əsaslanır. Lakin zəka və inamın bir-birindən əks qütblərdə yerləşməsinə baxmayaraq onlar arasında sıx əlaqə olmalıdır. Belə ki, inam zəkaya əsaslanmalıdır. Zəkaya söykənməyən inam cahillikdən uzağa getmir. İnam olmadan qazanılan biliklər isə insana və həmçinin cəmiyyətə xeyir verməz. Zəkaya, şüura əsaslanan inamı Yaspers fəlsəfi inam adlandırır. Fəlsəfi inam daim həqiqətə can atır. K.Yaspers bildirir ki, şüurun mövcudluğu cəmiyyəti, dövləti, əxlaqı, mədəniyyəti, ən əsası isə kommunikasiyanı şərtləndirir. O, yazır: “Zəka sonsuz kommunikasiya tələb edir, o, özü kommunikasiyaya istiqamətlənən total iradədir” Zəka insanı dolaşıqlıqdan çıxarır, beyni aydınlandırır, “mürgüləyən mənbələri oyandırır” [1,614]. Zəkalı insan həqiqəti dərk edir, daim şəffaflığa, açıqlığa meyl edir. Yaspersin fikrincə, həmçinin zəkalı insan “bütün mövcudata” [yenə orada] məhəbbət bəsləyir. Onun qəlbi genişdir və sevgiyə açıqdır. Zəkalı varlıq dəyişməyə meyllidir. Bu o deməkdir ki, zəkalı və inamlı insan biliyini sabit bilmir, daim zənginləşdirir. Zəkalı, bilikli insan hər zaman kommunikasiyaya hazırdır. K.Yaspers qeyd

edir ki, bir filosof zəkanı nə qədər tərifləsə də, yenə də az olacaq. O, yazır: "Zəka əhatəedənin bütün moduslarının rabitəsidir" [yenə orada] bildiyimiz kimi, Yaspers fəlsəfəsində əhatəedən bütün mövcudatı bir nizam və qayda ilə idarə edir.

Karl Yaspers elmə ünsiyyət problemini gətirməklə əslində fəlsəfəyə, həmçinin psixologiyaya yeni nəfəs verdi. O, öz yaradıcılığı ilə sübut etdi ki, ünsiyyət bəşəriyyətin yaranması və inkişafında mühüm amil olmuşdur və həmçinin o, cəmiyyətin bütün sferalarında həlledici amildir. Ünsiyyət ailə münasibətləri, iqtisadiyyat, siyasət, mədəniyyət və beləliklə, cəmiyyət, dövlətin mövcudluğunun başlıca vasitələrindən biridir.

**Açar sözlər:** *ünsiyyət, cəmiyyət, insan mövcudluğu, azadlıq, həqiqət*

**İstifadə olunmuş ədəbiyyat**

*1. Karl Yaspers. Tarixin mənası və təyinatı. Bakı, Zəkioğlu, 2008, 764s.*

*2. İsmayılov F.Q. Seçilmiş əsərləri. 5 cilddə, II cild, Bakı, Oğuz eli, 2011, 664s.*

*3. İsmayılov F.Q. Seçilmiş əsərləri. 5 cilddə, III cild, Bakı, Oğuz eli, 2011, 576s.*

*4. Rüstəmov E. Karl Yaspers və fəlsəfədə ünsiyyət problemi. Bakı, 2015, 232s.*

*5. Qunnar Skirbekk Nils Gilye. Fəlsəfə tarixi. Bakı, Zəkioğlu, 2007. 750s.*

*6. Ясперс К Введение к философию, в «путь в философию» Антоллогия, Университетская книга, М., Мысль,2001,224с*

*7. Камю А. Бунтующий человек // Камю А. Бунтующий человек. М., Политическая литература. 1990. 349с.*

*8. Совроменная буржуазная философия и религия, М., Политиздать,1977 148с.*

*9. Ясперс К. Введение в философию. / К. Ясперс. Минск: ЕГУ Пропилеи, 2000.-с.452*

**Айнура Анвер кызы Ахмедова**

**Общения как форма экзистенции в философия Ясперса**

**РЕЗЮМЕ**

Статья посвящено философии общения Карла Ясперса. В статье внимания удалено на важность коммуникации в жизни человека и общество. В статье показано, что общение - это форма человеческого существования, другими словами, экзистенция. Человек во время общения воспринимает свою существование, самое главное, самому себе и принимает существование других. В статье также представлено взгляды философа о свободы, про интеллекта, трансенденции, разума, истине и показано их взаимоотношения. В статье отражено что отмечая роль технологии в обществе философ доказывает что она как влияет на общение.

**Ключевые слова:** *Общение, общество, существование, свобода, истина.*

**Aynura Anvar Ahmadova**

**Communication as a form existence the philosophy of Jaspers**

**SUMMARY**

The article focuses on the concept of communication by Karl Jaspers. It is pointed out that Jaspers speaks of the importance of communication for human and community life, and draws attention to the fact that the poor communication is the most harmful factor. It is noted that communication is the manifestation of human existence. A person during communication perceives his existence, most importantly, himself and accepts the existence of others. The article also gives the thoughts of philosopher on freedom, intelligence, transference, truth, and their interaction with each other. The article reflects that noting the role of technology in society, the philosopher proves it influences communication.

**Key words:** *Communications,society, existence, independence, truth.*

# MÜNDƏRİCAT

## SİYASƏT

ƏLİ HƏSƏNOV: HEYDƏR ƏLİYEV - YENİ MİLLİ İNTİBAHIN VƏ MÜSTƏQİL DÖVLƏTÇİLİYİN ƏSASINI QOYMUŞ TARİXİ ŞƏXSİYYƏT............................................ 5

ELÇİN ƏHMƏDOV: AZƏRBAYCANIN DİNAMİK İNKİŞAFI: QAZANILAN UĞURLAR VƏ NAİLİYYƏTLƏR (2003-2019)............................................................................. 13

MÜRTƏZA HƏSƏNOV, FAİL TAĞIZADƏ: DÖVLƏT ORQANLARINDA İCTİMAYYƏTLƏ ƏLAQƏLƏRİN TƏŞKİLİ VƏ İDARƏ EDİLMƏSİ................................. 21

XALİD NİYAZOV: İNFORMASİYA SİYASƏTİ İCTİMAİ RƏYİN FORMALAŞDIRILMASI KONTEKSTİNDƏ........................................................................ 26

FƏRİDƏ ƏLİRZAYEVA: DÖVLƏT İDARƏÇİLİYİNDƏ İNNOVATİV İNKİŞAF MEXANİZMLƏRİNİN TƏTBİQİ: DÜNYA TƏCRÜBƏSİNİN POLİTOLOJİ TƏHLİLİ........ 32

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

GÜLARƏ BAĞIROVA: AZƏRBAYCAN-TÜRKİYƏ HƏRBİ ƏMƏKDAŞLIĞININ İNKİŞAF DİNAMİKASI.............................................................................................. 37

НИГЯР БАЙРАМОВА: АКТУАЛЬНЫЕ ПРОБЛЕМЫ АНАЛИЗА ГЕОПОЛИТИЧЕСКИХ ИНТЕРЕСОВ В УСЛОВИЯХ ПОСТБИПОЛЯРНОСТИ.............. 44

ÖMÜR KERİM İŞIK: ENERJİ TƏHLÜKƏSİZLİYİ SAHƏSİNDƏ AZƏRBAYCAN - TÜRKİYƏ ƏMƏKDAŞLIĞINI ŞƏRTLƏNDİRƏN ZƏRURİ AMİLLƏR............................... 49

TƏRLAN ORUCOVA: AVROPADA RADİKAL PARTİYALARIN YÜKSƏLİŞİ VƏ MİQRANT BÖHRANI.................................................................................................... 53

SƏLİMƏ QULİYEVA: XX ƏSRİN SONU-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN RESPUBLİKASI İLƏ FRANSA RESPUBLİKASI ARASINDA MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ.................................................................... 57

İLYAS HÜSEYNOV: AZƏRBAYCAN VƏ YUNANISTAN ARASINDA TURİZM SAHƏSİNDƏ QARŞILIQLI ƏMƏKDAŞLIĞIN BƏZİ ASPEKTLƏRİ.............................. 63

## İQTİSADİYYAT

ŞƏFA ƏLİYEV: SUMQAYITIN SƏNAYE MƏRKƏZİ KİMİ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN TARİXİ XİDMƏTLƏRİ............................................................................. 68

ŞƏLALƏ MƏMMƏDOVA: SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İSTEHSALIN STRATEJİ PLANLAŞDIRILMASININ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.......................... 73

НИГЯР РАГИМОВА: ВОПРОСЫ ВЗАИМОДЕЯТЕЛЬНОСТИ ФАРМАЦЕВТИЧЕСКОЙ ОТРАСЛИ И ЧАСТНОЙ СИСТЕМЫ ЗДРАВООХРАНЕНИЯ В АЗЕРБАЙДЖАНЕ.............. 78

İLQAR GÜLMƏMMƏDOV: STRATEJİ YOL XƏRİTƏLƏRİNƏ UYĞUN OLARAQ SƏNAYE PARKLARINDA İQTİSADİ ARTIM MƏSƏLƏLƏRİ........................................ 83

FARUQ ZİYADOV: QLOBAL MALİYYƏ ÇAĞIRIŞLARI ŞƏRAİTİNDƏ AQRAR-EMAL MÜƏSSİSƏLƏRİNƏ İNVESTİSİYA MÜHİTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNƏ STRATEJİ YANAŞMALAR................................................ 88

RƏŞAD QARAYEV: KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA BİZNES MÜHİTİNİN YAXŞILAŞDIRILMASININ STRATEJİ ƏHƏMİYYƏTİ.................................. 93

## TARİX

XƏLİLZADƏ ARZU: HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN KP MK-nın BİRİNCİ KATİBİ SEÇİLMƏSİ.1969-CU İL 14-İYUL PLENUMU........................................................... 98

İBRAHİM ƏLİYEV: DÜNYA SOSİALİZM DÜŞƏRGƏSİNİN İFLASINDA ŞƏRQİ VƏ MƏRKƏZİ AVROPANIN SOSİALİST DÖVLƏTLƏRİNİN YERİ VƏ ROLU HAQQINDA BƏZİ MÜLAHİZƏLƏR........................................................................................................... 104

ƏDALƏT MUSTAFAYEV: ERMƏNİSTAN-AZƏRBAYCAN DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ VASİTƏÇİ DÖVLƏTLƏRİN ROLU VƏ FƏALİYYƏTİNƏ DAİR...... 111

ƏNVƏR MƏMMƏDOV: 1930-CU İL NUXA-ZAQATALA ÜSYANININ YATIRILMASINDA DÖVLƏT SİYASİ İDARƏSİNİN HİSSƏLƏRİNİN İŞTİRAKI BARƏDƏ.................................. 116

ƏZİM HEYDƏROV: VƏTƏNDAŞ MÜHARİBƏSİ DÖVRÜNDƏ (1917-1922) RUSİYANINCƏNUBİ QAFQAZ SİYASƏTİ................................................................................... 121

KÖNÜL İMAMVERDİYEVA: DƏNİZKƏNARI BULVAR - YÜZ ON YAŞLI İSTİRAHƏT MƏKANI........................................................................................................ 125

İLQAR ABDULLAYEV: ORTA ƏSRLƏRDƏ AZƏRBAYCANIN RUSİYA VƏ AVROPA ÖLKƏLƏRİ İLƏ ƏLAQƏLƏRİ........................................................................................ 129

ШАРИФЗЯНОВА НИГЯР: АЗЕРБАЙДЖАНО-ТАТАРСКИЕ СВЯЗИ В ОБЛАСТИ ПЕЧАТИВ НАЧАЛЕ XX ВЕКА (ДО 1917 Г.)......................................................................... 136

## ETNOQRAFİYA VƏ TARİXİ ANTRAPOLOGİYA

NİYAZ NİFTİYEV: MULTİKULTURAL MEDİA: AZƏRBAYCANDA YAŞAYAN XALQLARIN MƏTBUATI.............................................................................................. 143

## FƏLSƏFƏ

AYNURƏ ƏHMƏDOVA: YASPERS FƏLSƏFƏSİNDƏ ÜNSİYYƏT EKZİSTENSİYA KİMİ.............................................................................................................. 148

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**İman Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzi**
**Tel: (+994 12) 537 16 05**
**Faks: (+994 12) 537 16 05**
**E-poçt:**
**strategiya.az@mail.ru**

**Tiraj: 1000**
**Sifariş № 3419**

**"Azərbaycan Dövlət Nəşriyyatı" 2019**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Iman Huseynov**

**Address of the editorial office:**
**Matbuat ave. 23M. International Press Centre**

**Tel: (+994 12) 537 16 05**
**Fax: (+994 12) 537 16 05**
**E-mail:**
**strategiya.az@mail.ru**

**Number of copies printed: 1000**
**Order № 3419**

**“Azerbaijan State Publishing House” 2019**